**Muqbil ibn Hadi əl-Vadii**

**Ayələrin nazil olma səbəblərindən**

# Səhih Müsnəd

# الصحيح المسند
# من أسباب النزول

**تأليف العلامة المحدث**

**أبي عبدالرحمن مقبل بن هادي الوادعي**

**Tərcümə - Əlixan Musayev**

**Bakı - 2003**

**Tərcüməçi:** **<u>Əlixan Musayev</u>**

İxtisas redaktoru: Mübariz Qarayev

Redaktorlar: Fikrət Allahverdiyev
Əzim Hüseyn

**www.azerislam.com**
**PDFləşdirən: www.kitablar.com**

## Rəhmli, Mərhəmətli Allahın adı ilə!

***« Şübhəsiz ki, Quranı Biz nazil etdik***
***və***
***sözsüz ki, Biz də onu qoruyub***
***saxlayacağıq! »***

***(əl-Hicr, 9)***

## Ön söz

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik, nəfs-

lərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə o, haqq yolunda olar və kimi də azdırsa onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

**«Ey iman gətirmiş kəslər! Allahdan lazımınca qorxun və yalnız müsəlman olduğunuz halda ölün!»**[1]

**«Ey insanlar! Sizi tək bir şəxsdən** [Adəmdən] **xəlq edən, ondan zövcəsini** [Həvvanı] **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!** [Adı ilə] **bir-birinizdən** [cürbəcür şeylər] **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»**[2]

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** [Əgər belə etsəniz] **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar».**[3]

Bizi müsəlman kimi yaradan, düz yola yönəldərək hidayət verən, aləmlərin Rəbbi, haqq-hesab gününün Hökmdarı olan Allaha şükürlər və həmd-sənalar olsun!

Həqiqətən, müsəlman olub Uca Allahın tələb etdiyi şəkildə yaşamaq böyük xöşbəxtlikdir. Şübhəsiz ki, mömin olub

---

[1] [ «Ali İmran» surəsi, 102. ]
[2] [ «ən-Nisa» surəsi, 1. ]
[3] [ «əl-Əhzab» surəsi, 70-71. ]

gələcəyə ümidlə baxmaq ölüm qorxusu ilə yaşamaqdan üstündür. Çünki həqiqi mömin ona verilən vədi heç zaman unutmur, daim Allahın nəzarəti altında olduğunu bilib həyatını xeyirli işlər görməyə sərf edir. Xöşbəxt sonluğu qazanmaq heç də asan deyildir. Bunun üçün Allahın və Onun rəsulunun - **səllallahu aleyhi və səlləm** - bizə bəxş etdiyi əmanətə xəyanət etmədən, ondan lazımınca və buyurulduğu kimi istifadə etmək lazımdır. Uca Allahın bizə bəxş etdiyi əmanət İslam dininin əvəzsiz mənbəyi sayılan Qurandır. Peyğəmbərimizin - **səllallahu aleyhi və səlləm** - bizdə olan əmanəti isə Quranı – Allahın ayələrini izah edən, buyuruqların necə yerinə yetirilməsini anladan sünnədir (səhih hədislərdir). Əlimizdə olan bu kitab məhz bir-birini tamamlayan bu iki əmanətlə bağlı məsələlər barəsindədir. Bildiyimiz kimi Quran ayələrdən ibarətdir. Bəzi ayələrin nazil olması isə müəyyən bir hadisə və səbəblə bağlı olub. Endirilmiş bəzi ayələrdəki hökmlərin, əmrlərin, qadağaların və s. icrasının keyfiyyətinin anlamı bu hadisə və səbəblərin mahiyyətini tam təfsilatı ilə bilməklə bağlıdır. Elə bu səbəbdən də müəllifin əsərini xalqımızı dini maarifləndirmə yolunda çox faydalı mənbə hesab edib onu tərcümə etmək qərarına gəldim.

Dəyərli müsəlman qardaş və bacılarım! Bildiyimiz kimi müqəddəs kitabımız olan Qurani Kərim Uca Allahın bəşəriyyətə nazil etdiyi ən böyük möcüzələrdən biri olmaqla yanaşı, insan yaşamının mənasını da heç bir kitabın ona anlada bilmədiyi halda Adəm övladına izah edən, ona qəlb rahatlığı gətirən, dünya və axirətdə səadətə qovuşduran, ecazkar kəlmələrə malik olan bir mənbədir. Bir kitab həcmində olan bu mənbədə insanı düşündürəcək bütün suallara cavab vardır. Bu kitab yaşadığı yerindən və zamanından asılı olmayaraq tələblərinə

riayət edən insanı işıqlı sonluğa aparıb çıxarır. Quranın ilahi kəlam olmasını sübut edən amillərdən biri də budur. Bu kitabda həqiqətən heç bir şey unudulmamışdır. Bu barədə Uca Allah belə buyurur:

**«Biz Quranı sənə hər şeyi izah etmək üçün,** [müsəlmanlara da] **bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!»** [4]

Quranın ayələri iyirmi üç il ərzində Cəbrailin **- aleyhissəlam -** vasitəsilə endirilərək toplum halına gətirilmişdir. Ayələrin iyirmi üç il ərzində nazil olub bitməsinin hikmətlərindən biri də ondakı buyuruqların icrasını insan üçün asanlaşdırmaq idi. Quranı əlinə alıb oxuyan kəs onun çox maraqlı üslubda olduğunun şahidi olur. Quranın gücünün, ecazının, əzəmətinin daha bir göstəricisi də onun sonuncu səmavi kitab olmasındadır. Təbii ki, yer üzərinə bundan sonra heç bir peyğəmbər göndərilməyəcəyindən heç bir ayə də nazil olmayacaqdır. Bu kitabın möhtəşəmliyinin digər göstəricisi də budur ki, məhz onunla, Adəmdən **- aleyhissəlam –** Məhəmmədə **- səllallahu aleyhi və səlləm -** qədər yaşayıb vəfat etmiş peyğəmbərlərin və elçilərin şəriəti tamamlanır. Uca Allah məhz Qurani Kərimdə bütün peyğəmbərlərin dini olan İslamı (təslim olmağı) kamilləşdirir. Bu barədə Uca Allah belə buyurur:

**«Bu gün dininizi tamamlayıb mükəmməl etdim, sizə olan nemətimi başa çatdırdım və bir din kimi sizə İslamı bəyənib seçdim».**[5]

---

[4] «ən-Nəhl» surəsi, 89.

[5] «əl-Maidə» surəsi, 3.

**«Kim İslamdan başqa bir din ardınca gedərsə,** [o din] **heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!»**[6]

Uca Allah Qurani Kərimdə peyğəmbərləri müsəlman adlandırır. Çünki onların hər biri Allaha təslim olmaqla göndərilmişdilər. Qoy bir qədər məlumatsız oxucumuz bu gün müxtəlif «din» adları ilə rastlaşdığı üçün bu fikrə təccüblənməsin. Əvvəla ona görə ki, bütün peyğəmbərlərin eyni etiqadda olmasını, Tək Allaha ibadət edib bütün başqa inanclardan qaçmasını və Allaha təslim olan kimsələrdən olmasını elə Uca Allah özü Qurani Kərimdə bizə bəyan edir:

**«Biz hər ümmətə: «Allaha ibadət edin, tağutdan çəkinin!»- deyə peyğəmbər göndərmişdik».**[7]

«[Bir zamanlar Nuh - **aleyhissəlam** - belə demişdir]: **Mənə müsəlmanlardan olmaq əmr edilmişdir!»**[8]

**«İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O, ancaq hənif** [Tək Allaha ibadət edib ona şərik qoşmayan] **müsəlman idi və Allaha şərik qoşanlardan deyildi».**[9]

**«Musa dedi: «Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və müsəlman olmusunuzsa, Ona təvəkkül edin!»**[10]

---

[6] «Ali-İmran» surəsi, 85.
[7] «ən-Nəhl» surəsi, 36.
[8] «Yunus» surəsi, 72.
[9] «Ali-İmran» surəsi, 67.
[10] «Yunus» surəsi, 84.

«**Xatırla ki, o zaman həvarilərə** [İsanın - **aleyhissəlam** - on iki əshabəsinə] **: «Mənə və peyğəmbərimə iman gətirin!»- deyə təlqin etdim. Onlar isə: «Biz iman gətirdik və şahid ol ki, biz müsəlmanlardanıq»- dedilər».**[11]

İkincisi də bəndənin Rəbbinə münasibətində təslimçilikdən – müsəlman olmaqdan başqa nə ola bilər? Beləliklə Adəm peyğəmbərdən - **aleyhissəlam** - başlayan təslimçilik anlamı peyğəmbərimiz Məhəmmədə - **səllallahu aleyhi və səlləm** - endirilən Quran vasitəsilə kamilləşdi. Quranın bu böyük və möcüzəli qayəsi ondakı ayələrin hansı səbəblə nazil olmasına marağı daim artırıb. Bu mövzu ilə bağlı ərəb mənbələrində kifayət qədər əsərlər mövcud olsa da bizim ana dilimizdə olan əhatəli kitablar çox azdır. Mənim bu mövzuya müraciət etməyimin bir səbəbi də budur.

Tarix boyu ayələrin nazil olma səbəbləri ilə bağlı təhrifçiliyə, uydurmaya, xurafatçılığa söykənən «əsərlər» də yazılmışdır. Təbii ki, yazılar hansısa sonradan uydurulan firqələrin, siyasi cərəyanların maraqlarını təmin etdiyi üçün müxtəlif dillərə o cümlədən də azərbaycan dilinə tərcümə edilmişdir. Bu da dində fikir ayrılığına və parçalanmalara gətirib çıxaran bir amildir. Belə hallardan qaçmaq üçün dini maarifləndirmə işini «səhih isnadlı» mənbələr üzərində qurmaq lazımdır. Din çox incə bir sahədir. Dinə düzgün yanaşma yollarını bilməyən şəxs dərhal xurafatçıların, siyasətbazların, radikal fikirli insanların təsirinə məruz qalır. Bu təsirlər üçün ən münbit şərait məhz elmsizlik və cahillikdən doğur.

---

[11] «əl-Maidə» surəsi, 111.

Quran bütün peyğəmbərlərin mənsub olduqları bir dini kamilləşdirdiyi üçün o eyni zamanda özündən əvvəlki Tövratı, Zəburu, İncili, və s. adları bizə məlum olmayan kitabları da təsdiq edir. Elə təkcə bu faktın özü kifayət edir ki, bu kitab dönə-dönə oxunub sevilsin. Quranın özündən əvvəlki kitabları təsdiq etməsi barədə Uca Allah belə buyurur:

**«Əlif, Lam, Mim! Allahdan başqa heç bir ilah yoxdur. Əzəli və əbədi varlıq Odur. Sənə özündən əvvəlki** [müqəddəs kitabları] **təsdiq edən Quranı haqq** [doğru] **olaraq O** [Allah] **nazil etdi».**[12]

Qurandan lazımınca faydalanmaq və Onun ecazkar təsirindən həzz almaq üçün bu əvəzsiz kitabın izahını özündə ehtiva edən bir çox elmləri də bilmək lazımdır. Bu elmlərə hədis, təfsir, ravilərin həyatını öyrənməklə məşğul olan sahələr və s. göstərmək olar. Qurana düzgün baxış bu elmlərlə tanışlıq olduqdan sonra mövcud olduğu üçün onların öyrənilməsi aktual bir problemdir. Çünki bu sahələrin verdiyi biliklər olmasa Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** sünnəsinin təhrif olunması asanlaşır. Qurana da sünnəsiz (hədislərsiz) yanaşmaq insanı zəlalətə aparıb çıxarır. Məsələn, Uca Allah Qurani Kərimdə insanlara namaz qılmağı əmr etsə də İslamın bu rüknünü nə cür həyata keçirməyin izahını Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** həvalə edib. Və ya zəkat verilməsi kimi digər bir əzəmətli əmrin şərtləri də Quranda izah edilmir. Çünki bu izahlar Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** hədisləri vasitəsilə insanlara çatdırılıb. Əgər bütün İslam şəriətini kitablara cəm etmək mümkün olsaydı onda sayı bizə

[12] «Ali-İmran» surəsi, 1-3.

məlum olmayan kitabxanalara ehtiyac yaranardı. Deməli Peyğəmbərimizin - **səllallahu aleyhi və səlləm** - hədislərinin öyrənilməsi də mömin olan insan üçün vacibdir. Bir də axı Peyğəmbərimizin - **səllallahu aleyhi və səlləm** - dedikləri yəni, hədislər də vəhydir. Bu barədə Uca Allah belə buyurur:

**«O, kefi istəyəni** [havadan] **danışmır.Bu oncaq nazil olan bir vəhydir».**[13]

Göründüyü kimi ayələr bizə Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - itaət edib onun sünnəsinə riayət etməyi əmr edir. Hədis elminin vacibliyi də buradan meydana gəlir. Bu əsərin özündə də kifayət qədər «səhih» isnadlı hədislər mövcuddur. Hədislərin bizə çatdırılmasında isə Peyğəmbərimizin - **səllallahu aleyhi və səlləm** – səhabələrinin və tabiinlərin əvəzsiz xidməti olmuşdur. Hədisin bu və ya digər səhabədən rəvayət olunmasını dəqiqləşdirmək və digər elmi məsələləri düzgün qiymətləndirmək üçün isə səhabələrin həyatını bilmək lazımdır. Səhabələrin həyatını araşdırmaq bu sahədə xətalardan qaçmağa imkan verir.

Bu əsərdə həmçinin oxucu üçün asan olsun deyə mötərizələrdə bəzi şərhlər verildmişdir. Qeyd edim ki, şərhlər müəllifə deyil mənə – tərcüməçiyə aiddir. Bundan başqa oxucumuzu yormamaq və sətirlərə qənaət etmək üçün hədisi Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - eşidib onu bir-birinə ötürən ravilərin adlarını hədisin isnadındakı ardıcıllıqla deyil, bunu əvəz edəcək **[ hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra ]** ifadəsi işlədilmişdir. Müəllifin özünün istifadə etdiyi ***hədis***

---

[13] «ən-Nəcm» surəsi, 3-4.

***terminlərinin izahının kitabın arxasında*** verilməsi bizim müsəlman olaraq şəriətimizlə bağlı dini terminlərin tədricən öyrənilməsinə şərait yaratması məqsədini daşıyır.

Dəyərli qardaş və bacılarım! Həqiqətən, bizə həm bu dünyada, həm də gələcək həyatda bizi xoşbəxt edəcək bir dinin elmi əsaslarını öyrənmək olduqca vacibdir. İnanıram ki, bu tərcümə əsərim sizin üçün faydalı olacaq və sizi daha da pak olan dinimizə bağlayacaq, İslam elmini və tarixini öyrənməyə həvəsləndirəcək. Uca Allahdan diləyirəm ki, O, bizim hamımızın gunahlarını bağışlasın və millətimizə, dövlətimizə və ümumən müsəlman xalqına kömək olsun! Amin!

Şübhəsiz ki, bu tərcümə insan əməyinin bəhrəsidir. Odur ki, onun nöqsanlardan və xətalardan xali olmadığı üçün, bu barədə qeyd və mülahizələrini bildirəcək oxuculara əvvəlcədən təşəkkür edirik. Onların dəyərli məsləhətləri bu kitabın gələcək nəşrlərində nəzərə alınacaqdır. Kamillik təkcə Allaha məxsusdur, məsum olan isə insanların ən şərəflisi Məhəmməd peyğəmbərdir **- səllallahu aleyhi və səlləm -** .

***Tərcüməçidən***

# بسم الله الرحمن الرحيم

# MÜQƏDDİMƏ

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edirik, Onu köməyə çağırırıq, Ondan

bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə o, haqq yolunda olar və kimi də azdırsa onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

**«Ey iman gətirmiş kəslər! Allahdan lazımınca qorxun və yalnız müsəlman olduğunuz halda ölün!»**[14]

**«Ey insanlar! Sizi tək bir şəxsdən** [Adəmdən] **xəlq edən, ondan zövcəsini** [Həvvanı] **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!** [Adı ilə] **bir-birinizdən** [cürbəcür şeylər] **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»**[15]

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** [Əgər belə etsəniz] **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar».**[16]

«Əs-Səhihul-Müsnəd min əsbabin-Nuzul»[17] - əsərini yazmağı mənim üçün asanlaşdıran və mənə kömək olan Uca Allaha həmd edirəm. Artıq Uca Allah bu əsəri faydalı

---

[14] [ «Ali İmran» surəsi, 102. ]

[15] [ «ən-Nisa» surəsi, 1. ]

[16] [ «əl-Əhzab» surəsi, 70-71. ]

[17] [ Ayələrin nazil olma səbəblərindən səhih müsnəd. ]

əsərlərdən etdi və o bu sahədə elm mənbələrindən birinə çevrildi. Həm tədris edərkən, həm əsər yazarkən və həm də araşdırma apararkən bu əsərə nə qədər çox müraciət etmişəm! Bundan əvvəlki nəşrlərdə mən yalnız mövzuya aid olan əsas hədislərin və onlara oxşar bəzi hədislərin sənədlərini qeyd etmişdim. Bu nəşrdə isə bacardığım qədər bütün hədisləri sənədlə qeyd etməyi qərara aldım. Həmçinin əvvəlki nəşrlərdə bəzi hədislərin yalnız mövzuya aid olan hissəsini qeyd etmişdim. Lakin bu nəşrdə həmin hədisləri tam şəkildə qeyd etmək qərarına gəldim. Çünki hədisi tam şəkildə qeyd etməklə çoxlu faydalar əldə etmək mümkündür. Sənədi qeyd etməyə gəldikdə isə, alimlərimiz (**Allah onlara rəhm etsin**) hədisi yalnız sənədlə qəbul edərdilər.

Əlainin «Camiut-Təhsil» əsərində (səh. 58), Muslimin də «Səhih» əsərində ibn Sirin demişdir: «Müsəlmanlar iğtişaş (hərc-mərclik) dövrünə qədər hədisin sənədi barəsində soruşmazdılar. Fitnə baş verdikdən sonra isə, müsəlmanlar: «Hədisi Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** eşidib bir-birinə ötürən ravilərinizin[18] adlarını bizə deyin!»- deyərdilər. Ravilər sünnə əhlindən olduğu təqdirdə onlardan hədis qəbul olunar, bidət[19] əhlindən olduqda isə rəvayətləri rədd olunardı».

---

[18] [ Ravi - hədisi isnad edərək rəvayət edən şəxsə deyilir. «Mucəmul Vasit» səh. 384. ]

[19] [ Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** zamanında olmayan və sonradan meydana gəlmiş ibadət. «ən-Nihayə fi Ğəribil-Hədis» 4/52; «Ğəribul-Hədis» 2/295. ]

Süfyan ibn Uyeynə demişdir: «Bir gün Zuhri hədis danışarkən mən ona dedim: «Hədisi isnadsız rəvayət et!»[20] O dedi: «Dama nərdivansız qalxım? »

Bəqiyyə rəvayət edir ki, Ütbə ibn əbu Hukeym və Zuhri, İshaq ibn əbi Fərvanın yanında olarkən əbu Fərva rəvayət edib dedi: «Peyğəmbər - səllallahu aleyhi və səlləm - demişdir…» Zuhri onun sözünü kəsib dedi: «Vay halına! Sən nə cürətlə isnadsız hədis rəvayət edirsən. Sən bizə cilovsuz və noxtasız hədis danışırsan?»

Abdus-Səməd ibn Həssan rəvayət edir ki, Süfyan əs-Səvri demişdir: «İsnad mömінin silahıdır. Əgər silah olmazsa, o nə ilə döyüşər? »

Şu'bə demişdir: «Hər bir «bizə rəvayət etdi», «bizə xəbər verdi» ifadəsi olmadan rəvayət edilən hədis [yəni sənədi olmayan hədis] yanlış və qüsurludur».

Həmçinin Muslimin «Səhih» əsərində rəvayət olunur ki, Abdan belə demişdir: «Abdullah ibn əl-Mübarəkin belə dediyini eşitdim: «Mənim üçün isnad dinin tərkibindən hesab olunur. İsnad olmasaydı hər kəs istədiyini danışardı».

Abbas ibn əbi Ruzmə deyir ki, Abdullah ibn əl-Mübarəkin belə dediyini eşitdim: «Bizimlə bizdən əvvəlkilər arasında olan əlaqə isnaddır».

İbrahim ibn İsa ət-Taliqani demişdir: «Mən Abdullah ibn əl-Mübarəkə dedim: «Ey Əbu Abdurrəhman! Bu hədis barəsində nə deyə bilərsən? «Həqiqətən valideynlərə göstərilmiş ən gözəl qayğı, namaz qıldıqda onların da yerinə

---

[20] [ Sufyan ibn Uyeynənin bu ifadəsi ona görədir ki, o, Zuhrinin Peyğəmbərin - səllallahu aleyhi və səlləm - adından yalan danışmamasına etibar edirdi. ]

namaz qılmaq, oruc tutduqda onların da yerinə oruc tutmaqdır». Abdullah ibn əl-Mübarək dedi: «Bu hədisi kim rəvayət edib?» Mən dedim: «Bu hədisi Şihab ibn Xərraşdan eşitdim». O dedi: «O «siqa» ravidir. Bəs o kimdən rəvayət edib?» Mən dedim: «Həccac ibn Dinardan». O dedi: «O da «siqa» ravidir. Bəs o kimdən rəvayət edib?» Mən dedim: «O da Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - rəvayət etmişdir». O dedi: «Ey Əbu İshaq! Həqiqətən, Həccac ibn Dinar ilə Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - arasında, minik heyvanlarının boynunu qıran səhralar vardır![21]»

Şu'bə ibn əl-Həccac öz şeyxi Əbu İshaq Amr ibn Abdullah əs-Səbiidən, Abdullah ibn Ətanın Uqbə ibn Amirdən rəvayət etdiyi dəstəmazı kamil almağın fəziləti barəsində hədisi eşitdikdə ondan soruşdu: «Məgər Abdullah ibn Əta onu Uqbə ibn Amirdən eşidib?» - Əbu İshaq ona qəzəbləndi. Misar ibn Kəddam Şu'bəyə, Abdullah ibn Ətanın Məkkə şəhərində olması barədə xəbər verdikdən sonra o Məkkəyə yola düşdü. Şu'bə belə rəvayət edir: «Mən Məkkəyə həcc etmək üçün yox, hədisi araşdırmaq üçün yola düşdüm. Orada Abdullah ibn Əta ilə görüşdüm və ondan bu hədisi kimdən eşitdiyi barədə soruşduqda o dedi: «Bu hədisi mənə Sə'd ibn İbrahim rəvayət etmişdir». Malik ibn Ənəs Sə'd ibn İbrahimin Mədinə şəhərində olduğunu və bu il həcc ziyarətinə gəlmədiyini mənə xəbər verdikdən sonra onunla görüşmək üçün Mədinəyə yola düşdüm. Mən onunla görüşüb bu hədisi kimdən eşitdiyini soruşduqda o dedi: «Hədisi sizlərdən Ziyad ibn Mixraqdan eşitmişəm. Mən Ziyadın adını eşitdikdə dedim: «Bu necə hə-

---

[21] [ Bu, ravi ilə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - arasında olan boşluğun nə dərəcədə olduğunu göstərmək üçün çəkilən misaldır. ]

disdir ki, Kufəli [yəni Abdullah ibn Əta] Mədinəlidən [yəni Sə'd ibn İbrahimdən], o da Bəsrəlidən [yəni Ziyad ibn Mixraqdan] rəvayət edir». Sonra mən Bəsrə şəhərinə yola düşdüm. Orada Ziyad ibn Mixraqla görüşüb ondan bu hədisin kim tərəfindən rəvayət olunduğu barədə soruşduqda o dedi: «Onun sənə heç bir dəxli yoxdur!» Mən yenə ondan bu hədisi mənə rəvayət etməsini tələb etdikdə o dedi: «Bu hədis barəsində heç nə soruşma!» Mən yenə israr edib bu hədisi mənə rəvayət etməsini ondan tələb etdikdə o dedi: «Bu hədisi mənə Şəhr ibn Həuşəb rəvayət edib. O, bu hədisi əbu Reyhanədən, o da Uqbə ibn Amirdən, o da Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - eşitmişdir». Şu'bə, Şəhr ibn Həuşəbin adını eşidən kimi dedi: «Şəhrin adı hədisi «daif» dərəcəsinə saldı. Lakin belə bir hədis Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - «səhih» isnadla varid olsaydı, o mənim üçün var-dövlətimdən, ailəmdən və bütün insanlardan daha sevimli olardı».

Əbu Abdurrəhman demişdir: «Yazılmış əsərlərdən isnadla rəvayət olunmuş hədislərin isnadlarını ləğv edən və onları isnadsız formada qeyd edənlər elmə və hər bir hədisin isnadını araşdırmaq üçün böyük səylər göstərərək ömürlərini səfərdə keçirən əməlisaleh keçmiş nəslin hədis alimlərinə xəyanət etmiş hesab olunurlar».

Elə buna görə də din qardaşlarımız hədisləri isnadla rəvayət etməyə səy göstərirlər. Aləmlərin Rəbbi olan Allaha həmd olsun ki, elmi təhqiq və tədqiq edənlər bunu qəbul edirlər!

# Bu mövzunu seçməyə məni təhrik edən səbəblər

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə o, haqq yolunda olar və kimi də azdırsa onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

**«Ey iman gətirmiş kəslər! Allahdan lazımınca qorxun və yalnız müsəlman olduğunuz halda ölün!»**[22]

**«Ey insanlar! Sizi tək bir şəxsdən** [Adəmdən] **xəlq edən, ondan zövcəsini** [Həvvanı] **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!** [Adı ilə] **bir-birinizdən** [cürbəcür şeylər] **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»**[23]

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** [Əgər belə etsəniz] **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar».**[24]

---

[22] [ «Ali İmran» surəsi, 102. ]
[23] [ «ən-Nisa» surəsi, 1. ]
[24] [ «əl-Əhzab» surəsi, 70-71. ]

İslam Universitetinə təqdim etdiyim «Əs-Səhihul-Müsnəd min əsbabin-Nuzul» [25] əsərini aşağıdakı səbəblərə görə yazmışam;

1. Bu əsərin, dinin əsası olan iki əzəmətli elmlə - Quranin təfsiri[26] və Peyğəmbərin - səllallahu aleyhi və səlləm - sünnəsi ilə - əlaqəli olması;

2. Ayələrin nazil olma səbəblərini öyrənməklə onların mənasının daha yaxşı başa düşülməsi;

Doğrudan da bəzi ayələrin nazil olma səbəbləri aydın olana qədər, həmin ayələrin düzgün başa düşülməsi səhabələrdə[27] və onların ardıcıllarında anlaşılmazlıqlar yaratmışdır. Buna aşağıdakı ayələri misal çəkmək olar.

Uca Allah buyurur:

«[Malınızı] **Allah yolunda xərcləyin! Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq edənləri sevir».**[28]

Əbu Əyyub əl-Ənsari (r.a) bu ayənin nə səbəbdən nazil olduğunu səhabələrə bəyan edənə qədər onlarda anlaşılmazlıq olmuş və yalnız bəyan etdikdən sonra ayənin mənası onlara aydın olmuşdur. [«əl-Bəqərə» surəsi, 195-ci ayənin nazil olma səbəbinə bax!]

---

[25] Burada mən «səhih» dedikdə, keçmiş alimlərin istilahına uyğun olaraq həm «səhih», həm də «həsən» hədisləri qəsd etmişəm. «Tədribur-Ravi» səh. 21.

[26] [ Ayələri izah edən elm. «Mucəmul Vasit» səh. 688. ]

[27] [ Səhabə - Peyğəmbər - səllallahu aleyhi və səlləm - sağ ikən onunla görüşüb, dediklərinə iman gətirmiş və müsəlman kimi vəfat etmiş şəxsə deyilir. Suyutinin «Tədribu-r-Ravi» əsəri, 2/191; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 198; «Mucəmul Vasit» səh. 507. ]

[28] [ «əl-Bəqərə» surəsi, 195. ]

Həmçinin,

**«İman gətirib imanlarını zülmlə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!»**[29] ayəsi də səhabələri (r.a) sıxıntıya salmış və Uca Allah,

**«Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür!»**[30] ayəsini nazil etdikdən sonra onlara həqiqət bəlli olmuşdur. [«Loğman» surəsi, 13-cü ayənin nazil olma səbəbinə bax!]

Həmçinin Aişə (r.a)

**«Həqiqətən Səfa və Mərvə Allahın əlamətlərindəndir.** [ibadət nişanələrindəndir]**»**[31] **–** ayəsinin nazil olma səbəbini Urvaya (r.a) xəbər verənə qədər bu ayə onda anlaşılmazlıq yaratmışdır. [«əl-Bəqərə» surəsi, 158-ci ayənin nazil olma səbəbinə bax!]

3. Məni bu əsəri yazmağa sövq edən amillərdən biri də, digər elmi sahələrə olduğu kimi, bu sahəyə də elmi səriştəsi olmayanların müdaxilə etməsidir.

Vahidi «Əsbabun-Nuzul» əsərinin müqəddiməsində (səh. 5) yazır ki, Ubeydə əs-Səlmani Qurandakı bir ayə barəsində soruşulduqda demişdir: «Allahdan qorxun və düz danışın! Ayələrin nazil olma səbəblərini bilənlər artıq dünyadan köçüb getmişlər».

Vahidi onun bu sözlərini xüsusən qeyd etdikdən sonra belə deyir: «Günümüzə gəlincə isə bir çoxları ayələrin nazil olma səbəblərindən qafil olduqları halda özlərini cəhalətə ataraq bu

---

[29] [ «əl-Ən'am» surəsi, 82. ]

[30] [ «Loğman» surəsi, 13. ]

[31] [ «əl-Bəqərə» surəsi, 158. ]

sahədə yeni ixtiralar etməyə çalışırlar böhtanlar və yalanlar uydururlar. Buna görə də ayələrin nazil olma səbəblərini özündə cəm edən bu əsəri yazdım ki, bu işlə məşğul olan elm əhli və Quranın nazil olma səbəbləri barəsində danışanlar, bu əsərə müraciət etməklə doğru olanı bilsinlər, yalan və azğınlıqdan uzaq olsunlar və onu oxuyub sonra mühafizə etməyə səy göstərsinlər».

Suyuti «İtqan» əsərində (2-ci cild, səh. 190) təfsirləri istinadla rəvayət edən ibn Cərir, ibn əbi Hatim və bu kimi alimləri xatırladıqdan sonra demişdir: «Bir çoxları təfsir elmində əsərlər yazıblar ki, bu əsərlərdə çoxlu sayda sənədsiz rəvayətlər və müxtəlif rəylər nəql ediblər. Elə buradan da bu elmə kənar şeylər daxil oldu, mötəbər və qeyri mötəbər hədislər bir-birinə qarışdı. Sonra isə hər kəs ağlına gələni nəql edib ona etimad etmiş, ondan sonra gələnlər isə nə sələfin dediklərinə, nə də təfsir elmində mötəbər sayılan alimlərin dediklərinə məhəl qoymadan bu rəvayətlərin mötəbər olduğunu zənn edərək özlərindən sonra gələnlərə nəql etmişlər. Hətta mən Uca Allahın

**«Qəzəbə düçar olanlar və** [haqdan] **azanların yoluna yox»**[32] - kəlamının təfsirində ona yaxın[33] rəy nəql edən gördüm lakin,

[32] [ «əl-Fatihə» surəsi, 7. ]

[33] Şəvkaninin «Fəthu-l-qadir» əsərində (3-cü cild, səh.254) «Səndən ruh haqqında soruşurlar» [«əl-İsra surəsi, 5.] ayəsinin təfsirində nəql etdiyi bundan da artıq azğınlıqdır. O demişdir: «Bəzi tədqiqatçılar «ruh» haqqında müxtəlif fikirdə olanların rəylərinin yüz on səkkizə çatdığını nəql etmişlər». Diqqətlə nəzər salsanız onların əbəs yerə xidmət etdiklərini, boş yerə əziyyət çəkdiklərini və beləliklə də çox acınacaqlı halda olduqlarını dərk edərsiniz. Bütün bunlar ona görədir ki, onlar, Allahın ruhun mahiyyəti haqqında Öz peyğəmbərlərinə belə heçnə bildirmədiyini, bu

bunlardan yalnız biri - yəni «onlar yəhudilər və nəsranilərdir» təfsiri Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** və onun bütün ardıcıllarından varid olduğu mənə məlum olmuşdur.

Hətta ibn Əbi Hatim deyir ki, bu rəyin mötəbər olması barəsində təfsir alimlərinin ixtilaf etməsi mənə məlum deyil».

Elə bu səbəbdən, çətin olsa da belə hədisləri isnadla gətirməyi qərara aldım. Bu işin nə qədər çətin olduğu yalnız hədis elmilə məşğul olanlara məlumdur.

Təfsir əsərlərində diqqətsizlik nəticəsində sübuta yetirilməmiş rəylərin varid edilməsi barədə yuxarıda danışılan iki alimin dediklərini aşağıda qeyd olunan misal təsdiq edir. Bu, Sə'ləbə ibn Hatibin (r.a) hekayəsidir ki, bir çox təfsir alimləri aşağıdakı ayəni təfsir edərkən bu hekayəni həmin ayənin nazil olma səbəbi kimi nəql etmişlər. Uca Allah buyurur:

**«Onların bəzisi də Allaha belə əhd etmişdi: «Əgər Allah bizə öz nemətlərindən** [mal-dövlət] **bəxş etsə, biz mütləq sədəqə** [həmin malın zəkatını] **verəcək və sözsüz ki, əməlisalehlərdən olacağıq».**[34]

Həmin rəvayətdə Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Sə'ləbəyə (r.a) demişdir: «Az nemətə malik olub ona şükr etmək, çox nemətə malik olub onun məsuliyyətini daşıya bilməməkdən daha xeyirlidir».

Demək olar ki, əksər təfsir alimləri həmin ayənin nazil olma səbəbi kimi bu hekayəni gətirirlər, lakin onun mötəbər olmamasına bəziləri diqqət yetirmişlər. Böyük hədis alimləri

---

haqda sual verməyi qadağan etdiyini və onun keyfiyyətini araşdırmamağı bilə-bilə onu izah etməyə cəhd göstərmişlər….»

[34] [ «ət-Tövbə surəsi, 75. ]

və tənqidçilərə gəlincə, onların bu hekayə haqqında dediklərinə diqqət yetirək. Bu alimlərdən biri, Əbu Muhamməd ibn Həzm bu hekayəni Miskin ibn Bukeyrdən, o da Məan ibn Rifaə əs-Suləmidən, o da Əli ibn Yeziddən, o da Qasim ibn Abdurrəhmandan, o da Əbu Ümamədən rəvayət edib demişdir: «Sə'ləbə ibn Hatib (r.a) zəkat vermək üçün Ömər ibn əl-Xəttabın (r.a) yanına gəldi və Ömər (r.a) bu zəkatı ondan qəbul etməyib dedi: Nə peyğəmbər - səllallahu aleyhi və səlləm - nə də Əbu Bəkr (r.a) sənin verdiyin zəkatı qəbul etməmişlər. Mən də onu qəbul etmirəm».

Əbu Muhamməd ibn Həzm «Muhəllə» əsərində (11-ci cild, səh. 208) belə deyir: «Şübhəsiz ki, bu rəvayət batildir, çünki Uca Allah müsəlmanların zəkatını qəbul etməyi əmr etmişdir. Həmçinin Peyğəmbər - səllallahu aleyhi və səlləm - ölüm anında Ərəbistan yarımadasında İslamdan başqa bir dinin qalmamasını əmr etmişdir. Şübhəsiz ki, Sə'ləbə (r.a) müsəlman idi və Əbu Bəkrlə (r.a) Ömərin (r.a) ondan zəkat qəbul etməsi vacib idi. Əgər Sə'ləbə (r.a) kafir olsa idi, Ərəbistan yarımadasında qalmamalı idi. Elə bu «illə»yə görə də rəvayət etibarsız sayılır. Həmçinin hədisin mətnini bir-birinə xəbər verən ravilərdən olan Məan ibn Rifaə, Qasim ibn Abdurrəhman və Əli ibn Yezid - Əbu Abdul-Malik Əlhani - «daif» ravilərdir. Miskin ibn Bukeyr isə hədis elmində «leysə bil-qəviy» ravidir.

Suyuti «Lübabin-Nüqul» əsərində demişdir: «Bu hədisin sənədi «daif»dir. Hafiz ibn Həcər «Kəşşaf» əsərinin təhqiqində bu hədisin sənədində olan Əli ibn Yezidin «vahin» ravi olduğunu qeyd etmişdir. O, «Fəthul-Bari» əsərində (3-cü cild, səh. 8) bu hekayəni xatırlatdıqdan sonra onun «daif» olduğunu və ona əsaslanmağın düzgün olmadığını qeyd

etmişdir. Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 32) demişdir: «Təbəraninin rəvayət etdiyi bu hədisin sənədindəki Əli ibn Yezid əl-Əlhaninin hədisləri hədis alimləri tərəfindən «mətruk» hesab olunur.

Zəhəbi «Təcridu əsmais-səhabə» əsərində qətiyyətlə bu hədisin «münkər» olduğunu qeyd etmişdir.

Mənavi «Feydul-qadir» əsərində (4-cü cild, səh. 527) demişdir: «Beyhəqi deyir ki, bu hədisin sənədinin mötəbər olması şübhəlidir, lakin buna baxmayaraq bu hədis təfsir alimləri arasında çox məşhurdur. İbn Həcər isə «İsabə» əsərində Sə'ləbənin tərcümeyi-halında bu hədisi qeyd etmiş və onun mötəbər olmamasına işarə edib demişdir: «Bu hədisdə xatırlanan səhabənin [Sə'ləbə ibn Hatibin] Bədr döyüşündə iştirak edənlərdən olması dəqiq məlum deyildir».

İraqi təhqiq və tədqiq etdiyi «İhya» əsərində (3-cü cild, səh. 338) demişdir: «Bu hədisin sənədi «daif»dir, lakin təfsir əsərlərində məşhurlaşdığına görə bunu misal[35] gətirdim. Çünki dəvətlə məşğul olan bir çox qardaşlarımız - Allah məni və onları doğru yola müvəffəq etsin! - bu hekayəni məqbul hesab edir və sənədinin mötəbər olmadığına diqqət yetirmədən camaata danışırlar. Halbuki bu hekayə heç məna etibarı ilə də mötəbər deyildir, çünki o, dinin əsaslarından birinə ziddir. Belə ki, tövbə edənin günahları yerdən göyə qədər olsa belə, tövbə etdiyi zaman Uca Allah onu bağışlayır».

---

[35] İbn Cərir ət-Təbəri bu ayənin Sə'ləbə ibn Hatib (r.a) deyil, Sə'ləbə ibn əbi Hatibə (r.a) görə nazil olduğunu başqa isnadla ibn Abbasdan (r.a) rəvayət etmişdir. Lakin, qeyd etmək lazımdır ki, hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsi Auf qəbiləsindən olanlardan ibarətdir və onlar da etibarsız ravilərdir. Elə bu səbəbdən də ibn Cəririn gətirdiyi bu rəvayət çox zəif hesab olunur.

4. Məni bu əsəri yazmağa sövq edən amillərdən biri də, bu əzəmətli dinin sirlərini, ayələrin nazil olma səbəblərindəki ibrətləri və ilahi təskinlik gələnə qədər insanları çətinliyə salan anlaşılmazlıqların həllini bilmək rəğbətidir.

Buna misal olaraq döyüşdən yayınan üç nəfərin hekayəsini[36], həmçinin Aişəyə (r.a) atılan böhtanları gətirmək olar. O böhtan ki, həm Peyğəmbərə - səllallahu aleyhi və səlləm - həm də Aişəyə (r.a) çox əziyyətlər verdi. O böhran ki, möminlərin anası Aişəni (r.a) çox ağlatdı və ata-anası (r.a) onun ağlamaqdan ciyərinin parça-parça olacaqını zənn etdilər. Lakin bu çətinlikdən sonra asanlıq gəldi.[37] Həmçinin buna misal Hilal ibn Ümeyyənin (r.a) hekayəsini gətirmək olar. O zaman ki, o, öz həyat yoldaşının zina etdiyini iddia etdi Peyğəmbər - səllallahu aleyhi və səlləm - ona dedi: «Ya şahid gətir, ya da şallaqla cəzalandırılacaqsan!» Hilal ibn Ümeyyə (r.a) dedi: «Səni haqla göndərənə and olsun ki, mən doğru deyirəm. Allah məni cəzadan qurtarmaq üçün ayə nazil edəcək». Peyğəmbər - səllallahu aleyhi və səlləm - onu cəzalandırmaq istədikdə Uca Allah lənət haqqında ayə nazil edərək[38] onun andını doğrultdu və məsələ gərginləşdikdən sonra ona aydınlıq gətirdi.

Bu cür hikmətli dinsiz keçinməyin mümkün olduğunu zənn edən şəxs ziyana uğradı və bədbəxt oldu!

5. Məni bu əsəri yazmağa sövq edən amillərdən biri də, dinin mərhələlərindən lazımi şəkildə istifadə etmək istəyidir. Həqiqətən biz özümüzü ilk dəvət əhli kimi hesab etməli və dəvətə yenidən başlamalıyıq.

---

[36] [ «ət-Tövbə» surəsi, 118. ]

[37] [ «ən-Nur» surəsi, 11-20. ]

[38] [ «ən-Nur» surəsi, 6-9. ]

Ayələrin nazil olma səbəblərində dəvətin mərhələlərini bəyan edən bir çox gözəl amillər və ilahi istiqamətləndirmələr mövcuddur. Buna misal olaraq cihad ayəsini, həmçinin digər Məkkə və Mədinə ayələrinin arasında olan fərqi göstərmək olar. Həqiqətən bu cihad ayəsi Allah tərəfindən yalnız müsəlmanlar cihad etməyə qadir olduqdan sonra nazil olmuşdur.

**Qeyd** etmək istəyirəm ki, bu əsəri yazdıqda bacardığım qədər səy göstərmişəm ki, müxtəlif sənədlərlə varid olmuş hədisləri cəm edim və beləliklə də, hədislərin tam və yarımçıq isnadla rəvayət olunduğu və həmçinin mötəbər və ya qeyri mötəbər olanı məlum olsun.[39] Ola bilsin ki, hədisin isnadı bir əsərdə mötəbər, digərində isə qeyri mötəbər sayılsın.

İbnus-Səlah «Ülumul-Hədis» əsərində (səh. 82) demişdir: «Əli ibn əl-Mədinidən rəvayət olunur ki, o, belə dedi: «Hər hansı bir fəslin tərkibində olan hədisin isnadları cəm olunmazsa, ehtimal olunan xəta bəyan olunmaz.»

Buna misal olaraq Hakimin «Mustədrək» əsərində (3-cü cild, səh. 324) olan rəvayəti gətirmək olar. O, [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki; «Məkkə əhli, müsəlmanlar tərəfindən girov götürülmüş əsirlərini fidyə[40] verib azad etmək üçün Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəldilər. Onların gətirdiklərinin arasında

---

[39] Müxtəlif sənədlərlə varid olmuş hədisləri cəm etməyin digər üstünlükləri də vardır ki, buna aşağıdakıları misal gətirmək olar:
- «Müdəllis»-in rəvayət etdiyi hədisi eşitdiyini sübuta yetirmək; Naməlum ravinin məlum olması; «Daif» ravinin nəql etdiyi xəbərin hökmünü qüvvətləndirmək.

[40] [ Pul verib azad etdirmə. «Mucəmul Vasit» səh. 678. ]

Xədicənin (r.a) toy günü qızı Zeynəbə (r.a) verdiyi boyunbağı da var idi. O, bu boyunbağını həyat yoldaşı əbul-Ası (r.a) azad etmək üçün göndərmişdi. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - boyunbağını gördükdə qızının halına acıdı və dedi: «Əgər etirazınız yoxdursa, qızım Zeynəbin (r.a) əsir düşmüş ərini azad edin və göndərdiyi bər-bəzəyi də özünə qaytarın!». Səhabələr «Razıyıq, ey Allahın elçisi!» dedilər və Zeynəbə (r.a) məxsus olanı özünə qaytardılar. Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - əsir düşmüş əmisi Abbas (r.a) dedi: «Ey Allahın elçisi! Mən müsəlman idim». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - isə, ona belə dedi: «Sənin müsəlman olub-olmadığını Allah daha yaxşı bilir. Əgər doğru deyirsənsə, onun savabını Allah sənə verəcək. Lakin özünü, qardaşlarının oğlanlarını - Nofəl ibn əl-Haris ibn Abdulmüttəlibi və Uqeyl ibn Əbi Talib ibn Abdulmüttəllibi - və müttəfiqin olan - Bənul-Haris ibn Fəhrin qardaşı Uqbə ibn Amr ibn Cəhdəmi azad etmək üçün fidyə ver!»

O dedi: «Ey Allahın elçisi! Axı mənim sənə verə biləcək bir şeyim yoxdur!» Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Bəs ummu-l-Fadl ilə birlikdə basdırdığın mal necə oldu? Axı sən onu basdırdıqdan sonra ummul-Fadla belə demişdin: «Əgər mənə bir şey olsa bu, oğlanlarım Fadla, Abdullaha və Qəsəmə çatacaq». Abbas (r.a) dedi: «Ya Rəsulallah! Allaha and olsun mən şəhadət gətirirəm ki, sən, həqiqətən Allahın elçisisən! Çünki bu hadisəni mənimlə ummul-Fadldan savayı heç kəs bilmirdi. Ey Allahın elçisi! Bizi azad etmək üçün mənim malımdan iyirmi əvqiya[41] götürün!» Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onunla razılaşdı. Beləliklə Abbas (r.a) özünü,

---

[41] [ 1 əvqiya 40 dirhəmdir. «ən-Nihayətu fi Ğəribil-Hədis» 1/80. ]

qardaşlarının oğlanlarını və müttəfiqini azad etdikdə Uca Allah bu ayəni nazil etdi:

**«Ya Peyğəmbər əlinizdə olan əsirlərə de: «Əgər Allah** [Öz əzəli elmi ilə] **ürəklərinizdə bir yaxşılıq olduğunu bilsə, sizə sizdən alınandan** [fidyədən] **daha yaxşısını verər və sizi bağışlayar. Axı Allah Bağışlayan və Rəhm edəndir!»**[42]

Abbas (r.a) deyir ki, mən, İslam dinini qəbul etdikdən sonra Uca Allah bu iyirmi əvqiyanın əvəzinə mənə hamısının əlində gəlir gətirən malı olan iyirmi işgüzar qul verdi və bununla belə məni bağışladı.

Hakim demişdir: «Bu hədis Muslimin şərtinə görə «səhih»dir lakin, Buxari və Muslim öz kitablarında bu hədisi yazmayıblar. Bunu Zəhəbi də təsdiqləmişdir.

Heysəmi «Məcməuz-zəvaid» əsərində (7-ci cild, səh. 28) demişdir: «Təbarani bu hədisi «Mucəmu-l-kəbir» və «Mucəmul-əvsat» əsərlərində rəvayət etmişdir. «Mucəmul-əvsat» əsərindəki hədisin ravilərinin hamısı, ibn İshaqdan başqa, Buxari və Muslimin raviləri hesab olunurlar. Lakin ibn İshaq da, artıq bu hədisi eşitdiyini açıq-aydın bəyan etmişdir.

Beyhəqinin «Sünən» əsərinə (6-cı cild, səh. 322) nəzər saldıqdan sonra mənə bəyan oldu ki, bu sənəd Abbasın (r.a) hekayəsinə əlavə olunmuşdur «müdrəc»dır. O, öz əsərində deyir ki; «Abbasın (r.a) hekayəsini bu sənədlə şeyximiz əbu Abdullah «Mustədrək» əsərində rəvayət etmişdir.» Sonra Beyhəqi daha doğru olanını bəyan etmiş və Abbasın (r.a) hekayəsinin başqa «mürsəl» isnadla varid olduğunu bildirmişdir.

---

[42] [ «əl-Ənfal» surəsi, 70. ]

İbn Həcər bu hekayəni «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 382) qeyd etdikdən sonra demişdir: «Əta ibn Əbi Rabəhə qədər hədisin mətnini bir-birinə xəbər verən ravilərdən biri Məhəmməd ibn İshaq bu hadisəni tam isnadla rəvayət etməmiş, əksinə «mu'dəl» isnadla rəvayət etmişdir. İshaq ibn Rahaveyh ondan sonra da Təbərani və ibn Mərdəveyh bu sənədin «məvsul» olduğunu dəstəkləyirlər. Həqiqəti bilən isə yalnız Allahdır!

İbn Həcər «Mətalibul-Aliyə» əsərində (3-cü cild, səh. 337) demişdir: «Baxmayaraq ki, hədisin sənədinin zahiri ilk baxışdan «müsnəd» sayılır, lakin zənnimcə bu, ibn İshaqın hədisə etdiyi əlavəsidir - «müdrəc»dır və buna görə də Abbasdan (r.a) varid olan xəbərin isnadı «mu'dəl» sayılır».

Bu əsəri yazarkən bəzi müəlliflərin və bəzi kitabların adlarını qeyd etməməyimin əsas səbəbi, vaxt məhdudiyyəti olmuşdur. Bəzi hallarda, hədis itib-batmış kitablarda və ya nadir tapılan kitablarda olduğundan onun isnadını əldə etmək mənim üçün çətin olmuşdur. Elə buna görə də mən bu cür hədisləri mötəbər sayan inanılmış imamların və alimlərin dediklərinə əsaslanıb onu sənədsiz qeyd etmişəm. Əks halda isə Uca Allah əsərin sənədini əldə etməyi mənim üçün asanlaşdırana qədər o hədisin hökmü barədə susmuşam. Allahdan istəyirəm ki, mənim bu əməlimi ixlasla, yalnız Ona layiq üzünü görmək və Onun rizasını qazanmaq üçün edilən əməllərdən etsin, bu əsərlə İslama və müsəlmanlara fayda versin.

# Əsas qaydalar

Ayələrin nazil olma səbəbləri ilə əlaqəli bir çox əsas qaydalar mövcuddur ki, bunlardan yalnız bəzilərini qeyd etmək istəyirəm. Müxtəsər olsun deyə şeyx Mahmud ibn Abdulvəhhab Faidin – Allah onu qorusun – tərtib etdiyi qaydalardan məşhur və labüd olanlarını qeyd edəcəyəm.

**Birincisi,** ayənin nazil olma səbəbini öyrənməkdir. Bu da iki hissədən ibarətdir;

a) Baş vermiş hər hansı hadisəyə aid Quran ayəsinin nazil olması. Buna «əl-Məsəd» surəsinin nazil olmasını misal çəkmək olar. Bu surənin nazil olma səbəbinin izahı barəsində inşə-Allah aşağıda danışacağıq.

b) Hər hansı bir məsələnin hökmü barəsində Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - verilən suala cavab olaraq Quran ayəsinin nazil olması; Buna «ən-Nur» surəsinin 6-9-cu ayələrinin nazil olmasını misal çəkmək olar. Bu ayələrin nazil olma səbəbinin izahı barəsində də inşə-Allah aşağıda danışacağıq.

**İkincisi,** Ayələrin nazil olma səbəblərinin doğru olub-olmadığını bilməyin yolları. Alimlər ayələrin nazil olma səbəbini bilmək üçün hədislərin «səhih» olmasını, onların həqiqətən Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - və onun səhabələrindən varid olmasını əsas tuturlar. Həqiqətən, səhabənin də bu mövzuda dedikləri əsas götürülür.

İbnus-Səlah «Ülumul-Hədis» əsərində (səh. 46) demişdir: «Üçüncü hissə: həqiqətən səhabənin [Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - zamanına aid edərək] hər hansı bir ayəni təfsir etməsi «müsnəd» hədisə bənzəyir ki, bu da ayələrin nazil olma səbəbi və s. təfsir elmi ilə əlaqəli olur». Buna Cabir ibn

Abdullahın (r.a) aşağıdakı ayənin nazil olma səbəbi haqqında xəbər verməsini misal göstərmək olar. O demişdir: «Yəhudilər deyərdilər ki, əgər kişi həyat yoldaşı ilə arxa tərəfdən, lakin Allahın halal buyurduğu yerdən cinsi əlaqədə olarsa onun uşağı çəpgöz olar». Uca Allah da, bu ayəni nazil etdi:

«[Ey möminlər!] **Qadınlarınız sizin** [övlad əkdiyiniz] **tarlanızdır. İstədiyiniz kimi öz tarlanıza gəlin!»**[43]

Amma səhabələrin ayələri Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** istinad etmədən təfsir etməsi «məvquf» rəvayət sayılır. Ən doğrusunu isə yalnız Allah bilir!»

Amma tabiinin:[44] «Bu ayə filan səbəbə görə nazil olmuşdur!»- deməsi «mürsəl» rəvayət sayılır. Mühəddislərin rəyinə görə, belə rəvayət yalnız bir neçə isnadla varid olduqdan sonra məqbul sayıla bilər.

**Üçüncüsü,** ibrət, ifadənin varid olmasında deyil, onun ümumi mənasındadır. [Yəni ayə və hədislərdən çıxarılan nəticələr, hər hansı xüsusi səbəblə bağlı olub yalnız səbəbkara şamil edilmir, əksinə bütün nəticələr ayə və hədislərin yalnız mənasından çıxarılır.] Buna dəlil olaraq aşağıdakı hadisəni misal gətirmək olar.

Ənsarlardan biri naməhrəm qadını öpdü və bu ayə nazil oldu:

**«Həqiqətən,** [beş vaxt namaz kimi] **yaxşı əməllər pis işləri yuyub aparar».**[45]

---

[43] [ «əl-Bəqərə» surəsi, 223. ]

[44] [ Səhabələrin ardıcılları. Suyutinin «Tədribu-r-Ravi» əsəri, 2/213; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 202. ]

[45] [ «Hud» surəsi, 114. ]

O, Peyğəmbərə - səllallahu aleyhi və səlləm - dedi: «Ey Allahın elçisi! Bu ayə yalnız mənə aiddir?» - yəni, mənim bu hərəkətim ayənin nazil olmasına səbəb olduğundan, bu ayənin hökmü yalnız mənə aiddir? Peyğəmbər - səllallahu aleyhi və səlləm - ayənin hamıya şamil olunduğunu bəyan etmək üçün ona belə dedi: «Xeyr, əksinə bütün ümmətimə aiddir!»

İslam hüququ qaydalarını öyrənən alimlərin böyük əksəriyyəti bu fikirlə həmrəydirlər. Onlar, müəyyən bir səbəbə görə nazil olmuş ayənin və ya Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - varid olmuş hədisin qətiyyətlə ümumiliyə aid olduğunu dəstəkləyirlər. Onların fikrincə, belə ayə və hədisləri ümumilikdən yalnız onları xüsusiləşdirən dəlillər çıxara bilər. Yalnız imam Malikdən bunun əksi rəvayət olunmuşdur.

Üçüncü bölməyə aid olan məlumatı, Məhəmməd əl-Əmin əş-Şinqitinin «Üsulil-Fiqh» adlı qeydlər dəftərindən (səh. 209-210) nəql etmişəm.

**Dördüncüsü, a)** Müxtəlif səbəblərə görə eyni ayənin nazil olması.

Bu qaydaya dəlil olaraq aşağıda qeyd olunmuş lənət ayəsini[46] və digər ayələri[47] misal göstərmək olar.

**b)** Eyni səbəbə görə müxtəlif ayələrin nazil olması;

Bu qaydaya dəlil olaraq aşağıda qeyd olunmuş Müseyyibin (r.a) rəvayət etdiyi hədisi misal gətirmək olar.

Bu hədisdə xəbər verilir ki, Əbu Talibin ölümqabağı Peyğəmbər - səllallahu aleyhi və səlləm - ona demişdir: «Mənə qadağan

---

46 [ «ən-Nur» surəsi, 6-9-cu ayələrin nazil olma səbəbinə bax. ]

47 [ Misal olaraq «əl-Bəqərə» surəsi, 195-ci ayənin nazil olma səbəbinə bax. ]

olunana qədər sənin uçun bağışlanma diləyəcəyəm!» Uca Allah da bu ayəni nazil etdi:

**«Müşriklərin cəhənnəmlik olduqları** [müsəlmanlara] **bəlli olduqdan sonra, onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz!»**[48]

«[Ya Məhəmməd!] **Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar».**[49]

Ayələrin nazil olma səbəblərini oxuduqca buna aid misallara çox rast gələcəksən.

**Beşincisi,** ayənin nazil olma səbəbinin ya açıq-aydın, ya da ikimənalı formada ifadə olunması.

Ravi hədisi danışarkən ayənin hansı səbəbə görə nazil olduğunu ya açıq-aydın, ya da ikimənalı formada rəvayət edir. Aşağıdakı ifadələr açıq-aydın formada olan rəvayətlərə aiddir:

«Bu ayə filan səbəbə görə nazil olmuşdur», «filan hadisə baş verdi və bu ayə nazil oldu», «Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm –** filan şey barəsində soruşdular və bu ayə nazil oldu».

İkimənalı formada rəvayət olunan hədislərə gəlincə, onlara da aşağıdakı ifadələr aiddir:

«hesab edirəm ki, bu ayə filan şeyə aid nazil olmuşdur», «hesab edirəm ki, bu ayə yalnız filan şeyə görə nazil olmuşdur», «bu ayənin yalnız filan şeyə görə nazil olduğunu hesab edirəm».

---

48 [ «ət-Tövbə» surəsi, 113. ]

49 [ «əl-Qəsəs» surəsi, 56. ]

Doğrusu, ravi bu ifadəni deməklə ayənin hansı səbəbə görə nazil olduğunu qətiyyətlə bildirmir. Bu iki ifadə ya ayənin hər hansı səbəbə görə nazil olmasına ehtimal olunur, ya da başqa bir şey bildirir. Ayələrin ayrı-ayrı izahlarında, yuxarıdakı ifadələrlə rəvayət olunmuş hədislərə rast gələcəksiniz.

Beşinci bölməyə aid olan məlumatı, əl-Qəttaninin «Məbahis fi ulumil-Quran» əsərindən nəql etmişəm.

## Fayda

Quran ayələrindən bəziləri müəyyən səbəblərə görə nazil olmuş, bəziləri isə heç bir səbəbsiz nazil olmuşdur ki, bunlar da, iman və etiqada, İslamda olan vaciblərə və digər şəriət hökmləri ilə əlaqəli məsələlərə aiddir. Elə məni də bu əsəri yazmağa sövq edən əsas iki hadisə olmuşdur. Bir dəfə mən: «Həqiqətən, bu ayənin

**«Onların bəzisi də Allahla belə əhd etmişdi: Əgər Allah bizə Öz nemətindən** [mal-dövlət] **bəxş etsə, biz mütləq sədəqə** [həmin malın zəkatını] **verəcək və sözsüz ki, əməlisa-lehlərdən olacağıq».**[50]- Sə'ləbə ibn Hatibə görə nazil olması ilə bağlı rəvayətlərin hamısı «daif»dir- dedikdə bəziləri məndən bu ayənin digər nazil olma səbəbini xatırlamağımı tələb etdilər.

Həmçinin:

**«Onlar** [Cənnətə nail olacaq müttəqilər elə kimsələrdir ki,] **etdikləri nəziri yerinə yetirər və dəhşəti** [aləmi] **bürüyəcək**

[50] [ «ət-Tövbə» surəsi, 75. ]

[şəri hər tərəfə yayılacaq] **gündən** [qiyamət günündən] **qorxarlar».**[51]

Bu ayənin Əli (r.a) və Fatiməyə (r.a) görə nazil olması ilə bağlı bütün rəvayətlərin «daif» olduğunu dedikdə məndən eyni şeyi tələb etdilər. Bu ayənin Əli (r.a) və Fatiməyə (r.a) görə nazil olması ilə bağlı bütün rəvayətlərin «daif» olduğunu ibn əl-Cövzi «Məuduat» əsərində qeyd etmiş, Suyuti də onu təsdiqləmişdir. Bunu yazmaqda məqsədim budur ki, ayələrin nazil olma səbəbləri ilə məşğul olmayan şəxs, hər bir ayənin müəyyən bir səbəbə görə nazil olduğunu zənn etməsin.

Mənim yazdığım bu qədərdir, bundan da artıq məlumatlar əldə etmək istəyirsənsə onda Suyutinin «İtqan» əsərinə müraciət edə bilərsən.

Allah hörmətli şeyximizdən razı olsun, onun əməyinin əvəzini versin! O, özünü yoraraq buraxdığım xətaları mənə izah etmiş və öz dəqiq mülahizələri ilə mənə yardım göstərmişdir. Allah onun bu əməlinə, övladlarına və malına xeyir-bərəkət əta etsin! Amin!

# Rəhmli, Mərhəmətli Allahın adı ilə!

[51] [ «əl-İnsan» surəsi, 7. ]

# Əl-Bəqərə surəsi

**Uca Allah buyurur:**

**«Vay o şəxslərin halına ki, öz əlləri ilə** [istədikləri kimi] **kitab** [Tövrat] **yazıb, sonra** [onun müqabilində] **bir az pul almaqdan ötrü: «Bu, Allah tərəfindəndir!»- deyirlər. Öz əlləri ilə** [təhrif olunmuş kitab] **yazdıqlarına görə vay onların halına! Qazandıqları şey üçün vay onların halına!» (79-cu ayə)**

İmam Buxari «Xalqu Əf'alil-İbad» əsərində (səh.54) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir:

**«Vay o şəxslərin halına ki, öz əlləri ilə** [istədikləri kimi] **kitab** [Tövrat] **yazıb, sonra** [onun müqabilində] **bir az pul almaqdan ötrü: «Bu, Allah tərəfindəndir!»- deyirlər»** ayəsi kitab əhli üçün nazil olmuşdur.

Bu hədisin isnadında olan Abdurrəhman ibn Alqəmədən başqa ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi mötəbər ravilərdir. Buna baxmayaraq, Nəsai, ibn Hibban və İcli onu da «siqa» ravilərdən biri hesab etmişlər. İbn Şahin deyir ki, ibn Mehdi onun «əsbatus-siqat» ravi olduğunu söyləmişdir. Bax: «Təhzibut-Təhzib» əsərinə.

**Uca Allah buyurur:**

**«Onlara Allah tərəfindən əllərindəkini** [Tövratı və İncili] **təsdiq edən bir kitab** [Quran] **göndərildiyi zaman onu qəbul**

**etmədilər. Halbuki əvvəlcə** [Məhəmməddən qabaq] **kafirlərə** [ərəb müşriklərinə] **qələbə çalmaq üçün** [«Tövratda adı çəkilən axirüzzəman peyğəmbər gəlib bizə yardım edəydi!»-deyə Allaha] **yalvarırdılar. Bildikləri** [peyğəmbər] **gəldikdə isə** [paxıllıq edib] **ona inanmadılar. Allah kafirlərə lənət eləsin!» (89-cu ayə)**

İbn Hişam «Sira» əsərində (1-ci cild, səh.213) demişdir: «İbn İshaq rəvayət edir ki, Asim ibn Ömər ibn Qətadə öz qövmündən olan bir dəstə kişinin ona danışdığı hekayəni mənə rəvayət etdi. Onlar deyirdilər ki, biz müşrik və bütpərəst olarkən «kitab əhli» bizdən daha elmli idi. Bizim İslamı qəbul etməyimizə əsas səbəb də Allahın mərhəməti və hidayətindən sonra yəhudilərdən eşitdiyimiz xəbər oldu.

Bizimlə yəhudilər arasında tez-tez çaxnaşmalar baş verir və hər dəfə biz qalib gəldikdə onlar belə deyirdilər: «Artıq sonuncu peyğəmbərin gəlişi yaxınlaşıb. O gələndə, biz onunla birlikdə sizə qarşı vuruşub Ad və İrəm qövmünün məhv edildiyi kimi sizi məhv edəcəyik». Biz bunu onlardan çox eşidirdik. Allah Öz elçisini göndərdiyi zaman o, bizi İslama dəvət etdi və biz də dərhal onun dəvətini qəbul etdik. Çünki onlar bizi hədələdikləri zaman xatırladıqları peyğəmbərin Məhəmməd - **səllallahu aleyhi və səlləm** – olduğunu yəqin etdik və ona iman gətirdik. Onlar isə ona inanmayıb küfr etdilər. Bizim və onların barəsində bu ayə nazil oldu.

**«Onlara Allah tərəfindən əllərindəkini** [Tövratı və İncili] **təsdiq edən bir kitab** [Quran] **göndərildiyi zaman onu qəbul etmədilər. Halbuki əvvəlcə** [Məhəmməddən qabaq] **kafirlərə** [ərəb müşriklərinə] **qələbə çalmaq üçün** [«Tövratda adı çəkilən axirüzzəman peyğəmbər gəlib bizə yardım edəydi!»-

deyə Allaha] **yalvarırdılar. Bildikləri** [peyğəmbər] **gəldikdə isə** [paxıllıq edib] **ona inanmadılar. Allah kafirlərə lənət eləsin! »**

Bu hədis «həsən»dir, [çünki sənədində olan ibn İshaq «müdəllis»dir və bu rəvayəti o «mənə rəvayət etdi» deməklə Asim ibn Ömərdən eşitdiyini təsdiq etmişdir]. Çünki Zəhəbi «Mizan» əsərində qeyd etmişdir ki, əgər ibn İshaq açıq-aydın «mənə rəvayət etdi»- deyərək rəvayət edərsə hədis «həsən» hesab olunur.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **De: «Kim Cəbrailə düşməndirsə** [onu yaxşı bilsin ki] **həqiqətən, o** [Cəbrail] **özündən əvvəlkiləri** [Tövratı və İncili] **təsdiq edən, möminləri doğru yola yönəldən,** [onlara] **müjdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır** [nazil etmişdir]». **(97-ci ayə)**

İmam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 274) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, yəhudilər Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedilər: «Ey Əbul-Qasim! Həqiqətən, biz səndən beş şey barəsində soruşacağıq. Əgər soruşduqlarımız barəsində bizə xəbər versən, sənin Peyğəmbər olduğunu yəqin edərik və sənin ardınca gələrik». Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** onlardan, İsrail [Yəqub **- aleyhissəlam -**] öz övladlarından and içdirib əhd aldığı kimi əhd aldı. Belə ki, onlar dedilər: «Allah bizim dediklərimizə şahiddir!» Odur ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** buyurdu: «Soruşun!». Onlar dedilər: «Bizə Peyğəmbərin əlaməti haqqında xəbər ver!» O dedi:

«Peyğəmbərin gözləri yatır, qəlbi isə oyaq qalır». Onlar dedilər: «Ana bətnində uşağın hansı səbəbdən qız və ya oğlan olması barədə bizə xəbər ver!» O dedi: «Kişinin belindən və qadının köksündən gələn su bir-birinə qarışdıqda kişidən gələn su üstünlük təşkil etsə oğlan, qadından gələn su üstünlük təşkil etsə qız olar». Onlar dedilər: «İsrailin [Yəqubun - **aleyhissəlam** -] nəyi özünə haram etməyi barədə bizə xəbər ver!» O dedi: «O oturaq sinirindən şikayət edirdi və buna əlac tapmadıqdan sonra dəvə ətini və südünü özünə haram etdi». Onlar bunun doğru olduğunu təsdiq etdikdən sonra dedilər: «Bizə ildırım haqqında xəbər ver!» O dedi: «Bu, Allahın buludları idarə etmək üçün müvəkkəl etdiyi bir mələkdir ki, əlindəki oddan olan «mixraqla»[52] buludları dağıdaraq Allahın əmr etdiyi yerə aparır». Onlar dedilər: «Bəs eşidilən o gurultu nədir? O dedi: «Onun səsidir». Onlar bu xəbəri də təsdiq etdikdən sonra dedilər: «Artıq bir sualımız qaldı. Onun haqqında da bizə xəbər versən, sənə beyət[53] edərik. Hər bir Peyğəmbərə vəhyi çatdıran mələk vardir. Bəs sənin [vəhy çatdıran] dostun kimdir?». O dedi: «Cəbraildir». Onlar dedilər: «Bizim düşmənimiz olan, əzab, ölüm və müharibə gətirən Cəbrail?! Əgər rəhmət, bitgi və yağış gətirən Mikaili desəydin doğru olardı». Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

**«**[Ya Məhəmməd!] **De: «Kim Cəbrailə düşməndirsə** [onu yaxşı bilsin ki] **həqiqətən, o** [Cəbrail] **özündən əvvəlkiləri** [Tövratı və İncili] **təsdiq edən, möminləri doğru yola**

---

[52] [ Mixraq xüsusiyyəti bizə məlum olmayan alətdir. «Nihayətu fi Ğəribil hədis» 2/25. ]

[53] [ Müqavilə bağlayaraq rəhbər seçmək. «Mucəmul Vasit» səh. 79. ]

**yönəldən,** [onlara] **müjdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır** [nazil etmişdir]**».**

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (8-ci cild, səh. 242) demişdir: «Bu hədisi Əhməd və Təbərani rəvayət etmiş və hər iki hədisin mətnini bir-birinə xəbər verən ravilərin hamısı «siqa» ravilərdir.

Həmçinin Əbu Nueym «Hilyə» əsərində (4-cü cild, səh. 305) bu hədisi başqa isnadla qeyd etmişdir. Bu isnadda olan Bukeyr ibn Şihab haqqında ibn Həcər «Təqribut-Təhzib» əsərində demişdir: «məqbul» ravidir. Yəni hədisi nəql edən şəxs o zaman «məqbul» ravi hesab olunur ki, onun rəvayətini gücləndirən başqa rəvayət nəql olunsun. Əks halda isə o, «leyyin» ravi hesab olunur. Bu qaydanı ibn Həcər əsərin müqəddiməsində qeyd etmişdir. Lakin ibn Cərir Təbərinin «Təfsir»ində ibn Abbasdan (r.a) rəvayət olunan bu hədisin bir neçə başqa isnadı da mövcuddur ki, onlardan bəzisini Əhməd ibn Həmbəl «Müsnəd» əsərində qeyd etmişdir.

İmam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh.278) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bir gün bir dəstə yəhudi Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib dedi: «Ey Əbul-Qasim! Yalnız Peyğəmbərlərə məlum olan xüsusiyyətlər haqqında soruşacaqlarımız barəsində bizə xəbər ver!». O dedi: «İstədiyiniz şey barəsində soruşun, ancaq Yəqub - **aleyhissəlam** - övladlarından vəd aldığı kimi siz də Allah qarşısında vəd verin ki, əgər görsəniz dediklərim doğrudur, mənə tabe olub İslam dinini qəbul edəcəksiniz!». Onlar dedilər: «Qoy sən deyən olsun». O dedi: «İstədiyinizi soruşun!». Onlar dedilər: «Dörd xüsusiyyət barəsində bizə xəbər ver: Tövrat nazil

olmamışdan əvvəl İsrail - **aleyhissəlam** - özünə hansı yeməyi haram etmişdi? Kişinin belindən və qadının köksündən gələn suyun keyfiyyəti necədir və necə olur ki, uşaq oğlan olur? Yazıb - oxumağı bacarmayan Peyğəmbər necə yatır və hansı mələk onun sevimli dostudur?

O dedi: «Dediklərinizə doğru cavab versəm Allah qarşısında verdiyiniz vədi yerinə yetirmək və mənə tabe olmaq sizə vacib olacaqdır». Onlar bir daha çoxlu vədlər verdilər. O dedi: «Sizi Tövratı Musaya - **aleyhissəlam** - nazil edən Allaha and verirəm, deyin görək, bilirsinizmi ki, İsrail - Yəqub **aleyhissəlam** - çox şiddətli xəstəliyə tutulmuş və xəstəliyi uzun müddət davam etdiyinə görə Allaha nəzir etmişdir ki, əgər Allah ona şəfa versə, ən sevimli yeməyini və ən sevimli içkisini özünə haram edəcək. Onun ən sevimli yeməyi dəvə əti, ən sevimli içkisi də, onun südü idi». Onlar dedilər: «Allaha And olsun ki, belə olub». O dedi: «Allahım! Sən onların dediklərinə şahid ol! Sizi Tövratı Musaya - **aleyhissəlam** - nazil edən, heç bir şəriki olmayan Allaha and verirəm, deyin görək, bilirsinizmi kişinin belindən gələn su ağ rəngli qatı maye, qadının köksündən gələn su isə sarı rəngli duru mayedir. Bunlardan hansı üstünlük təşkil etsə uşaq da Allahın izni ilə üstünlük təşkil edənin cinsindən olar və ona oxşayar. Kişinin belindən gələn su üstünlük təşkil etsə Allahın izni ilə oğlan uşağı, qadının köksündən gələn su üstünlük təşkil etsə Allahın izni ilə qız uşağı doğular». Onlar dedilər: «Allaha and olsun ki, belədir». O dedi: «Allahım! Sən onların dediklərinə şahid ol! Sizi Tövratı Musaya - **aleyhissəlam** - nazil edən Allaha and verirəm, deyin görək, bilirsinizmi ki, yazıb – oxumağı bacarmayan Peyğəmbərin gözləri yatır, qəlbi isə oyaq qalır». Onlar dedilər: «Allaha and olsun ki, belədir». O dedi: «Allahım! Onların

dediklərinə şahid ol!». Onlar dedilər: «İndi isə mələklərdən hansının sənin sevimli dostun olduğu barədə bizə xəbər ver, bununla da biz ya sənə tabe olaq, ya da səni tərk edək». O dedi: «Həqiqətən, mənim sevimli dostum Cəbraildir - **aleyhissəlam** - və Allah elə bir peyğəmbər göndərməyib ki, Cəbrail - **aleyhissəlam** - onun dostu olmasın». Onlar dedilər: «Bu yerdə səni tərk etməli olacağıq. Əgər sənin dostun o yox başqa bir mələk olsaydı dediyini təsdiq edərdik və sənə tabe olardıq». O dedi: «Sizə, dediyimi təsdiq etməyə mane olan nədir?» Onlar dedilər: «O bizim düşmənimizdir». Bu zaman Uca Allah bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **De: «Kim Cəbrailə düşməndirsə** [onu yaxşı bilsin ki] **həqiqətən, o** [Cəbrail] **özündən əvvəlkiləri** [Tövratı və İncili] **təsdiq edən, möminləri doğru yola yönəldən,** [onlara] **müjdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır** [nazil etmişdir]» ayəsindən **«Allahın kitabına arxa çevirdi»** ayəsinə qədər.[54] Bununla onlar özlərinə qarşı Allahın qəzəbi üstünə bir qəzəb də artırdılar.

Alimlər hədisin sənədində olan Şəhr ibn Həvşəb adlı ravinin etibarlı olub-olmaması barədə ixtilaf etmiş və doğru rəyə əsasən onu hafizəsinin zəifliyinə görə «daif» ravi saymışdılar. Lakin onun rəvayət etdiyi hədislər digər bu kimi rəvayətlərlə birlikdə qüvvəyə minir və mötəbər sayılır. Belə ki, Şəhr ibn Həvşəbin, İbn Abbasdan (r.a) rəvayət etdiyi bu hədisi Tayalisi «Müsnəd» əsərində (2-ci cild, səh.11), ibn Cərir «Təfsir»ində (1-ci cild, səh.431) və ibn Səd «Təbəqat» əsərində (1-ci cild, səh.116) rəvayət etmişlər.

---

[54] [ «əl-Bəqərə» surəsi, 97-101. ]

İbn Cərir bu ayənin Mikaili - **aleyhissəlam** - özlərinə sevimli dost, Cəbraili - **aleyhissəlam** - isə düşmən hesab edən İsrail övladlarından olan yəhudilərə cavab olaraq nazil olması barədə İslam alimlərinin həmrəy olduqlarını rəvayət etmişdir. Elə isə bu həmrəyliyin özü də bir-birini qüvvətləndirən bu iki «daif» rəvayət üçün bir dəstəkdir.[55] Birinci rəvayətin «daif» olması sənədində Bukeyr ibn Şihabin olduğuna görə[56], ikinci rəvayətin «daif» olması isə sənədində Şəhr ibn Həvşəbin olduğuna görədir.

**Uca Allah buyurur:**

**«**[Ey möminlər!] **Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd** [paxıllıq] **üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər. Allahın əmri gəlincəyə qədər** [hələlik] **həmin şəxsləri əfv edin və onları qınamayın** [onlardan üz çevirməyin]**. Şübhəsiz ki, Allah hər şeyə qadirdir!» (109-cu ayə)**

Əbu Şeyx «Əxlaq» əsərində [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Üsamə ibn Zeyd (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - uzunqulağa minib Səd ibn Ubadənin (r.a) yanına getdi və ona dedi: «Eşitdin Əbul-Hubəb, yəni Abdullah ibn Ubey ibn Səlul nə dedi?!» Sonra onun dediklərini Səd ibn Ubadəyə (r.a) xəbər verdi. Səd ibn

---

[55] [ Qeyd etmək istəyir ki, hər iki rəvayət mötəbər sayılır, çünki hər iki sənəd bir-birini tamamlamaqla zəifliyi aradan qaldırır və üstəlik icma da bunu təsdiqləyir. ]

[56] Buxarinin «Tarixul Kəbir» əsəri (2-ci cild səh. 114-115)

Ubadə (r.a) dedi: «Onu əfv et və qınama!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - onu əfv etdi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - və onun səhabələri kitab əhlini və müşrikləri əfv edərdilər və Uca Allah da, bu ayəni nazil etdi:

**«Allahın əmri gəlincəyə qədər** [hələlik] **həmin şəxsləri əfv edin və onları qınamayın** [onlardan üz çevirməyin]**. Şübhəsiz ki, Allah hər şeyə qadirdir!»**

Hədisin sənədində olan ravilərin hamısı «siqa» ravilərdir. Bax: Zəhəbinin «Təzkirətul-Huffaz» əsəri (2-ci cild, səh. 640) və ibn Həcərin «Təhzibut-Təhzib» əsəri. Hədisin əsli, yəni nazil olma səbəbi qeyd olunmadan, Buxarinin «Səhih» əsərində (8-ci cild, səh.78) və həmçinin ibn Kəsirin «Təfsir»ində (1-ci cild, səh.135) yazılıb.

**Uca Allah buyurur:**

**«Məşriq də, məğrib də Allahındır. Hansı tərəfə yönəlsəniz** [üz tutsanız] **Allahın üzü oradadır. Şübhəsiz ki, Allah** [Allahın mərhəməti] **genişdir,** [O, hər şeyi] **biləndir!» (115-ci ayə)**

İmam Muslim «Səhih» əsərində (5-ci cild, səh.209) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - Məkkədən Mədinəyə gedərkən minik üzərində getdiyi istiqamətə tərəf üz tutaraq namaz qıldı və bu vaxt bu ayə nazil odlu:

**«Məşriq də, məğrib də Allahındır. Hansı tərəfə yönəlsəniz** [üz tutsanız] **Allahın üzü oradadır… »**

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 68), Nəsai «Sünən» əsərində (1-ci cild, səh. 196), Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 20) və ibn Cərir «Təfsir»ində (1-ci cild, səh. 503) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu qeyd etmişdir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Yadına sal ki, Biz evi** [Kəbəni] **insanlar üçün savab** [ziyarətgah] **və əmin-amanlıq yeri etdik.** [Ey möminlər!] **«İbrahimin durduğu yeri** [özünüzə] **namazgah edin!» İbrahimə və İsmailə də: «Evimi** [Kəbəni] **təvaf edənlər, orada qalıb həmişə ibadətdə olanlar, rüku və səcdə ilə namaz qılanlar üçün təmizləyin!» - deyə tövsiyə etdik». (125-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (2-ci cild, səh.51) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs (r.a) rəvayət edir ki, Ömər ibn əl-Xəttab (r.a) demişdir: «Mən üç ayədə Rəbbimə müvafiq oldum». Mən: «Ey Allahın elçisi! Bəlkə İbrahimin - **aleyhissəlam-** durduğu yeri özümüzə namazgah edək?»- deyə təklif etdikdə, Uca Allah bu ayəni nazil etdi:

«[Ey möminlər!] **«İbrahimin durduğu yeri özünüzə namazgah edin!».**

Yenə mən: «Ey Allahın elçisi! Bəlkə zövcələrinə hicab geyməyi əmr edəsən?»- deyə təklif etdikdə Uca Allah «Hicab» ayəsini[57] nazil etdi. Həmçinin Peyğəmbər **- səllallahu aleyhi və səlləm -**

[57] [ «əl-Əhzab» surəsi, 53. ]

zövcələrindən narazı olarkən mən onları hədələyib dedim: «Əgər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən də yaxşı sövcələr versin». Bu zaman Uca Allah bu ayəni[58] nazil etdi.

Bu hədisi həmçinin imam Buxari «Təfsir» fəslində (9-cu cild, səh. 235), Muslim «Səhih» əsərində (15-ci cild, səh. 166) başqa ləfz ilə, Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 69) müxtəsər şəkildə, ibn Kəsir «Təfsir»ində Nəsai və ibn Macədən, Təbəri «Təfsir»ində (1-ci cild  səh. 534) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu qeyd etmişdir.

İbn Həcər «Fəthul-Bari» əsərində Buxarinin «Təfsir» fəslində rəvayət etdiyi hədisin şərhində belə demişdir: Onun tədlis etməməsi aydın oldu. [«Yəhya ibn Səidin bu rəvayəti Huşeymin (2-ci cild, səh. 51 olan) rəvayətinin daha mötəbər olmasına bir dəstəkdir. Buxari «Səhih» əsərində bundan başqa iki yerdə əvvəlki hədisi «müəlləq» formada rəvayət etmişdir ki, bunun da faydası isnadda olan Humeydə qayıdır. Belə ki, o, «müdəllis»dir və bu hədisi «Ənəsdən (r.a) eşitdim» deyərək rəvayət etmişdir. Buxarinin digər iki «müəlləq» sənədlə rəvayət etdiyi hədislərində Humeydin «Ənəs (r.a) mənə xəbər verdi» deməsi bu hədisi həqiqətən Ənəsdən (r.a) eşitməsinə dəlalət edir.

**Uca Allah buyurur:**

---

[58] [ «ət-Təhrim» surəsi, 5. ]

«[Mədinədəki yəhudi və münafiqlərdən] **ağılsız adamlar deyəcəklər: «Onları** [əvvəlcə] **üz tutduqları qiblədən** [Beytülməqdisdən] **döndərən nədir?»** [Ya Məhəmməd! Onların cavabında] **de: «Məşriq də, məğrib də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldər». (142-ci ayə)**

Suyuti «Lübabun-Nüqul» əsərində və ibn Kəsir «Təfsir»ində [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] belə deyiblər: «Bəra ibn Azib (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** «Beytülməqdisə» [Qüdsə] tərəf namaz qılır, tez-tez göyə baxıb Allahın əmrini gözləyirdi. Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidülhərama tərəf çevir!»**

Müsəlmanların bir qismi belə dedilər: «Hərgah bilsəydik, ölüb gedənlərin «Beytülməqdis»ə tərəf qıldıqları namazlar necə olacaq?» Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

**«Allah sizin imanınızı** [bundan əvvəl Beytülmüqəddəsə üz tutaraq qıldığınız namazlarınızı] **əvəzsiz buraxmaz».**[59]

Səfehlər isə belə dedilər: «Bunları əvvəlki qiblədən döndərən nədir?». Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

«[Mədinədəki yəhudi və münafiqlərdən] **ağılsız adamlar deyəcəklər: «Onları** [əvvəlcə] **üz tutduqları qiblədən** [Beytülməqdisdən] **döndərən nədir?»** [Ya Məhəmməd!

[59] [ «əl-Bəqərə» surəsi, 143. ]

Onların cavabında] **de: «Məşriq də, məğrib də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldər».**

**Uca Allah buyurur:**

«[Ey müsəlmanlar!] **Beləliklə də, sizi orta** [ədalətli və seçilmiş] **bir ümmət etdik ki, insanların əməllərinə** [qiyamətdə] **şahid olasınız. Peyğəmbər də** [Məhəmməd - səllallahu aleyhi və səlləm - də] **sizə şahid olsun.** [Ya Məhəmməd!] **İndi yönəldiyin qibləni** [Kəbəni] **sənə tabe olanlarla səndən üz çevirənləri bir-birindən ayırd etmək üçün** [qiblə] **təyin etdik. Bu,** [qibləni Beytülməqdisdən Kəbəyə tərəf çevirmək] **ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyildir. Allah sizin imanınızı** [bundan əvvəl Beytülməqdisə üz tutaraq qıldığınız namazlarınızı] **əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə, mehriban və mərhəmətlidir». (143-cü ayə)**

İmam Buxari «Səhih» əsərində (9-cu cild, səh.237) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra ibn Azib (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - 16 və ya 17 ay Beytülməqdisə tərəf namaz qıldı. Lakin o, çox istəyirdi ki, qiblə Kəbəyə tərəf olsun. Bir gün o, camaatla bərabər əsr namazını qıldı. Sonra onunla namaz qılmış səhabələrdən biri çıxdı, məsciddə namaz qılan və rüku halında olan bir qövmün yanından keçərkən dedi: «Allaha and olsun ki, Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - birlikdə Məkkəyə tərəf namaz qıldım». Onlar da namazda ikən Məkkəyə tərəf döndülər.

Qiblə dəyişməmişdən qabaq namaz qılanların və artıq ölüb gedənlərin qıldıqları namazın necə olacağını bilmirdik. Uca Allah bu ayəni nazil etdi:

**«…Allah sizin imanınızı** [bundan əvvəl Beytülməqdisə üz tutaraq qıldığınız namazlarınızı] **əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə mehriban və mərhəmətlidir».**

Hədisi həmçinin imam Buxari «İman» fəslində (1-ci cild, səh. 103), Əbu Davud Təyalisi «Müsnəd» əsərində, (1-ci cild, səh. 85), ibn Səd «Təbəqat» əsərində (1-ci cild, səh. 5) və ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 17) rəvayət etmişlər. İbn Cərir bu hədisi həmçinin ibn Abbasdan da (r.a) rəvayət etmişdir.

İmam Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 70) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Kəbəyə tərəf namaz qılmağa başladıqdan sonra səhabələr dedilər: «Ey Allahın elçisi! Bizim Beytülməqdisə tərəf namaz qılıb, ölüb getmiş qardaşlarımızın halı necə olacaq?». Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

**«Allah sizin imanınızı** [bundan əvvəl Beytülməqdisə üz tutaraq qıldığınız namazlarınızı] **əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə, mehriban və mərhəmətlidir».**

Sonra imam Tirmizi demişdir: «Bu hədis «həsən-səhih»dir.

Bu rəvayətin isnadının mötəbər olmasına şübhə olsa da əvvəlki rəvayətlərlə bir yerdə bu da mötəbər hesab olunur. Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (4-cü cild, səh. 354), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 12) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 269) rəvayət etmişlər.

Hakim bu hədisin isnadının «səhih» olduğunu demiş, Zəhəbi isə bu barədə susmuşdur.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidülhərama tərəf çevir!** [Ey müsəlmanlar!] **Harada olsanız** [namaz vaxtı] **üzünüzü oraya döndərin! Kitab verilmiş ümmətlər bunun öz Rəbbi tərəfindən bir haqq olduğunu yaxşı bilirlər. Allah onların əməllərindən xəbərsiz deyildir». (144-cü ayə)**

İmam Buxari «Səhih» əsərində (2-ci cild, səh. 48) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra ibn Azib (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Beytülməqdisə tərəf 16 və ya 17 ay namaz qıldı. Bununla belə o, Kəbəyə tərəf namaz qılmaq istəyirdi və bu ayə nazil oldu:

«[Ya Məhəmməd!] **Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidülhərama tərəf çevir!** [Ey müsəlmanlar!] **harada olsanız** [namaz vaxtı] **üzünüzü oraya döndərin….»**

O, Kəbəyə tərəf namaz qılmağa başladıqda yəhudilər dedilər: «Öz qiblələrindən onları döndərən nədir?». Uca Allah bu ayəni nazil etdi.

«[Ya Məhəmməd! Onların cavabında] **de: «Məşriq də, məğrib də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldər».**

Səhabələrdən biri Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - birgə namaz qıldıqdan sonra çıxıb getdi və Beytülməqdisə tərəf əsr namazını qılan, ənsarlardan olan bir qövmün yanından keçərkən dedi: «Mən, Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - Kəbəyə tərəf namaz qıldığıma şəhadət edirəm!». Bu qövm də dərhal, namazda ikən Kəbəyə tərəf döndü».

Bu hədisi həmçinin müxtəlif ləfzlərlə Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 79), ibn Macə «Sünən» əsərində (1010-cu hədis), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 274), Daraqutni «Sünən» əsərində (1-ci cild, səh. 274), ibn Kəsir və ibn əbi Hatim «Təfsir»lərində və ibn Səd «Təbəqat» əsərində (4-cü cild, səh. 2) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

İmam Muslim «Səhih» əsərində [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - Beytülməqdisə tərəf namaz qılardı və bu ayə nazil oldu:

**«**[Ya Məhəmməd!] **Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidülhərama tərəf çevir!»**

Sonra səhabələrdən biri, artıq fəcr namazının birinci rəkətini qılmış, rükuda olan «Bənu Sələmə» qövmünün yanından keçərkən dedi: «Həqiqətən, qiblənin istiqaməti [Kəbəyə tərəf] dəyişildi!». Onlar da dərhal həmin istiqamətə tərəf döndülər».

Bu hədisi həmçinin ibn Səd «Təbəqat» əsərində (1-ci cild, səh. 4) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

«[Ey möminlər!] **Həqiqətən Səfa və Mərvə Allahın əlamətlərindəndir** [ibadət nişanələrindəndir]. **Evi** [Kəbəni] **həcc və ya ümrə yolu ilə** [qaydası ilə] **ziyarət edən şəxsin bunları** [Səfa və Mərvəni] **təvaf etməsində** [ətrafına dolanmasında] **heç bir günah yoxdur. Hər kəs** [vacibdən əlavə] **könüllü olaraq yaxşı bir iş görərsə, Allah** [onun etdiyi yaxşı işdən] **razı qalan** [əvəzini verən] **və** [onu] **biləndir». (158-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (4-cü cild, səh. 244) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Urva (r.a) Aişədən (r.a) soruşub dedi: « Bu ayəni görürsən?

«[Ey möminlər!] **Həqiqətən Səfa və Mərvə Allahın əlamətlərindəndir** [ibadət nişanələrindəndir]. **Evi** [Kəbəni] **həcc və ya ümrə yolu ilə** [qaydası ilə] **ziyarət edən şəxsin bunları** [Səfa və Mərvəni] **təvaf etməsində** [ətrafına dolanmasında] **heç bir günah yoxdur…»**

Allaha and olsun ki, heç kəsə Səfa və Mərvəni təvaf etməməkdə günah yoxdur!»

Aişə (r.a) dedi: «Ey bacım oğlu! Sənin dediyin necə də pisdir! Əgər bu ayə sənin dediyin kimi təfsir olunsaydı, əlbəttə onları təvaf etməmək günah sayılmazdı. Lakin bu ayə ənsarlar barəsində nazil olmuşdur. Onlar İslamı qəbul etməmişdən əvvəl ibadət etdikləri Mənatı[60] ziyarət etmək üçün «Müşəlləl»[61]

[60] [ Bütün adıdır. ]

adlanan yerdən yola düşürdülər. Və kim [Mənatı ziyarət etmək üçün] yola düşərdisə Səfa və Mərvəni təvaf etməyi özünə günah sayardı. İslamı qəbul etdikdən sonra isə onlar bu barədə Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** soruşub dedilər: «Ey Allahın elçisi! Biz cahiliyyə dövründə Səfa və Mərvəni təvaf etməzdik». Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

«[Ey möminlər!] **Həqiqətən Səfa və Mərvə Allahın əlamətlərindəndir** [ibadət nişanələrindəndir]. **Evi** [Kəbəni] **həcc və ya ümrə yolu ilə** [qaydası ilə] **ziyarət edən şəxsin bunları** [Səfa və Mərvəni] **təvaf etməsində** [ətrafına dolanmasında] **heç bir günah yoxdur…»**

Aişə (r.a) dedi: «Artıq Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Səfa və Mərvəni təvaf etməyi vacib buyurdu və heç kəs [ziyarət vaxtı] onu tərk edə bilməz».

Sonra mən [yəni Zuhri] bu barədə Əbu Bəkr ibn Abdurrəhmana xəbər verdim və o dedi: «Mən bu haqda heç eşitməmişəm, lakin bir qism alimdən eşitdiyim yalnız odur ki, onlar deyirdilər: «İnsanların hamısı Səfa və Mərvəni təvaf edərdilər». O zaman ki, Uca Allah Kəbəni təvaf etməyi Qurani Kərimdə əmr etdi, Səfa və Mərvə barəsində isə heç nə demədi, onlar dedilər: «Ey Allahın elçisi! Biz, Səfa və Mərvəni təvaf edərdik. Uca Allah da Kəbəni təvaf etmək barəsində ayə nazil etdi, Səfa və Mərvə haqqında isə heç bir şey demədi. Məgər Səfa və Mərvənı təvaf etməyimiz günahdır?». Bu zaman Uca Allah bu ayəni nazil etdi:

«[Ey möminlər!] **Həqiqətən Səfa və Mərvə Allahın əlamətlərindəndir** [ibadət nişanələrindəndir]….**».**

---

[61] [ Məkkə ilə Mədinə arasında yerləşən «Qudeyn» adlı bol suyu olan kəndin yaxınlığındakı təpənin ətəyidir. «Fəthul Bari», 3/630. ]

Əbu Bəkr ibn Abdurrəhman dedi: «Mən bilən bu ayə cahiliyyə dövründə Səfa və Mərvəni təvaf etməyi günah hesab edən və bir də cahilliyə dövründə Səfa və Mərvani təvaf edib, İslama gəldikdən sonra isə Kəbəni təvaf etmək barəsində nazil olan ayəyə əsaslanaraq bunu günah hesab edən iki dəstəyə cavab olaraq nazil olmuşdur».

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (4-cü cild, səh. 364 və 10-cu cild, səh. 236), Muslim «Səhih» əsərində (9-cu cild, səh. 21-24) müxtəsər şəkildə, Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 70), əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 121), Nəsai «Sünən» əsərində (5-ci cild, səh. 190), ibn Macə «Sünən» əsərində (2986-cı hədis), Əhməd «Müsnəd» əsərində (6-ci cild, səh. 144, 162, 227), Malik «Muvatta» əsərində (1-ci cild, səh. 338), Hümeydi «Müsnəd» əsərində (1-ci cild, səh. 107) rəvayət etmişlər.

İmam Buxari (9-cu cild, səh. 242) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, biz Səfa və Mərvəni təvaf etməyi cahiliyyə dövrünə aid olan əməllərdən hesab edirdik və hətta İslama gəldikdən sonra belə bu ayə nazil olana qədər onları təvaf etməzdik».

Bu hədisi həmçinin Muslim (9-cu cild, səh.24) və Tirmizi (4-cü cild, səh.71) rəvayət ediblər.

Tirmizi bu hədisin «səhih» olduğunu demişdir.

Ayənin hər iki hadisəyə görə nazil olmasına mane olan bir səbəb yoxdur.

**Uca Allah buyurur:**

**«Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız.** [Bir-birinizə həddindən artıq yaxınsınız]**. Allah öz nəfsinizə xəyanət edəcəyinizi bilib tövbələrinizi qəbul edərək sizi bağışladı; artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin; ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib-için». (187-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (5-ci cild, səh. 31) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra ibn Azib (r.a) rəvayət edir ki, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** səhabələri oruc tutduqları zaman iftar etməmiş yatsaydılar, sonradan bütün gecəni və növbəti günü axşam düşənə qədər yemək yeməzdilər. [Həmçinin zövcələrilə yaxınlıq etməz və su da içməzdilər].

Qeys ibn Sirmə əl-Ənsari (r.a) bir gün iftar zamanı gəlib zövcəsinə dedi: «Yeməyə bir şey varmı?» o dedi: «Xeyr, ancaq bu dəqiqə bir şey hazırlayaram». O, gün ərzində çox işlədiyi üçün [yorğunluğa dözmədi və] yuxu onu üstələdi. Qayıdıb onu bu vəziyyətdə görən həyat yoldaşı ona dedi: «Sən ziyana uğradın!». Günorta üstü o huşunu itirdi və bu barədə Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** söylədi. Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

**«Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız.** [Bir-birinizə həddindən artıq yaxınsınız]**. Allah öz nəfsinizə xəyanət edəcəyinizi bilib tövbələrinizi qəbul edərək sizi bağışladı; artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin; ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib-için».** Bu ayə nazil olduqdan sonra səhabələr çox sevindilər.

Bu hədisi həmçinin imam Buxari «Təfsir» fəslində (8-ci cild, səh. 30), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh.265), Nəsai «Sünən» əsərində (4-cü cild, səh.121), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh.295), Darimi «Sünən» əsərində (2-ci cild, səh. 5) rəvayət etmişlər. Lakin bu rəvayətdə xüsusi qeyd olunur ki, oruc ayəsi nazil olduqda səhabələr bütün Ramazan ayını qadınları ilə yaxınlıq etməzdilər. Onlardan bəziləri isə nəfslərinə xəyanət edirdilər və Uca Allah bu ayəni nazil etdi:

**«Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız.** [Bir-birinizə həddindən artıq yaxınsınız]**. Allah öz nəfsinizə xəyanət edəcəyinizi bilib tövbələrinizi qəbul edərək sizi bağışladı; artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin; ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib-için».**

Bu iki rəvayətdən bizə aydın olur ki, ayə hər iki səbəbə görə nazil olmuşdur.

**Uca Allah buyurur:**

**«Sübh açılınca» (187-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (5-ci cild, səh.35) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səhl ibn Səd (r.a) rəvayət edir ki: **«ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için»** ayəsi nazil olanda, **«sübh açılınca»** ifadəsi hələ nazil olmamışdı. Səhabələrdən bəziləri oruc tutmaq istədikdə ayaqlarına ağ və qara sap bağlayar, onların rəngi aydın seçilənə qədər yeyib-içərdilər. Odur ki, Uca Allah:

**«sübh açılınca»** ayəsini nazil etdi. Bundan sonra onlar başa düşdülər ki, Uca Allah ağ sap qara sap dedikdə gündüz və gecəni qəsd edir».

Bu hədisi həmçinin imam Buxari «Təfsir» fəslində (8-ci cild, səh. 31), Muslim «Səhih» əsərində (7-ci cild, səh. 220) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Evlərinizə** [Cahiliyyət dövründə olduğu kimi] **arxa tərəfdən girməniz yaxşı iş deyildir. Yaxşı iş insanın** [pis əməllərdən] **çəkinməsidir. Evlərə qapılarından daxil olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!» (189-cu ayə)**

İmam Buxari «Səhih» əsərində (4-cü cild, səh.370) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra ibn Azib (r.a) deyir ki, bu ayə bizim üçün [ənsarlara] nazil olub. Ənsarlar həcc ziyarətindən qayıtdıqdan sonra evlərinə qapılardan yox, əksinə, arxa tərəfdən daxil olardılar. Lakin onlardan biri evinə qapısından daxil oldu və buna görə də başqaları onu danladılar. Uca Allah bu ayəni nazil etdi:

**«Evlərinizə** [Cahiliyyət dövründə olduğu kimi] **arxa tərəfdən girməniz yaxşı iş deyildir. Yaxşı iş insanın** [pis əməllərdən] **çəkinməsidir. Evlərə qapılarından daxil olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!»**

Bu hədisi həmçinin imam Buxari «Təfsir» fəslində (9-cu cild, səh. 249), Muslim «Səhih» əsərində (18-ci cild, səh. 161), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 12) rəvayət etmişlər.

Hakim «Mustədrək» əsərində (1-ci cild, səh.483) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, «o zaman Qüreyş qəbiləsi Hims əhli adlanırdı. Onlar həcc vaxtı [niyyət edib ihrama daxil olduqdan sonra] evlərinə qapılarından daxil olardılar. Ənsarlar və digər ərəblər isə həcc vaxtı [niyyət edib ihrama daxil olduqdan sonra] evlərinə qapılarından daxil olmazdılar. Bir dəfə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bağda idi. O, Qatiyyə ibn Amir əl-Ənsari (r.a) ilə bir yerdə qapıdan çıxdı və onlar dedilər: «Ey Allahın elçisi! Qatiyyə ibn Amir (r.a) günahkardır, çünki səninlə bir yerdə bağın qapısından çıxdı». O - **səllallahu aleyhi və səlləm** - dedi: «Bunu etməyə səni nə vadar etdi?» Qatiyyə (r.a) dedi: «Sənin belə etdiyini gördüm mən də belə etdim». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Axı mən Hims əhlindənəm?» O dedi: «Dinimiz ki birdir!» Uca Allah da bu ayəni nazil etdi:

**«Evlərinizə** [Cahiliyyət dövründə olduğu kimi] **arxa tərəfdən girməniz yaxşı iş deyildir. Yaxşı iş insanın** [pis əməllərdən] **çəkinməsidir. Evlərə qapılarından daxil olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!»**

Hakim deyir ki, bu hədis Buxari və Muslimin şərtlərinə görə «səhih»dir, lakin onlar hədisi bu əlavə ilə rəvayət etməmişlər.

Əbul Cəvab əl-Əhvəs ibn Cəvab və Ammar ibn Zureyq Buxarinin əsaslandığı ravilərdən deyildir. Bu hədis yalnız Muslimin şərtinə görə rəvayət olunub. İbn Həcər «Fəthul Bari» əsərində (4-cü cild, səh. 371) demişdi: «Bu hədisin isnadı Muslimin şərtinə uyğun olmasına baxmayaraq hədis alimləri,

ravilər arasında bağlılığın olub-olmadığı barədə ixtilaf etmişlər».

**Uca Allah buyurur:**

«[Malınızı] **Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq** [ehsan] **edənləri sevir». (195-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (9-cu cild, səh. 251) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Hüzeyfə ibn əl-Yəmən (r.a) rəvayət edir ki, bu ayə Allah yolunda xərcləmək barəsində nazil olub».

İmam Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 72) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əsləm əbu İmran ət-Tucibi deyir ki, biz Rumda olarkən rumlular bizə qarşı böyük bir qoşun çıxardılar. Biz müsəlmanların sayı isə onlar qədər və ya onlardan da bir az artıq idi. Misirdən olan camaata Uqbə ibn Amir, digər camaata isə Fədalə ibn Ubeyd başçılıq edirdi. Bu vaxt müsəlmanlardan biri rumluların üzərinə hücum edib özünü qoşunun içərisinə atdı. Müsəlmanlar isə qışqırıb dedi: «Sübhanəllah! O öz əli ilə özünü təhlükəyə atdı!» Bunu eşidən Əbu Əyyub əl-Ənsari (r.a) qalxıb dedi: «Ey insanlar! Siz bu ayəni beləmi izah edirsiniz? Halbuki bu ayə biz ənsarlara aid nazil olmuşdur. Uca Allah İslam dinini izzətləndirən və bu dinin köməkçiləri çoxalan zaman, biz Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** gizlin bir-birimizə dedik: «Doğrudan da var-dövlətimiz azalıb. Artıq Uca Allah İslam dinini izzətləndirib və bu dinin köməkçiləri də çoxalıb. Odur ki, var-dövlətimizi

xərcləməyib saxlasaq və əskilmiş olanı bərpa etsək yaxşı olar». Bu vaxt Uca Allah bizə cavab olaraq Öz Peyğəmbərinə - **səllallahu aleyhi və səlləm** - bu ayəni nazil etdi:

«[Malınızı] **Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq** [ehsan] **edənləri sevir».**

Təhlükə isə var-dövləti xərcləməyib saxlamaqda, əskilmiş olanı bərpa eməkdə və Allah yolunda olan cihadı tərk etməkdə idi. Əbu Əyyub əl-Ənsari (r.a) isə Rum torpağında dəfn olunana qədər Allah yolunda canı və malı ilə əzmkarlıq göstərdi».

Bu hədis «həsən, ğərib, səhih»dir.

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində rəvayət etmiş, lakin «digər camaata isə Fədalə ibn Ubeyd başçılıq edirdi» ifadəsini «digər camaata isə Abdurrəhman ibn Xalid ibn Valid (r.a) rəhbərlik edirdi» ifadəsi ilə əvəz etmişdir.

Tirmizinin rəvayət etdiyi hədisi həmçinin ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 401) qeyd olunduğu kimi), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 13), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 275) rəvayət etmişlər.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demişdir.

Zəhəbi isə bu hədisin hökmü barədə susmuşdur.

İmam Buxari və Muslim Əsləm əbu İmrandan hədis rəvayət etməmişlər və bu hədis də onların şərtlərinə uyğun deyildir. Buna baxmayaraq Əsləm əbu İmran «siqa» ravidir. «Təhzibut-Təhzib» əsərinə bax.

Təbərani «Mucəmul Kəbir» əsərində (22-ci cild, səh. 390) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Cubeyra ibn əd-Dahhak rəvayət edir ki, ənsarlar Allah yolunda çoxlu sədəqə verirdilər. Onlara qıtlıq üz verdikdə isə var-dövlətlərini xərcləməyib saxladılar və Uca Allah da, bu ayəni nazil etdi:

«[Malınızı] **Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq** [ehsan] **edənləri sevir».**

Əbu Cubeyranın səhabə olması isbat olunduğu təqdirdə hədis «səhih» hesab olunur. Onun haqqında inşəallah «əl-Hucurat» surəsinin izahında danışacağam.

Təbərani «Mucəmul Kəbir» və «Mucəmul Əvsət» əsərlərində [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Numən ibn Bəşir rəvayət edir ki, müsəlmanlardan biri günah edib, «Allah məni bağışlamayacaq!» dedikdən sonra Uca Allah bu ayəni nazil etdi.

**«Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq** [ehsan] **edənləri sevir».**

Hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

İbn Həcər «Fəthul Bari» əsərində (9-cu cild, səh. 251) Bəra ibn Azibdən (r.a) rəvayət olunan hədisin şərhində demişdir: «Bu ayə «[Malınızı] **Allah yolunda xərcləyin» -** ifadəsilə başladığı üçün onun nazil olma səbəbinin Allah yolunda sədəqə verməklə bağlı olması daha doğrudur».

Mənim fikrimcə Numən ibn Bəşir (r.a) və Bəra ibn Azibin (r.a) «səhih» rəvayətlərini ləğv etməyə lüzum yoxdur, çünki bu ayə həm Allah yolunda cihadı tərk edib paxıllığından sədəqə verməyənə, həm də günah iş görüb Allahın onu bağışlamayacağını zənn edənə aiddir. Daha doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

**«Allahdan ötrü həcc və ümrə** [kiçik həcc] **əməllərini tam yerinə yetirin, əgər arada sizə maneçilik olarsa,** [sizə] **müyəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə** [Minaya] **çatıncaya qədər başınızı qırxdırmayın». (196-cı ayə)**

Təbərani «Məcməul-Bəhreyn min Zəvaidil-Mucəmeyn» əsərində (2-ci cild, səh. 141) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Yə'lə ibn Ümeyyə (r.a) rəvayət edir ki, o Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedi: «Ey Allahın elçisi, ümrə ziyarətini necə yerinə yetirim!» Uca Allah bu ayəni nazil etdi:

**«Allah üçün həcc və ümrə** [kiçik həcc] **əməllərini tam yerinə yetirin, əgər arada sizə** [ora çatmağa] **maneçilik olarsa,** [sizə] **müyəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə** [Minaya] **çatıncaya qədər başınızı qırxdırmayın».**

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Ümrə barəsində soruşan kim idi?» Yə'lə : «mən» - deyə cavab verdikdə, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Paltarını dəyiş, bacardığın qədər yuyunub təmizlən [ihram paltarını gey] və sonra həccdə etdiyini ümrədə də et!»

Bu hədis Buxarinin «Səhih» əsərində ayə qeyd olunmadan rəvayət olunmuşdur.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (3-cü cild, səh. 205) hədisi Yə'lə ibn Ümeyyəyə (r.a) istinad edib demişdir: «Bir kişi (r.a) ihram paltarını geyindikdən sonra onu ətirləyib Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəldi…..» sonra bu hədisi əvvəlki hədis kimi axıra qədər rəvayət etdi».

Təbərani bu hədisi «Mucəmul Əvsətdə» mötəbər isnadla rəvayət etmişdir.

İbn Həcər isə bu hədisi «Fəthul Bari» də qeyd etdikdən sonra hökmü barədə susmuşdur.

Qaldı ki, İbn Kəsirin bu hədisə təəccüblənməsinə, buna heç bir gərək yoxdur, çünki Təbəraninin rəvayət etdiyi bu hədisdəki «Uca Allah

**«Allah üçün həcc və ümrə** [kiçik həcc] **əməllərini tam yerinə yetirin…»** ayəsini ona - səllallahu aleyhi və səlləm - nazil etdi»- ifadəsi Buxari və Muslimin rəvayət etdiyi «Sonra ona - səllallahu aleyhi və səlləm - vəhy nazil oldu» rəvayətini açıqlayır. İbn Əbi Hatimin istinadla Səfvan ibn Ümeyyədən gətirdiyi rəvayətin əsli, Səfvan ibn Yə'lə ibn Ümeyyənin atasından rəvayət etdiyi kimi izah olunur. Elə bu sonuncu isnadla da Buxari, Muslim, Təbərani və başqaları hədis əsərlərində bu hədisi rəvayət etmişlər».

**Uca Allah buyurur:**

**«Əgər** [ihramda ikən, ziyarət zamanı] **sizdən xəstələnən və yaxud başından əziyyət çəkən** [başında xəstəlik] **olarsa** [o kimsə başını qırxdırıb] **fidyə olaraq** [üç gün] **oruc tutmalı və ya** [altı miskinə] **sədəqə verməli, yaxud da bir qurban kəsmə-**

**lidir.** [Maneçiliyin aradan qalxmasına] **əmin olduqda isə həcc vaxtına qədər ümrə ziyarətindən istifadə edən şəxs müyəssər etdiyi bir heyvan kəsməlidir. Qurbanlıq tapmayanlar bunun əvəzində həcc ziyarəti günlərində üç gün və** [vətəninə] **qayıdandan sonra yeddi gün oruc tutmalıdır ki, bu da tam on gün edər. Bu** [Ümrə ziyarəti]**, ailəsi məscidülhəramda** [Məkkədə və ətrafında] **sakin olmayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allahın əzabı şiddətlidir». (196-cı ayə)**

Buxari «Səhih» əsərində (4-cü cild, səh. 387) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Kə'b ibn Ucra (r.a) deyir ki, Hüdeybiyyədə[62] Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanında dayanmışdım və saçımda çoxlu bit var idi. O dedi: «Bitlər sənə əziyyət verirmi?» Mən: «bəli» - deyə cavab verdim. O mənə dedi: «Saçını qırx!». Bu zaman mənim barəmdə Uca Allah bu ayəni nazil etdi:

**«Əgər** [ihramda ikən, ziyarət zamanı] **sizdən xəstələnən və yaxud baş ağrısına tutulub əziyyət çəkən olarsa…»**

Sonra Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Ya üç gün oruc tut, ya altı kasıba xırda-xuruşdan sədəqə ver, ya da imkanın çatan qurbanı kəs!»

Bu hədisi həmçinin İmam Buxari «Təfsir» fəslində (9-cu cild, səh. 252), «Məğazi» fəslində (8-ci cild səh. 451, 463), Muslim «Səhih» əsərində (8-ci cild, səh. 119, 120), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 73), əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 111), İbn Macə «Sünən» əsərində (3079-cu hədis), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 231, 242,

---

[62] [ Hüdeybiyyə quyunun adıdır. Elə buna görə də o vadiyə Hüdeybiyyə adı verilmişdir. «Fəthul Bari» 7/506. ]

243), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 13), Daraqutni «Sünən» əsərində (2-ci cild, səh. 298), və ibn Cərir «Təfsir»ində rəvayət etmişlər. Tirmizi deyir ki, bu hədis «həsən-səhih»dir.

**Uca Allah buyurur:**

«**Həccin vaxtı məlum olan aylardır** [şəvval, zülqədə ayları və zülhiccənin birinci on günü]**.** [Həmin aylarda] **həcc ziyarəti vacib olan** [həcci özünə vacib bilən] **şəxsə həccdə olarkən** [qadınla] **yaxınlıq, söyüş söyüb pis sözlər danışmaq, dava-dalaş etmək yaramaz. Allah gördüyünüz hər bir yaxşı işi bilir.** [Həcc və ya axirət üçün] **tədarük görün. Ən yaxşı tədarük** [azuqə] **isə təqvadır** [pis əməllərdən çəkinməkdir]**. Ey ağıl sahibləri, Məndən qorxun!». (197-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (4-cü cild, səh. 127) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Yəmən əhli həccə gedərkən özləri ilə yol azuqəsi götürməzdilər və belə deyərdilər: «Biz Allaha təvəkkül edirik». Mədinəyə gəlib çatdıqdan sonra isə dilənərdilər. Uca Allah da bu ayəni nazil etdi:

«[Həcc və ya axirət üçün] **tədarük görün. Ən yaxşı tədarük** [azuqə] **isə təqvadır** [pis əməllərdən çəkinməkdir]**. Ey ağıl sahibləri, Məndən qorxun!».**

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 75) və ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 279) rəvayət etmişlər. İbn Kəsir və Şəvkani demişdir ki, bu hədisi Abd ibn Humeyd və Nəsai rəvayət etmişdir.

**Uca Allah buyurur:**

«[Həcc mövsümündə] **Rəbbinizdən** [ticarətlə] **ruzi diləməniz sizin üçün günah deyildir. Ərəfatdan qayıdarkən Məşərülhəramda Allahı xatırlayın. Sizi doğru yola yönəltdiyi üçün Onu yada salın** [Ona dua edin]**, çünki siz bundan əvvəl** [doğru yolu] **azanlardan idiniz!». (198-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (5-ci cild, səh. 224) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, cahiliyyə dövründə Ukaz, Məcənnə və Zül-Məcaz ticarət mərkəzləri idi. İslam gəldikdən sonra isə günah qazanmamaq üçün tövbə edib o yerlərdə ticarət etməkdən əl çəkdilər və Uca Allah bu ayəni nazil etdi:

«Həcc mövsümündə[63] **Rəbbinizdən** [ticarətlə] **ruzi diləməniz sizin üçün günah deyildir…».**

Bu hədisi həmçinin İmam Buxari «Təfsir» fəslində (9-cu cild, səh. 252), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 75), Hakim «Mustədrək» əsərində (1-ci cild, səh. 449 və 2-ci cild, səh. 277) və ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 273) rəvayət etmişlər.

Hakim bu hədisin Buxari və Muslimin şərtinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiq etmişdir.

Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh.75) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Umamə ət-Teymi deyir ki, mən, həcc mövsümündə muzdla pul qazanırdım. Camaat isə bu əməlimə görə həccimin qəbul olmayacağını deyirdilər. Mən ibn Öməri (r.a) görüb dedim: «Ey Əbu

---

[63] [ «Həcc mövsümündə» ifadəsi ibn Abbasın (r.a) əlavəsidir, Qurandan deyildir. «Fəthul Bari» 8/34. ]

Abdurrəhman! Mən həcc mövsümündə muzdla pul qazanıram. Camaat isə bu əməlimə görə həccimin qəbul olmayacağını deyir?» İbn Ömər (r.a) dedi: «Sən ihram geyirsən? Təlbiyə edirsən? Kəbəni təvaf edirsən? Ərəfadan [Müzdəlifəyə] yollanırsan? Şeytana daş atırsan?» Mən onun bütün suallarına: «bəli» - deyə cavab verdikdə o dedi: «Həccin doğrudur. Belə ki, bir kişi Peyğəmbərin - səllallahu aleyhi və səlləm – yanına gəldi və sənin mənə verdiyin bu sualı ona verdikdə o susdu və Uca Allah bu ayəni nazil etdi:

«Həcc mövsümündə[64] **Rəbbinizdən** [ticarətlə] **ruzi diləməniz sizin üçün günah deyildir…».**

Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - bu ayəni ona bildirmək üçün bir nəfəri onun yanına göndərdi və həccinin qəbul olduğunu ona bildirdi».

Bu hədis «səhih»dir.

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 155), Daraqutni «Sünən» əsərində (2-ci cild, səh. 292) və ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 282) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Sonra camaatın döndüyü yerdən siz də dönün! Allahdan bağışlanmaq diləyin, şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir!». (199-cu ayə)**

İmam Buxari «Səhih» əsərində (3-cü cild, səh. 515) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Urva (r.a) deyir ki,

---

[64] [ «Həcc mövsümündə» ifadəsi ibn Abbasın (r.a) əlavəsidir, Qurandan deyildir. «Fəthul Bari» 8/34. ]

cahiliyyə dövründə Humsdən – Qüreyş tayfası və onun törəmələrindən - başqa hamı Kəbənin ətrafını lüt təvaf edirdi. Humslular savab qazanmaq məqsədilə təvaf edən insanlara paltar verirdilər. Onların kişiləri kişilərə, qadınları da qadınlara paltar verir və bu paltarda da təvaf edirdilər. Humslular kimə paltar verməsəydi o şəxs lüt təvaf edirdi. O zaman camaat Ərəfadan, Humslular isə Müzdəlifədən dönürdü. Aişə (r.a) deyir ki, Humsa görə bu ayə nazil oldu:

**«Sonra camaatın döndüyü yerdən sizdə dönün!»** və onlar da Ərəfadan dönməyə başladılar.

Buxari «Səhih» əsərində (8-ci cild, səh. 186) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, o zamanlar Qüreyş və onların dinindən olanlar Müzdəlifədə dayanardılar. Onları «Hums» adlandırırdılar. Digər ərəblər isə Ərəfada dayanardılar. İslam dini gəldikdən sonra isə Uca Allah peyğəmbərinə **- səllallahu aleyhi və səlləm -** Ərəfaya gəlib orada dayanmağı, sonra oradan dönməyi əmr etdi. Uca Allah bu ayədə belə buyurur:

**«Sonra camaatın döndüyü yerdən sizdə dönün!»**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (8-ci cild, səh. 197), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 132), Tirmizi «Sünən» əsərində (3-cü cild, səh. 625), Nəsai «Sünən» əsərində (5-ci cild, səh. 255), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 13), ibn Hibban «Məvaridiz-Zəman» əsərində (səh. 425) və ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 291) rəvayət etmişlər. Lakin ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 292) istinad edərək ibn Abbasdan (r.a) rəvayət etdiyi hədis «daif»dir, çünki hədisin

silsiləsində olan ravilərdən biri - Hüseyn ibn Abdullah «daif» ravidir.

**Uca Allah buyurur:**

**«İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda** [Allah rizası üçün] **öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!». (207-ci ayə)**

İmam Əbu Abdullah Hakim «Mustədrək» əsərində (3-cü cild, səh. 398) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İkrimə rəvayət edir ki, Süheyb (r.a) Məkkədən Mədinəyə hicrət[65] etdikdə Məkkə əhli onu təqib etməyə başladı. O, ox qabını götürüb içərisindən qırx ədəd ox çıxardı və dedi: «Mənə yaxın gəlsəniz, hər birinizə bir ox vuraram, sonra qılıncımı çıxarıb vuruşaram və mənim mərd olduğumu görərsiniz. Artıq mən, Məkkədə iki kölə qadın tərk etmişəm, qoy onlar sizin olsun!» Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** bu ayə nazil oldu.

**«İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda** [Allah rizası üçün] **öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!»** Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** Süheybi (r.a) gördükdə: «Əbu Yəhya ticarətdə [canını fəda etməklə] qazanc əldə etdi!»- deyib bu ayəni ona oxudu.

---

[65] [ Hicrət- lüğətdə tərk etmək, istilahi mənada isə Allahın qadağan etdiyi şeyləri tərk etmək deməkdir. Hicrət iki qisimdir: təhlükəli yerdən əmin-amanlıq olan yerə və küfr olan yerdən iman olan yerə hicrət. «Fəthul-Bari» 1/23. ]

Hakim bu hədisi həmçinin istinadla Ənəsdən (r.a) də rəvayət etmiş və demişdir: «Bu hədis Muslimin şərtinə görə «səhih»dir.

Bu hədisin əksər isnadlarının «mürsəl» olması ibn Həcərin «İsabə» əsərində (2-ci cild, səh. 188) və ibn Sə'din «Təbəqat» əsərində (3-cü cild, səh. 162-163) qeyd olunmuşdur. Bu isnadların hamısı bir-birini qüvvətləndirərək hədisin sabit olmasına dəlalət edir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Səndən içki və qumar** [meysir] **haqqında soruşanlara söylə: «Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət** [dünya mənfəəti] **vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür». (219-cu ayə)**

Bu ayənin nazil olma səbəbinə dair hədis «əl-Maidə» surəsində, 90-91-ci ayələrin nazil olma səbəbində qeyd olunacaq. Bu ayənin nazil olma səbəbinə dair Əbu Meysərə Amr ibn Şərəhbilin Ömərdən (r.a) rəvayət etdiyi hədisə rast gəldim, lakin onun bu hədisi Ömərdən (r.a) eşitmədiyini Əbu Zuranın xəbər verməsi ilə təsdiq etdikdən sonra burada qeyd etmədim.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Səndən heyz** [aybaşı] **barəsində sual edənlərə söylə ki; «Heyz əziyyətli bir haldır. Heyz zamanı qadınlardan kənar olun, heyzdən təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən** [buyurduğu qayda üzrə] **onlara yaxınlaşın!» Allah** [günahından] **tövbə edənləri, təmiz və pak olanları sevər!». (222-ci ayə)**

Muslim «Səhih» əsərində (3-cü cild, səh. 203) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs (r.a) rəvayət edir ki, yəhudilər, qadınları heyz olduqda onlarla bir yerdə çörək yeməz və cinsi əlaqəyə girməzdilər. Səhabələr bu haqda Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - soruşduqda Uca Allah bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Səndən heyz** [aybaşı] **barəsində sual edənlərə söylə ki; «Heyz əziyyətli bir haldır. Heyz zamanı qadınlardan kənar olun, heyzdən təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən** [buyurduğu qayda üzrə] **onlara yaxınlaşın!»**

Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Qadınlarınızla cinsi əlaqədən başqa istədiyinizi edin!» Bu xəbər yəhudilərə çatdıqda onlar dedilər: «Bu adam hər bir işdə bizim etdiklərimizin əksini edir!». Useyd ibn Hudeyr (r.a) və Abbad ibn Bişr (r.a) onların dediklərini peyğəmbərə - səllallahu aleyhi və səlləm - xəbər verib dedilər: «Bəs cinsi əlaqəyə girməkdə onlara müxalif olmayaq?» Peyğəmbərin - səllallahu aleyhi və səlləm - sifəti dəyişdi və biz elə zənn etdik ki, o, bu iki nəfərə qəzəbləndi. Sonra onlar çıxıb getdilər. Bu vaxt onlar üçün hədiyyə olaraq Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına bir qab süd gətirdilər. O da bu südü onların ardınca göndərdi. Onlar da Peyğəmbərin - səllallahu aleyhi və səlləm - onlara acığı tutmadığını başa düşdülər».

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 74), əbu Davud «Sünən» əsərində (1-ci cild, səh. 107), Nəsai «Sünən» əsərində (1-ci cild, səh. 125; 135), ibn Macə

«Sünən» əsərində (644-cü hədis), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 246) və Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 14) rəvayət etmişlər. Tirmizi demişdir ki, bu hədis «həsən-səhih»dir.

**Uca Allah buyurur:**

«[Ey möminlər!] **Qadınlarınız sizin** [övlad əkdiyiniz] **tarlanızdır. İstədiyiniz kimi öz tarlanıza yaxınlaşın! Özünüz üçün qabaqcadan yaxşı əməllər hazırlayın! Allahdan qorxun və** [qiyamət günü] **Onun hüzuruna gedəcəyinizi bilin!** [Ya Məhəmməd!] **İman gətirənlərə** [Cənnətlə] **müjdə ver!». (223-cü ayə)**

İmam Buxari «Səhih» əsərində (9-cu cild, səh. 257) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, yəhudilər belə deyirdilər: «Qadına arxa tərəfdən yaxınlaşıb [Allahın buyurduğu yerdən] cinsi əlaqədə olduqda, doğulan uşaq çəpgöz olur. Uca Allah bu ayəni nazil etdi:

«[Ey möminlər!] **Qadınlarınız sizin** [övlad əkdiyiniz] **tarlanızdır. İstədiyiniz kimi öz tarlanıza yaxınlaşın!».**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (10-cu cild, səh. 6-7)[66], Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 75), əbu Davud

---

[66] No'mən ibn Raşidin bu rəvayətə etdiyi «istər üzü üstə, istərsə də arxası üstə uzanmış vəziyyətdə olan qadınla yalnız icazə verilən yerdən cinsi əlaqədə olmaq» əlavə isə mötəbər sayılmır, çünki o, zəif ravilərdəndir. Bu əlavənin zəif olduğunu ibn Həcər «Fəthul-Bari» əsərində (8-ci cild, səh.40) qeyd etmişdir.

«Sünən» əsərində (2-ci cild, səh. 215), ibn Macə «Sünən» əsərində (1925-ci hədis) və Humeydi «Müsnəd» əsərində (2 ci cild, səh. 532) rəvayət etmişlər.

Tirmizi demişdir ki, bu hədis «həsən-səhih»dir.

İmam Əhməd «Müsnəd» əsərində (6-ci cild, səh. 305) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdurrəhman ibn Sabit rəvayət edir ki, mən, Həfsə bint Abdurrəhmanın yanına gəlib dedim: «Mən səndən bir məsələ barəsində soruşmaq istəyirəm, ancaq utanıram». O dedi: «Ey qardaşım oğlu, utanma soruş!» Mən ondan arxa tərəfdən [Allahın halal buyurduğu yerdən] qadınlara yaxınlaşmaq barədə soruşduqda o dedi: «Ummu Sələmə (r.a) mənə rəvayət edib ki, ənsarlar öz qadınlarına arxa tərəfdən yaxınlaşıb cinsi əlaqədə olmazdılar. Yəhudilər də belə deyərdilər: «Arxa tərəfdən qadına yaxınlaşdıqda doğulan uşaq çəpgöz olur». Muhacirlər Mədinəyə gəldikdən sonra onlardan ənsar qadınlarıyla evlənənlər oldu. Onlar qadınlarına arxa tərəfdən yaxınlaşmaq istədikdə ənsar qadınları buna yol verməyib dedilər: «Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - soruşmayana qədər bunu etməyəcəksiniz!». Qadınlardan biri Ummu Sələmənin (r.a) yanına gəlib bu barədə ondan soruşdu. O dedi: «Otur gözlə! Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - gələndə ondan soruşarsan». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - gələndə qadın bu sualı ona verməyə utandı və bayıra çıxdı. Ummu Sələmə (r.a) özü bu barədə Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - soruşduqda o, əmr etdi ki, həmin qadını çağırsınlar. Sonra o bu ayəni ona oxudu;

«[Ey möminlər!] **Qadınlarınız sizin** [övlad əkdiyiniz] **tarlanızdır. İstədiyiniz kimi öz tarlanıza yaxınlaşın!».** Allahın buyurduğu yerdən.

Ummu Sələmənin (r.a) hədisinin zahiri mənası Cabir ibn Abdullahın (r.a) hədisinə ziddir. Hər iki hədisin «səhih» olmasına baxmayaraq, Cabirin (r.a) hədisi Buxari və Muslimin «Səhih» əsərlərində rəvayət olunduğuna görə daha mötəbər sayılır. Həmçinin Həfsə bint Abdurrəhmanın «siqa» ravi olduğunu yalnız İcli və ibn Hibban qeyd etmişlər. Onlar isə «mütəsahil»dirlər.

Qaldı ki, «Fəthul-Bari» əsərində (9 cu cild, səh. 255-256) ibn Ömərdən (r.a) bu ayənin nazil olma səbəbinin qadınlarla arxa tərəfdən yaxınlıq etməklə əlaqəli olmasına dair rəvayət olunan hədisə, başda ibn Abbas (r.a) olmaqla, alimlər bu səbəbi inkar etmişlər.

İbn Cərir Təbəri də «Təfsir»ində (2-ci cild, səh. 398) Cabir (r.a) və ibn Abbasın (r.a) rəvayətlərini qeyd edərək bu ayənin yəhudilərə cavab olaraq nazil olduğunu demişdir.

Şəvkani bu ayənin «Təfsir»ində arxadan [Allahın haram buyurduğu yerdən] yaxınlıq etməyə rüxsət verənlərin dediklərini qeyd etdikdən sonra demişdir: «Onların dediklərində heç bir əsas yoxdur və bu əməli onların dediklərini əsas götürərək etmək haramdır. Çünki onlar bu əməlin caiz olduğunu heç bir dəlillə əsaslandırmamışlar. Bu ayənin qadınla arxadan yaxınlıq etməyə rüxsət verdiyini iddia edən şəxs kimliyindən asılı olmayaraq xəta etmiş olur. Həmçinin onlardan hər kimsə iddia etsə ki, bu ayə kişinin öz qadını ilə arxa tərəfdən [Allahın haram buyurduğu yerdən] yaxınlıq etməsinə görə nazil olub o kimsə bilməlidir ki, ayənin nazil olma səbəbi heç də ayənin bu əməli halal etməsinə dəlalət etmir. Bunu iddia edən şəxs də

xəta etmiş sayılır. Əksinə, ayə bu əməlin haram olmasına dəlalət edir. Ümumiyyətlə ayələrin hər hansı bir səbəbə görə nazil olması o demək deyil ki, ayə məhz bu əməli halal etmək üçün nazil olub. Çünki ayələr hərdən əməli halal etmək, hərdən də onu haram etmək üçün nazil olurdu».

İbn Kəsir «Təfsir»ində ibn Ömərdən (r.a) bu ayənin nazil olma səbəbi haqqında rəvayət olunan rəyi qeyd etdikdən sonra demişdir: «İbn Ömərin (r.a) dediyi, əvvəldə qeyd etdiyimiz kimi qadınla arxa tərəfdən, Allahın buyurduğu yerdən, yaxınlıq etməyə aiddir. Çünki Nəsainin «Sünən» əsərində istinadla rəvayət etdiyi hədisdə Nafidən: «sən, qadınlarla arxadan [Allahın haram buyurduğu yerdən] yaxınlıq etməyin caiz olduğu barədə ibn Ömərin (r.a) fətva verdiyini iddia edirsən?!» soruşduqda o dedi: «Yalan deyirlər. Həqiqət belədir ki, bir gün ibn Ömər (r.a) Quran oxuyub

«[Ey möminlər!] **Qadınlarınız sizin** [övlad əkdiyiniz] **tarlanızdır. İstədiyiniz kimi öz tarlanıza yaxınlaşın!»** ayəsinə gəlib çatdıqda, mənə dedi: «Ey Nafi! Bu ayənin nəyə görə nazil olduğunu bilirsənmi?» Mən: «Xeyr!»- deyə cavab verdim. O dedi: «Biz Qüreyşlilər qadınlarımıza arxa tərəfdən yaxınlaşıb, Allahın izn verdiyi yerdən cinsi əlaqədə olardıq. Mədinəyə gəldikdə ənsar qadınlarla evləndik. Onlarla bu cür yaxınlıq etmək istədikdə, onlar buna icazə vermədilər və bunu böyük günah hesab etdilər. Çünki onlar yəhudilər kimi yanı üstə yaxınlıq edirdilər. Uca Allah da bu ayəni nazil etdi.

Bu hədisin isnadı «səhih»dir. İbn Kəsir qadınla arxadan [Allahın haram buyurduğu yerdən] əlaqədə olmağın haram olmasına dair bir neçə hədis qeyd etdikdən sonra demişdir: «İbn Məsud (r.a), Əbud-Dərda (r.a), Əbu Hüreyrə (r.a), ibn

Abbas (r.a) və Abdullah ibn Amr (r.a) bunun haram olduğunu rəvayət etmişlər. Şübhəsiz ki, ibn Ömər də (r.a) bunun haram olduğunu təsdiq etmişdir».

Darimi «Sünən» əsərində [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səid ibn Yəsar ibn Ömərdən (r.a) qadınla arxadan yaxınlıq etmək barədə soruşduqda o demişdir: «Heç müsəlman da belə şey edərmi?».

Bu ibn Ömərdən (r.a) açıq-aydın bu əməlin haram olmasına dair varid olan «səhih» isnadlı rəvayətdir. Odur ki, İbn Ömərdən (r.a) varid olmuş və bu əməlin halal və ya haram olmasına şübhə doğuran bütün rəvayətlər qeyd olunan «səhih» rəvayətə görə rədd edilir.

**Uca Allah buyurur:**

**«Boşanmış qadınların gözləmə müddətləri bitərkən aralarında barışıq və yaxşılıqla yaşamağa razılıq olduğu zaman onların təkrar öz ərlərinə nikah edilməsinə mane olmayın! Bu sizin Allaha və axirət gününə inananlarınıza verilən bir nəsihətdir. Bu** [şəri baxımdan] **sizin üçün daha faydalı və daha pakdır. Allah** [sizin mənfəətinizi] **bilir, siz bilməzsiniz!». (232-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (9-cu cild, səh. 258) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Həsən rəvayət edir ki, Mə'qəl ibn Yəsarın bacısını əri boşamışdı. Onun gözləmə müddəti bitdikdən sonra əri təkrar onunla nigah etmək istədikdə Mə'qəl buna razı olmadı və Uca Allah bu ayəni nazil etdi:

**«Boşanmış qadınların gözləmə müddətləri bitərkən aralarında barışıq və yaxşılıqla yaşamağa razılıq olduğu zaman onların təkrar öz ərlərinə nigah edilməsinə mane olmayın!».**

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (11-ci cild, səh. 91, 408), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 76), əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 192), Təyalisi «Müsnəd» əsərində (1-ci cild, səh. 305), Daraqutni «Sünən» əsərində (3-cü cild, səh. 223, 224), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 174) və ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 448) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu, Hakim isə onun Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«**[Fərz, vacib] **namazlara, xüsusilə orta namaza** [günortadan sonrakı əsr namazına, ikindi namazına] **riayət** [əməl] **edin və Allaha itaət üçün ayağa qalxın** [namaza durun]**». (238-ci ayə)**

İmam Əhməd «Müsnəd» əsərində (5-ci cild. səh. 183) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Zeyd ibn Sabit (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** zöhr namazını günorta qılardı. Səhabələrə ən çətin gələn namaz bu namaz idi. Uca Allah bu ayəni nazil etdi:[67]

---

[67] İbn Həcər «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 262) demişdir: «Əhməd bu hədisi başqa ləfz ilə də rəvayət etmişdir. Bu hədisdə deyilir:

«[Fərz, vacib] **namazlara, xüsusilə orta namaza** [günortadan sonrakı əsr namazına, ikindi namazına] **riayət** [əməl] **edin».** Belə ki, bu namazdan əvvəl də, sonra da iki namaz var.

Amr ibn Əbi Hukeym və Zəburqanidən başqa bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdəndir. Onlar da «siqa» ravilərdir.

Bu hədisi həmçinin əbu Davud «Sünən» əsərində (1-ci cild, səh. 159) Buxari «Tarixul-Kəbir» əsərində (3-cü cild, səh. 434) Təbərani «Mucəmul Kəbir» əsərində (5-ci cild, səh. 131) rəvayət etmişlər.

Orta namaz dedikdə Buxari və Muslimin «Səhih» əsərlərində qeyd edildiyi kimi əsr namazı nəzərdə tutulur.

**Uca Allah buyurur:**

«**Və Allaha itaət üçün ayağa qalxın** [namaza durun]**». (238-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (9-cu cild, səh. 265) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Zeyd ibn Ərqam (r.a) rəvayət edir ki, biz namaz qılarkən, ehtiyac olduqda, bir-birimizlə danışırdıq. Uca Allah da bu ayəni nazil etdi:

«[Fərz, vacib] **namazlara, xüsusilə orta namaza** [günortadan sonrakı əsr namazına, ikindi namazına] **riayət** [əməl] **edin və Allaha itaət üçün ayağa qalxın** [namaza

---

«Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Zöhr namazını günorta qılardı və bu namazda onun arxasında bir və ya iki səf olardı. Bu vaxt camaatın bir qismi günorta istirahətində [yatmaqda], digərləri isə ticarət etməkdə idi. Elə bu səbəbdən də ayə nazil oldu».

durun]». Beləliklə də namazda susmaq [Allaha aid olmayan sözlər danışmamaq] bizə əmr olundu.

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 77), əbu Davud «Sünən» əsərində (1-ci cild, səh. 358) və İmam Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 368) rəvayət etmişlər.

Təbərani «Məcməuz-Zəvaid» əsərində (6-cı cild, səh.320) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) bu ayənin təfsirini belə vermişdir: «Səhabələr namaz qılarkən danışardılar. Onlardan birinin xidmətçisi gələrkən ona tapşırıqlarını verər və namazda ikən danışardı. Sonra namazda danışmaq qadağan olundu». Bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

**Qeyd:** İbn Kəsir «Təfsir»ində (1-ci cild, səh. 294) demişdir: «Bu hədis bir qisim alimlərdə anlaşılmazlıq yaratmışdır. Çünki onlar namazda danışmağın qadağan olunmasının sabit qaldığını hələ Məkkə şəhərində – səhabələr Mədinəyə hicrət etməmişdən əvvəl və Həbəşistana hicrət etdikdən sonra - Abdullah ibn Məsuddan (r.a) Buxarinin «Səhih» əsərində rəvayət olunan səhih hədislə əsaslandırırlar. O, rəvayət edir ki, biz Həbəşistana hicrət etməmişdən əvvəl namaz qılarkən Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - salam verər, o da bizim salamımızı alardı. Həbəşistandan qayıtdıqdan sonra mən, Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - [o, namaz qılarkən] salam verdim, ancaq o mənim salamımı almadı. Bu mənə hərtərəfli təsir etdi. O, salam verdikdən sonra [yəni namazı bitirdikdən sonra] dedi: «Mən namazda olduğum üçün sənin salamını almadım. Həqiqətən, Allah istədiyi zaman hökmlərini

dəyişdirib yeni hökmlər verir. Bu hökmlərdən biri də namazda danışmamaqdır».

«İbn Məsud (r.a) İslamı ilk qəbul edənlərdən olmuş, Həbəşistana hicrət etmiş, sonra Məkkəyə qayıdıb bir daha Mədinəyə hicrət etmişdir. Bu ayənin Mədinə ayəsi olmasında heç bir ixtilaf yoxdur. Bəzi alimlər də deyirlər ki, Zeyd ibn Ərqam (r.a) «biz namaz qılarkən ehtiyac olduqda bir-birimizlə danışardıq» dedikdə, ümumən danışıq haqqında xəbər verir və bu ayəni özü başa düşdüyü kimi dəlil gətirir. Daha doğrusunu isə Allah bilir! Bəziləri də deyirlər ki, bu ayə Mədinəyə hicrət etdikdən sonra nazil olmuşdur. Beləliklə də namazda danışmaq iki dəfə icazə verilib, iki dəfə də qadağan olunmuşdur. Birinci rəy daha doğru hesab olunur, lakin daha ən doğrusunu bilən yalnız Allahdır».

Mənim fikrimcə ibn Məsudun (r.a) hədisinə əsasən namazda danışmağı Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Məkkədə qadağan etmiş, Mədinəyə hicrət etdikdən sonra isə namazda danışmağın qadağan olması barədə dəlil-sübut çatmayan Müaviyə ibn əl-Həkəm əs-Suləmi (r.a) kimi şəxslər namazda danışmağa başladılar və Uca Allah bu ayəni nazil etdi. Ən doğrusunu bilən isə Allahdır.

Daha geniş məlumat üçün Şəvkaninin «Neylul-Əvtar» əsərinə (2-ci cild, səh. 329, 330) və ibn Həcərin «Fəthul-Bari» əsərinə (9-cu cild, səh. 265) baxa bilərsiniz.

**Uca Allah buyurur:**

**«Dində məcburiyyət** [zorakılıq] **yoxdur. Artıq doğruluq** [iman] **azğınlıqdan** [küfrdən] **aydın fərqlənir. Hər kəs tağutu** [və ya bütləri] **inkar edib Allaha iman gətirərsə, o, artıq**

**qırılmaq bilməyən ən möhkəm bir ipdən yapışmış olur. Allah** [hər şeyi olduğu kimi] **Eşidən və Biləndir!». (256-cı ayə)**

İmam əbu Cə'fər ibn Cərir Təbəri «Təfsir»ində (3-cü cild, səh. 24) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, cahiliyyə dövründə uşaqları bir müddət yaşadıqdan sonra tələf olan bəzi ənsar qadınları özlərinə borc bilərək əhd edirdilər ki, [nəzir edirdilər] əgər uşaqları yaşasa, onları yəhudiləşdirəcəklər. Bənu-Nadir [yəhudi qəbiləsi] Mədinədən köçüb gedərkən, onların arasında ənsar uşaqları da var idi. Odur ki, onlar dedilər: «Biz övladlarımızı burada tərk edə bilmərik!». Uca Allah da bu ayəni nazil etdi:

**«Dində məcburiyyət** [zorakılıq] **yoxdur. Artıq doğruluq** [iman] **azğınlıqdan** [küfrdən] **aydın fərqlənir».**[68]

Bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad edərək əsaslandığı ravilərdir.

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 11) və ibn Hibban «Məvariduz-Zaman» əsərində (səh. 427) rəvayət etmişlər. Suyuti «Lübabun-Nüqul» əsərində Nəsainin də bu hədisi rəvayət etdiyini qeyd etmişdir.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin ən pak** [halal] **və yaxşılarından** [Allah yolunda] **sərf edin! Ancaq göz yumaraq aldığınız pis,**

---

[68] [ «əl-Bəqərə» surəsi, 256. ]

**yaramaz şeylərdən vermək fikrində olmayın! Bilin ki, Allahın heç şeyə ehtiyacı yoxdur. O, Tərifəlayiqdir». (267-ci ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 77) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra ibn Azib (r.a) rəvayət edir ki, bu ayə biz ənsarlar haqqında nazil olmuşdur. O zaman bizim xurma ağaclarımız var idi və hər kəs özündə olan xurmanın miqdarına görə az və ya çox xurma gətirərdi. Bizlərdən bəziləri bir və ya iki salxım xurma gətirib məscidin yanından asardıq. Suffə əhlinin[69] isə yeməyə heç nəyi yox idi. Odur ki, onlar gəlib həmin salxımı ağacla vurar və yerə düşmüş yetişmiş və tam yetişməmiş xurmalardan yeyərdilər. Xeyirxah işlərə can atmayan bəzilərimiz isə bir salxım bürüşmüş və keyfiyyətsiz xurmanı gətirib məscidin qapısından asardı və Uca Allah da bu ayəni nazil etdi:

**«Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin ən pak** [halal] **və yaxşılarından** [Allah yolunda] **sərf edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın!».** Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Sizdən birinizə, verdiyiniz xurmalar kimi keyfiyyətsiz bir şey verilsə idi, siz onu gözünüzü yumaraq və ya utanaraq götürərdiniz!»

Bəra ibn Azib (r.a) deyir ki, «bundan sonra biz, ən keyfiyyətli malımızı Allah yolunda sərf etməyə başladıq». Hədis «həsən, səhih, ğərib»dir.

---

[69] [ Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına hicrət etmiş, ev-eşiyi olmadığından məsciddə yaşayan muhacirlər. Qurtubinin «Təfsir»i 3/340. ]

Bu hədisi həmçinin ibn Macə «Sünən» əsərində (1822-ci hədis), ibn Cərir «Təfsir»ində (3-cü cild, səh. 82), ibn Əbi Hatim «Təfsir»ində (ibn Kəsirin «Təfsir»ində (1-ci cild, səh. 320) qeyd olunduğu kimi) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 285) rəvayət etmişlər. Hakim bu hədisin Muslimin şərtinə uyğun olduğunu qeyd etmiş, Zəhəbi də onu təsdiqləmişdir.

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 284) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səhl ibn Hənif (r.a) atasından belə rəvayət edir: «Bir gün Peyğəmbər - səllallahu aleyhi və səlləm - səhabələrə Allah yolunda sədəqə verməyi əmr etdi. Onlardan biri bir salxım bürüşmüş xurma gətirdikdə Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Bunu kim gətirib?»- deyə soruşdu. Çünki hər bir xurmanın kim tərəfindən gətirildiyi ona xəbər verilirdi. Odur ki, bu ayə nazil oldu:

**«Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın!».** Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - iki növ - solğun qəhvəyi [bürüşmüş[ və yarpıza oxşar [dəyməmiş[ rənglərdə olan xurmadan sədəqə verməyi qadağan etdi».

Hakim buna oxşar hədisi Süleyman ibn Kəsirdən istinadla rəvayət etmiş və demişdir ki, bu hədis Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar bu hədisi rəvayət etməmişlər. Qeyd etmək lazımdır ki, bu rəvayət «daif»dir. Buxarinin Süleyman ibn Kəsirdən rəvayət etdiyi hədislər isə digər hədisləri qüvvətləndirir. Bu rəvayəti həmçinin Daraqutni «Sünən» əsərində (2-ci cild, səh. 31) rəvayət etmişdir. Hakimin Süfyan ibn Hüseyndən istinadla rəvayət etdiyi

birinci hədisi həmçinin Təbərani «Mucəm» əsərində (6-cı cild, səh. 93) rəvayət etmişdir. Bu hədis isə «həsən»dir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **İnsanları** [qeyri müsəlmanları] **doğru yola yönəltmək sənin borcun deyildir** [Sənin vəzifən ancaq onları haqq yoluna dəvət etməkdir]**. Lakin Allahdır istədiyini doğru yola istiqamətləndirən. Malınızdan sərf etdiyiniz hər hansı bir şeyin xeyiri** [mənfəəti] **ancaq özünüz üçündür. Siz onu yalnız Allahın üzünü istəməkdən ötrü verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz!». (272-ci ayə)**

Əbu Cə'fər ibn Cərir Təbəri «Təfsir»ində (3-cü cild, səh. 94) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, səhabələr, müşrik olan qohum-əqrəbalarına maddi yardım göstərmirdilər və Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **İnsanları** [qeyri-müsəlmanları] **doğru yola yönəltmək sənin borcun deyildir** [Sənin vəzifən ancaq onları haqq yoluna dəvət etməkdir]**. Lakin Allahdır istədiyini doğru yola istiqamətləndirən....».**

Bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad edərək əsaslandıqları ravilərdir. İbn Kəsir «Təfsir»ində (1-ci cild, səh. 323) Nəsainin bu hədisi rəvayət etdiyini qeyd etmişdir. Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində, Təbərani «Mucəm» əsərində, Heysəmi «Məcməuz-Zəvaid» əsərində (6-cı cild, səh. 324) və Bəzzar «Müsnəd» əsərində

rəvayət etmişlər. Hakim və Zəhəbi bu hədisin Buxari və Muslimin şərtlərinə uyğun olduğunu təsdiq etmişlər.

**Uca Allah buyurur:**

**«Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə** [Qurana] **inanmış və möminlər də iman gətirmişlər.** [Onların] **hamısı Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirərək dedilər: «Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq.** [Allahın hökmlərini] **eşitdik** [anladıq] **və itaət etdik. Ey Rəbbimiz bizi bağışla,** [axırda] **Sənin dərgahına** [hüzuruna] **qayıdacağıq! Allah heç kəsi qüvvəsi çatmayan işi** [görməyə] **vadar etməz. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir.** [Möminlər deyirlər] : **«Ey Rəbbimiz,** [bəzi tapşırıqlarını] **unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən** [mövlamızsan]**. Kafir qövmə qələbə çalmaqda bizə kömək et!». (285 və 286-cı ayələr)**

İmam Muslim «Səhih» əsərində (2-ci cild, səh. 145) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyra (r.a) rəvayət edir ki, Uca Allah:

**«Göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. Allah istədiyini**

**bağışlar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir!»**[70] ayəsini Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - nazil etdikdən sonra, onu eşidən səhabələr böyük sıxıntılar keçirərək Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib, diz üstə oturub dedilər: «Ey Allahın elçisi! Biz bacardığımız, sədəqə vermək, cihad etmək, oruc tutmaq və namaz qılmaq kimi əməlləri yerinə yetirməyə mükəlləf olduq, lakin sənə nazil olan bu ayəyə əməl etməyə gücümüz çatmır». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onlara dedi: «Sizdən əvvəlki kitab əhli kimi: «eşitdik və asi olduq» - demək istəyirsiniz? Əksinə, deyin ki, eşitdik və itaət etdik! Ey Rəbbimiz, bizi bağışla, Sənin dərgahına qayıdacağıq!». Onlar: «Eşitdik və itaət etdik! Ey Rəbbimiz, bizi bağışla, Sənin dərgahına qayıdacağıq!» dedikdən sonra Uca Allah bu ayəni nazil etdi:

**«Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə** [Qurana] **inanmış və möminlər də iman gətirmişlər.** [Onların] **hamısı Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirərək dedilər: «Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq.** [Allahın hökmlərini] **eşitdik** [anladıq] **və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla,** [axırda] **Sənin dərgahına** [hüzuruna] **qayıdacağıq!»-** Onlar Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - əmrini yerinə yetirdilər və Uca Allah bu ayəni nazil etdi:

**«Allah heç kəsi qüvvəsi çatmayan işi** [görməyə] **vadar etməz. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir.** [Möminlər deyirlər] : **«Ey Rəbbimiz,** [bəzi tapşırıqlarını] **unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi**

---

[70] [ «əl-Bəqərə» surəsi, 284. ]

**ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən** [mövlamızsan]**. Kafirlərə qələbə çalmaqda bizə kömək et!».**

Möminlər bu ayəni oxuduqda, hər dəfə: «Ey Rəbbimiz,…»- deyə dua edərək Allaha müraciət etdikdə, O, «Bəli, istəyinizi yerinə yetirdim!»- deyə cavab verir».

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 412), ibn Cərir «Təfsir»ində (3-cü cild, səh. 143) və Beyhəqi «Şüabul-İman» əsərində (1-ci cild, səh. 221) rəvayət etmişlər.

İmam Muslim «Səhih» əsərində (2-ci cild, səh. 146) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Uca Allah:

**«Göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. Allah istədiyini bağışlar, istədiyinə də əzab verər. O, hər şeyə qadirdir!»**[71] ayəsini Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** nazil etdikdən sonra, onu eşidən səhabələr böyük sıxıntılar keçirdilər və Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** onlara dedi: «Deyin ki: Eşitdik, itaət etdik və təslim olduq!». Uca Allah onların qəlblərinə iman saldıqdan sonra bu ayəni nazil etdi:

**«Allah heç kəsi qüvvəsi çatmayan işi** [görməyə] **vadar etməz. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir.** [Möminlər deyirlər] : **«Ey Rəbbimiz,** [bəzi tapşırıqlarını] **unutduqda və ya yanıldıqda bizi cəzalandır-**

---

[71] ] «əl-Bəqərə» surəsi, 284. ]

**ma! Ey Rəbbimiz bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən** [mövlamızsan]**. Kafirlərə qələbə çalmaqda bizə kömək et!».**

Möminlər bu ayəni oxuduqda hər dəfə: «Ey Rəbbimiz,...»- deyə dua edərək Allaha müraciət etdikcə O: «Bəli, istəyinizi yerinə yetirdim!»- deyə cavab verir».

# Ali-İmran surəsi

**Uca Allah buyurur:**

**«Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satan şəxslərə axirət nemətlərindən heç bir pay yoxdur. Allah qiyamət günündə onları dindirməz, onlara nəzər salmaz və onları** [günahlarından] **pak etməz** [təmizə çıxarmaz]**. Onları şiddətli bir əzab gözləyir!» (77-ci ayə)**

İmam əbu Abdullah Buxari «Səhih» əsərində (5-ci cild, səh. 430) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Məsud (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** belə demişdir: «Kim bir müsəlmanı malından məhrum etmək üçün and içsə, Allahın hüzurunda olduğu zaman Allahın ona qəzəbi tutar». Uca Allah bu ayəni nazil etdi:

**«Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satan şəxslərə axirət nemətlərindən heç bir pay yoxdur.....»**

Əşas bin Qeys (r.a) deyir ki, Əbu Abdurrrəhmanın (r.a) [Abdullah ibn Məsudun (r.a) ] rəvayət etdiyi bu hadisə, ayənin nazil olma səbəbi mənə aiddir. Əmim oğlunun torpaq sahəsində mənə məxsus bir su quyusu var idi. [Əmim oğlu quyunun mənə məxsus olmadığını iddia etdiyi üçün mübahisəmiz düşdü və] Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** mənə dedi: «Şahidlərini gətir». Mən: «şahidim yoxdur» - deyə cavab verdim. O, əmim oğlundan and içməyi tələb etdikdə mən dedim: «Ey Allahın elçisi, onun üçün heç bir təfavütü yoxdur, o and içə bilər». Bu zaman Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** : «Kim bir müsəlmanı malından məhrum etmək üçün and içsə, Allahın hüzurunda olduğu zaman Allahın ona qəzəbi tutar»- dedi və Uca Allah da onun dediklərini təsdiq etmək üçün bu ayəni nazil etdi.

Bu hədisi həmçinin imam Buxari «Səhih» əsərində (6-cı cild, səh. 70, 210, 215 və 280; 9-cu cild, səh. 280; 14-cü cild səh. 352, 368; 16-cı cild, səh. 302), Muslim «Səhih» əsərində (2-ci cild, səh. 158), Tirmizi «Sünən» əsərində (2-ci cild, səh. 254; 4-cü cild, səh. 81), Əbu-Davud «Sünən» əsərində (3-cü cild, səh. 214, 215), İmam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 426, 442; 5-ci cild, səh. 211, 212), Təyalisi «Müsnəd» əsərində (1-ci cild, səh. 246; 2-ci cild, səh. 16), ibn Cərir «Təfsir»ində (3-cü cild, səh. 321) rəvayət etmişlər. Mübarəkfuri «Tövhətül Əhvəzi» əsərində (2-ci cild, səh. 254) bu hədisi Nəsai və ibn Macənin «Sünən» əsərlərində rəvayət etdiklərini xəbər vermişdir. Buxarinin rəvayətlərinə gəlincə, onlardan bəzilərində Əşas ibn Qeysin (r.a) bir yəhudi ilə torpaq sahəsi

barəsində, digərində isə bir kişi ilə mübahisə etdiyi qeyd olunur.

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 280) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Əbi Əufə (r.a) rəvayət edir ki, bir nəfər bazarda malını saxlamaq üçün onu müsəlmanlardan birinə həvalə etdi. Sonra da onun malına sahib çıxmaq üçün ona həvalə etdiyi malı olduğu kimi geri qaytarmadığına and içdi və Uca Allah da bu ayəni nazil etdi:

**«Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satan şəxslərə axirət nemətlərindən heç bir pay yoxdur…..»**

Bu iki rəvayətin arasında heç bir ziddiyyət yoxdur və ayə hər iki səbəbə görə nazil olmuş, məna etibarilə də hər iki hadisəni əhatə edir. Hər iki hədis səhihdir, lakin Abdullah ibn Məsudun (r.a) rəvayət etdiyi hədis daha səhih hesab olunur. Çünki Abdullah ibn Əbu Əufənin (r.a) rəvayət etdiyi hədisi bir-birinə ötürən ravilərin silsiləsində olan İbrahim ibn Abdurrəhman əs-Səksəkini imam Nəsai və Şöbə «leyyin» ravi hesab edirlər. Bunu Zəhəbi «Mizan» əsərində qeyd etmişdir.

Bəzi rəvayətlərdə torpaq sahəsinin, bəzilərində isə su quyusunun qeyd olunmasını ibn Həcər «Fəthul Bari» əsərində (14-cü cild, səh. 369) belə izah etmişdir: «Bu rəvayətləri cəm edib demək olar ki, torpaq sahəsi deyildikdə, su quyusunun yerləşdiyi torpaq sahəsi qəsd olunur və quyu da bura daxil olmuş hesab olunur».

Daha geniş məlumat üçün «Fəthul Bari» əsərinə (14-cü cild, səh. 369) bax.

**Uca Allah buyurur:**

**«İman gətirdikdən, peyğəmbərin haqq olduğuna** [Allah tərəfindən göndərildiyinə] **şəhadət verdikdən və özlərinə aşkar dəlillər gəldikdən sonra kafir olan tayfanı Allah necə doğru yola yönəldər? Allah zalimlər tayfasını haqq yola istiqamətləndirməz! Onların cəzası, həqiqətən, Allahın, mələklərin və bütün insanların lənətinə düçar olmaqdır! Onlar bu lənət içərisində əbədi olaraq qalacaqlar. Əzabları əskilmədiyi kimi, onlara möhlət də verilməyəcək! Yalnız bundan sonra tövbə edərək düzələn şəxslər** [bağışlanarlar]**. Şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir!» (86, 87, 88, 89-cu ayələr)**

Əbu Cəfər ibn Cərir ət-Təbəri «Təfsir»ində (3-cü cild, səh. 340) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, İslamı qəbul etmiş ənsarlardan biri mürtəd oldu və Allaha şərik qoşmağa başladı. Etdiklərinə peşiman olduqdan sonra qövmünə müraciət etdi. Onlar da Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - onun tövbəsinin qəbul olub-olmayacağı barəsində soruşduqda bu ayələr nazil oldu:

**«İman gətirdikdən, peyğəmbərin haqq olduğuna** [Allah tərəfindən göndərildiyinə] **şəhadət verdikdən və özlərinə aşkar dəlillər gəldikdən sonra kafir olan tayfanı Allah necə doğru yola yönəldər?.....»** ayəsindən **«.....Yalnız bundan sonra tövbə edərək düzələn şəxslər** [bağışlanarlar]**. Şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir!»** ayəsinə qədər.

Bu hədisi bir-birinə ötürən ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdəndir.

İbn Cərir bu hədisi «məvsul» və «mürsəl» sənədlə rəvayət etmişdir. Bu hədisi həmçinin ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 427) qeyd olunduğu kimi), Təhavi «Muşkilul Əsar» əsərində (4-cü cild, səh. 64) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 142; 4-cü cild, səh. 366) rəvayət etmişlər.

Hakim bu hədisin isnadının Buxari və Muslimin şərtlərinə görə olduğunu demiş, Zəhəbi də bunu təsdiq etmişdir.

**Uca Allah buyurur:**

**«İman gətirəndən sonra kafir olan və küfrlərini daha da artıran şəxslərin tövbələri qəbul olunmaz.** [Doğru yoldan] **azanlar məhz onlardır!» (90-cı ayə)**

İbn Kəsir «Təfsir»ində (1-ci cild, səh. 380) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, İslamı qəbul etmiş bir dəstə mürtəd olduqdan sonra İslamı yenidən qəbul etdi, sonra yenə də mürtəd oldu. Sonra öz qövmünə müraciət etdilər. Onlar da Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - bu barədə soruşduqda Uca Allah bu ayəni nazil etdi».

**«İman gətirəndən sonra kafir olan və küfrlərini daha da artıran şəxslərin tövbələri qəbul olunmaz.** [Doğru yoldan] **azanlar məhz onlardır!»**

Bu hədisin isnadı «ceyyid»dir.

**Uca Allah buyurur:**

**«Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün,** [sabitqədəm] **bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar. Onlar Allaha, axirət gününə inanır,** [insanlara] **yaxşı işlər görməyi əmr edir,** [onları] **pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. Onların yaxşılıq naminə etdiyi işlərdən heç biri inkar edilməz** [mukafatsız qalmaz]**. Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!» (113-115-ci ayələr)**

İmam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 396) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Məsud (r.a) rəvayət edir ki, bir gün Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** işa namazını gecikdirdi, sonra məscidə gəldi və namazı gözləyənlərə belə dedi: «Sizdən başqa bütün dinlərin təmsilçiləri arasında gecənin bu saatında Allahı xatırlayan bir kimsə tapılmaz». Uca Allah da bu ayəni nazil etdi.

**«Onların hamısı eyni deyil. Kitab əhli içərisində....»** ayəsindən **«Onların yaxşılıq naminə etdiyi işlərdən heç biri inkar edilməz** [mukafatsız qalmaz]**. Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!»** ayəsinə qədər.

Şəvkani «Fəthul Qədir» əsərində (1-ci cild, səh. 375) bu hədisin «həsən» olmasını Suyutidən nəql etmişdir. Çünki hədisi bir-birinə ötürən ravilərdən birinin, yəni Asimin hafizəsində bir az zəiflik var. Həmçinin Heysəmi «Məcməuz-Zəvaid» əsərində (1-ci cild, səh. 312) bu hədisi rəvayət etdikdən sonra demişdir: «Əhmədin əsaslandığı ravilərin hamısı «siqa»dır. Asim ibn Əbi ən-Nəcvədə gəlincə, onun rəvayətlərinə etimad etmək barəsində alimlər ixtilaf etmişlər».

Bu hədisi həmçinin ibn Hibban «Səhih» əsərindən (Heysəmi «Məvariduz-Zaman» əsərində (səh. 91) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (4-cü cild, səh. 55), Əbu Nueym «Hilyə» əsərində (4-cü cild, səh. 187) və Əbu Yə'lə «Müsnəd» əsərində rəvayət etmişlər.

Bu ayənin nazil olma səbəbinə dair başqa bir hədis də «Məcməuz-Zəvaid» əsərində (6-cı cild, səh. 732) ibn Abbasdan (r.a) rəvayət olunmuşdur. O deyir: «Abdullah ibn Səlam (r.a), Sələbə ibn Sə'yə (r.a), Əsəd ibn Ubeyd (r.a) və İslam dinini qəbul etmiş digər yəhudilər iman gətirib, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - dediklərini təsdiq edib, İslama rəğbət bəslədikləri zaman, yəhudilərin iman gətirməmiş bir qisim alimləri dedilər: «Bizlərdən Məhəmmədə - **səllallahu aleyhi və səlləm** - iman gətirib tabe olanlar, içimizdən ən pisləridir. Yaxşı olsaydılar, dədə-babalarının dinini tərk etməzdilər». Uca Allah da bu ayəni nazil etdi.

**«Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün,** [sabitqədəm] **bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar. Onlar Allaha, axirət gününə inanır,** [insanlara] **yaxşı işlər görməyi əmr edir,** [onları] **pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər».**

Təbərani rəvayət etdiyi bu hədisin ravilərinin hamısı «siqa»dır.

Əbu Cəfər ibn Cərir Təbəri «Təfsir»ində (7-ci cild, səh. 29) bir çox rəyləri nəql etdikdən sonra birinci rəvayətin daha mötəbər olduğunu qeyd edib demişdir: «Bu rəvayət ona görə mötəbər hesab olunur ki, işa namazını kitab əhlindən olan kəslər qılmır və Uca Allah da kafir olan kitab əhlindən

fərqləndirmək üçün bu namazı yalnız Məhəmmədin - **səllallahu aleyhi və səlləm** - ümmətinin qıldığını bildirmişdir».

Bu ayənin hər iki hadisəyə görə nazil olmasında heç bir ziddiyyət yoxdur. Daha doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

«[O müharibədə] **sizin içərinizdən** [Sələmə və Harisə oğullarından ibarət] **iki dəstə qorxaraq geri çəkilmək fikrinə düşmüşdü. Halbuki, Allah onların yardımçısı idi. Gərək möminlər** [hər işdə] **Allaha təvəkkül etsinlər!» (122-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (8-ci cild, səh. 360) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, bu ayə bizə, yəni bənu Sələmə və bənu Harisə qəbilələrindən olan iki dəstəyə aid nazil olmuşdur. Bu ayənin [zahiri mənasında bizə məzəmmət olsada onun] nazil olduğunu çox sevirəm. Belə ki, Allah deyir:

**«Allah onların yardımçısı idi».**

Bu hədisi həmçinin Buxari (9-cu cild, səh. 393), Muslim «Səhih» əsərində (16-cı cild, səh. 66) və ibn Cərir «Təfsir»ində (4-cü cild, səh. 73) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Bu işdə sənə dəxli olan bir şey yoxdur. O** [Allah] **ya onların tövbələrini qəbul edər, ya da onlara əzab verər, çünki onlar, həqiqətən, zalim kimsələrdir». (128-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (8-cil cild, səh. 368) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Salim atasından rəvayət edir ki, o Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - fəcr namazında axırıncı rəkətinin rükusundan qalxıb : «Allah ona həmd edəni eşitdi! Ey Rəbimiz! Həmd yalnız Sənədir!»- deyə dua etdikdən sonra belə dediyini eşitdim: «Allahım! Filankəsə və filankəsə lənət et!» Uca Allah da bu ayəni nazil etdi:

**«**[Ya Məhəmməd!] **Bu işdə sənə dəxli olan bir şey yoxdur. O** [Allah] **ya onların tövbələrini qəbul edər, ya da onlara əzab verər, çünki onlar, həqiqətən, zalim kimsələrdir».**

Başqa rəvayətdə Salim ibn Abdullah belə demişdir: «Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Səfvan ibn Ümeyyənin, Süheyl ibn Amrın və Haris ibn Hişamın əleyhinə dua etdi və bu ayə nazil oldu».

**«**[Ya Məhəmməd!] **Bu işdə sənə dəxli olan bir şey yoxdur. O** [**Allah**] **ya onların tövbələrini qəbul edər, ya da onlara əzab verər, çünki onlar, həqiqətən, zalim kimsələrdir».**

Bu hədisi Buxari həmçinin «Təfsir» fəslində (9-cu cild, səh. 293 və 17-ci cild, səh. 77) başqa isnadla, Nəsai «Sünən» əsərində (2-ci cild, səh. 160), Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 93; 104; 118; 147), Abdurrəzaq «Müsənnəf» əsərində (2-ci cild, səh. 446) və ibn Cərir «Təfsir»ində (4-cü cild, səh. 88) rəvayət etmişlər. Əhməd və Abdurrəzzaqın rəvayətində deyilir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - münafiqlərdən olan bir sinif insanın əleyhinə dua etdi.

Tirmizi bu hədisi «həsən, ğərib» hesab etmişdir.

İmam Muslim «Səhih» əsərində (5-ci cild, səh. 178) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs bin Malik (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - Məunə quyusunun yaxınlığında öldürülən səhabələrin [70 və ya 40 nəfər qarinin] qatillərinin əleyhinə 30 gün ardıcıl olaraq fəcr namazında dua etdi. Bunlar da Allah və Onun rəsuluna asi olan Ra'l, Zəkəvan, Lihyan və Useyyə qəbilələri idi. Uca Allah da onlar [şəhid olan 70 və ya 40 səhabə] barəsində bu ayəni nazil etdi: **«Qövmümüzə çatdırın ki, artıq, biz Rəbbimizlə görüşdük. O bizdən, biz də Ondan razı qaldıq».**

Biz bu ayəni başqa bir ayə onu [tilavətini] nəsx edən vaxta qədər oxuduq.

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 99; 179; 201; 206; 253 və 288), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 83), ibn Sə'd «Təbəqat» əsərində (2-ci cild, səh. 31 ) və ibn Cərir «Təfsir»ində (4-cü cild, səh. 86, 87) rəvayət etmişlər.

İmam Buxari «Səhih» əsərində (9-cu cild, səh. 294) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - kiminsə əleyhinə və ya lehinə dua etmək istədikdə, bunu rukudan sonra edərdi. O: «Allah Ona həmd edəni eşitdi! Ey Rəbbimiz! Həmd yalnız Sənədir!» - dedikdən sonra bu duanı da səslə etdi: «Allahım, Vəlid bin Vəlidə, Sələmə ibn Hişama, Ayyaş ibn əbu Rəbiyəyə və bütün zəif möminlərə kömək ol! Allahım, Mudar qəbiləsini, Yusifin – aleyhissəlamın - zamanında olan quraqlıq kimi quraqlığa düçar etməklə əzab-əziyyətlərini, sıxıntılarını artır!» Həmçinin fəcr namazında: «Allahım, ərəb

sakinlərindən olan filankəs və filankəsə lənət et!» - deməklə də dua etdi və Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Bu işdə sənə dəxli olan bir şey yoxdur. O** [**Allah**] **ya onların tövbələrini qəbul edər, ya da onlara əzab verər, çünki onlar, həqiqətən, zalim kimsələrdir».**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (5-ci cild, səh. 177), Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 255) və ibn Cərir «Təfsir»ində rəvayət etmişlər.

İbn Həcər «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 295) demişdir: «O filankəslərin adları Muslimin «Səhih» əsərində, Yunusun Zuhridən rəvayət etdiyi hədisdə, bu ləfz ilə: «Allahım, Ra'l, Zəkəvan və Useyyə qəbilələrinə lənət et!» - açıq aydın qeyd olunmuşdur. Məlumdur ki, ayənin nazil olması ilə bağşı olan hadisə Uhud döyüşündə baş vermişdir. Ra'l, Zəkəvan ilə bağlı olan bu hadisə isə, Uhud döyüşündən sonra baş vermişdir. Elə bu da, məndə həmin rəvayətin mötəbər olmasına şübhə oyatmışdır. Sonradan mənə bu xəbərin[72] «illə»si məlum olmuşdur ki, Ra'l və Zəkəvan qəbilələri ilə əlaqəli olan bu hadisədəki: «Sonra Uca Allah bu ayəni nazil etdi» - kəliməsi «müdrəc»dir. Çünki Zühri bu hadisəni ona danışan ravidən: «Sonra Uca Allah bu ayəni nazil etdi» - əlavəsi ilə eşitməmişdir. Muslim bunu Yunusun rəvayətində bəyan edib belə demişdir: «Burada «o dedi» yəni «Zuhri dedi»- deməkdir».

İbn Ömər (r.a) və Ənəsin (r.a) rəvayət etdiyi hədisləri cəm edib demək olar ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - namazında, hədisdə xatırlanan insanların əleyhinə dua etdi və ayə də hər iki səbəbə görə nazil oldu. Deməli bu hadisələr

[72] Muslimin «Səhih» əsəri, 5-ci cild, səh. 177.

Uhud döyüşündə baş vermişdi. Ra'l və Zəkəvan qəbilələri ilə əlaqəli olan hadisə isə bundan fərqlidir. Belə ki, bu hadisə Uhüd döyüşündən sonra baş vermişdir. Lakin ehtimal olunur ki, bu hadisə Uhud döyüşündən dərhal sonra baş verib və ayə də bu hadisədən bir az sonra nazil olub. Odur ki, ayə yuxarıda qeyd olunan rəvayətlərin hamısına görə nazil olmuşdur. Daha doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

**«Bu qəm-qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bir uyğu göndərdi. O sizin bir qisminizi bürüdü. O biri qisminiz isə ancaq öz canlarının harayına qalaraq: "Bu işdə bizim üçün bir şey** [xeyir] **varmı? "- deyə Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar.** [Ya Məhəmməd!] **Onlara de: "Əlbəttə, bütün işlər Allaha məxsusdur** [Allahın əlindədir]**". Onlar** [münafiqlər] **sənə açıb bildirmədikləri şeyləri öz ürəklərində gizlədərək: "Əgər bu işdə bizim üçün bir şey** [bir qələbə] **olsaydı, elə buradaca öldürülməzdik",-deyirlər.** [Ya Məhəmməd!] **De ki: "Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları** [öləcəkləri] **yerlərə gedərdilər ki, Allah** [bununla] **sizin ürəklərinizdə olanları** [səmimiyyət və ikiüzlülüyü] **yoxlayıb aşkara çıxartsın və qəlblərinizdə olanları** [niyyətlərinizi] **təmizləsin. Allah ürəklərdə olanları biləndir!» (154-cü ayə)**

İmam Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 84) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Təlhə (r.a) rəvayət edir ki, Uhud döyüşü günü mən səhabələrin hamısının

mürgülədiyini gördüm. Uca Allah da həmin hadisə ilə bağlı bu ayəni nazil etdi:

**«Bu qəm-qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bit uyğu göndərdi..».**

Bu hədis «həsən-səhih»dir.

Sonra Tirmizi bu hədisin başqa sənədlə – Əbuz-Zubeyrdən – rəvayət olunduğunu və hədisin «həsən-səhih» olduğunu demişdir. Tirmizinin «Sünən» əsərini şərh edən Mübarəkfuri bu sənədin həmçinin «Əhmədiyyə» nüsxəsində də düzgün nəql olunmadığını qeyd etmiş, sonra bu rəvayətin Zübeyrdən nəql olunduğunu izah etmişdir. Yəni bu rəvayət Əbuz-Zübeyrdən yox, Zubeyrdən (r.a) nəql olunur.

İbn Həcər «Mətalibul-Aliyə» əsərində (4-cü cild, səh. 219) bu rəvayəti belə qeyd etmişdir: «Zubeyr (r.a) rəvayət edir ki, Uhud döyüşü günü Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** bir yerdə idik. Bizdə ölüm qorxusu artan zaman Uca Allah bizə bir uyğu göndərdi və hamımız çənəsi sinəsinə düşmüş vəziyyətdə mürgüləməyə başladıq. Allaha and olsun ki, mən Mutəb ibn Quşeyrin: «Əgər bu işdə bizim üçün bir şey olsa idi, elə buradaca öldürülməzdik!» - dediyini yuxu kimi eşidirdim. Mən onun dediklərini əzbərlədim. Sonra isə Uca Allah bu ayəni nazil etdi:

**«Bu qəm-qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bit uyğu göndərdi..».**

«Mətalibul-Aliyə» kitabında qeydlər aparan Həbiburrəhman Ə'zəmi demişdir: «Buseyri bu hədisin hökmü barəsində susmuşdur və bu hədis «ceyyid» hesab olunur».

**Uca Allah buyurur:**

**«Heç bir peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz. Əmanətə xəyanət edən şəxs, qiyamət günü xəyanət etdiyi şeylə** [boynuna yüklənmiş halda] **gələr. Sonra isə hər kəsə gördüyü işlərin əvəzi verilər və onlara haqsızlıq edilməz!» (161-ci ayə)**

Təbərani «Mucəm» əsərində (12-ci cild, səh. 134) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - göndərdiyi ordu qənimətlə geri qayıtdıqdan sonra o, bir daha ordu göndərdi və onlar [topladıqları qənimətlərdən] qızıldan olan qəzal [antilop] başını götürməklə xəyanət edib geri qayıtdılar. Uca Allah da bu ayəni nazil etdi:

**«Heç bir peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz……»**

Heysəmi «Məcməuz-Zəvaid» əsərində və Suyuti «Lübabun-Nüqul» əsərində bu hədisin isnadında olan ravilərin hamısının «siqa» ravilər olduğunu demişlər. Lakin Əbu Abdurrəhman buna etiraz etmiş və demişdir: «Bəli, ravilərin hamısı onların dediyi kimi «siqa» ravilərdir. Yalnız Həbib ibn Əbu Sabit «müdəllis»dir və bu hədisi: «Mənə ibn Abbas (r.a) danışdı» - deməklə rəvayət etməmişdir». Odur ki, bu hədis «daif» sayılır. Lakin qeyd etmək lazımdır ki, bu ravi bəzi hədisləri ibn Abbasdan (r.a) iki nəfərin, yəni Məhəmməd ibn Əli ibn Abdullah ibn Abbasın və atasının vasitəsilə eşitmişdir. «Təhqiqul-İlzamət vət-Tətəbbu» əsərində (səh. 483) qeyd olunduğu kimi.

«Cəmiut-Təhsil» əsərində Əli ibn Mədinidən və «Təhzibut-Təhzib» əsərində İclidən nəql olunmuşdur ki, bu ravi bəzi rəvayətləri ibn Abbasdan (r.a) etmişdir.

Təbərani «Mucəm» əsərində (11-ci cild, səh. 101) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) bu ayəni oxuduqdan sonra demişdir: «Necə ola bilər ki, onları öldürmək Peyğəmbərə - səllallahu aleyhi və səlləm - icazə verilsin, əldə olunan qənimətləri götürmək isə xəyanət sayılsın. Uca Allah buyurur ki;

**«Onlar** [yəhudilər] **peyğəmbərləri haqsız yerə öldürmüşlər...».**[73] Lakin münafiqlər buna görə Peyğəmbəri - səllallahu aleyhi və səlləm - nədə isə ittiham etdilər və Uca Allah da bu ayəni nazil etmişdir.

◎ ◎◎◎◎◎◎◎◎◎◎ ◎◎◎◎ ◎◎◎◎◎◎◎◎◎ ◎◎◎◎◎ ◎◎◎◎◎ ◎ الآية

**«Heç bir peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz......»**

Bu hədisi Təbərani həmçinin «Mucəmus-Səğir» əsərində (2-ci cild, səh. 15), Vahidi «Əsbabun-Nuzul» əsərində (səh. 84), Xətib əl-Bağdadi «Tarixul-Bağdad» əsərində (1-ci cild, səh. 372) rəvayət etmişlər.

Bu hədisin isnadında olan ravilərin hamısı «siqa» ravilərdir, yalnız Məhəmməd ibn Əhməd Bağdadinin necə ravi olduğu məlum deyildir. Xətib Bağdadi onun barəsində «Tarixul-Bağdad» əsərində (1-ci cild, səh. 372) danışmış, lakin necə ravi olduğunu bəyan etməmişdir.

---

[73] [ «Ali İmran» surəsi, 112. ]

Bu hədisi həmçinin Əbu Davud və Tirmizi başqa istinadla rəvayət etmişlər. Bu isnadda olan Xəsif ibn Abdurrəhmanın «daif» ravi olduğunu ibn Həcər təhqiq etdiyi «Kəşşaf» əsərində qeyd etmişdir.

Əbu Abdurrəhmanı deyir ki, Xəsif ibn Abdurrəhmanı əksər hədis alimləri «daif» ravi saymışlar, çünki o, bu rəvayətləri «müttərib» isnadla rəvayət etmişdir. Bu barədə daha geniş məlumat üçün ibn Cəririn «Təfsir»inə (4-cü cild, səh. 155) baxa bilərsiniz.

Sonra mən bu ayə ilə əlaqəli olub, mötəbər sayılan rəvayətə Bəzzarın «Kəşful-Əstar» əsərində (3-cü cild, səh. 43) rast gəldim. O [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) bu ayəni şərh edib demişdir: «Peyğəmbərə səhabələri tərəfindən ittiham olunmaq yaraşmaz».

Bu rəvayətdə ayənin nazil olma səbəbinin qeyd olunmasına baxmayaraq, bu rəvayət əvvəlki rəvayətin mətninin mötəbər olmasına bir dəstəkdir. Doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

**«Siz** [Bədr müharibəsində yetmiş nəfəri öldürüb, yetmiş nəfəri əsir alaraq] **onları ikiqat müsibətə düçar etdiyiniz halda,** [Uhud müharibəsində] **başınıza bir müsibət gəldiyi zaman : «Bu haradan gəldi?»- dediniz?** [Ya Məhəmməd!] **Söylə: «Bu sizin özünüzdəndir». Həqiqətən, Allah hər şeyə qadirdir». (165-ci ayə)**

İmam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 30) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas

(r.a) rəvayət edir ki, Ömər ibn əl-Xəttab (r.a) demişdir: Bədr döyüşündə Peyğəmbər - səllallahu aleyhi və səlləm - nəzər salıb gördü ki, səhabələrinin sayı üç yüzdən bir az çox, müşriklərin sayı isə min nəfərdən bir az çoxdur. Sonra o üzünü qibləyə tərəf çevirdi və əllərini açıb dua etdi: «Allahım, mənə verdiyin vəd nə oldu! Allahım, mənə verdiyin vədini doğrult! Allahım, əgər bu müsəlmanlar həlak olsa, yer üzündə Sənə kim ibadət edər?» Peyğəmbər - səllallahu aleyhi və səlləm - uzun müddət bu duanı edərək Rəbbindən kömək istədi, hətta üst geyimi belə yerə düşdü. Əbu Bəkr (r.a) onu götürüb yenidən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - çiyninə atdı və ona dedi: «Ey Allahın elçisi! Sən ki, bu qədər dua edirsən, Rəbbin sənə verdiyi vədi doğruldacaq və sənə kömək olacaq!» Uca Allah da bu ayəni nazil etdi:

**«O zaman siz** [dua edərək] **Rəbbinizdən kömək diləyirdiniz.** [Allah] **: «Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!» - deyə duanızı qəbul buyurmuşdu».**[74]

Allah müşrikləri məğlub edən gün onlardan yetmiş nəfəri öldürüldü, yetmiş nəfəri də əsir götürüldü. Allahın elçisi bu barədə Əbu Bəkr (r.a), Əli (r.a) və Ömərlə (r.a) məsləhətləşdi. Əbu Bəkr (r.a) dedi: «Ey Allahın elçisi! Bu əsirlərin hamısı bizim qardaşlarımız, qohum-əqrəbalarımız və yaxınlarımızdır. Mən təklif edirəm ki, fidyə alıb onları azad edək. Bununla da qüvvəmizi artıraq. Ola bilsin ki, Allah onlara hidayət versin və onlar da bizə dayaq olsunlar». Peyğəmbər - səllallahu aleyhi və səlləm - Ömərə (r.a) dedi: «Ey ibn əl-Xəttab, sən nə təklif edirsən?» Ömər (r.a) dedi: «Mən Əbu Bəkrin (r.a) dediyi ilə razı deyiləm,

---

[74] [ «əl-Ənfal» surəsi, 9. ]

lakin mənə izn ver filan qohumumun boynunu vurum, Əliyə (r.a) izn ver Əqilin boynunu vursun, Həmzəyə (r.a) də izn ver filan qardaşının boynunu vursun və beləliklə də qəlbimizdə onların başçılarına, sərkərdələrinə və qəhrəmanlarına qarşı mərhəmət olmadığını Allaha göstərək. «Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Əbu Bəkr (r.a) ilə razılaşdı, mənimlə razılaşmadı və fidyə alıb onları azad etdi. Ertəsi gün mən, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəldim və Əbu Bəkrlə (r.a) onun kədərli olduğunu görüb dedim: «Ey Allahın elçisi! Sizi kədərləndirən nədir? Deyin, mən də sizin dərdinizə şərik olum». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Əsirlərin müqabilində götürülmüş fidyəyə görə sənin yoldaşlarına olan əzabın bu yaxındakı ağacdan da yaxın olduğu mənə göstərildi!» Uca Allah bu ayələri nazil etdi:

**«Heç bir Peyğəmbərə yer üzündə** [küfrün kökünü kəsmək üçün bacardığı qədər çox kafir] **öldürməyənə qədər əsirləri özünə mal etmək** [onları öldürməyib fidyə müqabilində azad etmək] **yaramaz.** [Ey möminlər!] **Siz** [fidyə almaqla] **puç dünya malını istəyirsiniz, Allah isə** [sizin] **axirəti qazanmağınızı istəyir. Allah yenilməz qüvvət və hikmət sahibidir! Əgər əvvəlcə** [bu barədə] **Allahdan bir hökm olmasaydı** [lövhi - məhfuzda qənimətlərin və əsirlərin halal olması haqqında yazılmasaydı]**, aldığınız** [fidyə] **müqabilində sizə şiddətli bir əzab üz verərdi** [toxunardı]**».**[75] Yəni aldığınız fidyənin müqabilində. Sonra Uca Allah əldə olunan qənimətləri halal buyurdu. Növbəti il aldığımız bu fidyəyə görə Uhud döyüşündə bəlaya düçar olduq. Bu döyüşdə yetmiş

---

[75] [ «əl-Ənfal» surəsi, 67-68. ]

nəfər şəhid oldu, səhabələr Peyğəmbəri **- səllallahu aleyhi və səlləm -** qoyub qaçdı, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** qabaq dişləri və başındakı dəbilqə sındı, üz-gözü başından axan qana bulandı. Uca Allah da bu ayəni nazil etdi:

«**Siz** [Bədr müharibəsində yetmiş nəfəri öldürüb, yetmiş nəfəri əsir alaraq] **onları ikiqat müsibətə düçar etdiyiniz halda,** [Uhud müharibəsində] **başınıza bir müsibət gəldiyi zaman : «Bu haradan gəldi?»- dediniz?** [Ya Məhəmməd!] **Söylə: «Bu sizin özünüzdəndir». Həqiqətən, Allah hər şeyə qadirdir».** Yəni fidyə aldığınıza görədir».

Bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. İbn Kəsir və Suyutinin bu hədisi Əbu Hatimdən müxtəsər şəkildə rəvayət etmələrinə baxmayaraq, lakin mən ibrət olsun deyə bu hədisi tam şəkildə qeyd etdim.

**Uca Allah buyurur:**

«**Allah yolunda öldürülənləri** [şəhid olanları] **heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi** [cənnət ruzisi] **yeyirlər. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə** [şəhidlik rütbəsinə] **sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış** [şəhidlik səadətinə hələ nail olmamış] **kəslərin** [axirətdə] **heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağı** [xəbərinə] **görə sevincək olurlar». (169, 170, 171-ci ayələr)**

İmam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 265) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Qardaşlarınız Uhud döyüşündə şəhid olduqda, izzət və əzəmət sahibi olan Allah onların ruhlarını yaşıl quşların daxilinə yerləşdirdi. Onların ruhları cənnət çaylarının yanına gəlir, cənnət meyvələrindən yeyir və ərşin kölgəsində yerləşdirilmiş qızıl çıraqların yanına dönürlər. Yemək-içməklərinin və döndükləri yerin nə qədər gözəl olduğunu duyduqları zaman deyirlər: «Kaş qardaşlarımız Allahın bizə verdiyi nemətlər barəsində biləydilər və Allah yolunda olan cihaddan imtina edərək dönüb qaçmayaydılar». İzzət və əzəmət sahibi olan Allah : «Mən sizin dediklərinizi onlara çatdıraram» - dedi və bu ayələri Öz elçisinə nazil etdi:

**«Allah yolunda öldürülənləri** [şəhid olanları] **heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi** [cənnət ruzisi] **yeyirlər…»**

Bu hədisi Əbu Zubeyr ibn Abbasdan (r.a) bilavasitə və Səid ibn Cübeyrin vasitəsilə rəvayət etmişdir. İbn Kəsir deyir ki, Əbu Zubeyrin vasitə ilə rəvayət etdiyi hədis daha mötəbər sayılır.

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 322), İbn Hişam «Sira» əsərində (2-ci cild, səh. 119), ibn Cərir «Təfsir»ində (4-cü cild, səh. 170), İbn əl-Mübarək «Cihad» əsərində (səh. 60) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 88 və 297) rəvayət etmişlər.

Hakim bu hədisin Muslimin şərtinə uyğun olduğunu demiş, Zəhəbi də bunu təsdiq etmişdir.

Lakin sirr deyil ki, Muslim «Səhih» əsərində bu hədisin isnadında olan ibn İshaq adlı ravidən, digər hədisləri «qüvvətləndirmək üçün» yalnız beş hədis rəvayət etmişdir. Zəhəbi də bunu «Mizan» əsərində belə izah etmişdir. Lakin demək olar ki, bu hədis, digər rəvayətlərlə birlikdə «səhih» sayılır.

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 387) bu ayənin Həmzə (r.a) və onunla birlikdə şəhid olanlar barəsində nazil olmasının ibn Abbasdan (r.a) rəvayət olunduğunu qeyd etdikdən sonra bu rəvayətin Buxari və Muslimin şərtləinə uyğun olduğunu demiş, Zəhəbi də onu təsdiqləmişdir.

İmam Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 84) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - mənimlə rastlaşdı və mənə dedi: «Ey Cabir (r.a), nə üçün belə məyus olmusan?» Mən dedim: «Atam Uhud döyüşündə şəhid olmuş, əhli-əyalının təminatı və borclarının ödənilməsi mənim üzərimə düşmüşdür». O dedi: «Allahın atana verdiyi nemətlər barəsində sənə müjdə verimmi?» Mən: «Bəli, ey Allahın elçisi!»- deyə cavab verdim. O dedi: «Bu vaxta qədər Allah danışdığı kəslə yalnız örtük arxasından danışıb. Sənin atanı diriltdikdən sonra onunla bilavasitə danışıb dedi: «Məndən istə, Mən də sənə [istədiyini] verim!» O dedi: «Ey Rəbbim, məni yenidən dirilt ki, Sənin yolunda bir daha şəhid olum». Uca Allah isə ona belə dedi: «Hər bir kəsin öldükdən sonra dirilib dünyaya qayıtmayacağını artıq mən qabaqcadan müəyyən etmişəm!» Sonra Uca Allah bu ayələri nazil etdi:

**«Allah yolunda öldürülənləri** [şəhid olanları] **heç də ölü zənn etmə!...»**

Tirmizi deyir ki, bu hədis «həsən ğərib»dir və Musa ibn İbrahimdən başqa kimsənin bu hədisi rəvayət etdiyi bizə məlum deyil.

Bu hədisi həmçinin ibn Macə «Sünən» əsərində (190-cı və 2800-cü hədislər) və Darimi «Rəddu aləl Cəhmiyyə» əsərində (səh. 74) rəvayət etmişlər.

Hədisin isnadında olan Musa ibn İbrahim «məsturul-hal» ravi sayılır.

Təbəri «Təfsir»ində (4-cü cild, səh. 173) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Məunə quyusunun sahiblərinin yanına yetmiş və ya qırx nəfər səhabə göndərdi. Quyunun böyüyü Amr ibn Tüfeyl Cəfəri idi. Onlar gəlib su quyusunun yanında yerləşən mağarada dayandılar və öz aralarında dedilər: «Kim Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** məktubunu quyunun sahiblərinə çatdırar?»

Əbu Milhan Ənsari (r.a): «Mən, peyğəmbərin məktubunu onlara çatdıraram»- dedi. O, məktubu götürüb onların yaşadığı məhəlləyə gəldi, evlərinin qarşısında yerə oturdu və dedi: «Ey quyu sahibləri mən, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** sizin yanınıza göndərdiyi elçisiyəm. Mən şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq olan məbud yoxdur və Məhəmməd Onun qulu və elçisidir. Siz də Allaha və Onun rəsuluna iman gətirin!» Evlərin birindən bir nəfər əlində nizə ilə çıxıb onu vurdu. Nizə onun bir yanından keçib digər tərəfindən çıxdı. O: «Allah Ən Böyükdür və Kəbənin Rəbbidir!»- deyib yoldaşlarının yanına qayıtdı.

Amr ibn Tufeyl və onun tərəfdarları səhabənin izinə düşüb mağaraya gəldilər və orada olan səhabələrin hamısını öldürdülər». Ənəs ibn Malik (r.a) deyir ki, Uca Allah da bu ayəni nazil etdi:

**[ «Qövmümüzə çatdırın ki, artıq, biz Rəbbimizlə görüşdük. O bizdən, biz də Ondan razı qaldıq!» ]**

Biz bir müddət bu ayəni oxuduqdan sonra Uca Allah onu [tilavətini] nəsx etdi və bu ayələri nazil etdi:

**«Allah yolunda öldürülənləri** [şəhid olanları] **heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi** [cənnət ruzisi] **yeyirlər…»**

Təbəri «Tarix» əsərində (3-cü cild, səh. 36) bu ayələrin [169-171] nazil olma səbəbini Məunə quyusu yaxınlığında öldürülən səhabələrlə əlaqəli olduğunu qeyd etmişdir. Şəvkani «Fəthul Qədir» əsərində demişdir: «Ümumiyyətlə bu ayələr mənasına görə bütün şəhidlərə şamil edilir».

**Uca Allah buyurur:**

**«Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş şəxslərdən yaxşı işlər görüb pis işlərdən çəkinənləri böyük bir mükafat gözləyir! O kəslər ki, xalq onlara «Camaat** [Əbu Süfyan və tərəfdarları] **sizə qarşı** [qüvvə] **toplamışdır, onlardan qorxun!» - dedikdə,** [bu söz] **onların imanını daha da artırdı və onlar: «Allah bizə bəs edər. O nə gözəl vəkildir!» - deyə cavab verdilər. Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığını qazanmış**

**oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir». (172, 173, 174-cü ayələr)**

İmam Təbərani «Mucəm» əsərində (11-ci cild, səh. 274) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Əbu Süfyan və onunla olan müşriklər Uhud döyüşündən sonra Rəvha adlı yerə çatdıqda bir-birilərinə dedilər: «Siz nə Məhəmmədi öldürə bildiniz, nə də onların qadınlarını cariyə kimi götürə bildiniz. Sizin bu etdikləriniz necə də pisdir». Bu xəbər Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** gəlib çatdıqda o, səhabələrinə könüllü olaraq müşriklərin üzərinə getməyi təklif etdi. Onlar könüllü surətdə ona qoşulub müşriklərin ardı ilə getdilər. Onlar gəlib «Həmrəul Əsəd» adlı yerə və ya «Əbu Uyeynə» adlı quyunun yanına çatdıqda Uca Allah bu ayələri nazil etdi.

**«Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş şəxslərdən yaxşı işlər görüb pis işlərdən çəkinənləri böyük bir mükafat gözləyir! O kəslər ki, xalq onlara «Camaat** [Əbu Süfyan və tərəfdarları] **sizə qarşı** [qüvvə] **toplamışdır, onlardan qorxun!» - dedikdə,** [bu söz] **onların imanını daha da artırdı və onlar: «Allah bizə bəs edər. O nə gözəl vəkildir!»- deyə cavab verdilər».**

Artıq Əbu Süfyan Peyğəmbəri **- səllallahu aleyhi və səlləm -** hədələmişdi ki, Bədr döyüşündə öldürdüyünüz tərəfdarlarımızın qisasını alacağıq. Qorxaqlar geri döndülər, şücaətli səhabələr isə Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** birlikdə Allah yolunda cihada hazır olduqlarını göstərdilər. Səhabələr gəlib müşriklər olan yerə çatdıqda, orada heç kəsi

tapmayıb geri qayıtdılar. Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

**«Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir».**

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (6-cı cild, səh. 121) demişdir: «Bu hədisi Təbərani rəvayət etmiş və Məhəmməd ibn Mənsurdan başqa isnadında olan ravilərin hamısı, Buxari və Muslimin istinad etdiyi ravilərdir. Lakin «Mucəm», «Məcməuz-Zəvaid» və «Təhzibut-Təhzib» əsərlərində qeyd olunduğu kimi o da «siqa» ravi sayılır.

Suyuti «Lübabin-Nüqul» əsərində bu hədisin isnadının «səhih» olduğunu qeyd etmişdir. İbn Həcər «Fəthul Bari» əsərində (9-cu cild, səh. 269) demişdir: «Bu hədisi Nəsai[76] və ibn Mərdəveyh rəvayət etmişdir. İsnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Lakin İkrimənin bu hədisi «mürsəl» isnadla, yəni ibn Abbasın (r.a) adını qeyd etmədən rəvayət etdiyi məşhurdur. Həmçinin «mürsəl» isnadla bu hədisi ibn Əbi Hatim və digərləri də rəvayət etmişlər.

İbn Həcərin dediklərindən belə nəticə çıxır ki, «məvsul» sənədlə rəvayət olunmuş bu hədis «şaz»dir. İbn Kəsirin «Təfsir»ində isə Məhəmməd ibn Abdullah ibn Yezid əl-Muqrini bu hədisi «mürsəl» isnadla rəvayət etmişdir. Təbəraninin rəvayətindən göründüyü kimi Məhəmməd ibn Mənsur ət-Tusi bu hədisi «məvsul» isnadla rəvayət etmiş və ibn Həcər

---

[76] «Təfsir» 1/39.

də onu «Təqribu-Təhzib» əsərində «siqa» ravi adlandırmışdır. Təbəraninin isnadından birində Süfyan ibn Uyeynə bu hədisi bilavasitə eşitdiyi ravidən, digər rəvayətdə isə «mürsəl» sənədlə rəvayət etmişdir. Nəticə budur ki, hədis «səhih»dir.

**Uca Allah buyurur:**

**«Əlbəttə, siz malınız və canınızla imtahan ediləcəksiniz. Sizdən əvvəl kitab verilmiş kimsələrdən və** [Allaha] **şərik qoşanlardan bir çox əziyyətli sözlər eşidəcəksiniz. Əgər səbr edib Allahdan qorxsanız, əlbəttə, bu, məqsədə müvafiq işlərdəndir». (186-cı ayə)**

İmam Əbu Davud «Sünən» əsərində» (3-cü cild, səh. 114) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdurrəhman ibn Abdullah ibn Kəb ibn Malik, döyüşdən qaçıb sonra tövbəsi qəbul olunan üç nəfərdən biri olan atasından [yəni Abdullah ibn Kəb ibn Malikdən] rəvayət edir ki, [kitab əhlinin alimlərindən biri olan] Kəb ibn Əşrəf Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - rişğənd edir, Qüreyş kafirlərini də onun əleyhinə qızışdırırdı. Mədinəyə gəldikdə orada həm müsəlmanlar, həm də bütlərə ibadət edən müşriklər var idi. Yəhudilər də öz növbəsində Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - və onun səhabələrinə əziyyət verirdilər. Uca Allah da Peyğəmbərinə - **səllallahu aleyhi və səlləm** - səbr etməyi və bağışlamağı tövsiyə edərək bu ayəni nazil etdi»:

**«Əlbəttə, siz malınız və canınızla imtahan ediləcəksiniz. Sizdən əvvəl kitab verilmiş kimsələrdən və** [Allaha] **şərik qoşanlardan bir çox əziyyətli sözlər eşidəcəksiniz. Əgər səbr**

**edib Allahdan qorxsanız, əlbəttə, bu, məqsədə müvafiq işlərdəndir».**

Kəb ibn Əşrəf Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - əziyyət verməkdən əl çəkmədiyi üçün o - **səllallahu aleyhi və səlləm** -, Səd ibn Muaza (r.a) əmr etdi ki, onu öldürmək üçün bir dəstə hazırlasın. Səd ibn Muaz (r.a) da Məhəmməd ibn Məsləməni (r.a) onun üstünə göndərdi. O, Kəb ibn Əşrəfi öldürdükdən sonra yəhudilərin və müşriklərin arasına çaxnaşma düşdü və onlar Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib dedilər: «O bizim dostumuzu döyüb öldürdü». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Kəb ibn Əşrəfin əməlləri barəsində yəhudilərə və müşriklərə xəbər verdikdən sonra onları sülhə çağırdı. Sonra Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onlarla müsəlmanlar arasında sülh müqaviləsi bağladı.

Munziri bu hədisin isnadını izah edib demişdir: «Bu isnadda: «Abdurrəhman ibn Abdullah ibn Kəb atasından rəvayət edir» deyilməsi müəmmalıdır. Çünki Abdullah nə səhabə, nə də bağışlanan üç nəfərdən biri idi. Odur ki, bu isnad «mürsəl» hesab olunur. Həmçinin ehtimal olunur ki, «atasından»- deyildikdə «babasından» qəsd olunsun, yəni Kəb ibn Malikdən (r.a). Buna əsasən də hədis «müsnəd» hesab olunur, çünki Abdurrəhman babasından da bir çox hədislər eşitmişdir. Kəb ibn Malik (r.a) isə həmin bağışlanan üç nəfərdən biri idi. Bu cür isnadlara tez-tez rast gəlinir.

Bu ayənin digər nazil olma səbəbi də vardır ki, İbn Həcər «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 298) qeyd edib demişdir: «İbn Əbi Hatim və ibn əl-Munzir «həsən» isnadla rəvayət

etmişlər ki, bu ayə Əbu Bəkrlə (r.a) yəhudi Fənhas[77] arasında baş vermiş münaqişəyə görə nazil olmuşdur. Belə ki, həmin yəhudi: «Allah kasıbdır, biz isə dövlətliyik!» deyərkən Əbu Bəkr (r.a) qəzəblənmiş və bu ayə nazil olmuşdur:

Suyuti «Lübabin-Nüqul» əsərində demişdir: «Bu hədisin isnadı «həsən»dir və ehtimal olunur ki, ayə hər iki səbəbə görə nazil olmuşdur».

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən kimsələrin əzabdan xilas olacaqlarını güman etmə. Onları şiddətli bir əzab gözləyir!». (188-ci ayə)**

Buxari «Səhih» əsərində (8-ci cild, səh. 233) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Səid əl-Xudri (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** döyüşə çıxdığı zaman bir dəstə münafiq ondan ayrılır və döyüşə getməyib ona müxalif olduqlarına görə sevinirdilər. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** döyüşdən qayıtdığı zaman onlar özlərinə bəraət qazandırmaq üçün bəhanə gətirir və üzr istəyirdilər. Həmçinin onlar görmədikləri işlərə görə də tərif olunmağı sevərdilər. Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən kimsələrin**

---

[77] [ «Bənu-Qaynuqa» qəbiləsinin «alim»lərindəndir. Təbərinin «Təfsir»i 4/200. ]

**əzabdan xilas olacaqlarını güman etmə. Onları şiddətli bir əzab gözləyir».**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (17-ci cild, səh. 123) və İbn Cərir «Təfsir»ində (4-cü cild, səh. 205) rəvayət etmişdir.

Buxari bu ayənin nazil olmasına dair başqa səbəbi də «Səhih» əsərində (9-cu cild, səh. 301) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əlqəmə ibn Vəqqas rəvayət edir ki, Mərvan ibn Həkəm qapıda duran gözətçilərdən birini ibn Abbasın (r.a) yanına göndərib dedi: «Ey Rafi! Get ibn Abasdan (r.a) soruş ki, etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən hər bir kəsə əzab veriləcəkmi?» İbn Abbas (r.a) dedi: «Bu ayə barəsində mən sizə onu deyə bilərəm ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bir dəstə yəhudini çağırıb onlardan bir məsələ barəsində soruşdu. Onlar həqiqəti gizlədib, ona başqa cavabı dedilər. Bunu etməklə onlar Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - sualına verdikləri bu cavaba görə tərif olunmaq istədilər və həqiqəti gizlətdiklərinə görə də sevindilər». Sonra ibn Abbas (r.a) bu ayələri oxudu:

«[Ya Məhəmməd!] **Allah kitab əhlindən: «Siz onu** [kitabda olanları] **gizlətməyib, insanlar üçün aydınlaşdırmalısınız!» - deyə əhd aldığı zaman onlar bu əhdə dal çevirdilər və onu az bir qiymətə satdılar. Onların bu alış verişi necə də pisdir!** [Ya Məhəmməd!] **Etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən kimsələrin əzabdan xilas olacaqlarını güman etmə. Onları şiddətli bir əzab gözləyir».**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (17-ci cild, səh. 123), Tirmizi «Sünən» əsərində (5-ci cild, səh. 233), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 298) və ibn Cərir «Təfsir»ində (4-cü cild, səh. 207) rəvayət etmişlər. Tirmizi bu hədisin «həsən, ğərib, səhih» olduğunu qeyd etmişdir.

İbn Həcər «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 301) hər iki hədisi cəm edib demək olar ki, bu ayə hər iki dəstə barəsində nazil olub». Əbu Səidin (r.a) rəvayəti üstün olsaydı daha doğru sayılardı. Çünki ibn Abbasın (r.a) rəvayəti Buxari və Muslimə irad tutulan rəvayətlərdəndir. Bu İbn Həcərin «Fəthul-Bari» əsərinin müqəddiməsində (2-cu cild, səh. 132) qeyd olunub.

İbn Həcər həmçinin «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 302) demişdir: «Bu ayənin məhz kitab əhlinə aid edilməsinin mənası yoxdur. Belə ki, ayənin ümumi mənası etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən hər bir kimsəyə aid edilir».

**Uca Allah buyurur:**

**«Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki, onlar Allaha boyun əyərək Allaha, sizə və özlərinə nazil olanlara** [Qurana, Tövrata və İncilə] **inanır, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbbi yanında mükafatları vardır. Doğrudan da, Allah tezliklə haqq-hesab çəkəndir». (199-cu ayə)**

Əbu Bəkr Bəzzar «Müsnəd» əsərində (1-ci cild, səh. 392) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini

birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - səhabələrinə Nəcaşinin vəfat etdiyini xəbər verdikdən sonra onun üçün cənazə namazı qıldı. Səhabələrdən bəziləri ona dedilər: «Ey Allahın elçisi! Həbəşinin cənazə namazını qılırsan?» Uca Allah da bu ayəni nazil etdi:

**«Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki,….».**

Hədisi bu isnadla həmçinin Nəsai «Təfsir» fəslində (1-ci cild, səh. 41) rəvayət etmişdir. Bu hədisin isnadında olan Humeyd «müdəllis»dir və onu «eşitdim» deməklə rəvayət etməmişdir. Deməli o, bu hədisi iki isnadla, Həsəndən «mürsəl» və Ənəsdən (r.a) «məvsul» isnadla rəvayət etmişdir.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (3-cü cild, səh. 38) bu hədisi qeyd etdikdən sonra demişdir: «Bu hədisi Bəzzar «Müsnəd» əsərində və Təbərani «Mucəmul-Əvsət» əsərində rəvayət etmişlər». Təbəraninin rəvayət etdiyi isnadda olan ravilərin hamısı Buxari və Muslimin əsaslandığı ravilərdir.

Təbərani həmçinin bu hədisi Əbu Səid əl-Xudridən (r.a) rəvayət olunduğunu da qeyd etmişdir. Lakin həmən isnadda olan Abdurrəhman ibn Əbi Zinad «daif» ravidir. Təbəraninin rəvayət etdiyi başqa isnadda Süleyman ibn Əbu Davud adlı ravi də «daif»dir.

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində rəvayət etmiş və isnadının «səhih» olduğunu qeyd etmişdir. Ancaq bu isnadda olan Musab ibn Sabit «daif» ravidir. Lakin qeyd etmək lazımdır ki, bu hədis yuxarıda qeyd olunan isnadlarla birlikdə mötəbər sayılır. Daha doğrusunu isə Allah bilir.

# Ən-Nisa surəsi

**Uca Allah buyurur:**

**«Əgər yetim qızlarla** [evlənəcəyiniz təqdirdə] **ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa, o zaman sizə halal olan başqa qadınlardan iki, üç və dörd nəfərlə nigah bağlayın! Əgər** [onunla] **ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər** [azad] **qadın və ya sahib olduğunuz kənizlə evlənin! Bu, ədalətli olmağa** [ədalətdən kənara çıxmamağa] **daha yaxındır». (3-cü ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 307) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, bir kişi himayəsində saxladığı, xurma ağacına [yaxud xurmalığa] sahib yetim bir qızla evləndi. Bu kişinin könlündə qıza istək olmadığı halda, onu məhz xurma ağacına görə saxlayırdı. Uca Allah da bu ayəni nazil etdi:

**«Əgər yetim qızlarla** [evlənəcəyiniz təqdirdə] **ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa….»**

Elə hesab edirəm ki, qız həm xurma ağacında, həm də kişinin başqa malında onunla şərik idi.[78]

Bu hədisi həmçinin İbn Cərir «Təfsir»ində (4-cü cild, səh. 232) və Muslim «Səhih» əsərində (18-ci cild, səh. 155) rəvayət etmişlər.

[78] [ Bu, Hişam ibn Yusifin şəkk etməsidir - «Fəthul Bari» 8/87. ]

**Uca Allah buyurur:**

**«Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını hiss etsəniz mallarını özlərinə qaytarın. Böyüyəcəklər** [böyüyən kimi mallarını məndən alacaqlar] **deyə, o malları israf edib tələm-tələsik yeməyin. Zəngin olan** [qəyyum] **o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə** [ehtiyacı olduğu qədər, çəkdiyi zəhmətin əvəzi miqdarında] **yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər!» (6-cı ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 309) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, bu ayə

**«Zəngin olan** [qəyyum] **o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə** [ehtiyacı olduğu qədər çəkdiyi zəhmətin əvəzi miqdarında] **yesin».** yetimi himayə edən şəxsin kasıb olması təqdirdə, çəkdiyi əziyyətin müqabilində onun malından ehtiyacı olduğu qədər istifadə edə biləcəyini bəyan etmək üçün nazil olmuşdur».

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (18-ci cild, səh. 165,166) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Allah övladlarınız haqqında sizə tövsiyə edərək buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür. Əgər** [ölən şəxsin] **qızlarının sayı ikidən artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir nəfər qızdırsa, mirasın yarısı**

**onundur. Övladı olduğu təqdirdə** [vəfat edənin] **ata və anasının hər birinə mirasın altıda bir hissəsi verilir. Əgər onun övladı olmayıb varisi yalnız ata və anadan ibarətdirsə,** [malın] **üçdə bir hissəsi anaya aiddir.** [Qalan hissə təmamilə ataya çatır]**. Əgər ölmüş şəxsin qardaşları və bacıları varsa, ananın hissəsi altıda birdir.** [Yerdə qalan hissə yenə atanın payına düşür]. [Bu bölgü ölən şəxsin] **vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansı birinin** [xeyir və] **mənfəət cəhətdən sizə daha yaxın olduğunu bilmədiyiniz üçün bu** [bölgü]**, Allah tərəfindən müəyyən edilmişdir. Həqiqətən, Allah** [hər şeyi] **biləndir, hikmət sahibidir. Ey kişilər! Əgər** [vəfat etmiş] **arvadlarınızın uşağı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra qoyub getdikləri malın yarısı sizindir. Onların övladları olduqda isə mirasın dörddə biri sizə çatır. Əgər sizin uşağınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və ya borcunuz ödənildikdən sonra qoyub getdiyiniz malın dörddə biri arvadlarınızın payına düşür. Övladınız olduqda isə mirasın səkkizdə biri onlara çatır. Əgər** [vəfat etmiş] **kişi və qadının** [ata-anası və övladı olmayıb] **eyni anadan tək bir qardaşı və ya bir bacısı varsa, onların hər birinə mirasın altıda biri düşür. Onların sayı birdən artıq olduqda isə hamısı həmin malın üçdə birinə şərikdir. Bu,** [vərəsələrə] **zərər toxunmadığı halda edilən vəsiyyətin yerinə yetirilməsindən və ya borcun ödənilməsindən sonra icra olunur.** [Bütün bunlar] **Allah tərəfindən** [bəndələrə] **tövsiyə olunmuşdur. Allah** [hər şeyi] **Biləndir, Həlimdir». (11-12-ci ayələr)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 311) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - və Əbu Bəkr (r.a) məni ziyarət etmək üçün Bənu Sələmə qəbiləsinə gəldilər. Peyğəmbər - səllallahu aleyhi və səlləm - məni halsız, heç nəyi dərk etmədiyim bir halda görüb su gətirməyi tələb etdi. O, dəstəmaz alıb onun suyunu üzərimə səpdikdən sonra mən ayıldım. Bu zaman [Peyğəmbəri - səllallahu aleyhi və səlləm – qarşımda görüb] ondan malımı necə sərf edəcəyim barədə soruşdum. Uca Allah da bu ayələri nazil etdi:

**«Allah övladlarınız haqqında sizə tövsiyə edərək buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür…»**

Bu hədisi həmçinin Buxari (1-ci cild, səh. 313; 12-ci cild, səh. 218; 15-ci cild, səh. 4), Muslim «Səhih» əsərində (11-ci cild, səh. 55, 56), Tirmizi «Sünən» əsərində (3-cü cild, səh. 179; 4-cü cild, səh. 86), ibn Carud «Müntəqa» əsərində (səh. 319) və İbn Cərir «Təfsir»ində (14-cü cild, səh. 276) rəvayət etmişlər.

Tirmizi «Sünən» əsərində (3-cü cild, səh. 179) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Sə'd ibn ər-Rabinin (r.a) həyat yoldaşı iki qızını Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gətirib dedi: «Ey Allahın elçisi! Sə'd (r.a) səninlə birlikdə Uhud döyüşündə iştirak edib şəhid olmuş və iki qızı yetim qalmışdır. Uşaqların əmisi onların payına düşən malları götürüb onlara heç nə saxlamamışdır. Onlar yalnız mal-dövlətləri olduqları halda ərə gedə bilərlər. Bu haqda nə deyə bilərsən?» Peyğəmbər - səllallahu

aleyhi və salləm - : «Bunun hökmünü Allah verəcək» dedikdən sonra «miras» ayəsi nazil oldu.

Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - səhabələrdən biri ilə qızların əmisinə xəbər göndərdi ki: «Mirasın üçdə iki hissəsini Sə'din (r.a.) qızlarına, səkkizdə bir hissəsini onların anasına versin! Yerdə qalan hissəsini isə özünə götürsün!»

Bu hədis «həsən-səhih»dir.

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 80), ibn Macə «Sünən» əsərində (2720-ci hədis), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 352), ibn Sə'd «Təbəqat» əsərində (3-cü cild, səh. 78) və Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 370) rəvayət etmişlər.

Hakim bu hədisin isnadının «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiq etmişdir.

Cabir ibn Abdullahın özü barəsində rəvayət etdiyi (r.a) hədisi Buxari və Muslim rəvayət etmişdir. Həmçinin Sə'd ibn ər-Rabinin (r.a) qızları barəsində rəvayət etdiyi hədisin isnadında olan Abdullah ibn Məhəmməd hafizəsi zəif olan «səduq» ravidir. Odur ki, birinci rəvayət ikincisindən daha etbarlı sayılır. Lakin qeyd etmək lazımdır ki, ayənin hər iki səbəbə görə nazil olduğu ehtimal olunur.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir!** [Qadınlar] **açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin** [mehrin] **bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl** [Allahın buyurduğu kimi] **rəftar edin. Əgər onlara nifrət etsəniz,** [dözün]**. Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı**

**bir şeydə Allah** [sizdən ötrü] **çoxlu xeyir nəzərdə tutmuş olsun». (19-cu ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 314) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, cahiliyyə dövründə bir kişi öldükdə, qohumları zorla onun həyat yoldaşına varis çıxaraq ya özlərindən biri onunla evlənir, ya istədiklərinə ərə verir, ya da ona istədiyinə ərə getməkdə mane olurdular. Bu məsələdə kişinin qohumları qadının qohumlarından daha çox hüquqlara malik idilər. Uca Allah da bu ayəni nazil etdi.

**«Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir!** [Qadınlar] **açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin** [mehrin] **bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin».**

Bu hədisi həmçinin Buxari «İkrah» fəslində (15-ci cild, səh. 353), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 193) və İbn Cərir «Təfsir»ində (4-cü cild, səh. 305) rəvayət etmişlər.

İbn Kəsir «Təfsir»ində (1-ci cild, səh. 465) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, cahiliyyə dövründə qadının əri öldükdən sonra bir nəfər [ərinin qohumlarından] gəlib onun üzərinə paltar atmaqla ona sahib çıxardı. Buna görə də bu ayə nazil oldu».

Əli ibn Bəziymədən başqa hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Əli ibn Bəziyməyə gəlincə, «Sünən» əsərinin müəllifləri [Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə] ondan hədis rəvayət etmişlər və bu ravi «siqa» ravi hesab olunur.

İbn Cərir Təbəri «Təfsir»ində (4-cü cild, səh. 305) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Umamə (r.a) rəvayət edir ki, Əbu Qeys ibnul Əslət vəfat etdikdən sonra oğlu onun arvadı ilə evlənmək istədi. Cahiliyyə dövründə bu cür evlənmə adi hal idi və ona görə də bu ayə nazil oldu».

İbn Həcər «Fəthul Bari» əsərində (9-cu cild, səh. 305) və Suyuti «Lübabun-Nüqul» əsərində bu hədisin isnadının «həsən» olduğunu qeyd etmişlər.

**Uca Allah buyurur:**

**«Atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin! Yalnız keçmişdə** [cahiliyyət dövründə] **olan bu cür işlər müstəsnadır. Əlbəttə, bu çox çirkin, iyrənc işdir və** [Allahın qəzəbinə səbəb olan] **pis bir yoldur!» (22-ci ayə)**

İbn Cərir «Təfsir»ində (4-cü cild, səh. 318) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, İslam şəriətində evlənməsi haram olan qadınlar İslamaqədərki ərəb cəmiyyətində də yasaq edilmişdilər. Lakin bu «hökmdə» atanın həyat yoldaşı və iki bacı ilə birlikdə evlənmə istisna idi. Uca Allah da bu ayəni nazil etdi.

**«Atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin! Yalnız keçmişdə** [cahiliyyət dövründə] **olan bu cür işlər müstəsnadır...»** ayəsindən **«...iki bacını birlikdə almaq da sizə haramdır»** ayəsinə qədər.[79]

---

[79] [ «ən-Nisa» surəsi, 23. ]

Məhəmməd ibn Abdullah Məxrəmidən başqa hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Həmçinin o da «siqa» ravidir.

**Uca Allah buyurur:**

«[Cihad vaxtı əsir alaraq] **sahib olduğunuz** [cariyələr] **müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı** [hökmü] **ilə sizə haram edildi. Bunlardan başqaları isə namusla** [iffətlə], **zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. İstifadə** [yaxınlıq] **etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah** [hər şeyi] **Biləndir və hikmət sahibidir!» (24-cü ayə)**

Muslim «Səhih» əsərində (10-cu cild, səh. 35) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Səid əl-Xudri (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Huneyn döyüşündə qoşun hazırlayıb Əvtasa göndərdi. Onlar düşmənə qalib gəldikdən sonra cariyələrə sahib oldular. Lakin səhabələrdən bir qismi elə zənn etdi ki, ərləri müşrik olan cariyələrlə evlənməklə günah qazanacaqlar. Uca Allah da bu ayəni nazil etdi»:

«[Cihad vaxtı əsir olaraq] **sahib olduğunuz** [cariyələr] **müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı** [hökmü] **ilə sizə haram edildi».** Yəni gözləmə müddəti bitdikdən sonra həmin cariyələrlə evlənmək sizə halal buyuruldu.

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 86), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 213), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 91), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 72, 84) və İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 2) rəvayət etmişlər. Tirmizi bu hədisin «həsən-səhih» olduğunu qeyd etmişdir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Kitabdan** [Tövratdan və ya yazıb oxumaqdan] **özlərinə az bir şey verilənləri** [yəhudiləri] **görmürsənmi? Onlar Cibt və Tağuta** [bu adda iki bütə yaxud Cibt adlı bütə və Tağut deyilən şeytana] **inanır və kafirlər üçün də: «Bunlar möminlərdən daha doğru yoldadırlar»-deyirlər. Onlar Allahın lənət etdiyi şəxslərdir. Allahın lənət etdiyi şəxsə isə heç bir kömək edən tapa bilməzsən!» (51-52-ci ayələr)**

İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 133) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Kə'b ibn əl-Əşrəf Məkkəyə gəldikdə Qüreyşlilər ona belə dedi: «Sən Mədinə əhlinin arasında ən xeyirli və ən şərəfli şəxsiyyətsən! Qövmündən ayrılıb özünü bizdən də artıq sayan bu sənbur[80] [Peyğəmbər - **səllallahu aleyhi və səlləm** ] barəsində nə deyə bilərsən? Baxmayaraq ki, biz ziyarətgahda qulluq edirik, oranı ziyarət etməyə gələnləri su ilə təmin edirik və onlara

[80] Sənbur - sonsuz, zəif, zəlil və yardımçısı olmayana deyilir. («Qamus», 2/73.)

digər xidmətlər göstəririk». O dedi: «Siz ondan da artıq xeyirxahsınız!» Uca Allah bu ayəni nazil etdi»:

**«Şübhəsiz ki, sənə ədavətkar olanın özü sonsuzdur».**[81] Daha sonra Uca Allah bu ayələri nazil etdi:

«[Ya Məhəmməd!] **Kitabdan** [Tövratdan və ya yazıb oxumaqdan] **özlərinə az bir şey verilənləri** [yəhudiləri] **görmürsənmi? Onlar Cibt və Tağuta** [bu adda iki bütə yaxud Cibt adlı bütə və Tağut deyilən şeytana] **inanır»** ayəsindən **«Allahın lənət etdiyi şəxsə isə heç bir kömək edən tapa bilməzsən!»** ayəsinə qədər.

Bu hədisi ibn Kəsir «Təfsir»ində (1-ci cild, səh. 513) qeyd etdikdən sonra demişdir ki, bu hədisi həmçinin İmam Əhməd «Müsnəd» əsərində və ibn Hibban «Məvariduz-Zaman» əsərində (səh. 428) rəvayət etmişlər.

İsnadda olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir, lakin bu isnad «mürsəl»dir.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır». (59-cu ayə)**

---

[81] [ «əl-Kovsər» surəsi, 3. ]

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 322) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bu ayə Abdullah ibn Huzafə ibn Qeys (r.a) barəsində nazil olmuşdur. Peyğəmbər - səllallahu aleyhi və səlləm - Abdullah ibn Huzafə ibn Qeysi (r.a) bir dəstə üçün başçı təyin edib göndərən zaman onun barəsində bu ayə nazil oldu».

## Hədisin izahı

İmam Buxari «Səhih» əsərində (9-cu cild, səh. 121) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əli ibn Əbi Talib (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - ənsarlardan olan bir nəfəri dəstəyə başçı təyin etdi və ona itaət etməyi onlara əmr etdi. O, səfərdə ikən qəzəbləndi və onların üstünə qışqırıb dedi: «Məgər Peyğəmbər - səllallahu aleyhi və səlləm - mənə itaət etməyi sizə əmr etməyib?» Onlar: «Əksinə! [İtaət etməyi bizə əmr edib.]» - deyə cavab verdilər. O, odun toplayıb tonqal qalamağı əmr etdi. Onlar da buna əməl etdilər. Sonra onlara odun içinə girməyi əmr etdi. Onlar əvvəl oda girmək istədilər, sonra isə öz aralarında dedilər: «Biz cəhənnəm oduna düşməmək üçün Peyğəmbərə - səllallahu aleyhi və səlləm - iman gətirmişik!» Bu hal od sönənə və onun [əmirin] qəzəbi sakitləşənə qədər davam etdi. Bu xəbər Peyğəmbərə - səllallahu aleyhi və səlləm - gəlib çatdıqda o dedi: «Əgər onlar odun içərisinə daxil olsaydılar, qiyamətə qədər oradan çıxmayacaqdılar. Allah və Peyğəmbərinin buyuruqlarına zidd olan heç bir əmələ itaət olunmur!»

İbn Kəsir «Təfsir»ində qeyd edir ki, bu hədisi İbn Macədən başqa «Altı kitab»ın müəlliflərinin [Buxari, Muslim, Əbu Davud, Tirmizi və Nəsai] hamısı rəvayət etmişlər. Bundan başqa hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 337), İbn Carud «Müntəqa» əsərində (səh. 346) və İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 147-148) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«**[Ya Məhəmməd!] **Sənə nazil edilənə** [Qurana] **və səndən əvvəl nazil edilənlərə** [Tövrata, İncilə] **iman gətirdiklərini iddia edənləri** [münafiqləri] **görmürsənmi? Onlar Tağutun hüzurunda mühakimə olunmaq** [Şeytanın məhkəməsinə müraciət etmək] **istəyirlər. Halbuki onlara ona inanmamaları əmr olunmuşdu. Şeytan isə onları** [doğru yoldan] **çox uzaq olan bir zəlalətə sürükləmək istər. Onlara: «Allahın nazil etdiyinə** [Qurana] **və Peyğəmbərə tərəf gəlin!»- deyildiyi zaman, münafiqlərin səndən büsbütün üz döndərdiklərini görərsən. Bəs etdikləri əməllərin cəzası olaraq başlarına bir müsibət gəldiyi zaman** [onların halı] **necə olacaq? Sonra onlar sənin yanına gəlib: «Biz yalnız yaxşılıq etmək və** [iddiaçılar arasında] **barışıq yaratmaq istədik»- deyərək Allaha and içəcəklər». (60,61,62-ci ayələr)**

İbn Kəsir «Təfsir»ində ( 1-ci cild, səh. 519) qeyd edir ki, Təbərani «Mucəm» əsərində [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, yəhudilər öz aralarında baş vermiş mübahisələri həll etmək üçün kahin olan əbu Bərzə əl-Əsləmiyə müraciət edirdilər. Müşriklərdən olan bir dəstə də öz aralarında baş vermiş mübahisəni həll

etmək üçün ona müraciət etdikdə Uca Allah bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Sənə nazil edilənə** [Qurana] **və səndən əvvəl nazil edilənlərə** [Tövrata, İncilə] **iman gətirdiklərini iddia edənləri** [münafiqləri] **görmürsənmi?»** ayəsindən **«Sonra onlar sənin yanına gəlib: «Biz yalnız yaxşılıq etmək və** [iddiaçılar arasında] **barışıq yaratmaq istədik» - deyərək Allaha and içəcəklər»** ayəsinə qədər.

Hədisi bu sənədlə Vahidi «Əsbabun-Nuzul» əsərində qeyd etmişdir. Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 6) Təbəraninin bu rəvayətini qeyd etdikdən sonra demişdir: «Bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin əsaslandıqları ravilərdir.

**Uca Allah buyurur:**

**«Amma, xeyr!** [Ya Məhəmməd!] **Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim** [münsif] **təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə** [həqiqi surətdə] **iman gətirmiş olmazlar». (65-ci ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 323 və 5-ci cild, səh. 431, 438) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn əz-Zubeyr (r.a) rəvayət edir ki, ənsarlardan olan bir kişi Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanında Zubeyr (r.a) ilə xurma ağaclarının suvarılması üçün istifadə olunan arx barəsində mübahisə etdi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** isə dedi: «Ey Zubeyir! Öz ağaclarını suladıqdan sonra suyu

burax qonşunun bağına axsın! Bunu eşidən ənsar qəzəblənib dedi: «Ey Allahın elçisi o sənin əmin oğlu olduğu üçün belə hökm verdin?» Peyğəmbərin - səllallahu aleyhi və səlləm - [qəzəbindən] rəngi dəyişdi və dedi: «Ey Zubeyr, su divarın dibinə çatana qədər öz ağaclarını sula, yalnız sonra suyu qonşunun bağına burax!» Zubeyr (r.a) deyir ki, Allaha and olsun ki, bu ayə həmin hadisəyə görə nazil olub.

**«Amma, xeyr!** [Ya Məhəmməd!] **Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim** [münsif] **təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə** [həqiqi surətdə] **iman gətirmiş olmazlar».**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (15-ci cild , səh. 107), Tirmizi «Sünən» əsərində (2-ci cild, səh. 289; 4-cü cild, səh. 89), Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 352), İbn Macə «Sünən» əsərində (15 və 2480-cı hədis), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 5), İbn Cərir «Təfsir»ində (5-ci cild səh. 158) və ibn Carud «Müntəqa» əsərində (səh. 339) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən» olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«Allaha və Peyğəmbərə itaət edənlər** [axirətdə] **Allahın nemətlər verdiyi nəbilər** [peyğəmbərlər]**, siddiqlər** [tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər]**, şəhidlər və salehlərlə** [yaxşı əməl sahibləriylə] **bir yerdə olacaqlar. Onlar isə necə də gözəl yoldaşlardır!» (69-cu ayə)**

Təbərani «Mucəmus-Səğir» əsərində (1-ci cild, səh. 26) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, səhabələrdən biri Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib dedi: «Ey Allahın elçisi! Həqiqətən, sən mənim üçün özümdən, ailəmdən, övladımdan və var-dövlətimdən də sevimlisən. Mən evimdə olarkən səni xatırlayıram və səni görməyənə qədər qəlbim rahatlıq tapmır. Hər ikimizin öləcəyini xatırlayanda isə düşünürəm ki, sən Cənnətə daxil olduqda peyğəmbərlərə xas olan ən yüksək mərtəbədə olacaqsan. Mən isə ora daxil olsam qorxuram bir daha səni görməyim». Cəbrail - **aleyhissəlam** - Uca Allahın

**«Allaha və Peyğəmbərə itaət edənlər** [axirətdə] **Allahın nemətlər verdiyi nəbilər** [peyğəmbərlər]**, siddiqlər** [tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər]**, şəhidlər və salehlərlə** [yaxşı əməl sahibləriylə] **bir yerdə olacaqlar….»** ayəsini nazil edənə qədər Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - ona bir cavab vermədi.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 7) bu rəvayəti qeyd etdikdən sonra demişdir: «Abdullah İbn İmrandan başqa hədisin isnadında olan ravilərin hamısı Buxari və Mislimin istinad etdiyi ravilərdir. Abdullah İbn İmrana gəlincə, o da «siqa» ravidir».

Bu hədisi həmçinin Əbu Nueym «Hilyə» əsərində (4-cü cild, səh. 240 və 8-ci cild, səh. 125) və Vahidi «Əsbabun-Nuzul» əsərində rəvayət etmişlər.

Şəvkani deyir ki, Məqdisi bu hədisi «həsən» hesab etmişdir.

İbn Kəsirin «Təfsir»ində (1-ci cild, səh. 523) bu hədisi gücləndirən bir çox rəvayətlər vardır.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **O şəxsləri görmürsənmi ki, onlara** [vaxtilə]**: «**[Mühəribədən] **əl çəkin, namaz qılın, zəkat verin!»- deyilmişdi. Onlara cihad etmək vacib olduqda isə, içərilərindən bir qismi Allahdan qorxan kimi və ya daha artıq insanlardan qorxuya düşərək: «Ey Rəbbimiz! Cihad etməyi nə üçün bizə vacib etdin, nə olardı ki, bizi yaxın zamana qədər** [öz əcəlimiz çatana qədər] **yubandıraydın!»- dedilər. Onlara söylə: «Dünyanın ləzzəti və faydası azdır, lakin müttəqi üçün axirət daha xeyirlidir. Sizə** [müttəqilərə] **xurma çərdəyində olan nazik tel qədər belə zülm olunmaya-caqdır!»** **(77-ci ayə)**

Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 3) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Abdurrəhman İbn Auf (r.a) və onun yoldaşları Məkkəyə, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedilər: «Ey Allahın elçisi! Müşrik olduğumuz zaman hörmət, izzət içində idik. İman gətirdikdən sonra isə zəlil, hörmətsiz olduq». Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Artıq [onları] əfv etmək mənə əmr olundu, elə isə mühəribədən əl çəkin!»

Mədinəyə hicrət etdikdən sonra mühəribə etmək bizə əmr olundu, mühəribədən yayındıqda isə Uca Allah bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **O şəxsləri görmürsənmi ki, onlara** [vaxtilə]**: «**[Mühəribədən] **əl çəkin, namaz qılın, zəkat verin!»- deyilmişdir….»**

Bu hədisi Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 66; 307) rəvayət etdikdən sonra onun Buxarinin şərtinə uyğun olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiq etmişdir.

Lakin qeyd etmək lazımdır ki, Hüseyn İbn Vaqid Buxarinin istinad etdiyi ravilərdən deyildir. Hüseynə gəlincə o, Muslimin istinad etdiyi ravilərdəndir.

Bu hədisi Həmçinin ibn Cərir «Təfsir»ində (5-ci cild, səh. 171)

**Uca Allah buyurur:**

**«Onlara** [münafiqlərə bəzi müsəlmanların sadəlövhlüyü üzündən döyüş meydanından] **əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki əgər** [müsəlmanlar] **bunu** [münafiqlərə deyil] **Peyğəmbərə və ya özlərindən** [möminlərdən] **olan ixtiyar sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan** [belə bir xəbərin yayılmasının məqsədəuyğun olub-olmadığını təyin etməyə qadir olan] **şəxslər bilərdilər. Əgər Allahın lütfü** [mərhəməti] **üzərinizdə olmasaydı, şübhəsiz ki, az bir qisminiz müstəsna olmaqla, şeytana uyardınız». (83-cü ayə)**

Muslim «Səhih» əsərində (10-cu cild, səh. 82) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ömər ibn əl-Xəttab (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** zövcələrini müvəqqəti olaraq tərk etmişdi. Mən məscidə daxil olduqda orada olanların kədərlə: «Allahın elçisi zövcələrini boşayıb!»-dediklərini eşitdim. Bu zaman hələ qadınlara hicab geyinmək əmr olunmamışdı. Mən öz-özümə dedim: «Bu gün mən bu məsələni mütləq öyrənəcəyəm!» Sonra Aişənin (r.a) yanına gəlib dedim: «Ey Əbu Bəkrin qızı! Sən o həddə çatmısan ki,

Allahın elçisinə - səllallahu aleyhi və səlləm - əziyyət verirsən?» O dedi: «Mənim etdiklərimin sənə heç bir aidiyyatı yoxdur. Yaxşı olar ki, sən öz qızına nəsihət verəsən». Mən Həfsənin (r.a) yanına gəlib dedim: «Ey Həfsə, sən o həddə çatmısan ki, Allahın elçisinə - səllallahu aleyhi və səlləm - əziyyət verirsən? Allaha and olsun ki, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - səni sevmədiyini bilirsən və mən olmasaydım o səni boşayardı!» Həfsə (r.a) bunu eşitdikdə ağladı. Peyğəmbərin - səllallahu aleyhi və səlləm - harada olduğunu soruşduqda o dedi: «O öz eyvanındadır».

Mən içəri daxil olduqda Peyğəmbərin - səllallahu aleyhi və səlləm - balaca xidmətçisi Rəbah (r.a) eyvanın astanasında oturub, ayaqlarını da Peyğəmbərin - səllallahu aleyhi və səlləm - söykənmək üçün istifadə etdiyi kötüyün üzərinə uzatmışdı. Mən onu çağırıb dedim: «Ey Rəbah, Allahın elçisindən - səllallahu aleyhi və səlləm - izn istə onun yanına daxil olum. O əvvəl eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən yenə onu çağırıb dedim: «Ey Rəbah, Allahın elçisindən - səllallahu aleyhi və səlləm - izn istə onun yanına daxil olum». O əvvəl eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən onu uca səslə çağırıb dedim: «Ey Rəbah, Allahın elçisindən - səllallahu aleyhi və səlləm - izn istə onun yanına daxil olum. Mən zənn edirəm ki, Allahın elçisi mənim Həfsəni (r.a) müdafiə etmək üçün gəldiyimi güman edir. Allaha and olsun ki, o mənə əmr etsəydi, Həfsənin (r.a) boynunu vurardım». Bu dəfə Rəbah (r.a) başı ilə işarə edib Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına daxil olmağa izn verdi. Mən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına daxil olduqda, o, həsirin üzərində uzanmışdı. Sonra o qalxıb oturdu və onun əynində izardan[82] başqa heç nə yox idi. Həsirin izi

[82] [ Bədənin alt yarı hissəsini örtən geyim. «Mucəmul Vasit» səh. 16. ]

onun çiynində və böyründə qalmışdı. Mən onun eyvanına nəzər salıb gördüm ki, orada təqribən bir «saa»[83] arpa, bir o qədər akasiya ağacının qabığı və bir də aşılanmış dəridən başqa heç bir şey yoxdur. Bu halı gördükdə mənim gözlərim yaşla doldu. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Ey ibn əl-Xəttab, səni ağladan nədir?» Mən dedim: «Ey Allahın elçisi! Nə üçün də ağlamayım. Mən görürəm ki, həsir sənin bədənini bu hala salıb, eyvanında da gördüklərimdən başqa bir şey yoxdur. Qeysər [Rum İmperatoru] və Xosrov [Fars İmperatoru] isə cah-cəlal içərisində yaşayırlar. Sən isə Allahın elçisi və sevimlisi, bu da sənin eyvanın!» O dedi: «Ey ibn əl-Xəttab, istəmirsən ki, dünya onlara, axirət isə bizə nəsib olsun?» Mən: «Əksinə! [İstəyirəm]» deyə cavab verdim. Sonra mən onun qəzəblənməsinin səbəbini soruşub dedim: «Zövcələrin nəyə görə narazılıq edir? Əğər sən onları boşasan, həqiqətən Uca Allah, onun mələkləri, Cəbrail - **aleyhissəlam** - , Mikail - **aleyhissəlam** - , mən, Əbu Bəkr (r.a) və bütün möminlər səninləyik!» Mən çox nadir hallarda dediklərimin Allah tərəfindən təsdiq olunmasını Ondan istəyirdim. Uca Allah da bu barədə ayə nazil etdi:

«[Ey Həfsə, ey Aişə] **Əgər ikiniz də** [bu hərəkətinizə görə] **Allaha tövbə etsəniz** [çox yaxşı olar]**. Çünki** [Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən bir hərəkət etməklə] **qəlbləriniz** [onun barəsində bir qədər qeyri səmimiliyə, günaha] **meyl etdi. Əgər** [Peyğəmbərə] **qarşı bir-birinizə**

---

[83] [ 1 saa: Dənli bitkiləri və ya ona bənzər bitkiləri ölçmək üçün təyin olunan ölçü vahididir və dörd ovuca bərabərdir – bu da təqribən 2 kq. 40 qrama bərabərdir. «əş-Şərhul-Mumti alə Zadul-Mustəqnəi» 6/176; «Mucəmul Vasit» səh. 528. ]

**kömək etsəniz** [bilin ki] **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra** [bütün] **mələklər də onun köməkçiləridir! Əğər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr - müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin!»**[84]

Aişə (r.a.) və Həfsə (r.a.) Peyğəmbərin **- səllallahu aleyhi və səlləm –** digər zövcələrini də ona qarşı çıxmağa sövq etməkdə bir-birinə kömək edirdilər. Mən dedim: «Ey Allahın elçisi, sən onları boşamısan?» O: «Xeyr»- deyə cavab verdi. Mən dedim: «Ey Allahın elçisi! Mən məscidə daxil olduqda orada olanların kədərlə: «Allahın elçisi zövcələrini boşayıb!»- dediklərini eşitdim. Bunun doğru olmadığını onlara xəbər verimmi?» O dedi: «İstəyirsən xəbər ver!» Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** qəzəbi soyuyub, üzündə təbəssüm hiss olunana qədər mən onunla söhbət etdim. O, oturduğu kötüyün üstündən qalxıb getdikdə mən dedim: «Ey Allahın elçisi, iyirmi doqquz gündür ki, otağındasan». O dedi: «Ay da iyirmi doqquz gündən ibarət olur». Mən məscid qapısının önündə dayanıb uca səslə car çəkib dedim: «Allahın elçisi zövcələrini boşamayıb!» Uca Allahda bu ayəni nazil etdi:

**«Onlar** [münafiqlərə bəzi müsəlmanların sadəlövhlüyü üzündən döyüş meydanından] **əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki əgər** [müsəlmanlar] **bunu** [münafiqlərə deyil] **Peyğəmbərə və ya özlərindən** [möminlərdən] **olan ixtiyar sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan**

---

[84] [ «ət-Təhrim» surəsi, 4-5. ]

[belə bir xəbərin yayılmasının məqsədəuyğun olub-olmadığını təyin etməyə qadir olan] **şəxslər bilərdilər…..»**

Mən də o xəbərin mahiyyətinə varan şəxslərdən idim».

**Uca Allah buyurur:**

**«Siz nə üçün münafiqlər barəsində iki dəstəyə ayrıldınız? Halbuki Allah onları gördükləri əməllərinə görə əvvəlki hallarına** [kafirliyə] **qaytarmışdır. Siz Allahın** [öz istəyi, öz iradəsi ilə küfr edəcəyini əzəldən bildiyi üçün] **azdırdığı kimsəni doğru yolamı gətirmək istəyirsiniz? Allahın azdırdığı kimsə üçün heç bir yol tapa bilməzsən!» (88-ci ayə)**

İmam Buxari «Səhih» əsərində (8-ci cild, səh. 359) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Zeyd İbn Sabit (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Uhud döyüşünə getdikdə onunla olanların bir qismi [Abdullah ibn Ubey ibn Səlul və onun tərəfdarları] geri qayıtdı. Beləliklə Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** səhabələri iki dəstəyə bölündülər. Bir dəstə kafirlərlə vuruşmağı, digəri isə vuruşmamağı təklif etdikdə Uca Allah bu ayəni nazil etdi:

**«Siz nə üçün münafiqlər barəsində iki dəstəyə ayrıldınız? Halbuki Allah onları gördükləri əməllərinə görə əvvəlki hallarına** [kafirliyə] **qaytarmışdır….»**

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Həqiqətən Mədinə «Teybə»dir[85] və od dəmirin pasını təmizlədiyi kimi o da

---

[85] [ Mədinə şəhərinin digər adlarından biridir. «Səhih Muslim», 2942. ]

günahları təmizləyir».[86]

Bu hədisi həmçinin Buxari «Təfsir» fəslində (9-cu cild, səh. 325), Muslim «Səhih» əsərində (17- ci cild, səh. 123), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 89), Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 184, 187, 188), İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 192) və Təbərani «Mucəmul Kəbir» əsərində (5-ci cild, səh. 129) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Allah yolunda** [cihad etmək üçün] **səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən bir şəxsə dünya həyatının puç mənfəətinə tamahsılanaraq: «Sən mömin deyilsən!»- deməyin! Halbuki, çox qənimətlər Allah yanındadır. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə mərhəmət etdi. Elə isə, siz də** [insanları bir-birindən fərqləndirməkdə] **diqqətli olun! Şübhəsiz ki, Allah bütün etdiklərinizdən xəbərdardır!» (94-cü ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 327) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edirdi ki, bir kişi bir dəstə müsəlmanla qarşılaşdı və salam verdi. Onlar isə onu öldürdülər və əlində olan qənimətini götürdülər. Uca Allah da bu ayəni nazil etdi.

**«Ey iman gətirənlər! Allah yolunda** [cihad etmək üçün]

---

[86] [ Abdullah ibn Ubey ibn Səlul və onun kimilərini oradan uzaqlaşdırır. ]

**səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən bir şəxsə, dünya həyatının puç mənfəatinə tamahsılanaraq: «Sən mömin deyilsən!»- deməyin!»** O, [yəni dünya həyatının puç mənfəəti] qənimətdir.

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (18-ci cild, səh. 161), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 90), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 229, 324), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 235) və İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 223) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən» olduğunu demişdir. Hakim bu hədisin isnadının Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demiş, Zəhəbi isə bu barədə susmuşdur. Susmağının səbəbi isnadın Buxari və Muslimin şərtlərinə uyğun olmaması olmuşdur.

Tirmizi, Əhməd, Hakim və İbn Cəririn rəvayətlərində öldürülən şəxsin Bənu Sələmə qəbiləsindən olduğu qeyd olunmuşdur.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 9) Bəzzarın istinad etdiyi sənədin «ceyyid» olduğunu demişdir. Bu rəvayətdə qatilin Miqdad[87] olduğu qeyd olunmuşdur [Əhmədin rəvayətində isə qatilin Mihləm İbn Cusəmə olduğu qeyd olunmuşdur].

İmam Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 11) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Əbi Hədrəd (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** məni, Əbu Qətadə Haris İbn Rib'ini (r.a), Milhəm İbn

[87] Qatilin Miqdad olması səhih deyildir, çünki bu rəvayət «mürsəl»dir.

Cusəmə ibn Qeysi (r.a) və digər müsəlmanları İdəmə[88] göndərdi. Biz orada olarkən Amir əl-Əşcəi bizim yanımızdan keçdi və bizə salam verdi. Onun əlində bir tuluq süd və başqa şeylər var idi. Biz onu saxladıq və Milhəm İbn Cüsəmə (r.a) aralarında baş vermiş narazıçılığa görə onu öldürüb dəvəsini və digər əşyalarını götürdü. Biz Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəldikdən sonra bu barədə ona xəbər verdik və Uca Allah da bu ayəni nazil etdi:

**«Ey iman gətirənlər! Allah yolunda** [cihad etmək üçün] **səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən bir şəxsə, dünya həyatının puç mənfəətinə tamahsılanaraq: «Sən mömin deyilsən!»- deməyin! Halbuki, çox qənimətlər Allah yanındadır. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə mərhəmət etdi. Elə isə, siz də** [insanları bir-birindən fərqləndirməkdə] **diqqətli olun! Şübhəsiz ki, Allah bütün etdiklərinizdən xəbərdardır!»**

Bu hədisi həmçinin ibn Carud «Müntəqa» əsərində (səh. 263) rəvayət etmişdir.

Bu hədis «həsən li-ğeyrihi»dir. Qa'qa ibn Əbi Hədrədın necə ravi olduğu müəmmalıdır. Buxari «Tarix» əsərində onun səhabə olduğu ehtimalını vurğulamış lakin bunu əsaslandırmaq üçün heç bir dəlil gətirməmişdir. İbn Əsakir isə «Tə'cilul Mənfəə» əsərində onun səhabə olduğunu inkar etmiş-dir. Deməli o «məsturul-hal» qisminə aid olan ravidir. Çünki iki ravi ona istinad etmiş, mötəbər alimlərdən isə heç biri öz əsərində onun «siqa» ravi olduğunu qətiyyətlə qeyd

---

[88] [ İdəm: Yer adıdır. ]

etməmişdir. Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, onun rəvayətləri digər rəvayətləri qüvvətləndirə bilər.

İbn Həcər «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 327) deyir ki, məna etibarilə hər iki rəvayəti cəm edib demək olar ki, bu ayə hər iki hadisəyə şamil edilir.

**Uca Allah buyurur:**

**«Üzürlü səbəbi olmadan evlərində əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən** [vuruşan] **şəxslər bərabər olmazlar. Allah malları və canları ilə vuruşanları evlərində əyləşənlərdən** [cihada getməyənlərdən] **dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına** [hər ikisinə] **savab vəd etmişdir.** [Lakin] **Allah mücahidlərə evlərində oturanlardan daha böyük mükafatla imtiyaz vermişdir». (95-ci ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 329) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra İbn Azib deyir ki,

**«Evlərində əyləşən möminlərlə.....»** ayəsi nazil olduqda Peyğəmbər - səllallahu aleyhi və səlləm - Zeyd İbn Sabiti (r.a) çağırıb bu ayəni ona yazdırdı. Bu vaxt ibn Ummu Məktum (r.a) gəlib Peyğəmbərə - səllallahu aleyhi və səlləm - kor olduğu və vuruşmağa qadir olmadığı barədə şikayət etdikdə Uca Allah bu ayəni nazil etdi:

**«Üzürlü səbəbi olmadan evlərində əyləşən möminlərlə....»**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (13-cü cild, səh. 16), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 91), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 10), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 282, 284, 290, 299, 300), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 17), Darimi «Sünən» əsərində (2-ci cild, səh. 209), ibn Sə'd «Təbəqat» əsərində (4-cü cild, səh. 154), İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 228) və Beyhəqi «Sünən» əsərində ( 9-cu cild, səh. 23) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 385) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Zeyd İbn Sabit (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - ona bu ayəni:

**«Evlərində əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən** [vuruşan] **şəxslər bərabər olmazlar....»-** diktə edib yazdırdı. Bu vaxt İbn Ummu Məktub (r.a) gəlib dedi: «Ey Allahın elçisi! Əgər vuruşa bilsəydim, mən də vuruşardım». İbn Ummu Məktub (r.a) kor olduğu üçün belə dedi. Bu zaman Uca Allah bu ayəni nazil etdi:

**«Üzürlü səbəbi olmadan....»** Bu ayə nazil olarkən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - ayağı mənim ayağımın üstündə idi və onun ağırlığından az qaldı ki, ayağım sınsın».

Bu hədisi həmçinin Buxari (9-cu cild, səh. 328), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 92), Əbu David «Sünən» əsərində (2-ci cild, səh. 319), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 9), Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 184, 191), ibn Carud «Müntəqa» əsərində (səh. 344) Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 82), ibn Sə'd «Təbəqat» əsərində (4-cü cild, səh.

155), İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 329), Beyhəqi «Sünən» əsərində (9-cu cild, səh. 23) və Təbərani «Mucəmul-Kəbir» əsərində (5-ci cild, səh. 144) rəvayət etmişlər.

İbn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 329) qeyd olunduğu kimi) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Fəltan İbn Asim (r.a) rəvayət edir ki, biz Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanında olarkən ona ayə nazil oldu. Biz ayənin nazil olmasını onun halının dəyişməsindən bildik. Çünki o bu zaman gözlərini, qulaqlarını və qəlbini yalnız Allahdan nazil olana doğru yönəldər, kənar şeylərə diqqət yetirməzdi. O, katibinə ayəni yazmağı əmr etdi. Bu vaxt kor bir kişi ayağa qalxıb dedi: «Ey Allahın elçisi, bəs mənim günahım nədir?» Bu zaman Peyğəmbərə - səllallahu aleyhi və səlləm - yenə ayə nazil oldu və biz o kişiyə: «Allahın elçisinə ayə nazil olur»- deyə səbr etməyi tövsiyə etdik. O öz növbəsində ayaq üstə dayanıb belə dedi: «Allahın elçisini qəzəbləndirməkdən Allaha sığınıram!» Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - katibinə bu ayəni yazmağı əmr etdi.

**«Üzürlü səbəbi olmadan….»**

Bu hədisi Bəzzar «Kəşful Əstar» əsərində (3-cü cild, səh. 54) qeyd etdikdən sonra onun isnadının «həsən» olduğunu demişdir.

Bu hədisi həmçinin ibn Əbi Şeybə «Müsənnəf» əsərində (ibn Həcərin «Mətalibul-Aliyə» əsərində (3-cü cild, səh. 117) qeyd olunduğu kimi) və Heysəmi «Məvariduz-Zaman» əsərində (5-ci cild, səh. 28) rəvayət etmişlər.

Heysəmi bu hədisin isnadında olan ravilərin hamısının «siqa» ravilər olduğunu demişdir.

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 91) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Bədr döyüşünə gedənlərin fəziləti barəsində ayə nazil olduqda Abdullah ibn Cəhş (r.a) və ibn Ummu Məktum (r.a) dedilər: «Ey Allahın elçisi! Bizim kor olmağımız döyüşdə iştirak etməməyimizə rüxsət verirmi?» Uca Allah da bu ayəni nazil etdi:

**«Üzürlü səbəbi olmadan evlərində əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən** [vuruşan] **şəxslər bərabər olmazlar….»**

Tirmizi bu hədisin «həsən, ğərib» olduğunu demişdir.

Bu hədisi həmçinin Təbərani rəvayət etmiş və Heysəmi (7-ci cild, səh. 9) onun isnadında olan ravilərin «siqa» ravilər olduğunu təsdiqləmişdir.

**Uca Allah buyurur:**

**«Mələklər öz nəfslərinə zülm edənlərin** [Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin] **canlarını alarkən** [onlara] **deyəcəklər: «Siz** [hicrət zamanı] **nə vəziyyətdə idiniz?» Onlar söyləyəcəklər: «Biz yer üzərində zəif** [aciz] **kəslər idik!»** [Mələklər də onlara:] **«Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz!»- deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir! Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır». (97-98-ci ayələr)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 331) [hədisin

mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbul Əsvəd rəvayət edir ki, Mədinə əhli Şam əhlinə qarşı döyüşə çıxmağa məcbur edilən zaman[89] mən İkrimənin yanına gəlib ondan nəsihət istədim və o, təkid edərək mənə bu döyüşdə iştirak etməməyimi tövsiyə edib dedi: «İbn Abbas (r.a) mənə rəvayət etmişdir ki, bir zamanlar [Məkkədə olan bəzi] müsəlmanlar [məcbur olunduqlarına görə] müşriklərlə birgə Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - qarşı döyüşürdülər. O vaxt onlar [müsəlmanlar tərəfindən] ox və qılıncla vurulub öldürüldü və Uca Allah da bu ayəni nazil etdi:

**«Mələklər öz nəfslərinə zülm edənlərin** [Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin] **canlarını alarkən** [onlara] **deyəcəklər: «Siz** [hicrət zamanı] **nə vəziyyətdə idiniz?»…..»**

Bu hədisi həmçinin ibn Kəsir «Təfsir»ində (1-ci cild, səh. 542), Təhavi «Muşkilul-Əsar» əsərində (4-cü cild, səh. 327) və Təbəri «Təfsir»ində (5-ci cild, səh. 234-235) rəvayət etmişlər.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 10) hədisin isnadında olan ravilərin hamısının - Məhəmməd ibn Şureykdən başqa - Buxari və Muslimin istinad etdiyi ravilər olduğunu, Məhəmməd ibn Şureykin də «siqa» ravi olduğunu qeyd etmişdir.

**Uca Allah buyurur:**

**«Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik** [bolluq] **tapar. Kim evindən çıxıb Allaha və Onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə**

[89] [ Abdullah ibn Zubeyrin Məkkənin əmiri olduğu vaxt. ]

[mənzil başına çatmadan] **ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər! Allah bağışlayan və rəhm edəndir!» (100-cü ayə)**

İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 240) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bu ayə

**«Mələklər öz nəfslərinə zülm edənlərin** [Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin] **canlarını alarkən** [onlara] **deyəcəklər: «Siz** [hicrət zamanı] **nə vəziyyətdə idiniz?»…..»**[90] - nazil olduqdan sonra Məkkədə yaşayan Bənu Bəkr qəbiləsindən olan Damra adlı bir şəxs xəstə olduğuna baxmayaraq öz əhli-əyalına belə dedi: «Məni Məkkədən çıxarın! Bədənimə istilik gəlir». Onlar dedilər: «Səni hara aparaq?» O, əli ilə Mədinəyə tərəf işarə etdi və bu ayə nail oldu:

**«Kim evindən çıxıb Allaha və Onun Peyğəmbərinə tərəf hicrət etsə…..»**

Şureyk ibn Abdullahdan başqa hədisin isnadında olan ravilərin hamısı «siqa» ravilərdir. Şureyk ibn Abdullaha gəlincə, onun hafizəsində zəiflik var, lakin bu hədisi qüvvətləndirən digər hədislər də mövcuddur.

Bax: İbn Həcərin «Mətalibul Aliyə» əsəri (səh. 433), Heysəminin «Məcməu-z-Zəvaid» əsəri (7-ci cild, səh.10) və ibn Kəsirin «Təfsir»i (1-ci cild, səh.543)

---

[90] [ «ən-Nisa» surəsi, 97. ]

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Sən** [əsgərlərin] **içərisində olub onlara namaz qıldırdığın zaman onlardan bir dəstə silahlarını** [özlərilə] **götürüb** [silahlı vəziyyətdə] **səninlə birlikdə namaza dursun. Bunlar** [bir rəkət namazı tamamlayıb] **səcdə edən kimi sizin arxanıza** [düşmənin önünə] **keçsinlər. Sonra namaz qılmayan dəstə öz ehtiyat vasitələrini və silahlarını götürərək gəlib səninlə birlikdə namaz qılsın! Kafirlər istərdilər ki, sizin silahlarınızdan və mallarınızdan heç bir xəbəriniz olmayaydı və onlar da sizin üzərinizə birdəfəlik** [qəfil bir hücumla] **basqın edəydilər». (102-ci ayə)**

Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 59) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Ayyaş əz-Zərqi (r.a) belə rəvayət edir: «Biz Asfən adlı yerdə Xalid ibn Validin (r.a) başçılıq etdiyi bir dəstə müşriklə rastlaşdıq. Onlar bizimlə qiblə arasında idilər. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bu vaxt bizə zöhr namazını qıldırırdı. Müşriklər təəssüf edərək dedilər: «Müsəlmanlar elə vəziyyətdə idilər ki, biz onlara hücum edə bilərdik». Sonra arxayınlıqla belə dedilər: «İndi isə onları özlərindən də, övladlarından da çox sevdikləri əsr namazı gözləyir». Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Sən** [əsgərlərin] **içərisində olub onlara namaz qıldırdığın zaman….»**

Əsr namazının vaxtı gəlib çatdıqda Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** səhabələrə silahlarını götürməyi əmr etdi. Sonra biz onun arxasında iki cərgəyə düzəldik və hamımız əsr namazını qıldıq».

Bu hədisi həmçinin Abdurrəzaq «Müsənnəf» əsərində (2-ci cild, səh. 505), Təyalisi «Müsnəd» əsərində (1-ci cild, səh. 150),

Hakim «Mustədrək» əsərində (3-cü cild, səh. 337; 1-ci cild, səh. 30), Əbu Davud «Sünən» əsərində (1-ci cild, səh. 477), Nəsai «Sünən» əsərində (3-cü cild, səh. 145), Daraqutni «Sünən» əsərində (2-ci cild, səh. 59) və ibn Cərir «Təfsir»ində (5-ci cild, səh. 246, 256, 257) rəvayət etmişlər.

Hakim bu hədisin isnadının Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. Həmçinin Daragutni də bu hədisin «səhih» olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«Yağışdan əziyyət çəkdiyiniz, yaxud xəstə olduğunuz zaman silahlarınızı** [namaz vaxtı] **yerə qoymaq sizə günah deyildir, lakin ehtiyatınızı gözləyin! Şübhəsiz ki, Allah kafirlər üçün rüsvayedici əzab hazırlamışdır!» (102-ci ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 333) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bu ayə nazil olduqda Abdurrəhman ibn Auf (r.a) yaralı idi».

İbn Həcər hədisin izahında deyir ki, yəni onun barəsində ayə nazil oldu.

Doğrusu, Hakim bu hədisi: «Bu ayə nazil oldu» - ləfzi ilə «Mustədrək» əsərində (2-ci cild, səh. 308) rəvayət etmiş və onun «səhih» olduğunu, Buxari və Muslimin şərtlərinə müvafiq olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (5-ci cild, səh. 259) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

«**Onları hökmən** [doğru yoldan] **sapdıracaq,** [puç] **xülyalara salacaq, heyvanların qulaqlarını kəsməyi və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm! Allahı atıb Şeytanı özünə dost tutan şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır». (119-cu ayə)**

İmam Təbəri «Təfsir»ində (9-cu cild, səh. 215) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «ibn Abbas (r.a) axtalanmanı yaramaz əməl hesab edib demişdir: «Belə yaramaz işlər barəsində bu ayə nazil olmuşdur». Bu hədis Muslimin şərtinə müvafiq olan «səhih» hədisdir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Səndən qadınlar barəsində fətva** [əsasında hökm çıxarılan şəri məsləhət] **istəyirlər. De: «Onlar barəsində fətvanı sizə Allah və kitabdan** [Qurandan] **sizə oxunan** [ayələr] **verir. Onlar verilməsi vacib olanı** [mirası] **özlərinə verməyərək evlənmək istədiyiniz yetim qızlar** [qadınlar]**, aciz uşaqlar haqqında, həmçinin yetimlərlə ədalətlə rəftar etməniz barəsində olan ayələrdir». Sizin etdiyiniz bütün xeyirli işləri, şübhəsiz ki, Allah bilir». (127-ci ayə)**

Buxari «Səhih» əsərində (6-ci cild, səh. 58) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Urva ibn əz-Zubeyr (r.a) Aişədən (r.a)

«**Əgər yetim qızlarla** [evlənəcəyiniz təqdirdə] **ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa.....»**[91] ayəsi barəsində soruşduqda o (surənin əvvəlində bu ayə barəsində qeyd etdiyimiz hədisi rəvayət etdikdən sonra) demişdir: «Bəli, səhabələr də bu ayə nazil olduqdan sonra Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - qadınlar barəsində fətva soruşdular, Uca Allah da bu ayəni nazil etdi»:

«[Ya Məhəmməd!] **Səndən qadınlar barəsində fətva** [əsasında hökm çıxarılan şəri məsləhət] **istəyirlər....»**

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (6-cı cild, səh. 320; 9-cu cild, səh. 308; 11-ci cild, səh. 39, 103), Muslim «Səhih» əsərində (18-ci cild, səh. 154, 155), Əbu Davud «Sünən» əsərində(2-ci cild, səh. 184), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 95), Daraqutni «Sünən» əsərində (3-cü cild, səh. 265) və ibn Cərir «Təfsir»ində (5-ci cild, səh. 301) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında bir növ barışıb düzəlişmələrindən** [ər-arvada] **heç bir günah gəlməz. Çünki barışmaq daha xeyirlidir. Ancaq nəfslərdə xəsislik həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb** [dava-dalaşdan, kobud rəftardan] **çəkinsəniz,** [bu sizin üçün daha yaxşı olar]**. Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır!» (128-ci ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 334) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə

---

[91] [ «ən-Nisa» surəsi, 3. ]

qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, bir kişi öz qadınına qarşı az məhəbbət bəslədiyindən ondan ayrılmaq istəyirdi. Qadını ona dedi: «Məni boşamadan tərk et!» Uca Allah da bu ayəni nazil etdi:

**«Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa….»**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (8-ci cild, səh. 157) rəvayət etmişdir.

Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 208), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 95), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 17), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 186) və ibn Cərir «Təfsir»ində bu ayənin Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - zövcəsi Səudə (r.a) barəsində nazil olduğunu rəvayət etmişlər. Tirmizi, Təyalisi və ibn Cərir ibn Abbasa (r.a) istinad edərək[92] rəvayət etmişlər. Əbu Davud, Hakim və ibn Cərir isə həmin hədisi Aişəyə (r.a) istinad edərək rəvayət etmişlər. Hakim bu hədisin «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. Əbu Davudun rəvayət etdiyi ləfzdə Aişə (r.a) Urva ibn əz-Zubeyrə belə demişdir: «Ey bacım oğlu! Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bizim [zövcələrini] birimizi digərindən üstün hesab etmir və hər birimizin yanında müvafiq bölgüyə əsasən qalırdı. O hər gün bizim hamımızı ziyarət edir və növbəsi çatmış zövcəsinin yanında qalırdı. Səudə bint Zəm'ə (r.a) artıq yaşa dolmuşdu və qorxurdu ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onu boşayar. Elə buna görə də o Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - dedi: «Ey

---

[92] Bu isnad zəifdir. Çünki Simakın İkrimədən rəvayət etməsində «ittirab» var.

Allahın elçisi, öz növbəmi Aişəyə (r.a) bağışlayıram!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - onunla razılaşdı və Uca Allah da bu ayəni nazil etdi:

**«Əgər bir qadın öz ərinin qaba rəftarında, yaxud ondan üz çevirməsindən qorxarsa….»**

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 308) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Rafi ibn Xadicin (r.a) zövcəsi artıq yaşa dolmuşdu. Buna görə də o bakirə qızla evləndi və onun yanında qalmağa daha çox üstünlük verdi. Zövcəsi də onun bu hərəkətinə öz etirazını bildirdi. Bu zaman Rafi (r.a) ona talaq verdi. Gözləmə müddətinin bitməsinə az qalmış Rafi (r.a) ona dedi: «Səbr edəcəksənsə, talaqı geri götürüm, ya da əcəlin çatana qədər səni tərk edim». O dedi: «Səbr edəcəyəm, talaqı geri götür». Sonra o, yenə ərinin bu hərəkətinə səbr etmədikdə Rafi (r.a) onu boşadı. Elə bu da nazil olmuş ayədən bizə məlum olan sülhdür».[93]

Bu rəvayətlər arasında heç bir ziddiyyət yoxdur və ayə onların hamısına şamil edilir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Səndən fətva istəyirlər. De: «Allah, atası və övladı olmayan şəxs** [şəxsin mirası] **haqqında sizə belə**

---

[93] Süfyan ibn Uyeynə və Şueyb ibn Əbi Həmzə bu hədisi «mürsəl» isnadla, Mə'mər isə «məvsul» isnadla rəvayət etmişlər. «Mürsəl» isnadla rəvayət olunan hədis daha mötəbər sayılır.

**fətva verir: «Övladı** [və atası] **olmayan bir şəxs vəfat etdikdə onun** [atabir-anabir və ya yalnız atabir] **bir bacısı varsa, qoyub getdiyi malın yarısı bacıya çatır. Övladı** [və atası] **olmayan bir qadın vəfat etdikdə qardaşı onun varisidir** [malın hamısı onun payına düşür]**. Əgər vəfat edən şəxsin iki** [və ya daha artıq] **bacısı varsa, mirasın üçdə ikisi onlara çatır. Əgər varislər qardaş və bacılardan** [bir qardaş, bir bacı və ya bir neçə bacı-qardaş] **ibarət olarsa kişiyə** [qardaşa] **qadına** [bacıya] **düşən payın iki misli verilir". Allah bunu sizə doğru yoldan çıxmamağınız üçün aydınlaşdırır. Allah hər şeyi biləndir!». (176-cı ayə)**

Muslim «Səhih» əsərində (11-ci cild, səh. 55) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, mən xəstə olarkən Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - və Əbu Bəkir məni ziyarət etdilər. Mən huşumu itirdikdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dəstamaz alıb suyundan mənim üstümə səpdi. Mən özümə gəldikdən sonra dedim: «Ey Allahın elçisi, malımı necə bölüm?» O mənə cavab vermədi və miras ayəsi nazil oldu:

«[Ya Məhəmməd!] **Səndən fətva istəyirlər. De ki: «Allah, atası və övladı olmayan şəxsin** [mirası] **haqqında sizə belə fətva verir…»**

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (3-cü cild, səh. 180), Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 79), ibn Macə «Sünən» əsərində (2728-ci hədis), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 307, 372), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 17), ibn Carud «Müntəqa» əsərində (səh. 320) və Əbu Nueym «Hilyə» əsərində (7-ci cild, səh. 157) rəvayət

etmişlər.

**<u>QEYD</u> :** Əvvəldə 11-12-ci ayələrin, burada isə bu ayənin Cabir ibn Abdullah (r.a) barəsində nazil olduğu qeyd olunmuşdur. İbn Kəsir 11-12-ci ayələrin Sə'd ibn Rəbinin (r.a) qızları barəsində nazil olduğunu, bu ayənin isə Cabir ibn Abdullah (r.a) barəsində nazil olduğunu daha üstün hesab etmişdir. Çünki o zaman Cabir ibn Abdullahın (r.a) qızları yox yalnız bacıları var idi.

İbn Həcər «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 337) demişdir: «Bu hadisə əvvəlki hadisədən fərqlidir».

Hər iki ayənin eyni vaxtda nazil olmasına maneçilik törədən heç bir səbəb yoxdur. Çünki hədis eyni ravidən, Məhəmməd ibn Munkədirdən müxtəlif ləfzlərlə rəvayət olunmuşdur. Əgər etiraz olunsa ki, 11-12-ci ayələr Cabir (r.a) və Sə'd ibn Rəbinin (r.a) qızları barəsində nazil olub, o da Uhud döyüşündə şəhid olub, 176-cı ayə isə son nazil olmuş ayələrdəndir, cavab vermək olar ki, ümumiyyətlə «səhih» hədislə [yəni 11-12-ci ayələrin Cabir (r.a) barəsində nazil olmasını Buxari və Muslim rəvayət etmişdir] hafizəsində zəiflik olan Abdullah ibn Məhəmməd ibn Əqilin rəvayətini qarşı-qarşıya qoymaq düzgün deyildir.

Lakin ayənin nazil olması hər iki hadisəyə şamil edilir. Çünki demək olmaz ki, Cabir ibn Abdullahdan (r.a) qalmış miras onun ölümündən dərhal sonra bölünmüşdür.

# Əl-Maidə surəsi

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və əllərinizi dirsəklərinizə qədər** [və ya dirsəkləriniz də daxil olmaqla] **yuyun,** [yaş əlinizi] **başınıza məsh edin** [çəkin], **ayaqlarınızı topuqlarınıza qədər** [topuqlarınız da daxil olmaqla] **yuyun. Əgər cinsi əlaqədə olmusunuzsa, qüsl edin** [bədəninizi başdan ayağa qədər yuyub təmizləyin]. **Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, lakin sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq** [artırmaq] **istər ki, bəlkə, şükr edəsiniz!» (6-cı ayə)**

Buxari «Səhih» əsərində (1-ci cild, səh. 448) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, biz Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - birlikdə səfərə çıxdıq. Beyda və ya Zətul-Ceyş deyilən yerə çatdıqda boyunbağım qırılıb düşdü. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dayanıb onu axtarmağa başladı. Onun yanında olan səhabələr də dayanmağa məcbur oldular. Ətrafda su olmadığından səhabələrdən bəziləri Əbu Bəkrin (r.a) yanına gəlib dedilər: «Aişənin nə etdiyini görürsən? Allahın elçisi və bu qədər camaat ona görə dayanıb. Onlarda olan su ehtiyatı qurtarıb, özləri də su olmayan yerdə dayanıblar». Əbu Bəkr (r.a) mənim yanıma gəldi. Bu vaxt Peyğəmbər - **səllallahu aleyhi və səlləm** – başını dizimin üstünə qoyub yatmışdı. Əbu Bəkr (r.a) dedi: «Allahın elçisini və bu qədər camaatı su olmayan yerdə saxlamısan?»

Sonra o, barmağı ilə böyrümdən vura-vura məni bir az da tənbeh edib getdi. Bu vaxt Peyğəmbərin - səllallahu aleyhi və səlləm - başı dizimin üstündə olduğuna görə mən tərpənmədim. Peyğəmbər - səllallahu aleyhi və səlləm - ayıldıqda [paklanıb namaz qılmaq üçün] su tapmadı və Uca Allah təyəmmüm ayəsini nazil etdi:

**«Ey iman gətirənlər! Namaz qılmağa durduğunuz zaman……»** Onlar da təyəmmüm etdilər.

Useyd ibn Xudeyr (r.a) dedi: «Ey Əbu Bəkrin əhli-əyalı! Sizin bu hərəkətiniz camaat üçün necə də bərəkətli oldu».

Sonra biz boyunbağını mindiyim dəvənin altından tapdıq».

Buxari bu hədisi həmçinin (9-cu cild, səh. 321, 341, 342; 11-ci cild, 135; 15-ci cild, səh. 189) rəvayət etmişdir.

Orada qeyd olunur ki, Aişə (r.a) boyunbağını bacısı Əsmadan (r.a) taxmaq üçün götürmüşdü.

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (4-cü cild, səh. 58-59), Əbu Davud «Sünən» əsərində (1-ci cild, səh. 145), Nəsai «Sünən» əsərində (1-ci cild, səh. 133), İbn Macə «Sünən» əsərində (565-ci hədis), Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 57, 179), Malik «Muvatta» əsərində (1-ci cild, səh. 75), Abdurrəzaq «Müsənnəf» əsərində (1-ci cild, səh. 228) və İbn Cərir «Təfsir»ində (5-ci cild, səh. 106, 108) rəvayət etmişlər.

Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 9) bu hədisi istinad edərək ibn Abbasdan (r.a) rəvayət etmiş və onun «səhih» olduğunu qeyd etmişdir. Zəhəbi də bunu təsdiqləmişdir.

**Uca Allah buyurur:**

**«Allaha və peyğəmbərinə qarşı vuruşanların, yer üzündə fitnə-fəsad salmağa çalışanların cəzası ancaq öldürülmək, ya çarmıxa çəkilmək, ya əl-ayaqlarının çarpazvari** [sağ əllərilə sol ayaqlarının] **kəsilməsi, yaxud da yaşadıqları yerdən sürgün olunmalarıdır. Bu cəza onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir». (33-cü ayə)**

Əbu Davud «Sünən» əsərində (4-cü cild, səh. 228) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) Uranilərin hədisini rəvayət etdikdən sonra demişdir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onların arxasınca bir dəstə göndərdi və onları tutub gətirdilər. Uca Allah da bu ayəni nazil etdi»:

**«Allah və peyğəmbərinə qarşı vuruşanların, yer üzündə fitnə-fəsad salmağa çalışanların cəzası…..»**

Bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Hədisin özü [ayənin nazil olduğu qeyd olunmadan] Buxarinin «Səhih» əsərində Qətadədən rəvayət olumuşdur. Qətadə demişdir ki, bu ayə onların barəsində nazil olmuşdur.

[Bu hədisi Buxari «Səhih» əsərində (12-ci cild, səh. 111) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Ukl qəbiləsindən olan bir dəstə Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib İslamı qəbul etdilər. Xəstə olduqları üçün Mədinədə qalmaq istəmədilər. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - də onlara əmr etdi ki, sədəqə malından olan dəvələrin olduğu yerə gedib onların südündən

və sidiyindən içsinlər. Onlar Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** əmrini yerinə yetirdilər və şəfa tapdılar. Sonra onlar mürtəd olaraq dindən döndülər, dəvələri otaran çobanı öldürüb dəvələri sürüb apardılar. Bu xəbər Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** çatdıqda onların ardıyca bir dəstə göndərdi və onları tutub gətirdilər. Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** onların əllərini və ayaqlarını kəsdirdi, gözlərini çıxartdırdı və ölənə qədər yaraya dağ basmaqla qanaxmanın qarşısını almağa onlara izn vermədi».]

Əbu Qilabənin Ənəsdən (r.a) rəvayət etdiyi hədisi həmçinin Nəsai «Sünən» əsərində (7-ci cild, səh. 92) və ibn Cərir «Təfsir»ində (6-cı cild, səh. 208) rəvayət etmişlər. İbn Kəsir «Təfsir»ində qeyd etmişdir ki, bu hədis bir çox səhabədən rəvayət olunmuşdur.

**Uca Allah buyurur:**

**«Ey Peyğəmbər! Ürəklərində inanmadıqları halda, dildə: «İnandıq», - deyənlərin** [münafiqlərin]**, yəhudilərdən yalana qulaq asanların, sənin hüzuruna gəlməyən başqa bir camaata qulaq asanların** [onlara casusluq edənlərin] **küfr içində dolaşanları səni kədərləndirməsin. Onlar** [Tövratdakı] **sözlərin yerlərini sonradan dəyişib təhrif edir və deyirlər: «Əgər sizə bu** [təhrif olunmuş dini hökm] **verilsə, onu qəbul edin. Əgər verilməsə, ondan qaçının». Allahın fitnəyə** [azğınlığa] **düşməsini istədiyi şəxs üçün Allaha qarşı sənin əlindən heç bir şey gəlməz. Onlar elə kəslərdir ki, Allah onların ürəklərini təmizləmək istəməmişdir. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük** [dəhşətli] **bir əzab gözləyir! Onlar yalana qulaq asanlar və haram yeyənlərdir.**

**Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər! İçərisində Allahın hökmü olan Tövrat əllərində ola-ola onlar səni necə** [nə üzlə] **hakim təyin edir, sonra da ondan** [sənin Tövrata müvafiq verdiyin hökmdən] **üz çevirirlər? Onlar iman gətirmiş kimsələr deyildirlər. Şübhəsiz ki, Tövratı Biz nazil etdik. Onda haqq yolu və nur vardır.** [Allaha] **təslim olan peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə Kitabdan qorunub saxlanılanlarla** [Tövratdan ələ gəlib çatan ayələrlə] **hökm edərdilər. Onlar** [peyğəmbərlər, din alimləri və fəqihlər] **ona** [Tövratın ilahi bir kitab olmasına] **şahiddirlər.** [Ey yəhudi alimləri və rəisləri] **insanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi** [kitab və şəriət] **ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər! Biz** [Tövratda İsrail övladlarına] **yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burununku burun, qulağınkı qulaq, dişinki diş və yaralarınkı yaralardır. Lakin hər kəs** [qisası] **bağışlasa, bu onun üçün bir kəffarədir. «Allahın nazil etdiyi** [kitab və şəriət] **ilə hökm etməyənlər, əlbəttə, zalimlərdir». (41-45-ci ayələr)**

Muslim «Səhih» əsərində (11-ci cild, səh. 209) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra ibn Azib (r.a) rəvayət edir ki, yəhudilər üzünü his-pasla qaraltdıqları və şallaqladıqları bir yəhudi ilə Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanından keçib getdikləri zaman Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onları çağırıb dedi: «Sizin kitabınızda zinakarı bu cür

cəzalandırmaq əmr olunub?» Onlar: «Bəli» -deyə cavab verdilər. Peyğəmbər - səllallahu aleyhi və səlləm - onların alimlərindən birini çağırıb dedi: «Səni Musaya (ə.s) Tövratı nazil edən Allaha and verirəm! De görüm sizə kitabınızda zinakarı belə cəzalandırmaq əmr olunub?» O dedi: «Xeyr! Əgər sən, Allaha and verməsəydin, mən sənə bu barədə xəbər verməzdim. Həqiqətən, zinakarın daş-qalaq olunması bizə əmr edilib. Lakin zina edənlərin çoxu bizim şərəflilərimizdən olduğu üçün biz onları cəzasız buraxır və yalnız zəifləri cəzalandırırdıq. Sonra qərara gəldik ki, elə bir hökm çıxaraq ki, hamıya şamil edilsin. Elə buna görə də daş-qalağın hökmünü üzün his-pasla qaraldılması və şallaqlanma ilə əvəz etdik. Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Allahım! Həqiqətən, mən sənin ləğv edilmiş əmrini qüvvəyə mindirən ilk şəxsəm» - dedi. Sonra o, yəhudini daş-qalaq etməyi əmr etdi və onlar da onun əmrini yerinə yetirdilər. Uca Allah da bu ayəni nazil etdi:

**«Ey Peyğəmbər! Ürəklərində inanmadıqları halda, dildə: «İnandıq», - deyənlərin** [münafiqlərin]**, yəhudilərdən yalana qulaq asanların, sənin hüzuruna gəlməyən başqa bir camaata qulaq asanların** [onlara casusluq edənlərin] **küfr içində dolaşanları səni kədərləndirməsin…..»** ayəsindən **«Əgər sizə bu** [təhrif olunmuş dini hökm] **verilsə, onu qəbul edin….»** ayəsinə qədər.

O [yəhudilərin alimi] dedi: «Məhəmmədin - səllallahu aleyhi və səlləm - yanına gedin! Əgər sizə zinakarı his-pasa bulayıb şallaqlamağı əmr edərsə, onun dediyini qəbul edin, yox, əgər daş-qalaq etməyə fətva verərsə, qaçının!» - Uca Allah da kafirlər barəsində bu ayələri nazil etdi:

**«Allahın nazil etdiyi** [kitab və şəriət] **ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!»**[94]

**«Allahın nazil etdiyi** [kitab və şəriət] **ilə hökm etməyənlər, əlbəttə, zalimlərdir».**[95]

**«Allahın nazil etdiyi** [kitab və şəriət] **ilə hökm etməyənlər, əlbəttə, fasiqlərdir** [günahkarlardır]**».**[96]

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (4-cü cild, səh. 263), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 286), Beyhəqi «Sünən» əsərində (8-ci cild, səh. 246), İbn Cərir «Təfsir»ində (6-cı cild, səh. 233, 254) və ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 3) rəvayət etmişlər.

Əbu Davud «Sünən» əsərində (4-cü cild, səh. 286) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, cahiliyyə dövründə yəhudilərdən olan Bənu Nədir qəbiləsinin sakinləri Bənu Qureyzə qəbiləsinin sakinlərindən daha şərəfli sayılırdılar. O zaman Bənu Qureyzə qəbiləsindən olan bir şəxs Bənu Nədir qəbiləsindən olan hər hansı bir şəxsi öldürsəydi, bunun müqabilində onu öldürərdilər. Əks halda isə Bənu Nədir qəbiləsi onlara qanbahası olaraq yüz «vəsəq»[97] xurma verərdi. İslam dini gəldikdən sonra Bənu Nədirdən olan bir şəxs Bənu Qureyzədən olan bir şəxsi öldürdü və onlar

---

[94] [ «əl-Maidə» surəsi, 44. ]
[95] [ «əl-Maidə» surəsi, 45. ]
[96] [ «əl-Maidə» surəsi, 47. ]
[97] [ 1 vəsəq - 60 saaya bərabərdir. «Nihayə fi Ğəribul-Hədil», səh. 978. ]

da: «Onu bizə təslim edin öldürək!» deyə qatili tələb etdilər. Bənu Nədirdən olanlar dedilər: «Bizimlə sizin aranızda hakim Məhəmməd - səllallahu aleyhi və səlləm - olacaq». Onlar Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəldikləri zaman bu ayə nazil oldu:

**«Əgər aralarında hökm etsən, ədalətlə hökm et».**[98] Ədalət o deməkdir ki, canın qisası can olsun! Sonra Uca Allah bu ayəni nazil etdi:

**«Onlar cahiliyyə dövrünün hökmünü istəyirlər?»**[99]

Bu hədisi Əbu Davud həmçinin «Sünən» əsərində (3-cü cild, səh. 330), Nəsai «Sünən» əsərində (8-ci cild, səh. 17), İbn Hibban «Səhih» əsərində (Heysəminin «Məvaridu-z-Zaman» əsərində (səh. 430) qeyd edildiyi kimi) ibn Carud «Müntəqa» əsərində (səh. 261), Daraqutni «Sünən» əsərində (3-cü cild, səh. 198), ibn Cərir «Təfsir»ində (6-cı cild, səh. 243), ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 4), ibn İshaq (ibn Hişamın «Sira» əsərində (1-ci cild, səh. 566) qeyd olunduğu kimi) və Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 367) rəvayət etmişlər.

Hakim bu hədisin isnadının «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. İbn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 61) deyir ki, ola bilər ki, hər iki hadisə eyni vaxtda baş versin və ayə də onların hər ikisi barəsində nazil olsun. Daha doğrusunu isə Allah bilir!

Sonra mənə məlum oldu ki, ibn Abbasın (r.a) rəvayəti «daif» rəvayətdir, çünki bu rəvayətin isnadında, yəni Simakın İkrimədən olan rəvayəti «müttərib» rəvayətdir. Başqa bir rə-

---

[98] [ «əl-Maidə» surəsi, 42. ]

[99] [ «əl-Maidə» surəsi, 50. ]

vayət isə, yəni Davud ibn Hüseynin İkrimədən olan rəvayəti «münkər»dir.

**Uca Allah buyurur:**

**«Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə endirilmiş olanı** [Quranı] **təbliğ et. Əgər** [bunu] **etməsən, Onun risalətini** [sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini] **yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!» (67-ci ayə)**

İbn Hibban «Səhih» əsərində (Heysəminin Məvariduz-Zaman əsərində (səh. 430) qeyd olunduğu kimi) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bir yerə getdikdə səhabələr ona orada olan ən böyük ağacın kölgəsi altında dincəlməyi təklif edərdilər və o da orada dincələrdi. Səhabələr də o ağacın kölgəsində, Peyğəmbərin ətrafında dincələrdilər. Bir gün Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - qılıncını ağacdan asıb dincəlirdi. Bu vaxt bir bədəvi ərəb gəlib onun qılıncını götürdü və yaxınlaşıb Peyğəmbəri - **səllallahu aleyhi və səlləm** - oyatdıqdan sonra ona dedi: «Ey Məhəmməd! İndi səni mənim əlimdən kim xilas edə bilər?» Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - : «Allah!» - deyə cavab verdi və Uca Allah da bu ayəni nazil etdi:

**«Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə endirilmiş olanı** [Quranı] **təbliğ et. Əgər** [bunu] **etməsən, Onun risalətini**

[sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini] **yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq…..»**

Bu hədis «həsən»dir, çünki Zəhəbi «Mizan» əsərində bu hədisin isnadında olan Məhəmməd ibn Amrın «həsən» hədis rəvayət etdiyini qeyd etmişdir. Həmçinin isnadında olan Muəmməl ibn İsmayılın hafizəsinin zəif olması barəsində alimlərin rəyləri mövcuddur. Lakin bu rəvayəti qüvvətləndirən başqa isnadın olduğunu İbn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 79) qeyd etmişdir. Belə ki, Muəmməl ibn İsmayılın rəvayətini Adəm ibn Əbi İyasın rəvayəti qüvvətləndirir.

[ Hədisin özü (ayənin nazil olduğu qeyd olunmadan) Buxarinin «Səhih» əsərində (6-cı cild, səh. 213-215; 7-ci cild, səh. 390-391) Muslimin «Səhih» əsərində (15-ci cild, səh. 45) rəvayət olumuşdur. «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, biz Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** birgə Nəcdə tərəf yürüş etdik. Nəhayət biz gəlib çoxlu tikanlı ağaclar olan yerə çatdıq. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** qılıncını ağaclardan birinin budağından asıb dincəlmək üçün onun kölkəsində uzandı. Camaat da ağacların kölgəsində dincəlmək üçün vadiyə dağılışdılar. Bir qədər sonra Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bizi çağırıb dedi: «Mən yatan vaxt bir kişi gəlib qılıncımı götürdü. Oyandıqda isə mən onu əlində qılınc hazır vəziyyətdə başımın üstündə dayandığını gördüm. O dedi: «İndi səni mənim əlimdən kim xilas edə bilər?» Mənə: «Allah!» - deyə cavab verdim. O bir daha: «Səni mənim əlimdən kim xilas edə bilər?» deyə soruşdu. Mən yenə «Allah!» - deyə cavab verdkdən sonra o, qılıncı qınına taxdı. Budur o, sizin qarşınızdadır!

Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm – onu cəzalandırmadı.]

**Uca Allah buyurur:**

**«Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən. Onlar belə deyirlər: «Ey Rəbbimiz! Biz iman gətirdik, bizi** [haqqa] **şahid olanlarla bir yerdə yaz!» (83-cü ayə)**

İbn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 23) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn əz-Zubeyr (r.a) rəvayət edir ki,

**«Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən…..»** ayəsi - Nəcaşi[100] və onun tərəfdarları barəsində nazil olub».

Məhəmməd ibn İdrisdən başqa bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi mötəbər ravilərdir. Məhəmməd ibn İdrisə gəlincə, o «hafiz» ravidir. İbn Kəsir bu hədisi Nəsainin də[101] bu isnadla qeyd etdiyini demişdir.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (9-cu cild, səh. 419) deyir ki, Bəzzar bu hədisi rəvayət etmiş və Məhəmməd ibn Osmandan başqa sənədində olan ravilərin hamısı Buxari və

---

[100] [ Bu, Həbəşistan krallarının tituludur. Qeyd olunanın adı Əshəmədir. ]

[101] «Sünən» əsəri - «Təfsir» fəsli, 1/61.

Muslimin istinad etdiyi ravilərdir.

Məhəmməd ibn Osmana gəlincə, o da «siqa» ravidir.

Hədisi bu isnadla həmçinin ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 5) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Allah sizi bilmədən** [səhvən] **içdiyiniz andlarınıza görə cəzalandırmaz, lakin** [bilə-bilə və ya qəsdən] **içdiyiniz andları** [pozmağa] **görə cəzalandırar.** [Belə bir andı pozmağın] **kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabından on yoxsulu yedirdib doyurmaq, yaxud geyindirmək, yaxud bir kölə azad etməkdir. Bunları etməyə imkanı olmayan şəxs üç gün** [dalbadal] **oruc tutmalıdır. Bu, içdiyiniz andların kəffarəsidir. Bununla belə andlarınızı qoruyun** [onları pozmaqdan çəkinin]**. Allah ayələrini sizə belə izah edir ki, bəlkə şükr edəsiniz!» (89-cu ayə)**

Əbu Abdullah ibn Macə «Sünən» əsərində (1-ci cild, səh. 682) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bəziləri ailəsini yemək-içməklə təmin etməkdə həddindən artıq əliaçıqlıq edir, bəziləri isə bu işdə xəsislik göstərirdilər. Uca Allah da bu ayəni nazil etdi»:

**«…ailənizə yetirtdiyinizin orta hesabından…..»**

Süleyman ibn əbu Muğirədən başqa bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdikləri mötəbər

ravilərdir. Lakin Yəhya ibn Main onu da «siqa» ravi hesab etmişdir.

Buseyri «Misbahuz-Zucacə» əsərində demişdir ki, bu, «məvquf, səhih» isnaddır.

Qeyd etmək istəyirəm ki, bu hədis «mərfu» hökmündədir.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Şərab da** [içki də]**, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, şeytan içki və qumarla aranıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?» (90, 91-ci ayələr)**

İbn Cərir «Təfsir»ində (7-ci cild, səh. 34) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, şərabın haram olmasına dair ayələr [Əl-Maidə 90-91] ənsarlardan olan iki qəbilə barəsində nazil olmuşdur. Bir gün onlar sərxoş olana qədər şərab içdilər və bir-birilərinə qarşı kobudluq etdilər. Səhərisi gün ayıldıqda isə onladan biri axşamkı kobudluğun əlamətini üzündə və saqqalında görüb dedi: «Bunu filankəs edib!» Əvvəllər onlar qardaş kimi mehriban idilər və qəlblərində bir-birilərinə qarşı nifrət və kin-küdurətləri yox idi. O dedi: «Allaha and olsun ki, əgər o mənə qarşı rəhmli və şəfqətli olsaydı belə etməzdi». Beləliklə də onların qəlblərində bir-birilərinə qarşı nifrət, kin-küdurət oyandı və Uca Allah da bu ayəni nazil etdi»:

**«Ey iman gətirənlər! Şərab da** [içki də]**, qumar da….»** ayəsindən «**Artıq bu işə son qoyacaqsınızmı?**» ayəsinə qədər.

Səhabələrdən bəziləri dedilər: «Bu şərab iyrənc bir şeydir. Filankəs Bədr döyüşündə, filankəs isə Uhud döyüşündə bətnində içki olduğu halda şəhid oldu». Uca Allah da bu ayəni nazil etdi:

**«İman gətirib yaxşı işlər görənlərə** [haram edilməmişdən əvvəl] **daddıqları** [yeyib-içdikləri] **şeylərdən ötrü günah tutulmaz….»**[102]

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 142) və Beyhəqi «Sünən» əsərində (8-ci cild, səh. 286) rəvayət etmişlər.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 18) demişdir ki, bu hədisi Təbərani rəvayət etmiş və isnadında olan ravilərin hamısı Buxari və Muslimin əsaslandıqları ravilərdir. İbn Cəririn rəvayət etdiyi hədisin isnadına gəlincə, Hüseyn ibn Əli əs-Sədaidən başqa orada olan ravilərin hamısı Buxari və Muslimin istinad etdikləri ravilərdir. O da «siqa» ravidir.

**Uca Allah buyurur:**

**«İman gətirib yaxşı işlər görənlərə pis əməllərdən çəkinib iman gətirdikləri, saleh əməllər etdikləri, sonra pis əməllərdən çəkinib iman gətirdikləri, sonra yenə də pis əməllərdən çəkinib yaxşı işlər gördükləri təqdirdə,** [haram

[102] [ «əl-Maidə» surəsi, 93. ]

edilməmişdən əvvəl] **daddıqları** [yeyib-içdikləri] **şeylərdən ötrü günah tutulmaz. Allah yaxşı iş görənləri sevər!» (93-cü ayə)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 36) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, bir dəfə mən Əbu Təlhənin (r.a) mənzilindəki məclisdə şərab paylayırdım. O gün onların içdiyi «fədix» deyilən xurma şərabı idi. Bu vaxt Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** səhabələrdən birinə əmr etdi ki, şərabın haram olduğunu hamıya car çəkib desin. Bunu eşidən Əbu Təlhə (r.a) mənə dedi: «Apar bu şərabı bayıra tök!» Mən də şərabı küçəyə axıtdım. O zaman Mədinənin küçələrindən şərab axırdı. Səhabələrdən bəziləri dedilər: «Elə qardaşlarımız var idi ki, bətnlərində içki olduğu halda öldülər». Uca Allah da bu ayəni nazil etdi:

**«İman gətirib yaxşı işlər görənlərə** [haram edilməmişdən əvvəl] **daddıqları** [yeyib-içdikləri] **şeylərdən ötrü günah tutulmaz….»**

Bu hədisi həmçinin Buxari «Təfsir» fəslində (9-cu cild, səh. 348), Muslim «Səhih» əsərində (13-cü cild, səh. 349), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 227) və Darimi «Sünən» əsərində (2-ci cild, səh. 111) rəvayət etmişlər.

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 98), ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 37), ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zəman» əsərində (səh. 333, 430) qeyd olunduğu kimi) və ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild,

səh. 30) bu hədisi Bəra ibn Azibə (r.a)[103] istinad edərək rəvayət etmişlər.

Həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 98), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 234, 272, 295), Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 143) və ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 37) ibn Abbasa (r.a) istinad edərək rəvayət etmişlər.

Hakim bu hədisin «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. Tirmizi isə hər iki hədisin «səhih» olduğunu qeyd etmişdir. Lakin qeyd etmək lazımdır ki, İkrimənin ibn Abbasdan olan rəvayəti «müttərib»dir.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında Quran nazil edildikdə soruşsanız, onlar sizə aydın olar.** [Lakin pis vəziyyətdə qalar və kədərlənərsiniz]**. Allah onları** [indiyə qədər verdiyiniz bu cür sualları] **bağışladı. Allah Bağışlayan və Həlimdir!** [Bəndələrinə əzab verməkdə tələsən deyildir!] **» (101-ci ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 349) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, bir gün Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** elə bir xütbə verdi ki, bu vaxta qədər beləsini eşitməmişdim. O dedi: «Əgər mən bildiyimi bilsəydiniz, az gülüb çox ağlayardınız!»

---

[103] Əbu Yə'lənin «Müsnəd» əsərində (3-cü cild, səh. 265-266) rast gəldim ki, Şubə bu hədisi rəvayət edən Əbu İshaqdan soruşdu: «Bu hədisi Bəra ibn Azibdən (r.a) eşitdinmi?» O: «Xeyr!» deyə cavab verdi».

Bu vaxt səhabələr üzlərini tutub inilti ilə ağlamağa başladılar. Bu zaman bir kişi Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - : «Mənim atam kimdir?»- deyə soruşdu. O: «Filankəsdir» - deyə cavab verdikdən sonra bu ayə nazil oldu:

**«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın….»**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (15-ci cild, səh. 11-12), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 99), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 206) və ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 80) rəvayət etmişlər.

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 351) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bəziləri Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - : «Mənim atam kimdir? və ya «itmiş dəvəm haradadır?»- istehza ilə soruşardılar. Uca Allah da bu ayəni nazil etdi:

**«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın….»**

Bu hədisi həmçinin ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 37) rəvayət etmişdir.

Təbəri «Təfsi»ində (7-ci cild, səh. 82) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - bizə xütbə verib dedi: «Ey insanlar! Allah sizə həcc etməyi vacib buyurmuşdur!» Mihsan əl-Əsədi (r.a) ayağa qalxıb dedi: «Ey Allahın elçisi! Hər il?» O dedi: «Əgər mən bəli desəm, hər il həcc etmək sizə vacib olacaq. Vacib olduqdan sonra onu tərk etsəniz, yolunuzu

azacaqsınız. Elə isə susun və sizə əmr etmədiyim bir şeyin hökmü barəsində məndən heç nə soruşmayın. Həqiqətən sizdən əvvəlki ümmətləri yersiz sual verməkləri və peyğəmbərlərinə müxalif olmaları məhv etdi!» Bu zaman Uca Allah bu ayəni nazil etdi:

**«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın….»**

Bu hədisi həmçinin ibn Xuzeymə «Səhih» əsərində (4-cü cild, səh. 109) rəvayət etmişdir.

İbn Cərir «Təfsir»ində (7-ci cild, səh. 82) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Umamə əl-Bahili (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bir gün qalxıb insanlara dedi: «Həcc etmək sizə vacib buyurulmuşdur!» Bədəvi ərəblərdən biri ona sual verib dedi: «Hər il?» Bu zaman Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - qəzəblənərək səsini ucaltdı və sual verənin kim olduğunu soruşdu. Bədəvi ərəb: «Mən» - deyə cavab verdi. O dedi: «Vay sənin halına! Əgər mən bəli desəm bunu yerinə yetirməyə kim sənə təminat verə bilər? Çünki bu zaman hər il həcc etmək vacib olacaq. Vacib buyurulan bir şeyi tərk etməklə küfr edəcəksiniz. Həqiqətən sizdən əvvəlkiləri də din xadimlərinin Allahın hökmlərini camaat üçün çətinləşdirməkləri məhv etdi. Allaha and olsun ki, əgər mən sizə yer üzündə olan hər şeyi halal və yalnız bir addım yeri haram buyursam, siz o harama meyl edəcəksiniz. Sonra Uca Allah bu ayəni nazil etdi:

**«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın….»**

Bu hədisi həmçinin Təbərani «Mucəm» əsərində (8-ci cild, səh. 186) rəvayət etmişdir.

İbn Həcər «Fəthul-Bari» əsərində (9-cu cild, səh. 351) demişdir: «Bu ayənin [yuxarıda qeyd olunan] səbəblərin hər birinə görə nazil olmasında heç bir ziddiyyət yoxdur. Daha doğrusunu isə Allah bilir!» Sonra isə (səh. 352) demişdir: «Nəticə budur ki, bu ayə ya Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** istehza etmək, onu sınağa çəkmək məqsədilə verilən suallara, ya da dini hökmü çətinləşdirmək üçün soruşulanlara etiraz olaraq nazil olmuşdur. Çünki [öyrənmək məqsədilə] artıq sual verilmədikdə hökm «mübah» olaraq qalır.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Sizlərdən hər hansı birinizi ölüm haqladıqda vəsiyyət vaxtı aranızdan iki ədalətli şəxsi, səfərdə olduğunuz zaman başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən** [müsəlman] **olmayan iki nəfəri şahid tutun. Əgər** [bu qeyri-müsəlman şahidlərin doğruçuluğuna] **şübhə etsəniz, namazdan** [əsr, ikindi namazından] **sonra hər ikisini tutub saxlayın və onları: «Andımızı qohumlarımıza belə heç bir qiymətə satmarıq** [qohumlarımızın lehinə belə yalandan şəhadət vermərik] **və Allahın şahidliyini gizlətmərik. Yoxsa, şübhəsiz ki, günahkarlardan olarıq» - deyə Allaha and içdirin! Əgər onların** [bu qeyri-müsəlman] **şahidlərini** [yalan yerə and içmək və yalandan şəhadət verməklə] **günah qazandıqları bəlli olsa, o zaman onların yerini** [həmin şahidlər tərəfindən] **haqsızlığa məruz qalmış** [varislərdən ölənə] **daha yaxın** [mirası almağa daha layiq] **olan başqa iki nəfər tutar. Onlar: «Həqiqətən, bizim şahidliyimiz onların hər ikisinin**

**şahidliyindən daha doğrudur. Biz** [yalandan and içib] **həddi aşmadıq. Əks təqdirdə, biz, şübhəsiz ki, zalimlərdən olardıq», - deyə Allaha and içərlər. Bu** [hökm] **onların** [əvvəlki şahidlərin] **şəhadəti olduğu kimi vermələri və andlarının sonradan başqa andlarla rədd edilməsindən qorxmaları üçün daha münasib bir üsuldur. Allahdan qorxun** [Onun hökmlərini] **eşidin. Allah fasiq tayfanı doğru yola yönəltməz». (106-108-ci ayələr)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 339) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Bənu Səhm qəbiləsindən olan bir kişi Təmim əd-Dari və Adiy ibn Bədda ilə birlikdə səfərə çıxdılar. Bu kişi müsəlmanlar olmayan bir yerdə vəfat etdi. Onlar bu kişidən qalan miras malını geri gətirdikləri zaman üzərinə qızıl örtük çəkilmiş gümüş camı itirdilər. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - də onlara buna görə [doğrudan da camı itirdiklərinə görə] and içməyi əmr etdi. Sonra bu cam Məkkədə tapıldıqda onun sahibləri belə dedilər: «Biz bu camı Təmim və Adiydən satın almışıq». Bu zaman ölən kişinin qohumlarından iki nəfər qalxıb and içərək dedilər: «Şübhəsiz ki, bizim şəhadətimiz onların şəhadətindən daha haqlıdır. Və bu cam əvvəlki sahiblərinə [Bənu Səhm qəbiləsindən olan kişinin varislərinə] çatmalıdır!» Onlara aid də bu ayə nazil oldu:

**«Ey iman gətirənlər! Sizlərdən hər hansı birinizi ölüm haqladıqda…..»**

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 101), Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 337),

ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 115) və Beyhəqi «Sünən» əsərində (10-cu cild, səh. 165) rəvayət etmişlər.

Tirmizi bu hədisi «həsən, ğərib» olduğunu qeyd etmişdir.

# Əl- Ən'am surəsi

**Uca Allah buyurur:**

«[Ya Rəsulum!] **Rəbbinin üzünü diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma. Onların əməllərinin sənə, sənin əməllərinin isə onlara heç bir dəxli yoxdur. Buna görə də onları qovsan zalimlərdən olarsan». (52-ci ayə)**

Muslim «Səhih» əsərində (15-ci cild,səh. 187) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Sə'd (r.a) rəvayət edir ki,

«[Ya Rəsulum!] **Rəbbinin üzünü diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma.....»** ayəsi altı nəfər barəsində nazil oldu. Mən və ibn Məsud (r.a) o altı nəfərdən idik. Müşriklər Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** : «Onları yanından qov!»- dedilər [və bu ayə nazil oldu].

Muslim «Səhih» əsərində (15-ci cild, səh. 187) başqa isnadla [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Sə'd (r.a) rəvayət edir ki, biz altı nəfər Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - bir yerdə idik. Müşriklər Peyğəmbərə - səllallahu aleyhi və səlləm - dedilər: «Bunları özündən uzaqlaşdır ki, cürət edib bizə qarşı çıxmasınlar». Bu zaman mən, ibn Məsud (r.a), Hüzeyl qəbiləsindən olan bir kişi, Bilal (r.a) və başqa iki kişi onunla birlikdə idik. Peyğəmbər - səllallahu aleyhi və səlləm - bizi öz yanından uzaqlaşdırıb-uzaqlaşdırmayacağı barədə fikirləşdikdə Uca Allah bu ayəni nazil etdi:

«[Ya Rəsulum!] **Rəbbinin üzünü diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma….»**

Bu hədisi həmçinin ibn Macə «Sünən» əsərində (4128-ci hədis), ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 202) Hakim «Müştədrək» əsərində (3-cü cild, səh. 319), Əbu Nueym «Hilyə» əsərində (1-ci cild, səh. 345-346), ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 72) və Vahidi «Əsbabun-Nüzul» əsərində rəvayət etmişlər.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demiş, Zəhəbi isə bu barədə susmuşdur.

Bu hədisi Əhməd «Müsnəd» əsərində, ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 72), ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 200) və Əbu Nueym «Hilyə» əsərində (4-cü cild, səh. 180) ibn Məsuda (r.a) istinad edərək rəvayət etmişlər. Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 21) demişdir: «Əhmədin rəvayət etdiyi bu hədisin isnadındakı ravilərin hamısı – Kərdəvsdən başqa - Buxari və Muslimin istinad etdiyi

ravilərdir. Kərdəvsə gəlincə, o da «siqa» ravidir.

**Uca Allah buyurur:**

**«Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün** [çirkin fikirlər və yaramaz əqidələr] **təlqin edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız». (121-ci ayə)**

Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 59) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, [şeytan müşriklərə təlqin etdikdən sonra] onlar: «Allah üçün kəsilən heç bir şeydən yeməyin, yalnız öz kəsdiyinizdən [Allahın adı çəkilmədən kəsilmiş heyvandan] yeyin!» - dedilər və Uca Allah bu ayəni nazil etdi:

**«Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin….»**

Bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. İbn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 171) demişdir: «Bu hədisin isnadı «səhih»dir».

Bu hədisi həmçinin ibn Macə «Sünən» əsərində (3173-cü hədis), Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 113, 231) və ibn Cərir «Təfsir»ində (8-ci cild, səh. 126) rəvayət etmişlər.

Hakim bu hədisin Muslimin şərtlərinə görə «səhih» olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Qeyd atmək lazımdır ki, Simakın İkrimədən olan bu rəvayəti «müttərib»dir. Odur ki, bu hədis «daif»dir.

# Əl-Ə'raf surəsi

**Uca Allah buyurur:**

**«Ey Adəm oğulları! Hər bir məscidə getdikdə gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz!» (31-ci ayə)**

Muslim «Səhih» əsərində (18-ci cild, səh. 162) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, cahiliyyə dövründə qadın Kəbənin ətrafında lüt təvaf edər və deyərdi: «Kim mənə təvaf etmək üçün libas verə bilər?»

Sonra o, libas ilə fərcini[104] örtər və deyərdi:

Bu gün onun bir hissəsi, ya hamısı görünəcək,
Görünən tərəfi haram ediləcək.

Uca Allah da bu ayəni nazil etdi:

**«Ey Adəm oğulları! Hər bir məscidə getdikdə gözəl libaslarınızı geyin….»**

Bu hədisi həmçinin Nəsai «Sünən» əsərində, ibn Cərir «Təfsir»ində (8-ci cild, səh. 160) və Vahid «Əsbabun-Nüzul» əsərində rəvayət etmişlər.

Hakimin «Mustədrək» əsərində (2-ci cild, səh. 319, 320) rəvayət etdiyi hədisdə isə nazil olmuş ayə sonrakı ayədir:

[104] [ Cinsiyyət orqanı. ]

«[Ya Peyğəmbərim!] **De: «Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz** [halal] **ruziləri kim haram buyurmuşdur?» De: «Bunlar dünyada iman gətirənlər üçündür** [lakin kafirlər də onlardan istifadə edə bilərlər]**, qiyamət günündə** [axirətdə] **isə yalnız möminlərə məxsusdur». Biz ayələrimizi anlayıb-bilən bir tayfaya belə ətraflı izah edirik». (32-ci ayə)**

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Ola bilsin ki, bu səbəbə görə hər iki ayə nazil olmuşdur. Daha doğrusunu isə Allah bilir!

# Əl-Ənfal surəsi

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbərim!] **Səndən** [müharibədə əldə edilmiş] **qənimətlər** [onların kimə çatması] **haqqında soruşarlar. De: «Qənimətlər Allahın və Peyğəmbərinindir** [onun bölünməsi

Allaha və Peyğəmbərinə aiddir]. **Buna görə də əgər** [həqiqi] **möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Onun peyğəmbərinə itaət edin!» (1-ci ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 110) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Sə'd (r.a) rəvayət edir ki, Bədr döyüşü günü qənimətdən olan bir qılınc götürüb Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** dedim: «Ey Allahın elçisi! Artıq Allah məni müşriklərdən intiqam almaq kimi arzuma çatdırdı. Bu qılıncı mənə bağışla!» O dedi: «Bu nə sənə, nə də mənə məxsusdur!». Mən öz-özümə fikirləşdim ki, ola bilsin ki, o bu qılıncı məndən az əziyyət çəkənə verəcək. Bu vaxt Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** mənim yanıma gəlib dedi: «Sən bu qılıncı məndən istədiyin vaxt o mənə məxsus deyildi. İndi isə o mənimdir və mən onu sənə hədiyyə edirəm». Uca Allah da bu ayəni nazil etdi:

**«**[Ya Peyğəmbərim!] **Səndən** [müharibədə əldə edilmiş] **qənimətlər** [onların kimə çatması] **haqqında soruşarlar…..» -** Bu hədis «həsən-səhih»dir».

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (12-ci cild, səh. 53, 54), Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 30, 31), Təyalisi «Müsnəd» əsərində (1-ci cild, səh. 239), ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 222), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 132), Beyhəqi «Sünən» əsərində (6-cı cild, səh. 229), ibn Cərir «Təfsir»ində (9-cu cild, səh. 173) və əbu Nueym «Hilyə» əsərində (8-ci cild, səh. 312) rəvayət etmişlər.

Hakim bu hədisi «səhih» hesab etmiş, Zəhəbi də bunu

təsdiqləmişdir.

Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 324) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ubadə ibn Samit (r.a) rəvayət edir ki, biz Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - birlikdə Bədr döyüşündə iştirak etdik və Uca Allahın köməyi ilə düşmənə qalib gəldik. Bizlərdən bəziləri düşməni məhv etmək üçün onun ardıyca getdi, bəziləri döyüş meydanında qənimət topladı və bəziləri də Peyğəmbəri - səllallahu aleyhi və səlləm - düşmənin qəfil hücumundan mühafizə etdi. Gecə hamımız bir yerə toplaşdıqda qənimət toplayanlar dedilər: «Bu qəniməti biz topladığımız üçün bunlar yalnız bizə məxsusdur». Düşmənin ardıyca gedib onu məhv edənlər isə dedilər: «Bu qənimətə sahib olmaq üçün bizim haqqımız sizlərdən daha çoxdur. Çünki düşməni qənimətdən uzaqlaşdırıb, onları məğlub edən biz olmuşuq». Peyğəmbəri - səllallahu aleyhi və səlləm – mühafizə edən dəstə isə dedi: «Bu qənimətlərə yiyələnməyə bizim haqqımız sizlərdən daha çoxdur. Çünki biz Peyğəmbəri - səllallahu aleyhi və səlləm - düşmənin qəfil hücumundan qorumuşuq və qənimət yığmağa vaxtımız olmayıb». Bu zaman Uca Allah bu ayəni nazil etdi:

«[Ya Peyğəmbərim!] **Səndən** [müharibədə əldə edilmiş] **qənimətlər** [onların kimə çatması] **haqqında soruşarlar. De: «Qənimətlər Allahın və Peyğəmbərinindir** [onun bölünməsi Allaha və Peyğəmbərinə aiddir]**. Buna görə də əgər** [həqiqi] **möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Onun peyğəmbərinə itaət edin!» -** və Allahın elçisi bu qənimətləri müvafiq şəkildə müsəlmanlar arasında böldü.

Bu hədisi həmçinin ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 410) qeyd olunduğu kimi), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 135, 136, 326) və Beyhəqi «Sünən» əsərində (6-cı cild, səh. 292) rəvayət etmişlər.

Heysəmi Əhmədin istinad etdiyi ravilərin hamısının «siqa» ravilər olduğunu «Məcməuz-Zəvaid» əsərində (6-cı cild, səh. 92; 7-ci cild, səh. 26) qeyd etmişdir. Hakim isə bu hədisin Muslimin şərtinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 29) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Bədr döyüşündə dedi: «Kim filan əməli etsə, qənimətdən ona filan qədər düşəcək!» Cavanlar bunu eşidən kimi düşmənin üzərinə hücuma atıldılar, yaşlılar isə bayraqların yanında qaldılar. Müsəlmanlar qalib gəldikdən sonra yaşlılar dedilər: «Biz arxada dayanıb sizə dayaq olmuşuq ki, məğlub olsanız qayıtmağa yeriniz olsun. Ona görə də qənimətdə bizim də payımız var!» Cavanlar bunu qətiyyətlə inkar edib dedilər: «Allahın elçisi bunu bizə məxsus etmişdir!» Uca Allah da bu ayələri nazil etdi:

**«**[Ya Peyğəmbərim!] **Səndən** [müharibədə əldə edilmiş] **qənimətlər** [onların kimə çatması] **haqqında soruşarlar. De: «Qənimətlər Allahın və Peyğəmbərinindir** [onun bölünməsi Allaha və Peyğəmbərinə aiddir]**.....»**[105] **-** Sonra o dedi: «Bu

[105] [ «əl-Ənfal» surəsi, 1-5. ]

onların xeyrinə idi. Elə isə mənə itaət edin, çünki mən bunun aqibətini sizdən daha yaxşı bilirəm».

İbn Abbasdan (r.a) rəvayət olunan başqa hədisdə isə Peyğəmbər - səllallahu aleyhi və səlləm - Bədr döyüşündə demişdir: «Kim bir düşmən öldürsə, ona qənimətdən filan qədər pay düşəcək. Kim düşməndən bir nəfər əsir götürsə, ona qənimətdən filan qədər pay düşəcək».

Bu hədisi həmçinin Nəsai «Sünən» əsərində (1-ci cild, səh. 75), İbn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 431) qeyd olunduğu kimi), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 132, 171, 221, 326), ibn Cərir «Təfsir»ində (9-cu cild, səh. 171), Beyhəqi «Sünən» əsərində (6-cı cild, səh. 291) və ibn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 284) rəvayət etmişlər.

Hakim bu hədisi «səhih» hesab etmiş, Zəhəbi də onu təsdiqləmişdir.

Bu iki rəvayətin arasında heç bir ziddiyyət yoxdur və bu ayə hər iki hadisəyə şamil edilə bilər. Daha doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

**«O zaman siz** [dua edərək] **Rəbbinizdən kömək diləyirdiniz. Allah: «Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!» - deyə duanızı qəbul buyurmuşdu».**
**(9-cu ayə)**

İmam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 30) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini

birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Ömər ibn əl-Xəttab (r.a) demişdir: Bədr döyüşündə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - nəzər salıb gördü ki, səhabələrinin sayı üç yüzdən bir az çox, müşriklərin sayı isə min nəfərdən bir az çoxdur. Sonra o üzünü qibləyə tərəf çevirdi və əllərini açıb dua etdi: «Allahım, mənə verdiyin vəd nə oldu! Allahım, mənə verdiyin vədini doğrult! Allahım, əgər bu müsəlmanlar həlak olsa, yer üzündə Sənə kim ibadət edəcək?» Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - uzun müddət bu duanı edərək Rəbbindən kömək istədi, hətta üst geyimi yerə düşdü. Əbu Bəkr (r.a) onu götürüb yenidən Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - çiyninə atdı və ona dedi: «Ey Allahın elçisi! Sən ki, bu qədər dua edirsən, Rəbbin sənə verdiyi vədi doğruldacaq və sənə kömək olacaq!» Uca Allah da bu ayəni nazil etdi:

**«O zaman siz** [dua edərək] **Rəbbinizdən kömək diləyirdiniz. Allah: «Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!» - deyə duanızı qəbul buyurmuşdu».**[106]

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (12-ci cild, səh. 84, 85), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 111-112), Əbu Davud «Sünən» əsərində (ibn Kəsirin «Təfsir»ində (2-ci cild, səh. 286) qeyd olunduğu kimi), ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 230) və ibn Cərir «Təfsir»ində (9-cu cild, səh. 189) rəvayət etmişlər.

İbn Kəsir «Təfsir»ində demişdir ki, bu hədisi Əli ibn əl-

---

[106] [ Bu hədis «Ali İmran» surəsi, 165-ci ayənin izahında tam şəkildə qeyd olunmuşdur. ]

Mədini «səhih» saymışdır.

**Uca Allah buyurur:**

«[Düşməni aldatmaq məqsədilə yalandan özünü qaçan kimi göstərib] **təkrar döyüş üçün bir tərəfə çəkilən və ya** [kömək məqsədilə müsəlmanlardan ibarət] **başqa bir dəstəyə qoşulan istisna edilməklə, kim belə bir gündə** [düşmənə] **arxa çevirib qaçarsa, sözsüz ki, Allahın qəzəbinə uğramış olar, onun məskəni Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!» (16-cı ayə)**

Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 349) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Səid əl-Xudri (r.a) rəvayət edir ki,

«[Düşməni aldatmaq məqsədilə yalandan özünü qaçan kimi göstərib] **təkrar döyüş üçün bir tərəfə çəkilən.......»** ayəsi **-** Bədr döyüşündə nazil olub».

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 327) və ibn Cərir «Təfsir»ində (9-cu cild, səh. 201) rəvayət etmişlər.

Hakim bu hədisin Muslimin şərtinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

İbn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 295) Nəsai və ibn Mərdəveyhin bu hədisi rəvayət etdiklərini qeyd etmiş və demişdir: «Bütün bu dəlillər məhz Bədr döyüşünə aid olub, digər döyüşlərdən qaçmağın haram olmamasına dəlalət etmir. Belə ki, əvvəldə qeyd etdiyimiz Əbu Hüreyrənin (r.a), döyüşdən qaçmağın böyük günahlardan olması barədə

rəvayət etdiyi hədis buna dəlildir. İslam alimlərinin böyük əksəriyyətinin fikrinə görə bu hökm hamıya şamil edilir və döyüşdən qaçmaq böyük günahlardan hesab olunur. Daha doğrusunu isə Allah bilir».

**Uca Allah buyurur:**

«[Ey möminlər! Bədrdə] **onları** [kafirləri] **siz öldürmədiniz, Allah öldürdü.** [Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq] **atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri** [qənimət əldə etmək və zəfər çalmaq üçün] **yaxşı bir sınaqdan keçirtdi. Allah** [hər şeyi] **eşidən və biləndir!» (17-ci ayə)**

Təbərani «Mucəm» əsərində (3-cü cild, səh. 227) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Hukeym ibn Hizam (r.a) rəvayət edir ki, Bədr döyüşündə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bir ovuc çınqıl [və ya torpaq] götürüb bizə tərəf atdı. Gözlərimiz toz-torpaqla doldu və biz məğlub olduq. Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq] **atdığın zaman sən atmadın, Allah atdı…»**

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (2-ci cild, səh. 84) bu hədisin isnadının «həsən» olduğunu demişdir. Ola bilsin ki, Heysəmi bununla isnadın «həsən li-ğeyrihi» olmasını qəsd etmişdir.

Heysəmi bu hədisi qüvvətləndirmək üçün başqa bir hədis də qeyd etmiş və demişdir: «Bu hədisi Təbərani rəvayət etmişdir və isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir».

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 327) başqa isnadla, Səid ibn Museyyibin atasından rəvayət etmişdir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - ovucundakı çınqılı Ubey ibn Xələfə tərəf atmışdır. O bu hədisi rəvayət etdikdən sonra isnadının Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

İbn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 229) Hakimin bu rəvayətini və həmçinin Zuhridən olan rəvayəti qeyd etdikdən sonra demişdir: «Bu iki imamın [Səid ibn Museyyibin və Zuhrinin] rəvayət etdiyi hadisənin məhz ona [Ubey ibn Xələfə] aid olması mümkün deyil. Ola bilsin ki, onlar ayənin ümumi mənasından bu nəticəni çıxarmışlar».

**Uca Allah buyurur:**

**«**[Ey müşriklər!] **Əgər siz** [Kəbənin örtüklərinə yapışıb dua edərək] **qələbə istəyirsinizsə artıq sizə zəfər** [möminlərin qələbəsi ilə Allahın əleyhinizə olan hökmü] **gəldi. Əgər** [küfrdən və Peyğəmbərə qarşı müharibə aparmaqdan] **əl çəksəniz, bu sizin xeyrinizə olar. Yox, əgər təkrar** [müharibəyə] **qayıtsanız, Biz də qayıdarıq. Dəstəniz nə qədər çox olsa da, sizdən heç bir şeyi** [Allahın bəlasını, əzabını] **dəf edə bilməz. Allah, həqiqətən, möminlərlədir!» (19-cu ayə)**

İbn Cərir «Təfsir»ində (9-cu cild, səh. 208) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Sələbə (r.a) rəvayət edir ki, Bədr döyüşündən əvvəl Əbu Cəhl dedi: «Allahım! O [Peyğəmbər - **səllallahu aleyhi və səlləm** -], bizi qohum-əqrəbamızla düşmən etdi, bizə dədə-babalarımızın bilmədiyi

bir şeyi gətirdi. Sabah onu məhv et!» Uca Allah da bu ayəni nazil etdi:

«[Ey müşriklər!] **Əgər siz** [Kəbənin örtüklərinə yapışıb dua edərək] **qələbə istəyirsinizsə artıq sizə zəfər** [möminlərin qələbəsi ilə Allahın əleyhinizə olan hökmü] **gəldi….»**

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 431), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 357) və Vahidi «Əsbabun-Nuzul» əsərində rəvayət etmişlər. Əhməd bu hədisi, ayənin nazil olma səbəbini qeyd etmədən rəvayət etmişdir.

Hakim bu hədisin isnadının Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. İbn kəsir «Təfsir»ində (2-ci cild, səh. 296) bu hədisi Nəsainin rəvayət etdiyini qeyd etmişdir.

**Uca Allah buyurur:**

**«Halbuki sən onların arasında ola-ola Allah** [sənə hörmət əlaməti olaraq] **onlara əzab verən deyildir.** [Tövbə edib] **bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz! Lakin onlar** [müşriklər] **Məscidülhəramın sahibləri** [və ya ona xidmət etməyə layiq] **olmadıqları halda,** [möminlərə onu təvaf etməyə] **mane olduqda Allah nə üçün onlara əzab verməsin. Onun sahibləri** [və ya Allahın dostları] **yalnız Allahdan qorxub pis əməllərdən** [küfrdən, şirkdən, bütpərəstlikdən] **çəkinənlərdir. Lakin onların** [müşriklərin] **əksəriyyəti bunu bilməz!» (33 və 34-cü ayələr)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 378) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a)

rəvayət edir ki, Əbu Cəhl dedi: «Allahım! Əgər bu [Məhəmmədin dedikləri] haqdırsa, onda bizim üzərimizə göydən daş yağdır, ya da şiddətli bir əzab göndər». Uca Allah da bu ayəni nazil etdi.

**«Halbuki sən onların arasında ola-ola Allah** [sənə hörmət əlaməti olaraq] **onlara əzab verən deyildir.** [Tövbə edib] **bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz! Lakin onlar** [müşriklər] **Məscidülhəramın sahibləri** [və ya ona xidmət etməyə layiq] **olmadıqları halda,** [möminlərə onu təvaf etməyə] **mane olduqda Allah nə üçün onlara əzab verməsin!…..»**

Bu hədisi Buxari həmçinin «Səhih» əsərində (9-cu cild, səh. 379), Muslim «Səhih» əsərində (17-ci cild, səh. 139), ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 242) və Vahidi «Əsbabun-Nuzul» əsərində rəvayət etmişlər.

İbn Cərir «Təfsir»ində (9-cu cild, səh. 235) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, müşriklər Kəbənin ətrafını təvaf etdikdə dedilər: «Ey Allah! Sənin dəvətini qəbul edib hüzuruna gəlmişik. Sənin heç bir şərikin yoxdur». Peyğəmbər - səllallahu aleyhi və səlləm - də dedi: «Doğrudur! Doğrudur!». Onlar yenə dua edib belə dedilər: «Sənin heç bir şərikin yoxdur! Yalnız Sənin o şərikindən başqa ki, Sən ona və onun mülkünə sahibsən! Ey Allah! Bizi bağışla! Ey Allah! Bizi bağışla!» Uca Allah da bu ayəni nazil etdi:

**«Halbuki sən onların arasında ola-ola Allah** [sənə hörmət əlaməti olaraq] **onlara əzab verən deyildir.** [Tövbə edib] **bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!» -**

ibn Abbas deyir ki, aralarında onları Allahın əzabından qoruyan iki vasitə var idi: «Allahın elçisi və istiğfar [bağışlanma diləmək]. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - aralarından getdi. Onlar isə hələ də bağışlanma diləyirdilər.

Sonra ibn Abbas (r.a):

«**Lakin onlar** [müşriklər] **Məscidülharamın sahibləri** [və ya ona xidmət etməyə layiq] **olmadıqları halda,** [möminlərə onu təvaf etməyə] **mane olduqda Allah nə üçün onlara əzab verməsin! Onun sahibləri** [və ya Allahın dostları] **yalnız Allahdan qorxub pis əməllərdən** [küfrdən, şirkdən, bütpərəstlikdən] **çəkinənlərdir. Lakin onların** [müşriklərin] **əksəriyyəti bunu bilməz!»** ayəsini oxuyub dedi: «Bu [ayə], onların axirətdə çəkəcəkləri əzaba, o [33-cü ayə] isə bu dünyadakı əzablarına aiddir».

Bu hədisi həmçinin ibn Əbi Hatim «Təfsir»ində (3-cü cild, səh. 241) rəvayət etmişdir. Hədis «həsən»dir.

Bu ayə hər iki hadisəyə şamil oluna bilər. Doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

«[Ey möminlər!] **İndi Allah** [yükünüzü] **yüngülləşdirdi. Çünki O sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbrli kişi olsa, iki yüz nəfərə** [kafirə], **min kişi olsa, iki min nəfərə Allahın iznilə qələbə çalar. Allah səbr edənlərlədir!» (66-cı ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 382) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə

qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki;

**«İçərinizdə iyirmi səbrli kişi olsa, iki yüz kafirə qalib gələr...»**[107] ayəsi nazil olduqda hər on nəfər müşrikin müqabilində bir nəfər müsəlmanın olması fərz buyuruldu və bu əmr müsəlmanlar üçün çox ağır oldu. Bu zaman Uca Allah onlar üçün bu əmri asanlaşdırdı və bu ayəni nazil etdi:

**«**[Ey möminlər!] **İndi Allah** [yükünüzü] **yüngülləşdirdi. Çünki O sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbrli kişi olsa, iki yüz nəfərə** [kafirə]**, min kişi olsa, iki min nəfərə Allahın iznilə qələbə çalar».**

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 349), ibn Rahaveyh «Müsnəd» əsərində (ibn Həcərin «Mətalibul Aliyə» əsərində (3-cü cild, səh. 336) qeyd olunduğu kimi), ibn Carud «Müntəqa» əsərində (shə. 350), ibn İshaq (ibn Hişamın «Sira» əsərində (1-ci cild, səh. 676) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (10-cu cild, səh. 40) və ibn Əbi Şeybə «Müsənnəf» əsərində (5-ci cild, səh. 324) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Heç bir peyğəmbərə yer üzündə** [küfrün kökünü kəsmək üçün bacardığı qədər çox kafir] **öldürməyənə qədər əsirləri özünə mal etmək** [onları öldürməyib fidyə müqabilində azad etmək] **yaramaz.** [Ey möminlər!] **Siz** [fidyə almaqla] **puç dünya malını istəyirsiniz, Allah isə** [sizin] **axirəti**

---

[107] [ «əl-Ənfal» surəsi, 65. ]

**qazanmağınızı istəyir. Allah yenilməz qüvvət və hikmət sahibidir!» (67-ci ayə)**

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 329) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Ömər (r.a) rəvayət edir ki, Allahın elçisi əsirlər barəsində Əbu Bəkrlə (r.a) məsləhətləşdi. O dedi: «Ey Allahın elçisi! Bu əsirlər hamısı bizim qardaşlarımız, qohum-əqrəbalarımız və yaxınlarımızdır. Mən təklif edirəm ki, fidyə alıb onları azad edək». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** – Ömərlə (r.a) də məsləhətləşdi və o dedi: «Onların boynunu vur!»

Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - fidyə alıb onları azad etdi və Uca Allah bu ayələri nazil etdi:

**«Heç bir peyğəmbərə yer üzündə** [küfrün kökünü kəsmək üçün bacardığı qədər çox kafir] **öldürməyənə qədər əsirləri özünə mal etmək** [onları öldürməyib fidyə müqabilində azad etmək] **yaramaz….»** ayəsindən **«Əldə etdiyiniz qənimətləri halal və təmiz olaraq** [halallıq və nuşcanlıqla] **yeyin…»** ayəsinə qədər.

Ertəsi gün Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Ömərlə (r.a) rastlaşdı və ona dedi: «Sənin məsləhətinə müxalif olduğumuz üçün [əsirlərin müqabilində götürülmüş fidyəyə görə] az qala müsibətə düçar olacağdıq!»

Bu hədisin isnadı «səhih»dir.

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (12-ci cild, səh. 87), Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 3), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 31), ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 19) və Təbəri «Təfsir»ində (10-cu

cild, səh. 44) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Əgər əvvəlcə** [bu barədə] **Allahdan bir hökm olmasaydı** [lövhi-məhfuzda qənimətlərin və əsirlərin halal olması haqqında yazılmasaydı], **aldığınız** [fidyə] **müqabilində sizə şiddətli bir əzab üz verərdi** [toxunardı]**. Əldə etdiyiniz qənimətləri halal və təmiz olaraq** [halallıq və nuşcanlıqla] **yeyin. Allahdan qorxun. Həqiqətən, Allah Bağışlayan və Rəhm edəndir!» (68-69-cu ayələr)**

Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 19) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Bədr döyüşündən sonra səhabələr çoxlu qənimət topladılar. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** onlara dedi: «Sizdən əvvəlki ümmətlərə döyüşdən qənimət götürmək halal olmamışdı. O zamanlar hər hansı bir peyğəmbər səhabələrilə birlikdə döyüşdən sonra qənimət toplayardılarsa Allah göydən od endirər və bu qənimətləri məhv edərdi. Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

**«Əgər əvvəlcə** [bu barədə] **Allahdan bir hökm olmasaydı….»**

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 113), ibn Carud «Müntəqa» əsərində (səh. 358), ibn Cərir «Təfsir»ində (10-cu cild, səh. 46), ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 20), Beyhəqi «Sünən» əsərində (6-cı cild, səh. 290), Təhavi «Müşkilul-Əsar» əsərində (4-cü cild, səh. 292), Əhməd, Nəsai və ibn Hibban (Heysəminin «Məvariduz-

Zaman» əsərində (səh. 402) qeyd olunduğu kimi) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 329) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Xeysəmə rəvayət edir ki, bir dəfə Sə'd ibn Əbi Vəqqas (r.a) camaat arasında olarkən onların Əli ibn Əbi Talibi (r.a) söydüklərini eşitdi və dedi: «Dayanın! Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - səhabələrini söyməyin! Həqiqətən, biz Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - birlikdə dünyaya [qənimətə, var-dövlətə] sahib olduq. Uca Allah:

**«Əgər əvvəlcə** [bu barədə] **Allahdan bir hökm olmasaydı** [lövhi-məhfuzda qənimətlərin və əsirlərin halal olması haqqında yazılmasaydı], **aldığınız** [fidyə] **müqabilində sizə şiddətli bir əzab üz verərdi** [toxunardı]**»** ayəsini nazil etdi. Allahdan istəyim budur ki, qoy dünya malı Allah tərəfindən bizə verilmiş rəhmət olsun!»

Onlardan bəziləri dedilər: «Allaha and olsun ki, o [Əli ibn Əbi Talib (r.a)] sənə nifrət edir və səni «fındıqburun» adlandırır!»

Sə'd ibn Əbi Vəqqas (r.a) onların bu sözünə doyunca güldükdən sonra dedi: «Belə ki, iki qardaş arasında söz-söhbət ola bilər, lakin bu onların əmanətinə [dininə, etiqadına, qardaşlıq münasibətlərinə] xələl gətirməz!»

Hakim bu hədisin «səhih», Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demişdir.

Bu hədisi həmçinin İshaq ibn Rahaveyh «Müsnəd» əsərində (ibn Həcərin «Mətalibul Aliyə» əsərində (4-cü cild, səh. 150)

qeyd olunduğu kimi) və ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 20) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Sonradan** [Hüdeybiyyə sazişindən sonra, Məkkənin fəthindən əvvəl] **iman gətirib hicrət edənlər və sizinlə bərabər döyüşənlər** [cihad edənlər] **də sizdəndirlər. Qohumlar Allahın kitabında** [lövhi-məhfuzda və ya Quranda irs, varislik baxımından] **bir-birinə daha yaxındırlar. Həqiqətən, Allah hər şeyi Biləndir!» (75-ci ayə)**

Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 19) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** səhabələri [məkkəlilərlə mədinəlilər] arasında qardaşlıq əlaqəsi yaratdı və bundan sonra onlar bir-birinə varis oldular.

**«Qohumlar Allahın kitabında** [lövhi-məhfuzda və ya Quranda irs, varislik baxımından] **bir-birinə daha yaxındırlar...»** ayəsi nazil olduqdan sonra bu vərəsəlik tərk olundu və yalnız qohumlar bir-birlərinə varis olaraq qaldılar».

Bu hədisi həmçinin Təbərani «Mucəm» əsərində (Heysəminin «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 28) qeyd olunduğu kimi), ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 25) və Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 384) rəvayət etmişlər.

Heysəmi bu hədisin isnadında olan ravilərin hamısının Buxari və Muslimin istinad etdiyi ravilər olduğunu demişdir. Hakim bu hədisin isnadını «səhih» saymış, Zəhəbi də bunu təsdiqləmişdir.

İbn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 24) və ibn Cərir «Təfsir»ində (10-cu cild, səh. 58) isnad edərək bu hədisi Zubeyr ibn əl-Əvvama (r.a) istinad edərək rəvayət etmişlər.

# Ət-Tövbə surəsi

**Uca Allah buyurur:**

«[Ey müşriklər!] **Məgər siz hacılara su verməyi və Məscidülhəramı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalim tayfanı doğru yola yönəltməz!» (19-cu ayə)**

Muslim «Səhih» əsərində (13-cü cild, səh. 25) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Nu'mən ibn Bəşir (r.a) rəvayət edir ki, mən cümə günü Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - minbərinin yanında olarkən bir kişi dedi: «Mən İslamın ərkanlarından sonra hacılara su paylamağı ən gözəl əməl

hesab edirəm». Digər bir kişi isə: «Mənim üçün İslamın ərkanlarını yerinə yetirdikdən sonra ən gözəl əməl Məscidülharamı təmir etməkdir» - dedi. Üçüncü kişi isə: «Allah yolunda cihad sizin dediklərinizdən də [hacılara su paylamaqdan və Məscidülharamı təmir etməkdən də] əfzəl sayılır» - dedikdə Ömər (r.a) onları danlayıb dedi: «Peyğəmbərin - səllallahu aleyhi və səlləm - minbərinin yanında səsinizi qaldırmayın! Cümə namazını qılıb qurtardıqdan sonra mübahisə etdiyiniz məsələ barəsində soruşub cavabınızı alarsınız». Uca Allah da bu ayəni nazil etdi:

«[Ey müşriklər!] **Məgər siz hacılara su verməyi və Məscidülharamı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz?.....»**

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 269), ibn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 342), ibn Cərir «Təfsir»ində (10-cu cild, səh. 95) və ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 35) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər!** [Yəhudi] **alimlərindən və** [xaçpərəst] **rahiblərindən çoxu insanların mallarını haqsızlıqla yeyir və** [onları] **Allah yolundan döndərirlər.** [Ya Məhəmməd!] **Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ». (34-cü ayə)**

Buxari «Səhih» əsərində (4-cü cild, səh. 15) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Zeyd ibn Vəhb (r.a) rəvayət

edir ki, mən Rəbzədə[108] Əbu Zər (r.a) ilə rastlaşdım və ona dedim: «Bura gəlməyinin səbəbi nədir?» O dedi: «Şamda olarkən

«[Ya Məhəmməd!] **Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ»** ayəsinin nazil olma səbəbi barəsində Müaviyə ilə mübahisə etdim. Müaviyə bu ayənin əhli kitab barəsində, mən isə həm onlar, həm də bizim [müsəlmanların] barəmizdə nazil olduğunu dedim. Elə buna görə də aramızda narazıçılıq əmələ gəldi. O, Osmana (r.a) məktub yazıb mənim barəmdə ona şikayət etdi. Osman da mənə məktub yazıb Mədinəyə gəlməyimi tələb etdi. Mən Mədinəyə gəldiyim zaman ətrafıma çoxlu adam toplandı, sanki məni birinci dəfə idi ki görürdülər. Bu barədə Osmana (r.a) xəbər verdikdə o dedi: «İstəyirsənsə kənara çəkil, yaxın bir yerdə ol! [Rəbzə vilayətinə yaşamağa get!] Bura gəlməyimin səbəbi də budur. Əgər mənim üzərimə həbəşi [qara dərili] bir kimsəni əmir təyin etsəydilər belə onu eşidib, ona tabe olardım».

Buxari bu hədisi həmçinin «Təfsir» fəslində (9-cu cild, səh. 393), Vahidi «Əsbabun-Nuzul» əsərində, Təbəri «Təfsir»ində (10-cu cild, səh. 122) və ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 45) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

«**Onlardan** [münafiqlərdən] **sədəqələr** [onların bölünməsi] **barəsində sənə eyib tutanlar da var. Əgər** [sədəqədən] **onlara**

---

108 [ Məkkə və Mədinə arasında yerləşən yer adıdır. «Fəthul-Bari», 3/322. ]

**bir şey verilsə, razı qalar, verilməsə, dərhal qəzəblənərlər». (58-ci ayə)**

Buxari «Səhih» əsərində (15-ci cild, səh. 320) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Səid əl Xudri (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** qənimətləri bölərkən Abdullah ibn zil-Xuveysira ət-Təmimi gəlib ona dedi: «Ey Allahın elçisi, qənimətləri ədalətlə böl!» O dedi: «Vay sənin halına! Əgər mən ədalətlə bölmürəmsə, bəs onda kim ədalətlə bölə bilər?» [Əgər mən ədalətli deyiləmsə, onda (ədalətsiz bir insana tabe olduğun üçün) sənin ümidlərin boşa çıxmış və ziyana uğramışsan.][109]

Bu zaman Ömər ibn əl-Xəttab (r.a): «İzn ver onun boynunu vurum» - deyə Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** müraciət etdi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Ona toxunma! Həqiqətən, onun tərəfdarları olacaq və sizlərdən biri onların ibadətlərinə nisbətdə öz namazına və orucuna həqarətlə baxacaq. [Yəni onlar sizdən də çox namaz qılacaq və oruc tutacaqlar. Onlar Quran oxuyacaqlar, lakin oxuduqları Quran onların boğazlarındakı körpücük sümüklərindən o yana keçməyəcəkdir]».[110]

Onlar, ox şikara bir tərəfdən daxil olub, digər tərəfdən çıxdığı kimi dindən çıxacaqlar. O oxa baxdıqda, onun nə ucunda, nə gövdəsində, nə də arxasında ovun nə qanı, nə də başqa bir əlaməti görünməz. Onların əlamətləri bunlardır: əl ilə çiyin və ya çiyinlə dirsək arasında olan əzələsi və ya sinəsi qadın sinəsinə bənzər, yaxud titrəyən, gedib-gələn ət parçası

---

[109] [ «Səhihul-Buxari», 3610. ]

[110] [ «Fəthul-Bari», 12/307; «Lisanul Ərəb», 3/292. ]

kimi olacaq. Onlar insanlar arasında ixtilaf olduğu zaman meydana çıxacaqlar».

Əbu Səid əl-Xudri (r.a) dedi ki, mən bütün bunları Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - eşitdiyimə və Əlinin (r.a) onları məhv etdiyi zaman onun yanında olduğuma şəhadət verirəm. O vaxt onlardan birini Əlinin (r.a) yanına gətirdilər və mən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - vəsf etdiyi əlamətləri onun üzərində gördüm. Elə:

«**Onlardan** [münafiqlərdən] **sədəqələr** [onların bölünməsi] **barəsində sənə eyib tutanlar da var…..»** ayəsi də onlar barəsində nazil olmuşdur».

Bu hədisi həmçinin Abdurrəzzaq «Müsənnəf» əsərində (10-cu cild, səh. 147), ibn Cərir «Təfsri»ində (10-cu cild, səh. 157), Vahidi «Əsbabun-Nuzul» əsərində və ibn əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 57) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«**[Ya Məhəmməd!] **Onlardan** [Təbuk döyüşünə gedərkən səni lağa qoyan münafiqlərdən nə üçün belə etdiklərini] **soruşsan: «Biz ancaq söhbət edib zarafatlaşırdıq** [əylənirdik]**», - deyə cavab verərlər. De: «Allaha, Onun ayələrinə və Peyğəmbərinə istehzamı edirsiniz?» (65-ci ayə)**

İbn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 63) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Təbuk döyüşündə olarkən bir kişi məclisdə dedi: «Bizim aramızdakı qarilərdən acgöz, yalançı və döyüşdə qorxaq olan bir kimsə görmədim». Bu zaman səhabələrdən

biri dedi: «Yalan danışırsan! Sən münafiqsən! Bu haqda mütləq Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - xəbər verəcəm». Bu xəbər Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - çatdıqda ayə[111] nazil oldu: «Abdullah ibn Ömər (r.a) deyir ki, mən onu Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - dəvəsinin yüyəninə sarılıb yalvararaq: «Ey Allahın elçisi, biz ancaq söhbət edib zarafatlaşır, əylənirdik!» - dediyini gördüm. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - də ona bu ayəni oxudu:

**«De: «Allaha, Onun ayələrinə və Peyğəmbərinə istehzamı edirsiniz?»**

Bu hədisin isnadında olan ravilərin hamısı – Hişam ibn Sə'ddən başqa – Buxari və Muslimin istinad etdiyi ravilərdir. Hişam ibn Sə'də gəlincə, Təbəri «Təfsir»ində (10-cu cild, səh. 172) ona istinad edərək bu hədisi qüvvətləndirən bir hədis rəvayət etmişdir. Həmçinin ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 64) başqa bir «həsən» isnadla Kə'b ibn Malikdən (r.a) bu hədisi gücləndirən bir hədis rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Könüllü surətdə** [bollu] **sədəqə verən möminlərə tənə edənləri və güc-bəla ilə əllərinə düşəni təsəddüq edən kəsləri məsxərəyə qoyanları Allah Özü məsxərəyə qoyacaqdır. Onlar şiddətli bir əzaba düçar olacaqlar!» (79-cu ayə)**

Buxari «Səhih» əsərində (4-cü cild, səh. 25) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Məsud (r.a) rəvayət edir

---

[111] [ «ət-Tövbə» surəsi, 65. ]

ki, sədəqə barəsində ayə[112] nazil olduğu zaman biz bir-birimizə borc verirdik. Bir nəfər [Əbu Hil (r.a)] kasıblara çoxlu sədəqə verdi və münafiqlər: «O riyakardır!»- dedilər. Başqa bir kimsə də gətirib bir «saa» sədəqə verdikdə onlar: «Allahın bir «saa» sədəqəyə ehtiyacı yoxdur!»- dedilər. Uca Allah da bu ayəni nazil etdi:

**«Könüllü surətdə** [bollu] **sədəqə verən möminlərə tənə edənləri və güc-bəla ilə əllərinə düşəni təsəddüq edən kəsləri məsxərəyə qoyanları……..»**

Bu hədisi həmçinin Buxari «Təfsir» fəslində (9-cu cild, səh. 400), Muslim «Səhih» əsərində (7-ci cild, səh. 105), ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 73), ibn Cərir «Təfsir»ində (10-cu cild, səh. 197), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 19) ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 471) qeyd olunduğu kimi) və Vahidi «Əsbabun-Nuzul» əsərində rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Onlardan** [Münafiqlərdən] **ölən heç bir kəsin namazını heç vaxt qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun Peyğəmbərini dandılar və fasiq olaraq öldülər». (84-cü ayə)**

Buxari «Səhih» əsərində (3-cü cild, səh. 381) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Ömər (r.a) rəvayət edir ki, Abdullah ibn Ubey vəfat etdikdə oğlu Peyğəmbərin -

[112] [ «ət-Tövbə» surəsi, 103. ]

**səllallahu aleyhi və səlləm** - yanına gəlib dedi: «Ey Allahın elçisi! Libasını ver onu kəfənləyək və onun üçün cənazə namazı qılıb Allahdan ona bağışlanma dilə!» Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - öz libasını ona verdi və onun cənazə namazını qılmaq istədikdə Ömər (r.a) onu saxlayıb dedi: «Məgər Allah münafiqlərin cənazə namaını qılmağı sənə qadağan etməyib?» Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - də «Mən [onların cənazə namazını qılıb-qılmamaqda] ixtiyar sahibiyəm!» - deyib

**«Onlar** [münafiqlər] **üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsən də yenə Allah onları bağışlamayacaq»**[113] ayəsini oxudu və onun cənazə namazını qıldı. Bu zaman Uca Allah bu ayəni nazil etdi:

**«Onlardan** [münafiqlərdən] **ölən heç bir kəsin namazını heç vaxt qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun Peyğəmbərini dandılar və fasiq olaraq öldülər».**

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (3-cü cild, səh. 471; 9-cu cild, səh. 403, 407, 409; 12-ci cild, səh. 380), Muslim «Səhih» əsərində (15-ci cild, səh. 167; 17-ci cild, səh. 121), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 118-119), Nəsai «Sünən» əsərində (4-cü cild, səh. 13), ibn Macə «Sünən» əsərində (1523-cü hədis), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 16; 2-ci cild, səh. 18), ibn Cərir «Təfsir»ində (10-cu cild, səh. 205), ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 76-77) və ibn İshaq (ibn Hişamın «Sira» əsərində (2-ci cild, səh. 552) qeyd olunduğu kimi) rəvayət etmişlər.

---

113 [ «ət-Tövbə» surəsi, 80. ]

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«Siz onların yanına gəldikdə onlar** [yalandan] **Allaha and içəcəklər ki, onlardan üz döndərəsiniz** [onları məzəmmət etməkdən, cəzalandırmaqdan əl çəkəsiniz]**. Siz də onlardan üz döndərin!** [Qoyun qiyamət günü əzabı daha şiddətli olacaq küfr və nifaqlarında davam etsinlər!] **Çünki onlar murdardırlar və qazandıqları günahlara görə düşəcəkləri yer də Cəhənnəmdir! Onlardan razı olasınız deyə, qarşınızda** [Allaha] **and içəcəklər. Siz onlardan razı olsanız da, Allah fasiq bir tayfadan razı olmaz». (95 və 96-cı ayələr)**

İbn Cərir «Təfsir»ində (11-ci cild, səh. 3) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Kə'b ibn Malik (r.a) demişdir: «Təbuk döyüşündən sonra Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** səhabələrilə bir yerdə oturmuşdu. Bu vaxt döyüşdən yayınan səksəndən çox kişi onun yanına gəldi və [bəhanələrini doğrultmaq üçün] and içərək üzrxahlıq etməyə başladılar. Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** onların camaat arasında dediklərini qəbul etdi, onlardan bir daha vəd aldı, onlar üçün Allahdan bağışlanma dilədi və qəlblərində gizlətdiklərini Allaha həvalə etdi. Mən isə həqiqəti gizlətmədim və ona düzünü dedim. Allaha and olsun ki, mənim üçün İslam nemətindən sonra Allahın əta etdiyi ən əzəmətli nemət Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** düz danışmaq idi ki, yalan danışıb həlak olanlardan olmayım. Həqiqətən, Allah yalan danışanların dediklərinin necə də pis olması barədə bu ayəni nazil etdi:

«**Siz onların yanına gəldikdə onlar** [yalandan] **Allaha and içəcəklər ki, onlardan üz döndərəsiniz** [onları məzəmmət etməkdən, cəzalandırmaqdan əl çəkəsiniz]**. Siz də onlardan üz döndərin!** [Qoyun qiyamət günü əzabı daha şiddətli olacaq küfr və nifaqlarında davam etsinlər!] **Çünki onlar murdardırlar və qazandıqları günahlara görə düşəcəkləri yer də Cəhənnəmdir!.......»**

Bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

**Uca Allah buyurur:**

**«Müşriklərin cəhənnəmlik olduqları** [müsəlmanlara] **bəlli olduqdan sonra, onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz!» (113-cü ayə)**

Buxari «Səhih» əsərində (3-cü cild, səh. 465; 8-ci cild, səh. 194) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Museyyib (r.a) rəvayət edir ki, Əbu Talibin ölümqabağı Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onun yanına gəldi və dedi: «Ey əmi! «Lə iləhə illəllah!» kəlməsini de, Allah yanında sənin dediyinə şəhadət verim [sənə şəfaətçi olum]». Orada olan Əbu Cəhl və Abdullah ibn Əbi Ümeyyə isə dedi: «Ey Əbu Talib! Abdulmüttəlibin millətindən üz çevirmək istəyirsən. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bir neçə dəfə dediyində təkid etdi və onlar da öz növbələrində etirazlarını bildirdilər. Nəhayət Əbu Talibin axır sözü Abdulmüttəlibin millətində qalacağını israr etməsi oldu və «lə iləhə illəllah» deməkdən imtina etdi. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - də ona dedi:

«Allaha and olsun ki, mənə qadağan olunana qədər sənin üçün bağışlanma diləyəcəm». Uca Allah da bu ayəni nazil etdi:

**«Müşriklərin cəhənnəmlik olduqları** [müsəlmanlara] **bəlli olduqdan sonra, onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz».**

Həmçinin bu ayə də nazil oldu:

**«**[Ya Məhəmməd!] **Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri** [Öz əzəli elmi ilə] **daha yaxşı O bilir!»**[114]

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (9-cu cild, səh. 411; 10-cu cild, səh. 124), Muslim «Səhih» əsərində (1-ci cild, səh. 214), Nəsai «Sünən» əsərində (4-cü cild, səh. 74), Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 433), ibn Cərir «Təfsir»ində (11-ci cild, səh. 41), Beyhəqi «Əsma vəs-Sifat» əsərində (səh. 97-98) və ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 102) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Allah** [müsəlmanlardan] **bir qisminin ürəyi** [şəkk-şübhəyə düşüb peyğəmbərdən və cihaddan] **dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun ardınca gedən mühacirlərə və ənsara tövbə nəsib etdi. Sonra da onların tövbələrini qəbul buyurdu! Çünki O, həqiqətən, onlara qarşı çox Şəfqətli və çox Mərhəmətlidir. Həmçinin geri qalmış üç nəfərin də** [tövbələrini qəbul etdi]**. Belə ki, gen dünya onlara dar olmuş, ürəkləri** [qəm-qüssədən] **təngə gəlib sıxılmışdı. Onlar**

---

[114] [ «əl-Qəsəs» surəsi, 56. ]

**Allahdan** [Allahın əzabından] **yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara tövbə etmək üçün tövbə nəsib etdi. Şübhəsiz ki, Allah tövbələri qəbul edən və Rəhmlidir. Ey iman gətirənlər! Allahdan qorxun və** [imanında, sözündə, işində] **doğru olanlarla olun.** [Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!]» **(117-119-cu ayələr)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 176) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Kə'b ibn Malik (r.a) rəvayət edir ki, Təbuk döyüşündən başqa Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - iştirak etdiyim döyüşlərin heç birindən yayınmamışdım. Bədr döyüşündən yayınmağıma gəlincə, ondan yayınanları Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - qınamamışdı. Çünki o zaman Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - döyüşə yox, Qüreyş karvanının yolunu kəsmək üçün çıxmışdı. Allah da onları vədələşmədikləri bir yerdə düşmənləri ilə üz-üzə gətirdi.

Əqəbə[115] beyətində hamımız Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - bərabər İslamı yaşatmağa söz verdik. İnsanlar arasında Bədr döyüşünün Əqəbə beyətindən daha üztün sayılmasına baxmayaraq mənim üçün Əqəbə beyəti daha sevimli idi. Təbuk döyüşünə gəlincə, bu döyüşdən yayındığım zaman özümü başqa döyüşlərdə olduğundan daha qüvvətli və gümrah hiss edirdim. Allaha and olsun ki, bundan öncə heç vaxt mənim bir dəvədən artıq miniyim olmamışdı. Bu döyüş vaxtı isə mənim iki dəvəm var idi. Hər hansı bir döyüşə getmək istədikdə iyham [iki mənalı ifadə] etməklə həqiqi

[115] [ Əqəbə – dağ yoluna deyilir. «ən-Nihayə», 1/226. ]

məqsədini bildirmək Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** – adəti idi.[116]

Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Təbuk döyüşünə şiddətli bir isti zamanı yola düşdü. Bu səfər çox uzun və təhlükəli, qarşılaşacaqları düşmənin isə sayı çox olduğundan o, müsəlmanlar bunları nəzərə alıb hazırlıq görsünlər deyə, məqsədini açıqlayıb, gedəcəyi istiqaməti onlara xəbər verdi. O zaman Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanında olan müsəlmanların sayı çox idi, ancaq o, onların adlarını xüsusi bir kitabda qeyd etmədi.

Heç kim döyüşdən yayınmaq istəmirdi. Yalnız döyüşdən yayınmaq istəyən az sayda müsəlman elə zənn edirdi ki, vəhy nazil olmayınca onların bu hərəkətindən Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - kim xəbər tutmayacaq. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** – müsəlmanlarla birgə hazırlıq görüb meyvələrin yetişdiyi və ağac kölgələrinin xoş olduğu bir zamanda [isti payız günündə] bu döyüşə çıxdı. O zaman onlar döyüşə hazırlaşarkən, mən də hər səhər döyüşə hazırlaşmaq məqsədilə evdən çıxır və hər axşam heç bir hazırlıq görmədən evə qayıdıb öz-özümə deyirdim: «Hazırlıq görmək üçün kifayət qədər vaxt var».

Camaat döyüşə tam hazır olana qədər bu səhlənkarlıq məndə davam etdi. Səhəri gün Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - və müsəlmanlar artıq səfərə yola düşdülər. Mən isə hələ də hazırlıq görməmişdim. Mən yenə öz-özümə dedim: «Bir-iki günə hazırlıq gördükdən sonra gedib onlara çataram».

Onlar Mədinədən çıxdıqdan sonra mən yenə də hazırlıq

---

[116] [ Yəni, hərəkət etdiyi istiqaməti və günü gizli saxlayardı. Buna ərəbcə «təvriyə» deyilir. ]

görmək üçün evdən çıxdım və heç bir iş görmədən axşam evə qayıtdım. Bu hal məndə, onların tez bir zamanda düşmənlə qarşılaşdıqları anacan davam etdi və mən bu döyüşdə iştirak etmək fürsətini əldən buraxdım. Bütün bunlara baxmayaraq, mən yenə də onlara çatmaq fikrində idim. Kaş ki, bu fikrimi doğruldaydım. Lakin bu mənə müyəssər olmadı.

Peyğəmbər - səllallahu aleyhi və səlləm - Mədinədən çıxıb döyüşə getdikdən sonra insanlar arasına çıxdıqda məni ən çox kədərləndirən o idi ki, burada yalnız münafiqlikdə ittiham olunanlar və Allahın döyüşə getməməyə rüsxət verdiyi zəiflər qalmışdı.

Peyğəmbər - səllallahu aleyhi və səlləm - Təbuka gəlib çatana qədər mənim barəmdə düşünmədi. Təbukda ikən səhabələr arasında olduqda məni xatırlayıb dedi: «Kə'b nə etdi?» Bənu Sələmə qəbiləsindən olan bir kişi dedi: «Ey Allahın elçisi! Kə'bi iki gözəl libası və yan-yörəsinə özündən razı halda baxması Mədinədə saxladı».

Muaz ibn Cəbəl (r.a) dedi: «Sənin dediyin necə də pisdir! Ey Allahın elçisi! Allaha and olsun ki, biz Kə'bdən yaxşılıqdan başqa bir şey görməmişdik». Peyğəmbər - səllallahu aleyhi və səlləm - heç nə demədi.

Onların Mədinəyə qayıtma xəbərini eşitdikdə kədər məni bürüdü, artıq yalan danışmaq barəsində düşünməyə başladım və öz-özümə dedim: «Mən nə edim ki, sabah onun qəzəbindən xilas olum?» Sonra mən bu iş barəsində təcrübəsi olan yaxınlarımla məsləhətləşdim.

Peyğəmbərin Mədinəyə yaxınlaşması xəbəri mənə çatdıqda bütün batil fikirləri özümdən uzaqlaşdırdım və başa düşdüm ki, uydurduğum yalan fikirlərlə özümə bəraət qazandıra bilməyəcəyəm. Ona görə də qərara gəldim ki, hər şeyi olduğu

kimi Peyğəmbərə - səllallahu aleyhi və səlləm - söyləyim.

Səhəri gün Peyğəmbər - səllallahu aleyhi və səlləm - Mədinəyə gəldi və adəti üzrə məscidə daxil olub iki rəkət namaz qıldı. Sonra da orada olan camaatla [hal-əhval tutmaq üçün] birgə oturdu. Bu vaxt Təbuk döyüşündən yayınan səksəndən artıq kişi gəlib Peyğəmbərə - səllallahu aleyhi və səlləm - müxtəlif bəhanələr gətirməklə və and içməklə üzrxahlıq etməyə başladılar. Allahın elçisi onların camaat arasında dediklərini qəbul etdi, onlardan bir daha vəd aldı, onlar üçün bağışlanma dilədi, qəlblərində gizlətdiklərini isə Allaha həvalə etdi.

Bu zaman mən də Peyğəmbərin - səllallahu aleyhi və səlləm - hüzuruna gəlib ona salam verdim. Peyğəmbər - səllallahu aleyhi və səlləm - məni görcək gülümsədi, lakin qəzəbli olduğu hiss olunurdu. Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Gəl!» - deyə məni çağırdı. Mən yaxınlaşıb onun qarşısında oturduqda o mənə dedi: «Bu döyüşdən yayınmağının səbəbi nə idi? Məgər sən bundan öncə beyət etməmişdin? [İslamı yaşatmağa söz verməmişdin?]»

Mən dedim: «Doğrudur, ey Allahın elçisi! Allaha and olsun ki, həqiqətən, mən başqa birisinin hüzurunda olsaydım, bir bəhanə gətirməklə onun qəzəbindən canımı necə qurtaracağımı görərdin. Doğrudan da mənim çox fəsahətli danışıq qabiliyyətim var. Lakin - and olsun Allaha - mən başa düşdüm ki, əgər mən bu gün yalan danışmaqla səni razı salsam, sonra Allah sənə həqiqəti bildirdikdə mənə qəzəblənəcəksən. Ancaq sənə həqiqəti söyləsəm, sənin mənə qəzəbin tutsa da Allahın məni bağışlayacağına ümid edəcəm.

Xeyr! Allaha and olsun ki, mənim bu döyüşdən yayındığıma bəraət qazandıracaq heç bir üzürlü səbəbim yoxdur. Çünki mən heç vaxt özümü indiki kimi qüvvətli və

gümrah hiss etməmişdim».

Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Buna gəlincə, həqiqətən doğru söylədi. Ey Kə'b, get və Allah sənin barəndə hökm verənə qədər səbr et».

Mən çıxıb getdikdə Bənu Sələmə qəbiləsindən olan bir dəstə kişi tələsik arxamca gəlib mənə dedi: «Allaha and olsun ki, biz səni bundan əvvəl günahkar bir şəxs kimi tanımırdıq. Sən döyüşdən yayınan şəxslər kimi Peyğəmbərə - səllallahu aleyhi və səlləm - üzrxahlıq etməyib aciz qaldın. Halbuki sənin bu günahın üçün Peyğəmbərin - səllallahu aleyhi və səlləm - bağışlanma diləməyi kifayət edərdi.

Allaha and olsun ki, onlar məni o qədər taqsırlandırdılar ki, qayıdıb yalan söylədiyimi bildirmək istədim. Sonra mən: «Məndən başqa belə hərəkət edən bir kimsə varmı?» - deyə soruşdum. Onlar dedilər: «Bəli, iki kişi də sən dediyin kimi həqiqəti söylədi və sənə söylənilənlər onlara da deyildi». Mən onların kim olduğunu soruşduqda onlar: «Bu Murara ibn Rəbi əl-Amri (r.a) və Hilal ibn Ümeyyə əl-Vaqifidir (r.a) - deyib Bədr döyüşündə iştirak etmiş, nümunəvi olan iki səhabəni mənə bildirdilər. Onlar bunu mənə söylədikdən sonra [fikrimdən dönməyib] çıxıb getdim.

Peyğəmbər - səllallahu aleyhi və səlləm - döyüşdən yayınanlar arasında yalnız bizim üçümüzlə danışmağı müsəlmanlara qadağan etdi. Camaat bizdən uzaqlaşdı və onların bizə qarşı olan münasibəti dəyişdi. Hətta bu yerlər mənim üçün qəribləşdi. Bu vəziyyət əlli gün davam etdi. Bu müddət ərzində Murara (r.a) və Hilal (r.a) Allahın qədərinə boyun əyməklə evlərində oturub ağlayırdılar. Mən isə onlardan daha gənc və dözümlü olduğum üçün müsəlmanlarla birlikdə namazlarda iştirak edir və bazarlarda gəzib dolaşırdım. Lakin

mənimlə heç kəs danışmırdı. Namazdan sonra Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəlib salam verər və öz-özümə deyərdim: «Görəsən onun dodaqları tərpəndimi, mənim salamımı aldımı?» Sonra onun yaxınlığında namaz qılar və gizlincə ona nəzər salardım. Namaza gəldiyim zaman Peyğəmbər - səllallahu aleyhi və səlləm - mənə tərəf baxardı, ancaq mən ona tərəf baxdıqda o məndən üz çevirərdi.

İnsanların məndən üz çevirməsi və mənə qarşı olan soyuq münasibətləri o qədər davam etdi ki, mən bir gün əmim oğlu Əbu Qətadənin (r.a) həyət divarını aşıb onun yanına gəldim. Əbu Qətadə (r.a) ən çox sevdiyim insanlardan biri idi. Mən ona salam verdim, ancaq Allaha and olsun ki, o mənim salamımı almadı. Mən dedim: «Ey Əbu Qətadə! Səni Allaha and verirəm, de görüm mənim Allah və Rəsulunu - səllallahu aleyhi və səlləm - sevən bir bəndə olduğumu bilirsənmi?»

O susdu. Mən bir daha Allaha and verib soruşduqda o yenə də cavab vermədi. Mən üçüncü dəfə Allaha and verib soruşdum. O dedi: «Allah və rəsulu daha yaxşı bilir!»

Bu cavabdan sonra gözlərim yaşla doldu, sonra hasarı aşıb oradan uzaqlaşdım.

Bir gün mən Mədinə bazarında gəzib dolaşdığım zaman ora ticarət üçün gəlmiş, Şam əhlindən olan bir nəsrani əkinçi: «Mən Kə'b ibn Maliki (r.a) necə tapa bilərəm?» - deyə soruşduqda, bazardakılar məni işarə ilə ona göstərdilər. O yaxınlaşıb Ğəssan vilayətinin hökmdarının məktubunu mənə təqdim etdi. Orada bu sözlər yazılmışdı: «Həqiqətən, mənə çatmış məlumatlara görə dostun [Peyğəmbər - səllallahu aleyhi və səlləm -] səninlə çox sərt davranır. Doğrudan da Allah səni təhqir olunacağın və sıxıntı çəkəcəyin bir yerdə qalmaq üçün yaratmamışdır. Elə isə bizim yanımıza gəl, sənə layiqincə

hörmət edək». Bu məktubu oxuduqdan sonra mən: «Bu da bir imtahandır» - deyib onu təndirə atıb yandırdım.

Qırx gün keçdikdən sonra Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** göndərdiyi şəxs, [Xuzeymə ibn Sabit (r.a)][117] gəlib mənə dedi: «Allahın elçisi sənə həyat yoldaşından uzaqlaşmağı əmr edir». Mən dedim : «Onu boşayım, ya yox?» O dedi: «Xeyr! Ondan uzaqlaş və onunla yaxınlıq etmə!»

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bu xəbəri Murara (r.a) və Hilala (r.a) da göndərmişdi. Mən həyat yoldaşıma dedim: «Atan evinə get və Allahın hökmü gələnə qədər orada qal!»

Hilal ibn Ümeyyənin (r.a) zövcəsi Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedi: «Ey Allahın elçisi! Həqiqətən, Hilal artıq qocalmış və əldən düşmüşdür. Ona xidmət edəcək bir kimsə yoxdur. Ona xidmət göstərməyimə də qadağa qoyursan?» O dedi: «Xeyr, lakin səninlə yaxınlıq etməsin». Hilalın (r.a) zövcəsi dedi: «Allaha and olsun ki, onun heç hərəkət etməyə taqəti qalmayıb. Bu hadisə baş verəndən bəri o, dayanmadan ağlayır».

Mənim də yaxınlarımdan[118] bəziləri mənə dedilər: «Bəlkə sən də Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** izn istəyəsən və o Hilal ibn Ümeyyənin zövcəsinə ona xidmət etmək üçün izn verdiyi kimi sənin zövcənə də izn versin». Mən dedim:

---

[117] [ «Fəthul-Bari», 7/726. ]

[118] [ Kiminsə Kə'b ibn Malik (r.a) ilə danışması Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** qoyduğu qadağaya ziddir. Bunu belə izah etmək olar: ola bilsin ki, həmin şəxs onun ailə üzvlərindən biri olsun. Belə ki, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** qoyduğu qadağa zövcəyə aid edilmirdi. Ya da ona bu nəsihəti verən Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** əmrinə tabe olmayan münafiq idi. Yaxud da bu şəxs onun xidmətçisi idi ki, ona da qadağa aid deyildi. «Fəthul Bari», 7/727. ]

«Allaha and olsun ki, bu barədə Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm –** izn istəməyəcəm. Mən nə bilim ki, o nə cavab verəcək. Bundan başqa mən hələ gəncəm».

Mən on gün də gözlədim və artıq Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** qadağan etdiyi günlərin sayı əlliyə çatdı. Mən əllinci gün sübh namazını qılıb evlərimizdən birinin damının üstündə Allahın [ayədə] zikr etdiyi vəziyyətdə, yəni ürəyim təngə gəlib sıxılmış və gen dünya mənə dar olmuş kimi oturmuşdum ki, birdən Səl dağının üstünə çıxıb uca səslə çağıran carçının: «Ey Kə'b ibn Malik, sevin!» - dediyini eşitdim.

Mən dərhal səcdə etdim və anladım ki, artıq sevinc və fərəh gəlmişdi.

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** sübh namazını qıldıqdan sonra Allahın bizim tövbələrimizi qəbul etdiyini insanlara bəyan etmiş və onlar da bu şad xəbəri bizə çatdırmağa tələsmişlər. Onlardan bir qismi Muraranı (r.a) və Hilalı (r.a) müjdələmək üçün onların yanına getmişlər. Onlardan biri atını çaparaq məni müjdələməyə gəlmiş, digəri isə Səl dağına qalxıb oradan bu müjdəni mənə daha tez çatdırmışdı. Belə ki, səsin surəti atın surətindən daha tez çatır. Səsini eşitdiyim müjdəçi mənim yanıma gəldikdə libasımı [rida və izarımı] ona verdim. Özümün isə bundan başqa libasım olmadığı üçün geyinmək məqsədilə [Əbu Qətadədən (r.a)][119] libas aldım və onu geyib Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına getdim. Səhabələr dəstə-dəstə məni qarşılayır və tövbəmin qəbul olunması münasibətilə təbrik edib deyirdilər: «Allahın tövbəsi sənə xeyirli olsun!» Mən məscidə daxil olduqda Peyğəmbər **- səllallahu**

---

[119] [ «Fəthul-Bari», 7/728. ]

aleyhi və səlləm - orada oturmuş və camaat da onun ətrafına toplaşmışdı. Təlhə ibn Ubeydullah (r.a) qalxaraq sürətlə mənə tərəf gəlib əlimi sıxdı və məni təbrik etdi. Allaha and olsun ki, ondan başqa mühacirlərdən heç kəs məni təbrik etmək üçün ayağa qalxmadı. Mən onun bu münasibətini heç vaxt unutmaram. Mən Peyğəmbərə - səllallahu aleyhi və səlləm - salam verdikdə o, sevinclə parlayan üzünü mənə tərəf çevirib dedi: «Anan səni dünyaya gətirdiyi gündən bəri sənin üçün ən xeyirli olan bu günün səadətiylə sevin!» Mən: «Ey Allahın elçisi! Bu müjdə sənin tərəfindəndir, yoxsa Allahın?»- deyə soruşduqda o dedi: «Xeyr, əksinə bu Allah tərəfindən olan müjdədir».

Adətən, Peyğəmbər - səllallahu aleyhi və səlləm - sevindikdə onun üzü ay parçası kimi parlayardı. Biz də onun sevindiyini bu görkəmindən hiss edərdik.

Mən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - qarşısında oturub dedim: «Ey Allahın elçisi! Tövbəm qəbul olunduğu üçün var-dövlətimi Allah və Onun rəsuluna sədəqə etmək istəyirəm». Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Var-dövlətinin bir hissəsini özündə saxla. Bu sənin üçün daha xeyirlidir». Mən dedim: «Xeybər[120] döyüşündə əldə olunmuş qənimətdən payıma düşən hissəni özüm üçün saxlayıram. Ey Allahın elçisi! Həqiqətən, Allah məni bu sıxıntıdan yalnız doğru danışdığım üçün qurtardı. Elə buna görə də bundan sonra da yalnız doğru danışacağam».

---

120 [ Xeybər – böyük bir şəhərin adıdır. Bu şəhər Mədinədən səkkiz burd aralıda, Şam istiqamətində yerləşir. Bir burd = dörd fərsəx və ya 23040m; bir fərsəx = üç mil və ya 5760 m; bir mil = dörd min dirsək və ya 1920m. «Fəthul-Bari», 7/530; «Nihayə fi Ğəribul-Hədis», səh. 71; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/589, 777. ]

Allaha and olsun ki, Peyğəmbərə - səllallahu aleyhi və səlləm - doğru söylədiyim vaxtdan bəri Allahın kimi isə doğru danışmaqda məni imtahana çəkdiyindən daha gözəl imtahana çəkdiyini bilmirəm. Bütün bunları Peyğəmbərə - səllallahu aleyhi və səlləm - söylədikdən sonra heç vaxt yalan danışmaq barəsində düşünmədim [niyyətində olmadım] və Allahdan istəyirəm ki, bundan sonra da bu işdə məni qorusun. Buna görə də Allah Peyğəmbərinə - səllallahu aleyhi və səlləm - bu ayəni nazil etdi:

«**Allah** [müsəlmanlardan] **bir qisminin ürəyi** [şəkk-şübhəyə düşüb peyğəmbərdən və cihaddan] **dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun ardınca gedən mühacirlərə və ənsara tövbə nəsib etdi….**» ayəsindən «**…..doğru olanlarla olun!** [Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!]» ayəsinə qədər.

Allaha and olsun ki, İslam nemətindən sonra Allahın mənə bəxş etdiyi nemətlərdən ən gözəli Peyğəmbərə - səllallahu aleyhi və səlləm - doğru danışmaqdır ki, yalan danışıb həlak olanlardan olmayım. Həqiqətən, Uca Allah yalan danışanları məzəmmət edərək onlar barəsində bu ayəni nazil etdi:

«**Siz onların yanına gəldikdə onlar** [yalandan] **Allaha and içəcəklər ki, onlardan üz döndərəsiniz** [onları məzəmmət etməkdən, cəzalandırmaqdan əl çəkəsiniz]**. Siz də onlardan üz döndərin!** [Qoyun qiyamət günü əzabı daha şiddətli olacaq küfr və nifaqlarında davam etsinlər!] **Çünki onlar murdardırlar və qazandıqları günahlara görə düşəcəkləri yer də Cəhənnəmdir! Onlardan razı olasınız deyə, qarşınızda** [Allaha] **and içəcəklər. Siz onlardan razı olsanız da, Allah**

**fasiq bir tayfadan razı olmaz».**[121]

Peyğəmbər - səllallahu aleyhi və səlləm - bizim üçümüzdən başqa döyüşdən yayınanların hər birindən and içib, üzr diləmələrini qəbul etdi və onlarla beyət edərək onlar üçün bağışlanma dilədi. Lakin bizim barəmizdə olan hökmü Allahın əmri gələnə qədər təxirə saldı. Bu barədə Uca Allah belə buyurur:

**«Həmçinin geri qalmış üç nəfərin də**……»[122]

Ayədə qeyd olunmuş «geri qalanlar» ifadəsi heç də bizim Təbuk döyüşündən geri qalmağımıza işarə deyil. Əksinə bu bizim barəmizdə olan hökmün, digərlərindən, and içərək Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - üzr diləyənlər barəsində olan hökmdən [əlli gün] geri qalmasıdır.

Bu hədisi həmçinin Buxari «Təfsir» fəslində ixtisarla (9-cu cild, səh. 412), Muslim «Səhih» əsərində (17-ci cild, səh. 87), Tirmizi «Sünən» əsərində ixtisarla (4-cü cild, səh. 121), imam Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 457), Abdurrəzzaq «Müsənnəf» əsərində (5-ci cild, səh. 397), İbn İshaq (ibn Hişamın «Sira» əsərində (2-ci cild, səh. 531) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (11-ci cild, səh. 58) və ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 105) rəvayət etmişlər.

# Hud surəsi

**Uca Allah buyurur:**

---

[121] [ «ət-Tövbə» surəsi, 95-96. ]

[122] [ «ət-Tövbə» surəsi, 118. ]

**«Bilin ki, onlar Allahdan gizlənmək məqsədilə** [ikiqat olarlar] **sinələrini bükərlər. Xəbərdar olun ki, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqları və aşkar etdikləri hər şeyi** [bütün gizli və aşkar əməllərini] **bilir. Həqiqətən, O, ürəklərdə olanları biləndir». (5-ci ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 420) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abbad ibn Cə'fər deyir ki, ibn Abbas (r.a)

**«Bilin ki, onlar Allahdan gizlənmək məqsədilə** [ikiqat olarlar] **sinələrini bükərlər….»** ayəsini oxudu və mən bu ayənin izahı barəsində ondan soruşduqda o dedi: «O zamanlar bəziləri ayaq yoluna getdikdə və həmçinin qadınları ilə yaxınlıq etdikdə övrət yerlərinin açılmasından utanardılar. Onlar barəsində də bu ayə nazil oldu».

Bu hədisi həmçinin ibn Əbi Hatim «Təfsir»ində (4-cü cild, səh. 150) və ibn Cərir «Təfsir»ində (11-ci cild, səh. 185) rəvayət etmişlər. İbn Cəririn rəvayətində ayənin nazil olması göstərilməmişdir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Namazı gündüzün iki başında** [günortadan əvvəl və sonra, yəni səhər, günorta və gün batan çağı və ya günün iki başında, yəni səhər-axşam] **və gecənin** [gündüzə yaxın] **bəzi saatlarında** [axşam və gecə vaxtı] **qıl. Həqiqətən,** [beş vaxt namaz kimi] **yaxşı əməllər pis işləri**

[kiçik günahları] **yuyub aparar. Bu,** [Allahın mükafatını və cəzasını] **yada salanlara öyüd nəsihətdir** [xatırlatmadır]». **(114-cü ayə)**

Buxari «Səhih» əsərində (2-ci cild, səh. 148) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Məsud (r.a) rəvayət edir ki, bir kişi Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib [naməhrəm] bir qadını öpdüyünü ona xəbər verdi [bunun nə dərəcədə günah olduğunu öyrənmək istədi] və Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Namazı gündüzün iki başında** [günortadan əvvəl və sonra, yəni səhər, günorta və gün batan çağı və ya günün iki başında, yəni səhər-axşam] **və gecənin** [gündüzə yaxın] **bəzi saatlarında** [axşam və gecə vaxtı] **qıl. Həqiqətən,** [beş vaxt namaz kimi] **yaxşı əməllər pis işləri** [kiçik günahları] **yuyub aparar».**

Kişi dedi: «Ey Allahın elçisi! Bu hökm yalnız mənə aiddir?» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Bu hökm bütün ümmətimə aiddir!»

Buxari bu hədisi həmçinin «Təfsir» fəslində (9-cu cild, səh. 448), Muslim «Səhih» əsərində (17-ci cild, səh. 79-80), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 127-128), ibn Macə «Sünən» əsərində (1398-ci və 4254-cü hədislər), Nəsai «Sünən» əsərində (ibn Kəsirin «Təfsir»ində qeyd olunduğu kimi), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 406, 430, 445, 449, 452), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 20), ibn Cərir «Təfsir»ində (12-ci cild, səh. 134-135), Vahidi «Əsbabun-Nuzul» əsərində və Xətib əl-Bəğdadi «Muvəddih Əvhamil-Cəmi vət-Təfriq» əsərində rəvayət etmişlər. Tirmizi bu hədisi «həsən-səhih» ad-

landırmışdır.

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 128) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu əl-Yəsar (r.a) rəvayət edir ki, bir qadın xurma almaq üçün yanıma gəldi və mən ona: «Evdə bunlardan da yaxşı xurmalarım var» - deyib onu evə dəvət etdim. O mənimlə birgə içəri daxil oldu. Sonra mən ona sarılaraq onu öpdüm. Sonra Əbu Bəkrin (r.a) yanına gəlib bu barədə ona xəbər verdim və o dedi: «Eybini gizlət, tövbə et və bu barədə heç kəsə xəbər vermə!» Mən dözməyib Ömərin (r.a) yanına getdim və bu haqda ondan soruşdum. O da Əbu Bəkrin (r.a) dediklərini dedi. Mən yenə də dözməyib Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına getdim. Bu barədə ona xəbər verdikdə o dedi: «Allah yolunda cihadda olanın ailəsi ilə bu cür davranırsan?!»

Əbu əl-Yəsar (r.a) özünün Cəhənnəm əhlindən olduğunu zənn etdi və yenidən müsəlman olmağını təmənna etdi.

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bir müddət gözlədikdən sonra Uca Allah bu ayəni nazil etdi:

**«**[Ya Məhəmməd!] **Namazı gündüzün iki başında** [günortadan əvvəl və sonra, yəni səhər, günorta və gün batan çağı və ya günün iki başında, yəni səhər-axşam] **və gecənin** [gündüzə yaxın] **bəzi saatlarında** [axşam və gecə vaxtı] **qıl. Həqiqətən,** [beş vaxt namaz kimi] **yaxşı əməllər pis işləri** [kiçik günahları] **yuyub aparar. Bu,** [Allahın mükafatını və cəzasını] **yada salanlara öyüd nəsihətdir** [xatırlatmadır]**».**

Əbu əl-Yəsar (r.a) deyir ki, mən Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəldikdə o bu ayələri mənə oxudu və səhabələr: «Ey Allahın elçisi! Bu ayə yalnız Əbu əl-Yəsara (r.a)

aiddir, yoxsa bütün insanlara şamil edilir?» - deyə soruşdular. O dedi: «Əksinə bu ayə bütün insanlara şamil edilir». Bu hədis «həsən-səhih, ğərib»dir.

Lakin qeyd etmək lazımdır ki, Vəkiy və qeyriləri hədisin isnadında olan Qeys ibn Rəbini «daif» ravi hesab etmişlər. Elə buna görə də hədis «həsən li-ğeyrihi» hesab olunur.

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (12-ci cild, səh. 137), Buxari «Tarix» əsərində (7-ci cild, səh. 221) və Vahidi «Əsbabun-Nüzul» əsərində rəvayət etmişlər.

Bəzzar «Kəşful-Əstar» əsərində (3-cü cild, səh. 52) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ubeydullah ibn Abdullah ibn Abbas rəvayət edir ki, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - səhabələrindən olan bir kişi bir qadını sevirdi. O, yağışlı günlərin birində ehtiyacını ödəmək üçün Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - izn istəyib onun yanına getdi. O gəlib çatdıqda sevdiyi qadının nohurda çimdiyini gördü və ona yaxınlaşdı. Qadınla [cinsi əlaqəyə girmədən] yaxınlıq etdikdə onun şəhvət hissi oyandı. O gəlib bu haqda Peyğəmbərə - səllallahu aleyhi və səlləm - xəbər verdikdə o dedi: «Dörd rəkət namaz qıl!» Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Namazı gündüzün iki başında** [günortadan əvvəl və sonra, yəni səhər, günorta və gün batan çağı və ya günün iki başında, yəni səhər-axşam] **və gecənin** [gündüzə yaxın] **bəzi saatlarında** [axşam və gecə vaxtı] **qıl. Həqiqətən,** [beş vaxt namaz kimi] **yaxşı əməllər pis işləri** [kiçik günahları] **yuyub aparar».**

# Yusif surəsi

**Uca Allah buyurur:**

**«Əlif, Lam, Ra! Bunlar açıq-aydın kitabın** [Quranın] **ayələridir!** [Ey Məkkə əhli!] **Biz bunu ərəbcə bir Quran olaraq nazil etdik ki, bəlkə,** [mənasını] **anlayasınız.** [Ya Məhəmməd!] **Biz** [bu surəni] **vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq. Hərçənd ki, sən əvvəlcə** [ondan] **əsla xəbərdar deyildin». (1-3-cü ayələr)**

İshaq ibn Rahaveyh «Müsnəd» əsərində (İbn Həcərin «Mətalibul Aliyə» əsərində (səh. 440) qeyd olunduğu kimi) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Sə'd (r.a)

◎ ◎◎◎◎◎◎◎◎◎◎ ◎◎◎◎◎◎◎◎◎ ◎◎◎◎◎◎◎◎ ◎◎◎◎◎◎◎◎ ◎◎◎◎◎◎◎ ◎

**«**[Ya Məhəmməd!] **Biz** [bu surəni] **vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq. Hərçənd ki, sən əvvəlcə** [ondan] **əsla xəbərdar deyildin»** ayəsi barəsində demişdir: «Uca Allah Öz Rəsuluna ayələr nazil etdi. O bu ayələri uzun müddət oxudu və səhabələr: «Ey Allahın elçisi! Bizə bir hekayə danış» - deyə ona müraciət etdilər və Uca Allah da bu ayələri nazil etdi:

**«Əlif, Lam, Ra! Bunlar açıq-aydın kitabın** [Quranın] **ayələridir!** [Ey Məkkə əhli!] **Biz bunu ərəbcə bir Quran olaraq nazil etdik ki, bəlkə,** [mənasını] **anlayasınız.** [Ya

Məhəmməd!] **Biz** [bu surəni] **vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq. Hərçənd ki, sən əvvəlcə** [ondan] **əsla xəbərdar deyildin».**

O bu ayələri də bir müddət oxuduqdan sonra səhabələr yenə: «Ey Allahın elçisi! Bizə bir əhvalat danış». - deyə ona müraciət etdilər və Uca Allah bu ayəni nazil etdi:

**«Allah sözün ən gözəlini** [Quranı, ayələri] **bir-birinə bənzər,** [xəbərləri və hekayətləri, əmrləri və qadağanları, vədləri və təhdidləri] **təkrarlanan bir kitab şəklində nazil etdi. Ondan** [Quranın təhdidlərindən] **Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən** [öyüd-nəsihətindən, vədlərindən] **sonra ürəkləri yerinə gəlib qorxuları gedər. Bu** [Quran] **Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldər. Allahın yoldan çıxartdığı kimsəyə isə heç bir yol göstərən olmaz!»**[123]

Hədisin isnadında olan ravilərin hamısı – Xəllad əs-Səffardan başqa - Buxari və Muslimin istinad etdiyi ravilərdir. Xəllada gəlincə, o da «siqa» ravidir.

Bu hədisi həmçinin ibn Hibban «Səhih» əsərində, ibn Cərir «Təfsir»ində (12-ci cild, səh. 150) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 345) rəvayət etmişlər.

Hakim bu hədisin isnadını «səhih» adlandırmış və Zəhəbi də bunu təsdiqləmişdir.

---

[123] [ «əz-Zümər» surəsi, 23. ]

# Ər-Rə'd surəsi

**Uca Allah buyurur:**

**«Göy gurultusu Onun** [Allahın] **şəninə tariflər deyir, mələklər də Onun qorxusundan Onu öyüb mədh edirlər. O, ildırımlar göndərib onlar** [kafirlər] **Allah barəsində mübahisə edərkən onların** [ildırımların] **vasitəsilə istədiyini vurar. Allahın cəzası şiddətlidir!» (13-cü ayə)**

Bəzzar «Kəşful-Əstar» əsərində (3-cü cild, səh. 54) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - səhabələrindən bir nəfəri cahillərin başçılarının birinin yanına göndərdi ki, onu Uca Allahın dininə dəvət etsin. O dedi: «Məni dəvət etdiyin Rəbbin dəmirdəndir, yoxsa misdən? Bəlkə gümüşdən və ya qızıldandır?» səhabə gəlib onun dediklərini bir daha Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - xəbər verdi və o yenidən səhabəni onun yanına göndərdi. Cahil yenə dediklərini təkrar etdi. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - üçüncü dəfə səhabəni onun yanına göndərdi. Cahil bu dəfə də dediklərini təkrar etdi. Səhabə gəlib onun dediklərini Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - xəbər verdi və Uca Allah onu ildırımla vurub yandırdı. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Həqiqətən, Uca Allah onu ildırımla vurub yandırdı». Uca Allah da bu ayəni nazil etdi:

**«Göy gurultusu Onun** [Allahın] **şəninə təriflər deyir, mələklər də Onun qorxusundan** [Onu öyüb mədh edirlər]**. O, ildırımlar göndərib onlar** [kafirlər] **Allah barəsində mübahisə edərkən onların** [ildırımların] **vasitəsilə istədiyini vurar. Allahın cəzası şiddətlidir!»**

Bu hədisi həmçinin ibn Əbi Asim «Sünən» əsərində (1-ci cild, səh. 304), Əbu Yə'lə «Müsənnəf» əsərində (6-cı cild, səh. 87), Beyhəqi «Əsm vəs-Sifat» əsərində (səh. 278) və Nəsai «Sünən» əsərində (1-ci cild, səh. 99) rəvayət etmişlər.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 42) demişdir: «Bu hədisi Bəzzar, əbu Yə'lə və Təbərani rəvayət etmişlər». Deyləm ibn Ğəzvandan başqa Bəzzarın isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Deyləmin özü də «siqa» ravidir. Əbu Yə'lə və Təbəraninin isnadlarında olan Əli ibn Əbi Sarra adlı ravi «daif»dir.

# İbrahim surəsi

**Uca Allah buyurur:**

**«Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə** [kəlmeyi-şəhadətlə] **sabitqədəm edər. Allah zalimləri** [haqq yoldan] **sapdırar. Allah istədiyini edər!» (27-ci ayə)**

Nəsai «Sünən» əsərində (4-cü cild, səh. 10) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bəra ibn Azib (r.a)

**«Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə** [kəlmeyi-şəhadətlə] **sabitqədəm edər......»** ayəsini oxuduqdan sonra demişdir: «Bu ayə qəbr əzabı barəsində nazil olmuşdur».

Başqa isnadla rəvayət olunmuş hədisdə Bəra ibn Azib (r.a) deyir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bu ayəni oxuduqdan sonra demişdir: «Bu ayə qəbr əzabı barəsində nazil olmuşdur. Orada bərzəx[124] həyatında ona deyiləcəkdir: «Rəbbin kimdir?» O deyəcəkdir: «Rəbbim Allahdır, dinim də Məhəmmədin **- səllallahu aleyhi və səlləm -** dinidir. Bu da

**«Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə** [kəlmeyi-şəhadətlə] **sabitqədəm edər.....»** ayəsində öz təsdiqini tapmışdır».

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (9-cu cild, səh. 475-476) və ibn Macə «Sünən» əsərində (1427-ci hədis) rəvayət etmişlər.

## Ən-Nəhl surəsi

**Uca Allah buyurur:**

**«Allah belə bir misal çəkdi: «Heç bir şeyə gücü çatmayan və başqasının malı olan bir qul verdiyimiz gözəl ruzidən** [Allah yolunda] **gizli və aşkar sərf edən** [azad] **bir insanla eyni ola bilərmi?! Həmd** [tərif və şükrlər] **yalnız Allaha məxsusdur, lakin** [müşriklərin] **əksəriyyəti** [bunu] **bilməz!**

---

124 [ Burada bərzəx deyildikdə dünya ilə axirət həyatı arasında mövcud olan həyat qəsd edilir. «ən-Nihayə», 1/118 və «Lisanul Ərəb», 3/8. ]

**Allah iki nəfər barəsində belə bir məsələ buyurdu: bu iki nəfərin biri dilsizdir** [laldır]**, heç bir şeyə gücü çatmaz. O öz ağasına bir yükdür, onu hara yollasa xeyirlə qayıtmaz. O heç doğru yolda olub haqq-ədaləti əmr edən bir kimsə kimi ola bilərmi?!» (75-76-cı ayələr)**

İbn Cərir «Təfsir»ində (14-cü cild. səh. 151) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki,

**«Allah belə bir misal çəkdi…..»** ayəsi Qüreyş qəbiləsindən olan bir kişi və onun quluna aid nazil olmuşdur:

**«Allah iki nəfər barəsində belə bir məsələ buyurdu: bu iki nəfərin biri dilsizdir** [laldır]**, heç bir şeyə gücü çatmaz. O öz ağasına bir yükdür, onu hara yollasa xeyirlə qayıtmaz. O heç doğru yolda olub haqq-ədaləti əmr edən bir kimsə kimi ola bilərmi?!»** ayəsində isə misal çəkilən iki kişidən biri Osman ibn Əffan (r.a), digəri də onun lal köləsidir ki, göndərildiyi yerdən xeyirlə qayıtmazdı. O zaman Osman (r.a) himayədarlıq edərək onu yaşayış üçün zəruri olan bütün şeylərlə təmin edir və ona kifayət qədər qayğı göstərirdi. Kölәsi isə İslama pis münasibət bəsləyib onu inkar edir və hətta Osmanı (r.a) da sədəqə verib yaxşı işlər görməkdən çəkindirirdi. Odur ki, bu ayə onlar barəsində nazil oldu».

Bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

**Uca Allah buyurur:**

**«Biz onların** [müşriklərin]**: «**[Quranı] **ona** [Məhəmmədə] **bir insan öyrədir!»- dediklərini də bilirik. Onların nəzərdə**

**tutduqları adamın dili başqa dildir. Bu** [Quranın dili] **isə açıq-aşkar** [bəlağətli, fəsahətli] **ərəb dilidir!» (103-cü ayə)**

İbn Cərir «Təfsir»ində (14-cü cild. səh. 178) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Muslim əl-Hədrəmi (r.a) rəvayət edir ki, onların Yəsər və Cəbr adlı Yəmənli olmayan azyaşlı iki köləsi var idi. Onlar Tövrat oxuyardılar və Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** də hərdən onların yanında otururardı. Ona görə də qüreyş kafirləri: «O, onların yanına [Quranı] öyrənmək üçün gedir»- dedilər və Uca Allah da bu ayəni nazil etdi:

**«.... Onların nəzərdə tutduqları adamın dili başqa dildir. Bu** [Quranın dili] **isə açıq-aşkar** [bəlağətli, fəsahətli] **ərəb dilidir!»**

Müsənnə ibn İbrahim əl-Amilidən başqa bu hədisin[125] isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Doğrusu onun tərcümeyi-halı barəsində məndə heç bir məlumat yoxdur. Lakin Süfyan ibn Vəkiyin rəvayəti onun rəvayətini qüvvətləndirir.

Huşeym ibn Bəşirə gəlincə, o «müdəllis»dir və ibn Abbasdan (r.a) «bu hədisi eşitdim» demədən rəvayət etmişdir. Lakin onun rəvayətini Xalid ibn Abdullahın və Məhəmməd ibn Fudeylin rəvayətləri qüvvətləndirir. Odur ki, ibn Həcər «İsabə» əsərində (2-ci cild. səh. 439) bu hədisi nəql etdikdən sonra demişdir: «Bu hədisdən sonra gələn hədis də eyni isnadla rəvayət olunmuşdur və bu isnad «səhih»dir».

---

[125] Bu hədisi Beyhəqi «Şuabul-İman» əsərində (1-ci cild, səh. 95) rəvayət etmişdir.

Alimlər hədisi rəvayət edən səhabənin adı barəsində ixtilaf etmişlər. İbn Cəririn rəvayətində onun Abdullah ibn Muslim (r.a), ibn Əbi Hatimin «Cərh vət-Tə'dil» əsərində (5-ci cild. səh. 332) isə onun Ubeydullah ibn Muslim (r.a) olduğu qeyd olunmuşdur. Bu barədə ibn Həcər «İsabə» əsərində (2-ci cild. səh. 439) danışıb.

Bu hədisi qüvvətləndirən başqa bir hədis də ibn Abbasdan (r.a) rəvayət olunub. Hakim «Mustədrək» əsərində (2-ci cild. səh. 357) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, onlar [müşriklər] : «Məhəmmədi ibn Hədrəminin kitab əhlindən olan qulu öyrədilr!»- dedilər və Uca Allah bu ayələri nazil etdi:

**«.... Onların nəzərdə tutduqları adamın dili başqa dildir. Bu** [Quranın dili] **isə açıq-aşkar** [bəlağətli, fəsahətli] **ərəb dilidir!»** ayəsindən **«Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar»** ayəsinə qədər.

**Uca Allah buyurur:**

**«Fitnəyə məruz qaldıqdan sonra hicrət edənləri, daha sonra** [Allah yolunda] **cihad edib** [hər cür əziyyətə] **dözənləri Rəbbin** [bütün bu çətinliklərdən] **sonra** [tövbə edəcəkləri təqdirdə] **sözsüz ki, bağışlayacaq və rəhm edəcəkdir!» (110-cu ayə)**

İbn Cərir «Təfsir»ində (14-cü cild. Səh. 184) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bir dəstə Məkkəli İslamı qəbul etmiş və bunu müşriklərdən

gizlətmişdi. Bədr döyüşü günü müşriklər onları özləri ilə getməyə məcbur etdilər. Onlardan bəziləri bu döyüşdə yaralandı, bəziləri də öldürüldü. Müsəlmanlar: «Onlar bizim müsəlman qardaşlarımız idi və bu döyüşə məcburiyyət qarşısında gəlmişdilər»- deyib onlar üçün bağışlanma dilədilər. Uca Allah da bu ayəni nazil etdi:

**«Mələklər öz nəfslərinə zülm edənlərin** [Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin] **canlarını alarkən** [onlara] **deyəcəklər: «Siz** [hicrət zamanı] **nə vəziyyətdə idiniz?» Onlar söyləyəcəklər: «Biz yer üzündə zəif** [aciz] **kəslər idik!»** [Mələklər də onlara] **: «Allahın torpağı geniş deyilmidi ki, siz də hicrət edəydiniz?»-deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora necə də pis yerdir».**[126]

Səhabələr bu ayəni məktuba yazaraq Məkkədə qalan müsəlmanlara göndərib bildirdilər ki, onların orada qalması üçün heç bir üzür yoxdur.

Onlar Mədinəyə hicrət etdikdə müşriklərlə rastlaşdılar və onların fitnəsinə məruz qaldılar [və qayıtdılar]. Uca Allah da bu ayəni nazil etdi:

**«Adamlar arasında elələri də vardır ki: «Biz Allaha iman gətirdik!»- deyər, Allah yolunda bir əziyyət gördükdə isə insanların** [kafirlərin] **fitnəsini Allahın əzabı kimi qəbul edərlər. Əgər Rəbbindən** [möminlərə] **bir zəfər gəlsə, mütləq: «Biz də sizinləyik!»-deyərlər. Məgər Allah aləmlər əhlinin** [mələklərin, insanların və cinlərin] **ürəklərində olanları** [imanı, küfrü və nifaqı] **bilmirmi?!»**[127]

---

[126] [ «ən-Nisa» surəsi, 97. ]

[127] [ «əl-Ənkəbut» surəsi, 10. ]

Müsəlmanlar bu ayəni də yazıb onlara göndərdilər. Bu dəfə onlar yenə də Məkkədən çıxdılar və hər bir xeyirdən ümidlərini üzdülər. Uca Allah da bu ayəni nazil etdi:

**«Fitnəyə məruz qaldıqdan sonra hicrət edənləri, daha sonra** [Allah yolunda] **cihad edib** [hər cür əziyyətə] **dözənləri Rəbbin** [bütün bu çətinliklərdən] **sonra** [tövbə edəcəkləri təqdirdə] **sözsüz ki, bağışlayacaq və rəhm edəcəkdir!»**

Müsəlmanlar bu ayəni də onlara yazıb Allahın onlara yol açdığını bildirdilər. Onlar Mədinəyə hicrət edərkən müşriklərlə rastlaşdılar və onlarla döyüşdülər. Onlardan bəziləri öldürüldü, bəziləri isə qaçıb canını qurtardı».

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 10) demişdir: «Məhəmməd ibn Şureykdən başqa bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Məhəmməd ibn Şureykə gəlincə, o da «siqa» ravidir».

**Uca Allah buyurur:**

«[Ey möminlər! İntiqam almaq məqsədilə birinə] **cəza verəcək olsanız, sizə nə cəza verilibsə onu da o cür cəzalandırın.** [Artıq cəza isə zülm etməkdir ki, bu da günahdır]. **Əgər** [onlardan intiqam almayıb] **səbr etsəniz, bu, səbr edənlər üçün daha xeyirlidir». (126-cı ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 133) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ubey ibn Kəb (r.a) demişdir: «Uhud döyüşündə ənsarlardan altmış dörd, mühacirlərdən isə altı kişi şəhid oldu. Onlardan biri də Həmzə (r.a) idi. Müşriklər onların cəsədlərini eybəcər hala saldıqları

üçün ənsarlar: «Əgər bir də onlarla döyüşsək, mütləq ikiqat əvəzini çıxacağıq»- dedilər və Məkkənin fəthi günü Uca Allah bu ayəni nazil etdi:

«[Ey möminlər! İntiqam almaq məqsədilə birinə] **cəza verəcək olsanız, sizə nə cəza verilibsə onu da o cür cəzalandırın.** [Artıq cəza isə zülm etməkdir ki, bu da günahdır]. **Əgər** [onlardan intiqam almayıb] **səbr etsəniz, bu, səbr edənlər üçün daha xeyirlidir».**

Bir kişi dedi: «Bu gündən Qüreyş məhv oldu!» Peyğəmbər - **səllallahu aleyhi və səlləm -** isə dedi: «Dörd nəfərdən başqa hamını bağışlayın!»

Tirmizi bu hədisin «həsən, ğərib» olduğunu demişdir.

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 135), ibn Hibban «Səhih» əsərində (12-ci cild, səh. 111) (Heysəminin «Məvariduzz-Zaman» əsərində (səh. 411) qeyd olunduğu kimi), Təbərani «Mucəmul-Kəbir» əsərində (3-cü cild, səh. 157) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 359, 446) rəvayət etmişlər.

Hakim bu hədisin isnadının «səhih» olduğunu demiş, Zəhəbi də onu təsdiqləmişdir.

# Əl-İsra surəsi

**Uca Allah buyurur:**

**«De: «Allahdan başqa tanrı güman etdiklərinizi** [köməyə] **çağırın. Onlar sizi nə bəladan qurtarmağa, nə də onu**

**dəyişməyə** [sizdən sovuşdurub başqasına tərəf yönəltməyə] **qadir deyillər!» Onların tapındıqları tanrıların özlərindən hər hansı biri** [Allah dərgahına] **daha yaxın olsun deyə, Rəbbinə vəsilə axtarır, Onun rəhmətini umur, əzabından qorxur. Həqiqətən, Rəbbinin əzabı qorxuludur!» (56-57-ci ayələr)**

Muslim «Səhih» əsərində (18-ci cild, səh. 164) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: Abdullah ibn Məsud (r.a)

**«Onların tapındıqları tanrıların özlərindən hər hansı biri** [Allah dərgahına] **daha yaxın olsun deyə, Rəbbinə vəsilə axtarır...»** ayəsi barədə demişdir: «O zamanlar bir dəstə insan cinlərdən olan bir topluma tapınırdılar. Həmən cinlər İslamı qəbul etdilər, onlara tapınan insanlar isə öz ibadətlərinə davam etdilər və Uca Allah da bu ayəni nazil etdi:

**«Onların tapındıqları tanrıların özlərindən hər hansı biri** [Allah dərgahına] **daha yaxın olsun deyə, Rəbbinə vəsilə axtarır...»**

Bu hədisi Buxari «Səhih» əsərində (10-cu cild, səh. 13) rəvayət etmiş, lakin ayənin nazil olduğunu qeyd etməmişdir.

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (15-ci cild, səh. 104-105) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 362) rəvayət etmişlər.

Hakim bu hədisin Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. Burada o hər iki ayənin [56 və 57-ci ayələrin] nazil olduğunu qeyd etmişdir.

**Uca Allah buyurur:**

**«Bizə möcüzələr göndərməyə mane olan şey ancaq əvvəlkilərin** [keçmiş ümmətlərin] **onları yalan hesab etmələridir. Biz Səmud tayfasına açıq-aşkar bir möcüzə olaraq dişi** [maya] **dəvə verdik, lakin onlar ona zülm etdilər** [dəvəni tutub kəsdilər]**. Biz möcüzələri yalnız** [bəndələrimizi] **qorxutmaq üçün göndəririk». (59-cu ayə)**

Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 258) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) deyir ki, Məkkə əhli Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - tələb etdi ki, Səfa dağını onlar üçün qızıla çevirsin və digər dağları da kənarlaşdırsın ki, boş sahədə əkib-becərə bilsinlər. Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - deyildi: «İstəyirsənsə fikirləşib haqq yoluna qayıtmaq üçün onlara möhlət ver, istəyirsənsə də onların tələblərini yerinə yetir. Hərgah bundan sonra küfr etsələr, əvəlki həlak olmuş ümmətlər kimi onlar da həlak olacaqlar».

Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - : «Xeyr! Əksinə, mən onlara möhlət vermək istəyirəm»- dedi və Uca Allah da bu ayəni nazil etdi:

**«Bizə möcüzələr göndərməyə mane olan şey ancaq əvvəlkilərin** [keçmiş ümmətlərin] **onları yalan hesab etmələridir. Biz Səmud tayfasına açıq-aşkar bir möcüzə olaraq dişi** [maya] **dəvə verdik…»**

Bu hədisi həmçinin Nəsai «Sünən» əsərində (1-ci cild, səh. 111) (ibn Kəsirin «Bidayə vən-Nihayə» əsərində (3-cü cild, səh. 52) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (15-ci cild, səh. 108) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 362)

rəvayət etmişlər.

İbn Kəsir bu hədisin isnadının «ceyyid» olduğunu demişdir.

Hakim: «Bu hədisin isnadı «səhih»dir, lakin Buxari və Muslim onu rəvayət etməmişlər» - demiş, Zəhəbi də onu təsdiqləmişdir.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 50) demişdir: «Bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir».

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Səndən ruh** [ruhun mahiyyəti və keyfiyyəti] **haqqında soruşarlar. De: «Ruh Rəbbimin əmrindədir. Sizə** [bu barədə] **yalnız cüzi bir bilik verilmişdir!» (85-ci ayə)**

Buxari «Səhih» əsərində (1-ci cild, səh. 235) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Məsud (r.a) rəvayət edir ki, mən Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** birgə Mədinənin boş əkin sahələrindən birində idim. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** xurma ağacından olan bir əsaya söykənmişdi. Bu vaxt bir dəstə yəhudi yanımızdan keçərək öz aralarında: «Ondan ruh barəsində soruşun»- dedilər. Onlardan bəziləri: «Soruşmayın! Ola bilsin ki, onun verdiyi cavab sizin xoşunuza gəlməsin [sizdə şübhə oyatsın]», digərləri isə: «Yox! Mütləq soruşacağıq»- dedilər. Bir kişi ayağa qalxıb dedi: «Ey Əbul-Qasim! Ruh nədir?» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** susdu. Mən öz-özümə: «Şübhəsiz ki, ona vəhy nazil olur»- dedim və ayağa qalxdım. Vəhy nazil olduqdan sonra Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bu ayəni onlara oxudu:

«[Ya Məhəmməd!] **Səndən ruh** [ruhun mahiyyəti və keyfiyyəti] **haqqında soruşarlar. De: «Ruh Rəbbimin əmrindədir. Sizə** [bu barədə] **yalnız cüzi bir bilik verilmişdir!»** Ə'məş dedi: «Bu ayə bizim qiraətimizdə də bu cürdür».

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (10-cu cild, səh. 15; 17-ci cild, səh. 33, 217, 221), Muslim «Səhih» əsərində (17-ci cild, səh. 137), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 138), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 389, 410, 445), ibn Cərir «Təfsir»ində (15-ci cild, səh. 155) və Təbərani «Mucəmus-Səğir» əsərində (2-ci cild, səh. 86) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 137) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, qüreyşlilər yəhudilərə: «Bizə elə bir şey öyrədin ki, onun barəsində bu kişidən [Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm** -] soruşaq»- dedikdə onlar: «Ruh barəsində soruşun!»- dedilər. Qüreyşlilər ondan ruh barəsində soruşduqda Uca Allah bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Səndən ruh** [ruhun mahiyyəti və keyfiyyəti] **haqqında soruşarlar. De: «Ruh Rəbbimin əmrindədir. Sizə** [bu barədə] **yalnız cüzi bir bilik verilmişdir!»**

Yəhudilər dedilər: «Bizə çox elm verilib. Bizə Tövrat verilib. Kimə Tövrat verilmişsə, ona çoxlu xeyr verilmişdir!» Odur ki, bu ayə nazil oldu:

**«De: «Əgər Rəbbimin sözlərini yazmaq üçün dəryalar mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənməzdən əvvəl onlar tükənərdi!»**[128]

Bu hədis «həsən, səhih, ğərib»dir.

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 255), ibn Cərir «Təfsir»ində (15-ci cild, səh. 155) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 531) rəvayət etmişlər.

İbn Kəsir «Təfsir»ində (3-cü cild, səh. 60) birinci hədisi izah edərkən demişdir: «Baxmayaraq ki, bu surə Məkkə surəsi hesab olunur, lakin hədisdən görünür ki, Mədinədəki yəhudilər Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** ruh barəsində soruşmuş və bu ayə orada nazil olmuşdur. Bu anlaşılmazlığın cavabı odur ki, ayə bir dəfə Məkkədə, bir dəfə də Mədinədə nazil olmuşdur. Yaxud da bu ayə onların sualına cavab olaraq nazil olmuşdur».

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **De: «İstər Allah, istərsə də Rəhman deyib çağırın** [dua edin]**. Hansını desəniz** [fərqi yoxdur]**, çünki ən gözəl adlar** [əsmayi-hüsna] **yalnız Onundur.** [Ya Peyğəmbərim!] **Namaz qılarkən səsini nə çox qaldır, nə də çox alçalt. Bunun** [bu ikisinin] **arasında orta bir yol tut!» (110-cu ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 19) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a)

---

[128] [ «əl-Kəhf» surəsi, 109. ]

«[Ya Peyğəmbərim!] **Namaz qılarkən səsini nə çox qaldır, nə də çox alçalt...»** ayəsi barədə demişdir: «Bu ayə İslamın əvvəllərində, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Məkkədə gizli dəvət apararkən nazil olmuşdur. O, səhabələri ilə birlikdə namaz qıldığı zaman Quranı uca səslə oxuyardı. Müşriklər də bunu eşitdikdə həm Quranı, həm onu nazil edəni, həm də onu gətirəni söyərdilər. Uca Allah da Peyğəmbərinə - **səllallahu aleyhi və səlləm** - bu ayəni nazil etdi:

«[Ya Peyğəmbərim!] **Namaz qılarkən səsini nə çox qaldır»**- yəni müşriklər oxuduğunu eşidib Quranı təhqir etməsinlər, **«nə də çox alçalt»** yəni səhabələrin nə oxuduğunu eşitsinlər. **«Bunun** [bu ikisinin] **arasında orta bir yol tut!»**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (4-cü cild, səh. 165), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 139), Nəsai «Sünən» əsərində (2-ci cild, səh. 138), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 23, 215), ibn Cərir «Təfsir»ində (15-ci cild, səh. 184-186), Əhməd ibn Məniy' (ibn Həcərin «Mətalibul Aliyə» əsərində (səh. 441) qeyd olunduğu kimi), Bəzzar «Müsnəd» əsərində və ibn Hişam «Sira» əsərində (1-ci cild, səh. 314) rəvayət etmişlər.

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 20), Muslim «Səhih» əsərində (4-cü cild, səh. 165) və ibn Cərir «Təfsir»ində (15-ci cild, səh. 183) bu hədisi istinad edərək Aişədən (r.a) rəvayət etmiş və ayənin Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dua edərkən nazil olduunu qeyd etmişlər.

Tirmizi bu hədisi Huşeymdən iki isnadla (ibn Abbasdan (r.a)) rəvayət etmiş və demişdir: «Bu hədisin hər iki isnadı «həsən-səhih»dir.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində demişdir: «İbn Abbas (r.a) və Aişədən (r.a) rəvayət olunan hər iki hədisin

ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir».

İbn Cərir «Təfsir»ində (15-ci cild, səh. 185) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** namaz qıldığı zaman Quranı uca səslə oxuyardı. Müşriklər ona qulaq asmayaraq dağılıb getdikdə, içərilərindən bir kişi oğrun-oğrun ona qulaq asardı. O göröndə ki, müşriklər onun Peyğəmbəri **- səllallahu aleyhi və səlləm -** dinlədiyini başa düşüb ona əziyyət verəcəklər, qorxusundan dərhal oradan uzaqlaşardı. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Quranı yavaş səslə oxuduqda isə ona qulaq asmaq istəyənlər heç nə eşitmirdilər. Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Peyğəmbərim!] **Namaz qılarkən səsini nə çox qaldır»-** yəni səndən uzaqlaşsınlar, **«nə də çox alçalt»-** yəni müşriklərdən xəbərsiz, oğrun-oğrun səni dinləyən kimsə onu eşitsin və öyüd-nəsihət alıb faydalansın. «**Bunun** [bu ikisinin] **arasında orta bir yol tut!»**

Bu iki hədis arasında heç bir ziddiyyət yoxdur. Ola bilsin ki, müşriklər həm Quranı, həm onu nazil Edəni, həm də onu gətirəni söyür və həmçinin ona qulaq asana əziyyət verirdilər. Həmçinin Uca Allah: «namaz qılarkən»- dedikdə, təşəhhüddə dua edərkən də nəzərdə tutula bilər. Necə ki, ibn Cərir bunu «Təfsir»ində (15-ci cild, səh. 187) rəvayət etmişdir. Daha doğrusunu isə Allah bilir.

# Məryəm surəsi

**Uca Allah buyurur:**

«[Cəbrail Peyğəmbərə belə demişdi]**: «Biz dünyaya yalnız sənin Rəbbinin əmri ilə enirik. Önümüzdə, arxamızda və onların arasında nə varsa ancaq Ona məxsusdur.** [Keçmişə, indiyə və gələcəyə aid işlər məhz Allahın iradəsinə tabedir] **Rəbbin** [Öz bəndələrini] **unudan deyildir». (64-cü ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 43) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Cəbrailə **- aleyhissəlam -** : «Bizi daha çox ziyarət etməyə sənə nə mane olur?»- dedi və Uca Allah da bu ayəni nazil etdi:

**«Biz dünyaya yalnız sənin Rəbbinin əmri ilə enirik. Önümüzdə, arxamızda və onların arasında nə varsa ancaq Ona məxsusdur...»**

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (17-ci cild, səh. 217), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 145), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 231, 357), ibn Cərir «Təfsir»ində (16-cı cild, səh. 103) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 611) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən, ğərib» olduğunu demişdir.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Ayələrimizi inkar edib:** «[Əgər qiyamət qopsa, axirətdə] **mənə mütləq mal-dövlət və övlad veriləcəkdir!»- deyən adamı** [As ibn Vaili] **gördünmü? Görəsən o, qeybə vaqif olmuş, yoxsa Rəhmandan** [bu barədə] **söz** [əhd] **almışdır?! Xeyr, onun dediklərini** [əməl dəftərinə] **yazacaq, əzabını artırdıqca artıracağıq. Onun dediyi şeylər** [mal-dövləti, övladı] **Bizə qalacaq və hüzurumuza tək-tənha gələcəkdir». (77-80-cı ayələr)**

Buxari «Səhih» əsərində (5-ci cild, səh. 221) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Xəbbab ibn əl-Ərat (r.a) rəvayət edir ki, mən cahiliyyə dövründə dəmirçi idim. As ibn Vailin [ona qılınc düzəltdiyim üçün] mənə borcu var idi. Mən gəlib ondan borcumu istədikdə o dedi: «Məhəmmədə küfr etməyənə qədər sənin borcunu ödəməyəcəyəm». Mən: «Allah səni öldürüb, sonra diriltməyincə mən ona küfr etmərəm»[129]- dedikdə o: «Əgər mən öldükdən sonra dirilsəm, mənə mütləq mal-dövlət və övlad veriləcəkdir. Elə isə məni rahat burax, o zaman sənin borcunu ödəyəcəm»- dedi və Uca Allah da bu ayəni nazil etdi:

«[Ya Məhəmməd!] **Ayələrimizi inkar edib:** «[Əgər qiyamət qopsa axirətdə] **mənə mütləq mal-dövlət və övlad**

---

[129] [ İbn Həcər «Fəthul-Bari» əsərində (8-ci cild, səh. 283) demişdir: «Allah səni öldürüb, sonra diriltməyincə mən ona küfr etmərəm – ifadəsindən onun belə olacağı təqdirdə küfr edəcəyi başa düşülür, lakin o bununla küfr edəcəyini qəsd etmir. Çünki həmin gün küfr etmək təsəvvür olunmazdır. O, sanki belə demişdir: «Mən heç vaxt küfr etməyəcəm!» O bu ifadə ilə yalnız As ibn Vaili qınamışdır. Çünki o, öldükdən sonra dirilməyə inanmırdı. ]

**veriləcəkdir!»- deyən adamı** [As ibn Vaili] **gördünmü? Görəsən o, qeybə vaqif olmuş, yoxsa Rəhmandan** [bu barədə] **söz** [əhd] **almışdır?!»**

Buxari bu hədisi həmçinin «Səhih» əsərində (5-ci cild, səh. 359; 10-cu cild, səh. 44-46), Muslim «Səhih» əsərində (17-ci cild, səh. 138), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 146), Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 111), Təyalisi «Sünən» əsərində (2-ci cild, səh. 21), ibn Səd «Təbəqat» əsərində (3-cü cild, səh. 116), ibn Cərir «Təfsir»ində (16-cı cild, səh. 121) və Təbərani «Mucəmul-Kəbir» əsərində (4-cü cild, səh. 77) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

# Əl-Ənbiya surəsi

**Uca Allah buyurur:**

«[Yaxşı əməllərinin mükafatı olaraq] **öncədən özlərinə nemət** [Cənnət, əbədi səadət] **yazılmış kəslər ondan** [Cəhənnəmdən] **uzaqda olacaqlar. Onlar onun** [Cəhənnəmin] **uğultusunu eşitməyəcəklər. Onlar** [Cənnətdə] **ürəkləri istəyən nemətlər içində əbədi qalacaqlar». (101-102-ci ayələr)**

Təhavi «Muşkilul-Əsar» əsərində (1-ci cild, səh. 431) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Uca Allahın kitabında bir ayə var ki, insanlar onun barəsində məndən heç nə soruşmurlar.

Bilmirəm onlar bu ayəni bildiklərinə görəmi soruşmurlar?» Ondan: «O hansı ayədir»- deyə soruşduqda, o dedi:

«[Ey Məkkə əhli!] **Siz də, Allahdan qeyri ibadət etdiyiniz bütlər də cəhənnəm yanacağısınız** [odunusunuz]**. Siz cəhənnəmə varid olacaqsınız!»**[130] ayəsi nazil olduqda Məkkə əhli təhqir olunduqlarını düşünüb dedilər: «Məhəmməd bizim tanrıları söydü». İbn əz-Zəbəri onların yanına gəlib: «Sizə nə olub?»- deyə soruşdu. Onlar dedilər: «Məhəmməd bizim tanrıları söydü». O: «Nə dedi?»- deyə soruşduqda onlar: «O

«[Ey Məkkə əhli!] **Siz də, Allahdan qeyri ibadət etdiyiniz bütlər də cəhənnəm yanacağısınız** [odunusunuz]**. Siz cəhənnəmə varid olacaqsınız!»-** deyir. O dedi: «Onu Mənim yanıma çağırın». Məhəmməd **- səllallahu aleyhi və səlləm -** onun yanına gəldikdə o dedi: «Ey Məhəmməd! Bu dediklərin xüsusən bizim ilahilərimizə aiddir, yoxsa Allahdan başqa ibadət olunan hər şeyə şamil edilir?» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Əksinə, bu ayə Allahdan başqa ibadət olunan hər bir şeyə şamil edilir». O dedi: «Biz ona qalib gəldik! Ey Məhəmməd! Səni and verirəm bu evin Rəbbinə! De görək İsa, Üzeyr və mələklər əməlisaleh qullar deyillərmi?» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -**: «Əlbəttə [əməlisaleh qullardır]!» - deyə cavab verdikdə o dedi: «Nəsranilər İsaya, yəhudilər Üzeyirə və bənu Məlih də mələklərə ibadət edir». Məkkə əhli sevinclə güldü və bu ayə nazil oldu:

«[Yaxşı əməllərinin mükafatı olaraq] **öncədən özlərinə nemət** [Cənnət, əbədi səadət] **yazılmış kəslər ondan**

---

[130] [ «əl-Ənbiya» surəsi, 98. ]

[Cəhənnəmdən] **uzaqda olacaqlar….».** Sonra da bu ayə nazil oldu:

«[Ya Məhəmməd!] **Məryəm oğlu** [İsa] **məsəl çəkilincə sənin qövmün sevincdən güldü»[131]-** hay-küy saldılar.

Bu hədisi həmçinin Təhavi «Muşkilul-Əsar» əsərində (1-ci cild, səh. 431-432), Təbərani «Mucəmul-Kəbir» əsərində (12-ci cild, səh. 153) Xətib əl-Bəğdadi «Fiqh və Mutəfəqqih» əsərində (səh. 70) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 384) rəvayət etmişlər. Beləliklə bu hədis «Səhih li-ğeyrihi» hesab olunur.

# Əl-Həcc surəsi

**Uca Allah buyurur:**

**«Rəbbi barəsində mübahisə aparan bu iki zümrə** [möminlər və kafirlər bir-birinə] **düşməndir. Onu inkar edənlər üçün atəşdən paltar biçilmişdir; başlarına da qaynar su töküləcəkdir». (19-cu ayə)**

Buxari «Səhih» əsərində (8-ci cild, səh. 298) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Zərr (r.a) rəvayət edir ki,

[131] [ «əz-Zuxruf» surəsi, 57. ]

**«Rəbbi barəsində mübahisə aparan bu iki zümrə** [möminlər və kafirlər bir-birinə] **düşməndir....»** ayəsi Qüreyş qəbiləsindən olan altı kişi - Əli (r.a), Həmzə (r.a), Ubeydə ibn əl-Haris (r.a), Şeybə ibn Rəbiə, Ütbə ibn Rəbiə və Vəlid ibn Ütbə - barəsində nazil olmuşdur».

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (10-cu cild, səh. 59), Muslim «Səhih» əsərində (18-ci cild, səh. 166), ibn Macə «Sünən» əsərində (2835-ci hədis), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 21), ibn Səd «Təbəqat» əsərində (2-ci cild, səh. 10), ibn Cərir «Təfsir»ində (17-ci cild, səh. 131) və Təbərani «Mucəmul-Kəbir» əsərində (3-cü cild, səh. 164) rəvayət etmişlər.

Buxari başqa rəvayətində (8-ci cild, səh. 299) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əli (r.a) belə demişdir: «Qiyamət günü mən Rəhmanın hüzurunda [müşriklərlə] mühakimə olmaq üçün ilk diz çökən kimsə olacağam»».

Hədisin isnadında olan ravilərdən biri, Qeys belə demişdir: «Allahın

**«Rəbbi barəsində mübahisə aparan bu iki zümrə** [möminlər və kafirlər bir-birinə] **düşməndir....»** ayəsi Bədr döyüşündə mübarizə aparan [bir-birilə təkbətək vuruşan] Əli (r.a), Həmzə (r.a), Ubeydə ibn əl-Haris (r.a), Şeybə ibn Rəbiə, Ütbə ibn Rəbiə və Vəlid ibn Ütbə barəsində nazil olmuşdur. [Belə ki, Həmzə (r.a) Ütbə ibn Rəbiə ilə, Əli (r.a) Şeybə ibn Rəbiə ilə, Ubeydə ibn əl-Haris (r.a) isə Vəlid ibn Ütbə ilə təkbətək döyüşdü.[132] ]

[132] [ «Fəthul-Bari», 7/347]

**Uca Allah buyurur:**

**«Zülmə məruz qaldıqlarına görə vuruşanlara** [kafirlərə qarşı Allah yolunda döyüşməyə] **izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, Qadirdir!» (39-cu ayə)**

Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 216) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Məkkədən çıxdığı zaman Əbu Bəkr (r.a) dedi: «Onlar Peyğəmbəri **- səllallahu aleyhi və səlləm -** öz yurdundan çıxartdılar. Biz Allahın bəndələriyik və Onun hüzuruna qayıdacağıq. Onlar mütləq həlak olacaqlar». Uca Allah da bu ayəni nazil etdi:

**«Zülmə məruz qaldıqlarına görə vuruşanlara** [kafirlərə qarşı Allah yolunda döyüşməyə] **izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, Qadirdir!»**- bu ayədən məlum oldu ki, döyüş olacaq.

Bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 151), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 3) ibn Cərir «Təfsir»ində (7-ci cild, səh. 172) və Təbərani «Mucəm» əsərində, ibn Hibban (Heysəminin «Məvariduz-Zaman» əsərində qeyd olunduğu kimi), ibn Əbi Hatim «Təfsir»ində (ibn Kəsir «Təfsir»ində (3-cü cild, səh. 225) qeyd olunduğu kimi) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 66, 246, 390; 3-cü cild, səh. 7) rəvayət etmişlər.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə uyğun

olduğunu demiş, Zəhəbi isə bu haqda susmuşdur.

Sonra Tirmizinin «Sünən» əsərindən (5-ci cild, səh. 325) mənə məlum oldu ki, hədisin isnadı «mürsəl»dir. İbn Cərir isə «Təfsir»ində (17-ci cild, səh. 172) bu hədisi «məvsul» isnadla Qeys ibn Rəbiəyə istinad edərək rəvayət etmişdir. O isə «daif» ravidir.

Hakim «Mustədrək» əsərində (3-cü cild, səh. 7) bu hədisi rəvayət etmişdir. Lakin məlumdur ki, onun rəvayətlərində xətalar çoxdur. Sonra mən Daraqutninin «İləl» əsərində (1-ci cild, səh. 214) onun bu hədisi «məvsul» isnadla rəvayət etdiyini gördüm. Lakin bu rəvayətdə də ixtilaf olduğu mənə bəlli olduqdan sonra deyə bilərəm ki, hədisin isnadının «mürsəl» olması rəyi daha üstündür. Daha doğrusunu isə Allah bilir.

# Əl-Muminun surəsi

**Uca Allah buyurur:**

**«Biz həqiqətən onları əzabla yaxaladıq, lakin onlar yenə öz Rəbbinə itaət etmədilər,** [Ona] **yalvarıb yaxarmadılar** [iman gətirmədilər ki, gətirmədilər].**» (76-cı ayə)**

İbn Cərir «Təfsir»ində (18-ci cild, səh. 45) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Əbu Süfyan Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedi: «Ey Məhəmməd! Səni Allaha və qohumluq əlaqəsinə and

verirəm! De görək yediyimiz ilhiz (dəri və qan) barəsində nə deyə bilərsən. Uca Allah da bu ayəni nazil etdi:

**«Biz həqiqətən onları əzabla yaxaladıq, lakin onlar yenə öz Rəbbinə itaət etmədilər,** [Ona] **yalvarıb yaxarmadılar** [iman gətirmədilər ki, gətirmədilər]**».**

Məhəmməd ibn Humeyd ər-Razidən başqa bu hədisin isnadında olan ravilərin hamısı «siqa» ravilərdir. Məhəmməd ibn Humeydə gəlincə o, «daif» ravidir.

Lakin bu hədisi ibn Əbi Hatim və Nəsai (ibn Kəsirin «Təfsir»ində (3-cü cild, səh. 251) qeyd olunduğu kimi), ibn Hibban «Səhih» əsərində (2-ci cild, səh. 226), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 394) və Vahidi «Əsbabun-Nüzul» əsərində rəvayət etmişlər. Hakim bu hədisi «səhih» hesab etmiş, Zəhəbi də bunu təsdiqləmişdir. Bütün bu isnadlarla birlikdə hədis «səhih li-ğeyrihi» hesab olunur. Daha doğrusunu isə Allah bilir!

# Ən-Nur surəsi

**Uca Allah buyurur:**

**«Zinakar kişi ancaq zinakar, yaxud müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar, yaxud müşrik bir kişiyə ərə gedə bilər. Bu** [evlənmə] **möminlərə haram edilmişdir». (3-cü ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 152) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə

qədər sadaladıqdan sonra] demişdir: «Amr ibn Şueyb atasından, o da babasından rəvayət edir ki, Mərsəd ibn əbi Mərsəd adlı bir kişi əsirləri Məkkədən Mədinəyə aparırdı. Bu kişinin Məkkədə Ənaq adlı əxlaqsız bir qadın tanışı var idi. Bir dəfə o, Məkkədə olan əsirlərdən birini Mədinəyə aparmağa söz verdi. Mərsəd deyir ki, o, aylı bir gecədə Məkkədəki divarlardan birinin kölgəsində oturub onu [əsiri] gözləyirdi. Bu vaxt Ənaq gəldi və divarın dibindəki qaraltıya nəzər saldı. Sonra yaxınlaşıb məni tanıdı və dedi: «Mərsəd, bu sənsən?» Mən dedim: «Bəli, mənəm!» O dedi: «Xoş gördük. Gedək bir gecə bizdə qal». Mən dedim: «Ey Ənaq, Allah zinanı haram etdi!» Bu zaman Ənaq: «Ey şəhər əhli! Bu kişi sizin əsirlərinizi qaçırır!»- deyib qışqırdı. Onlardan səkkiz nəfər məni təqib etməyə başladı. Mən gəlib «Xəndəmə» deyilən yerə çatdım və oradakı mağaraya daxil oldum. Onlar gəlib məni axtarmağa başladılar. Allah onların gözlərini bağladı və onlar məni görmədilər. Onlar çıxıb getdikdən sonra mən söz verdiyim adamın yanına gəlib onu apardım. Əzxərə gəlib çatdıqda ona vurulmuş qandalları açdım. Mən onu çox çətinliklə gətirib Mədinəyə çatdırdım və sonra Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib dedim: «Ey Allahın elçisi, məni Ənaqla evləndir!» O susdu və mənə heç bir cavab vermədi. Uca Allah da bu ayəni nazil etdi:

**«Zinakar kişi ancaq zinakar, yaxud müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar, yaxud müşrik bir kişiyə ərə gedə bilər…..»** Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bu ayəni mənə oxuyub dedi: «Onunla evlənmə!»

Bu hədis «həsən, ğərib»dir.

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (2-ci cild,

səh. 176), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 54), ibn Cərir «Təfsir»ində (18-ci cild, səh. 71) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 166) rəvayət etmişlər.

İbn Cəririn rəvayət etdiyi isnadda «mübhəm» ravi vardır.

Hakim bu hədisin isnadının «səhih» olduğunu demiş, Zəhəbi də onu təsdiqləmişdir.

**Uca Allah buyurur:**

**«Arvadlarına zina isnad edib özlərindən başqa şahidləri olmayanların hər biri sözünün doğru olduğuna dair dörd dəfə Allahın adı ilə** [Əşhədu billəhi - Allahı şahid gətirirəm, deyə] **şəhadət verməlidir. Beşinci dəfə: «Əgər yalan deyirəmsə, Allah mənə lənət eləsin!»- deməlidir. Qadının da** [hakimin hüzurunda] **ərinin yalan deməsi barədə dörd dəfə Allahı şahid tutması əzabı ondan dəf edər. Beşinci dəfə: «Əgər yalan deyirəmsə, Allah mənə lənət eləsin»- deməlidir». (6-9-cu ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 64) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səhl ibn Səd (r.a) rəvayət edir ki, [Bənu İclan tayfasından olan] Uveymir (r.a) tayfa başçısı olan Asim ibn Adiyin (r.a) yanına gəlib dedi: «Bir kişi öz qadınını başqa bir kişi ilə zina edərkən tutsa, nə etməlidir? O həmən kişini öldürməli, siz də onu öldürməlisiniz? Yoxsa bunun başqa bir yolu var? Bu barədə mənə aydınlıq gətirmək üçün bunu Allahın elçisindən soruş». Asim (r.a) Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib: «Ey Allahın elçisi!»- deyərək bu barədə ondan soruşdu, lakin bu suallar Peyğəmbərin xoşuna gəlmədi. Uveymir (r.a) bunun

cavabını Asimdən (r.a) soruşduqda o dedi: «Həqiqətən, bu suallar Peyğəmbərin xoşuna gəlmədi və bunu çox pis əməl saydı!» Uveymir (r.a) : «Allaha and olsun ki, gedib özüm bu barədə Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - soruşacağam!» - deyib onun yanına getdi. O, Asimə (r.a) verdiyi sualları Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - verdikdə o dedi: «Artıq Allah sənin və zövcənin barəsində ayə nazil etdi!». Sonra o onlara Allahın kitabında olduğu kimi[133] lənətləşməyi[134] əmr etdi. Onlar Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - əmrini yerinə yetirdikdən sonra o: «Ey Allahın elçisi! Mən onu boşamasam, ona zülm etmiş olaram»- deyib onu boşadı. Bundan sonra bu hökm sünnə olaraq hər bir lənətləşən ər-arvada tətbiq olundu. Sonra Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Əgər doğulacaq uşaq qara dərili, gözləri qara, iri yanlı və kök baldırlı olarsa, mən Uveymirin haqlı olduğunu hesab edərəm. Yox, əgər uşaq qırmızı dərili, cılız doğulmuş olarsa, mən Uveymirin öz zövcəsinə böhtan və iftira atdığını sanaram».

Sonra qadın Peyğəmbərin təsvir etdiyi şəkildə olan və Uveymirin (r.a) haqlı olduğunu sübut edən bir uşaq dünyaya gətirdi. Ona görə də uşaq anasına mənsub oldu».

---

133 [ «ən-Nur» surəsi, 6-9. ]

134 [ Lənətləşmə o deməkdir ki, kişi öz arvadını zina etməkdə ittiham etdikdən sonra, hər ikisi hakimin yanına gəlir və o, əvvəl kişiyə, sonra da qadına birinin digərinə lənət etməsini tələb edir. Kişi deyir: «Mən şəhadət verirəm ki, o, filankəslə zina etmişdir». Bunu dörd dəfə təkrar etdikdən sonra beşinci dəfə isə: «Əgər onu yalandan ittiham edirəmsə, Allahın mənə lənəti olsun!»- deyir. Qadın isə dörd dəfə: «mən şəhadət verirəm ki, o, məni zinada ittiham etməklə yalan danışır!» - dedikdən sonra beşinci dəfə: «Əgər o doğru danışırsa, Allahın lənəti mənə olsun!» - deyir. Bundan sonra qadın ondan boşanmış hesab olunur və heç vaxt ona halal olmur. [Təkrar ona ərə gedə bilməz.] Lisanul Ərəb (13-cü cild, səh. 388) ]

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (11-ci cild, səh. 282, 369, 376; 17-ci cild, səh. 40), Muslim «Səhih» əsərində (10-cu cild, səh. 120, 123), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 241), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 140), ibn Macə «Sünən» əsərində (2066-cı hədis), Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 334, 337), Malik «Müvatta» əsərində (2-ci cild, səh. 89), Darimi «Sünən» əsərində (2-ci cild, səh. 150), Daraqutni «Sünən» əsərində (3-ci cild, səh. 274) və ibn Cərir «Təfsir»ində (18-ci cild, səh. 85) rəvayət etmişlər.

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 65) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Hilal ibn Ümeyyə (r.a) Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəlib, zövcəsini Şureyk ibn Səhma ilə zina etməkdə günahlandırdı. Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Ya dediyini sübuta yetir, ya da cəzalandırılacaqsan». Hilal (r.a) dedi: «Ey Allahın elçisi! Bizdən birimiz arvadı ilə yataqda bir kişi görərsə sübut axtarmalıdır?» Peyğəmbər - səllallahu aleyhi və səlləm - dediyini bir daha təkrar etdikdə Hilal (r.a) dedi: «Səni haqq ilə göndərənə and olsun ki, mən doğru danışıram və Allah məni bu cəzadan qurtarmaq üçün ayə nazil edəcək». Bu zaman Cəbrail - aleyhissəlam -

**«Arvadlarına zina isnad edib….»** ayəsindən **«Əgər yalan deyirəmsə, Allah mənə lənət eləsin»- deməlidir»** ayəsinə qədər olan Allahın ayələrini endirdi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - qadının yanına bir nəfər göndərib onu çağırtdırdı. Qadın əri Hilal (r.a) ilə birgə Peyğəmbərin - səllallahu aleyhi və səlləm - hüzuruna gəldi və Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Həqiqətən, Allah sizdən birinizin yalan danışdığını bilir. O

şəxs tövbə etmək istəmirmi?»

Sonra qadın ayağa qalxıb ərinin yalan danışmasına dair dörd dəfə şəhadət verdi. Beçinci dəfə şəhadət vermək istədikdə, səhabələr onu dayandırıb dedilər: «Diqqət et! Bu sonuncu şəhadətin sənin üçün pis nəticələnə bilər».

Qadın bir anlıq tərəddüd etdi və biz onun bu inadkarlığından əl çəkəcəyini zənn etdik. Sonra qadın: «Mən heç vaxt qövmümü rüsvay edib, adımı bədnam edə bilmərəm» - deyib [lənətləşməni başa çatdırdı və] getdi.

Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Bu qadına diqqət edin! Əgər o, qara göz, iri yanlı və kök baldırlı bir uşaq dünyaya gətirsə, deməli o Şureyk ibn Səhmadandır!» Qadın Peyğəmbərin - səllallahu aleyhi və səlləm - təsvir etdiyi kimi bir uşaq dünyaya gətirdi. Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Allahın Öz kitabında nazil etdiyi hökm [«nemət və mərhəmət»] olmasaydı o qadınla hesablaşardım. [yəni onu daş-qalaq edərdim].»

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 154), Əbu Davud «Sünən» əsərində (4-cü cild, səh. 243), ibn Macə «Sünən» əsərində (2067-ci hədis), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 238, 273), Daraqutni «Sünən» əsərində (3-cü cild, səh. 277), ibn Cərir «Təfsir»ində (18-ci cild, səh. 83) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 202) rəvayət etmişlər.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi isə bu barədə susmuşdur.

Muslim «Səhih» əsərində (10-cu cild, səh. 123) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səid ibn Cubeyr deyir ki, lənətlənmiş ər-arvadın - Musab və onun arvadının - ayrılıb-

ayrılmaması barədə məndən soruşdular. Nə cavab verəcəyimi bilmədim. Odur ki, Məkkəyə, ibn Ömərin (r.a) mənzilinə gəldim və qapıda duran uşağa dedim: «Onun yanına daxil olmağım üçün izn istə». Uşaq: «O indi istirahət edir»- deyə cavab verdikdə ibn Ömər (r.a) mənim səsimi eşidib dedi: «Cubeyrin (r.a) oğlusan?» Mən «bəli!»- deyə cavab verdikdə o dedi: «İçəri gəl. Allaha and olsun mən bilirəm ki, sənin bu saatda gəlməyin yalnız ciddi ehtiyacdan irəli gələ bilər». Mən içəri daxil olduqda onu ağac liflərindən düzəldilmiş yastığa söykəndiyini gördüm və dedim: «Ey əbu Abdurrəhman! Lənətləşən ər-arvad ayrılmalıdırlarmı?» O dedi: «Sübhanəllah! Əlbəttə, həqiqətən, ilk dəfə bu barədə filankəsin oğlu filankəs soruşub demişdi: «Ey Allahın elçisi! Bizdən birimiz zövcəsini zina edərkən yaxalasa, nə etməlidir? Əgər o bu barədə xəbər versə böyük bir günahı ifşa etmiş olur, bunu gizlətsə isə onu ört-basdır etmiş olur». Peyğəmbər - səllallahu aleyhi və səlləm - susdu və ona heç bir cavab vermədi. Bir müddət sonra o, yenə gəlib dedi: «Səndən hökmü barəsində soruşduğum o müsibətə düçar olan mən özüməm». Uca Allah da Nur surəsində olan bu ayələri nazil etdi.

**«Arvadlarına zina isnad edib….»**

Peyğəmbər - səllallahu aleyhi və səlləm - bu ayələri ona oxuyub, nəsihət etdikdən sonra dünya əzabının axirət əzabından daha yüngül olacağı barədə ona xəbər verdi. O dedi: «Xeyr! Səni haqq ilə göndərənə and olsun ki, mən ona böhtan atmıram!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - qadını çağırtdırdı, ona nəsihət edib dünya əzabının axirət əzabından daha yüngül olacağını ona xəbər verdi. Qadın dedi: «Xeyr! Səni haqq ilə göndərənə and olsun ki, o yalan danışır!»

Əvvəlcə kişi doğru danışdığına dair dörd dəfə Allahın adı ilə şəhadət verdi və beşinci dəfə: «Əgər yalan deyirəmsə, Allah mənə lənət etsin»- dedi. Sonra qadın onun yalan deməsi barəsində dörd dəfə Allahın adı ilə şəhadət gətirdi və beşinci dəfə: «Əgər o doğru deyirsə, Allahın qəzəbi məni tutsun»- dedi. Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - onları ayırdı. [bir-birindən boşadı.]

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (2-ci cild, səh. 224; 4-cü cild, səh. 154), Nəsai «Sünən» əsərində (6-ci cild, səh. 144) Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 19, 42), Darimi «Sünən» əsərində (2-ci cild, səh. 150), ibn Carud «Müntəqa» əsərində (səh. 252) və ibn Cərir «Təfsir»ində (18-ci cild, səh. 84) rəvayət etmişlər.

Tirmizi bu hədisin «səhih» olduğunu demişdir.

Bu hədisdə sual verən və lənətləşən şəxsin kim olduğu bəlli deyildir, lakin Muslim və Nəsainin rəvayət etdiyi hədisdə onun İclani (r.a) olduğu qeyd olunmuşdur.

Muslim «Səhih» əsərində (10-cu cild, səh. 127) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah (r.a) rəvayət edir ki, cümə gecəsi məsciddə idik. Ənsarlardan bir kişi gəlib dedi: «Əgər bir kişi həyat yoldaşını başqa bir kişi ilə zina edərkən tutsa və bu barədə xəbər versə onu şallaqlayacaqsınız, yaxud öldürübsə onu öldürəcəksiniz? Yox əgər susarsa, günahı gizlətmiş olar? Allaha and olsun ki, bu haqda Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - mütləq soruşacağam».

Ertəsi gün o, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəlib dünən dediklərini ona dedi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Allahım, bunun hökmünü bizə bəyan et!»- deyib dua etməyə başladı və lənət ayələri nazil oldu:

**«Arvadlarına zina isnad edib özlərindən başqa şahidləri olmayanların…..»[135]**

Həmən kişi bu müsibətə düçar oldu və sonra arvadı ilə Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəlib, onun hüzurunda lənətləşdi. Kişi doğru dediyini sübuta yetirmək üçün Allahın adı ilə dörd dəfə şəhadət gətirdi və beşinci dəfə: «Yalan danışıramsa, Allah mənə lənət etsin!»- dedi. Sonra qadın lənət etmək istədikdə Peyğəmbər - səllallahu aleyhi və səlləm - ona bir az düşünməyi əmr etdi. O isə lənət edərək dönüb getdi. O getdikdən sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Ola bilsin ki, onun dünyaya gətirəcəyi uşaq qara dərili, qıvrımsaç [yaxud barmaqları qısa] olsun».

Uşağın əlamətləri Peyğəmbərin - səllallahu aleyhi və səlləm - dediyi kimi də oldu».

Bu hədisi həmçinin əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 242), ibn Macə «Sünən» əsərində (2068-ci hədis), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 448) və ibn Cərir «Təfsir»ində (18-ci cild, səh. 84) rəvayət etmişlər.

Muslim «Səhih» əsərində (10-cu cild, səh. 128) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Məhəmməd rəvayət edir ki, mən Ənəs ibn Malikin (r.a) lənətləşmə barəsində elmli olduğunu bilib bu haqda ondan soruşdum. O dedi: «Doğrudan da Hilal ibn Ümeyyə (r.a) zövcəsini Şureyk ibn Səhma ilə zina etməkdə ittiham etdi. O, Bəra ibn Malikin (r.a) qardaşı və İslamda ilk lənətləşən kimsə idi. O, zövcəsi ilə lənətləşdikdən sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi:

---

[135] [ «ən-Nur» surəsi, 6-9. ]

«Bu qadına nəzarət edin! Əgər onun dünyaya gətirəcəyi uşaq ağbəniz, boy-buxunlu və qaragöz olarsa, deməli uşaq Hilal ibn Ümeyyədəndir (r.a). Yox əgər uşaq qara, qıvrımsaç [yaxud barmaqları qısa] arıq baldırlı olarsa, deməli uşaq Şureyk ibn Səhmadandır».

Mənə bəlli oldu ki, qadının dünyaya gətirdiyi uşaq Peyğəmbərin - səllallahu aleyhi və səlləm - Şureykdən olacaq uşağı vəsf etdiyi şəkildə doğuldu».

Bu hədisi həmçinin Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 141) rəvayət etmişdir.

Bəzzar «Kəşful-Əstar» əsərində (3-cü cild, səh. 60) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Huzeyfə ibn əl-Yəmən (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - Əbu Bəkrə (r.a) dedi: «Əgər sən, Ummu Rumanla birgə yad kişi görsən, nə edərsən?» O dedi: «Allaha and olsun ki, ona pislik edərəm». Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Bəs sən nə edərsən ey Ömər?» Ömər (r.a) dedi: «Allaha and olsun ki, mən onu öldürərəm. Allah aciz olana [zinaya meyl edənə] lənət etsin! Həqiqətən, o alçaqdır!» Uca Allah bu ayəni nazil etdi:

**«Arvadlarına zina isnad edib özlərindən başqa şahidləri olmayanların…..»**[136]

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 74) demişdir: «Bu hədisin isnadında olan ravilərin hamısı «siqa» ravilərdir».

Huzeyfənin (r.a) hədisini əvvəlki iki hədislə cəm etməyə

---

[136] [ «ən-Nur» surəsi, 6-9. ]

ehtiyac yoxdur. Çünki bu rəvayəti, ibn Kəsirin «Təfsir»ində göstərildiyi kimi Zeyd ibn Yəsirdən yalnız Əbu İshaq rəvayət etmişdir. Onu da yalnız ibn Hibban və İcli (ibn Həcərin «Təhzibut-Təhzib» əsərində qeyd olunduğu kimi) etibarlı ravi hesab etmişlər. Lakin onlar «mütəsahil»dirlər. Həmçinin bu hədisin «məvsul» və ya «mürsəl» isnadla rəvayət olunmasında ixtilaf etmişlər. Lakin «mürsəl» olduğunu deyənlər daha çox üstünlük təşkil edir. Bununla belə Əbu İshaq «müdəllis»dir və hədisi «eşitdim»- deməklə rəvayət etməmişdir.

Əvvəlki iki hədisə gəlincə isə onları cəm edib demək olar ki, Hilal ibn Ümeyyə (r.a) Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** bu barədə soruşmuş, ardınca İclani gəlib soruşduqda bu ayə nazil olmuşdur. Daha doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

**«Həqiqətən,** [Aişə] **barəsində yalan xəbər gətirənlər öz içərinizdən olan bir zümrədir** [münafiqlərdir]**. Onu** [o xəbəri] **pis bir şey zənn etməyin. O, bəlkə də, sizin üçün xeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. Onlardan günahın böyüyünü öz üstünə götürəni** [Abdullah ibn Ubeyyi] **isə** [qiyamət günü] **çox şiddətli bir əzab gözləyir. Məgər o yalan sözü eşitdiyiniz zaman mömin kişilər və qadınlar öz ürəklərində** [özləri haqqında yaxşı fikirdə olduqları kimi, dostlarının da əhli-əyalı barəsində] **yaxşı fikirdə olub: «Bu, açıq-aydın bir böhtandır!»-deməli deyildilərmi? Ona** [Aişəyə] **iftira yaxanlar nə üçün özlərinin doğru olduqlarını təsdiq edəcək dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsil yalançıdırlar! Əgər Allahın dünyada və axirətdə sizə**

**nemәti vә mәrhәmәti olmasaydı, o yalan sözünüzә görә sizә şiddәtli bir әzab toxunardı. O zaman ki siz** [münafiqlәrin yaydığı] **yalanı dilinizә gәtirir, bilmәdiyiniz sözü ağzınıza alır vә onu yüngül, asan** [insana günah gәtirmәyәn] **bir şey sanırdınız. Halbuki bu** [Peyğәmbәrin әhli-әyalı haqqında nalayiq söz danışmaq] **Allah yanında çox böyük günahdır! Mәgәr siz onu eşitdiyiniz zaman: «Bizә bunu** [bu yalanı] **danışmaq yaraşmaz. Aman Allah! Bu, çox böyük bir böhtandır!»- demәli deyildinizmi? Allah sizә öyüd-nәsihәt verir ki, әgәr möminsinizsә, bir daha belә şeylәr etmәyәsiniz. Vә Allah sizin üçün ayәlәrini** [belә әtraflı, açıq-aydın] **izah edir. Allah** [hәr şeyi] **bilәndir vә hikmәt sahibidir! Mömінlәr arasında** [onları nüfuzdan, hörmәtdәn salmaq mәqsәdilә] **pis söz yaymaq istәyәnlәri dünyada vә axirәtdә şiddәtli bir әzab gözlәyir.** [Hamının әmәlini, yayılan şayiәlәrin, atılan böhtanların doğru olub olmadığını] **ancaq Allah bilir, siz bilmәzsiniz! Әgәr Allahın sizә nemәti vә mәrhәmәti olmasaydı, Allah Şәfqәtli vә Rәhmli olmasaydı,** [halınız necә olardı? Dediyiniz yalanlara, yaxdığınız iftiralara görә sizi dәrhal mәhv edәrdi] **Ey iman gәtirәnlәr! Şeytanın yolunu tutub getmәyin! Kim şeytanın getdiyi yolla getsә, o,** [insanlara] **çirkin, pis işlәr görmәyi** [zina etmәyi, yalan danışmağı, özgәlәrә böhtan atmağı] **әmr edәr. Әgәr Allahın sizә nemәti vә mәrhәmәti olmasaydı sizdәn heç kәs heç vaxt** [günahdan] **pak olmazdı. Lakin Allah dilәdiyini** [günahdan] **pak edәr. Allah** [hәr şeyi] **Eşidәn vә Bilәndir! Aranızda olan fәzilәt sәrvәt sahiblәri qohum-әqrәbaya, miskinlәrә vә Allah yolunda hicrәt edәnlәrә** [heç bir şey vermәyәcәklәri, heç bir kömәk göstәrmәyәcәklәri barәdә] **and içmәsinlәr.** [Onları] **әfv edib,** [cәzalandırmaqdan] **vaz keçsinlәr! Mәgәr siz** [bu

yaxşılıq müqabilində] **Allahın sizi** [günahlarınızı] **bağışlamağını istəmirsinizmi? Allah** [bəndələrini] **bağışlayan və rəhm edəndir!» (11-22-ci ayələr)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 198) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - səfərə çıxmağa hazırlaşdıqda zövcələri arasında püşk atardı. Püşk kimə düşsəydi onu da özü ilə səfərə aparardı. Döyüşlərin birində o yenə bizim aramızda püşk atdı və bu dəfə mənə düşdü. Mən onunla birgə səfərə çıxdım. Bu vaxt artıq hicab ayəsi nazil olduğundan məni kəcavənin içərisində apardılar. Səfər biz döyüşü başa vurub geri dönənə qədər davam etdi. Biz Mədinəyə qayıtdıqda ona yaxın bir yerdə [dincəlmək üçün] dayandıq. Peyğəmbər - səllallahu aleyhi və səlləm - orada gecələməyib səfərə çıxmağı əmr etdi. Mən [zəruri ehtiyacımı ödəmək üçün təkbaşına] qoşundan uzaqlaşmışdım. Ehtiyacımı ödəyib geri qayıtdıqda yolda əlimi sinəmə toxundurub Yəmən muncuğundan olan boyunbağımın qırılıb düşdüyünü gördüm və onu axtarmaq üçün yenidən geri qayıtdım. Elə onu axtarmaq da məni yoldan saxladı. Kəcavəni aparanlar mənim onun içərisində olduğumu güman edərək onu götürüb dəvənin üstünə qoydular. O zamanlar qadınlar az yedikləri üçün yüngül çəkili olurdular və elə bu səbəbdən də onlar kəcavəni qaldırarkən onun çəkisindəki fərqi hiss etmədilər. Mən o zamanlar çox gənc idim və onlar beləcə dəvəni sürüb apardılar.

Boyunbağını tapıb geri qayıtdıqda qoşun artıq çıxıb getmiş, orada nə bir çağıran, nə də bir cavab verən qalmışdı. Mən onların məni yerimdə tapmadıqları üçün mütləq dönəcəklərini güman edərək kəcavənin dayandığı yerə gəldim. Az sonra

oturduğum yerdə yuxuladım. Bu vaxt Səfvan ibn Muattil əs-Suləmi əz-Zəkvani (r.a) [qoşundan qalan əşyaları toplayıb sahiblərinə qaytarmaq üçün] qoşunun ardı ilə gəlirdi. O mən olan yerə səhərə yaxın gəlib çatdı və yatmış bir insan qaraltısı görüb mənə yaxınlaşdı. O hicab ayəsi nazil olmamışdan öncə məni gördüyü üçün dərhal məni tanıdı. Mən onun istirca[137] etməsinə oyandım və çarşabla üzümü örtdüm. O mənə heç bir söz demədi və mən də ondan istircadan başqa bir kəlmə də eşitmədim. O dəvəsini diz çökdürdü və mən ona mindikdən sonra [üzəngisindən] tutaraq sürüb apardı. Nəhayət biz şiddətli isti olduğundan çayın qırağında oturmuş orduya yetişdik. Bu zaman bir çoxları [mənə iftira atmaqla] həlak oldu. Böhtan atanların başçısı Abdullah ibn Ubey ibn Səlul idi. Mədinəyə çatdıqdan sonra bir ay xəstə oldum. Bu andan camaat böhtan atanların söz-söhbətlərini müzakirə edir, mən isə bütün bunlardan xəbərsiz idim. Həmişə xəstələndiyim zaman Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - mənə göstərdiyi qayğını indi ondan görməməyim məni şübhələndirirdi. O - **səllallahu aleyhi və səlləm** - sadəcə olaraq yanıma gəlir, salam verib «vəziyyətin necədir?»- deyir və gedirdi. Bütün bunlar məni şübhələndirsə də mənə yönələn şərdən xəbərim yox idi.

Sağaldıqdan sonra Ummu Mistahla (r.a) birgə Mədinənin kənarında olan bir yerə getmək üçün evdən çıxdım. Bura bizim gecədən-gecəyə zəruri ehtiyaclarımızı ödəmək üçün gəldiyimiz yerlər idi. O vaxtlar hələ evlərin yaxınlığında ayaqyolular tikilməmişdi və bütün bunlar əvvəlki ərəblərin adətlərinə görə idi. Ummu Mistahın (r.a) atası Əbu Ruhm bin

---

[137] [ «İnna lilləhi və inna ileyhi raciun!» demək. Yəni, «Biz Allahın bəndələriyik və Ona tərəf qayıdacağıq!» ]

Abdumənaf, anası Əbu Bəkrin (r.a) xalası Raita bint Səxr bin Amir, oğlu isə Mistah ibn Usasədir (r.a). Biz birgə evə yaxınlaşdıqda onun ayağı əbasına ilişdi və: «Mistah həlak olsun!»- dedi. Mən ona dedim: «Sənin dediyin necə də pisdir! Bədr döyüşündə iştirak etmiş bir kimsəni söyürsən?!» O dedi: «Ey qafil! Məgər sən onun nə dediyini eşitməmisən?» Mən: «O nə deyib ki?»- deyə soruşdum və o da iftiraçıların mənim haqqımda dediklərini mənə xəbər verdi. Xəstəliyim daha da şiddətləndi. Evə gəldikdən sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - yenə mənim yanıma gəldi. O əvvəlki tək salam verib əhvalımı soruşdu. Mən ondan valideynlərimin yanına getməyə izn istədim, o da etiraz etmədi. Mənim niyyətim bu xəbərin doğru olub-olmadığını valideynlərimdən dəqiqləşdirib əmin olmaq idi. Valideynlərimin yanına getdim və anama: «Anacan camaat nə danışır?»- dedim. O dedi: «Qızım özünü üzmə [öz sağlığını düşün] çox nadir hallarda rast gəlmək olar ki, gözəl qadını əri sevsin və ortaqları [ərin başqa zövcələri] onun əleyhinə danışmasınlar». Mən: «Sübhanəllah! Demək insanlar bunu danışırlarmış»- dedim. Mən bütün gecəni ağladım, səhərə qədər göz yaşım dayanmadı və bir anlıq belə yuxulaya bilmədim.

Vəhy nazil olması gecikdiyi üçün Peyğəmbər - səllallahu aleyhi və səlləm - Əli ibn əbu Talibi (r.a) və Usamə bin Zeydi (r.a) zövcəsini tərk edib-etməməsi barədə məsləhət almaq üçün yanına dəvət etdi. Usamə bin Zeyd (r.a) Peyğəmbərə - səllallahu aleyhi və səlləm - mənim namuslu olduğumu və bizi ürəkdən istədiyini bildirərək dedi: «Ey Allahın elçisi! Mən onun barəsində zərrə qədər də pis bir şey eşitməmişəm!» Əli ibn əbu Talibin (r.a) cavabı isə belə oldu: «Allah sənə heç bir hədd qoymayıb. Ondan başqa nə çox qadınlar var. Əgər Aişənin

(r.a) xidmətçisindən [Bərirədən (r.a)] soruşsan, o sənə düzünü deyər». Peyğəmbər - səllallahu aleyhi və səlləm - Bərirəni (r.a) çağırıb dedi: «Ey Bərirə! Səni şübhələndirəcək bir şey görmüsənmi?» Bərirə (r.a) : «Xeyr! Səni haqq ilə Göndərənə and olsun ki, ondan bir qəbahət iş görsəydim onu qınayardım. Yalnız onu deyə bilərəm ki, az yaşlı qız uşağı olduğu üçün mən yoğurduğum xəmiri qorumağı ona tapşırdıqda o yatırdı və qoyun gəlib xəmiri yeyirdi»- dedi.

Abdullah ibn Ubey ibn Səlul dediyinə görə üzrxahlıq istəsin deyə həmin gün Peyğəmbər - səllallahu aleyhi və səlləm - minbərə qalxıb dedi: «Ey müsəlman camaatı! Sizlərdən kim mənim əhlimə əziyyət verən kimsənin ittihamlarını rədd edərək əhlimə bəraət qazandıra bilər? Mən öz həyat yoldaşımdan heç bir pis hərəkət görməmişəm. Eləcə də ittiham olunan kişinin [Səfvan ibn Muattilin (r.a)] pis bir hərəkət etdiyi də mənə məlum deyil. O heç vaxt mənsiz bizim evə daxil olmayıb».

Bu vaxt Səd ibn Muaz (r.a) ayağa qalxıb dedi: «Ey Allahın elçisi, mən sənə haqq qazandırmaq istəyirəm. Əgər ittiham edən şəxs Əvs qəbiləsindəndirsə biz onun boynunu vurarıq, yox əgər qardaşlarımız olan Xəzrəc qəbiləsindəndirsə əmr et, sənin əmrini yerinə yetirək».

Bu vaxt Xəzrəc qəbiləsinin başçısı - əvvəl əməlisaleh olan, sonra isə yolunu azmış - Səd ibn Ubadə Səd ibn Muaza (r.a) dedi: «Allaha and olsun ki, sən yalan danışdın! Sən onu nə öldürənsən, nə də öldürməyə qadirsən!» Bu sözdən sonra - Səd ibn Muazın (r.a) əmisi oğlu - Useyd ibn Xudeyr (r.a) qalxıb Səd ibn Ubadəyə dedi: «Allaha and olsun ki, sən yalan danışdın! Biz onu mütləq öldürərik. Həqiqətən, sən münafiqsən və münafiqləri müdafiə edirsən». Beləliklə Xəzrəc və Əvs qəbilələri arasında elə çaxnaşma düşdü ki, az qala bir-

birlərini öldürəcəkdilər. Bu vaxt Peyğəmbər - səllallahu aleyhi və səlləm - minbərdə dayanıb onları sakitləşdirirdi. Onlar susana qədər Peyğəmbər - səllallahu aleyhi və səlləm - onları sakitləşdirdi. Mən daha bir gün dayanmadan ağladım və yatmadım. Səhərisi gün valideynlərim mənim bir gün yarım dayanmadan ağladığımın şahidi olduqda elə zənn etdilər ki, ciyərim parça-parça olacaq. Onlar mənim yanımda olarkən ənsar qadınlardan biri mənim yanıma daxil olmaq üçün izn istədi və gəlib mənimlə bərabər ağladı. Elə bu zaman Peyğəmbər - səllallahu aleyhi və səlləm - içəri daxil oldu və salam verib oturdu. Bu söz-sohbət başlanandan o mənim yanımda dayanmamışdı. Bir ay keçməsinə baxmayaraq mənim barəmdə heç bir ayə nazil olmurdu. O - səllallahu aleyhi və səlləm - , Allaha həmd-səna etdikdən sonra dedi: «Ey Aişə! Sənin barəndə mənə filan-filan xəbərlər çatıb. Əgər günahkar deyilsənsə Allah səni təmizə çıxardacaq. Yox əgər günah iş görmüsənsə Allahdan bağışlanma dilə, tövbə et! Həqiqətən, bəndə günahını etiraf edib tövbə edərsə Allah onun tövbəsini qəbul edər». Peyğəmbər - səllallahu aleyhi və səlləm - sözünü qurtardıqdan sonra mənim göz yaşım kəsildi və gözümdən bir damla yaş belə çıxmadı. Mən atama: «Allahın elçisinə cavab ver!»- dedim. O dedi: «Allaha and olsun ki, ona nə deyəcəyimi bilmirəm». Sonra mən anama: «Allaın elçisinə cavab ver»- dedim. O dedi: «Mən bilmirəm Allahın elçisinə nə deyim». Mən az yaşlı qız uşağı olduğum üçün, Qurandan da çox dəlil-sübut bilmədiyimə görə dedim: «Həqiqətən, hər şey mənə bəlli oldu. Siz insanların danışdıqları bütün bu söhbətləri eşitdiniz, bu sizin qəlbinizdə özünə yer tapdı və siz onu təsdiq etdiniz. Əgər mən sizə günahsız olduğumu desəm, Allah da bilir ki, həqiqətən, mən günahsızam, siz mənə inanmayacaqsınız. Yox əgər günahkar olduğumu etiraf etsəm,

Allah da bilir ki, mən o günahdan uzağam, siz buna inanacaqsınız. Allaha and olsun ki, Yusifin - aleyhissəlam - atası Yaqubun - aleyhissəlam - dediyindən başqa misal çəkə bilmərəm:

**«Mənə yalnız tükənməz dözümlə səbr gərəkdir. Dediklərinizi** [sübut etməyə isə] **Allahdan kömək diləmək lazmıdır».**[138]

Bunları deyib dönüb getdim və yerimə uzandım. O zaman mən inanırdım ki, Allah mənim günahsız olduğumu üzə çıxardacaq. Mən ümid edirdim ki, Allahın elçisi - səllallahu aleyhi və səlləm - mənə bəraət qazandıracaq bir yuxu görəcək. Lakin mən heç vaxt inanmazdım ki, Uca Allah mənim günahsız olduğum barədə qiyamətə qədər oxunacaq ayələr nazil edəcək.

Vallahi Rəsulullah - səllallahu aleyhi və səlləm - heç yerindən qalxmamış və ev əhlindən də hələ çolə bir kəs çıxmamış ona vəhy nazil oldu. O hər dəfə vəhy nazil olduğu zaman düşdüyü görkəmi aldı. Endirilən kəlamın ağırlığından o çox şiddətli sıxıntı keçirir və qış günündə belə ondan mirvari dənəsi kimi damla-damla tər tökülürdü. Vəhy nazil olduqdan sonra o sevincindən gülürdü. Dediyi ilk söz isə bu oldu: «Ey Aişə, Allaha həmd et! O səni təmizə çıxartdı».

Anam dərhal: «Qızım, Rəsulullaha doğru qalx və ona təşəkkür et!»-dedi. Mən isə dedim: «Vallahi mən nə ona tərəf qalxacağam, nə də Allahdan başqa bir kimsəyə həmd edəcəyəm!»

**«Həqiqətən,** [Aişə] **barəsində yalan xəbər gətirənlər öz içərinizdən olan bir zümrədir** [münafiqlərdir]**. Onu** [o xəbəri] **pis bir şey zənn etməyin…..»** (11- dən 22-yə qədər)

---

[138] [ «Yusif» surəsi, 18. ]

Mənə bəraət qazandıran ayələr nazil olduqdan sonra, qohumluq əlaqələrinin hörmətinə və kasıb olduğuna görə Mistah bin Usasəyə (r.a) öz malından xərcləyən Əbu Bəkr əs-Siddiq (r.a) dedi: «And olsun Allaha! Mistah Aişə barəsində belə dedikdən sonra mən ona malımdan heç bir şey verməyəcəyəm. Uca Allah da bu ayəni nazil etdi:

**«Aranızda olan fəzilət sərvət sahibləri qohum-əqrəbaya, miskinlərə və Allah yolunda hicrət edənlərə** [heç bir şey verməyəcəkləri, heç bir kömək göstərməyəcəkləri barədə] **and içməsinlər.** [Onları] **əfv edib,** [cəzalandırmaqdan] **vaz keçsinlər! Məgər siz** [bu yaxşılıq müqabilində] **Allahın sizi** [günahlarınızı] **bağışlamağını istəmirsinizmi? Allah** [bəndələrini] **bağışlayan və rəhm edəndir!»**[139]

Əbu Bəkr (r.a) dedi: «Əksinə, vallahi mən istəyirəm ki, Allah məni bağışlasın!» O, yenə də malından xərcləməyinə davam etdi və dedi: «Vallahi Mən heç vaxt malımı ondan əsirgəməyəcəyəm!»

Allahın elçisi - **səllallahu aleyhi və səlləm** - Zeynəb bint Cəhşdən (r.a) mənim barəmdə soruşub dedi: «Ey Zeynəb! Sən [bu haqda] nə bilirsən, yaxud nə görmüsən?» O dedi: «Ey Allahın elçisi! Mən gözümü, qulağımı [görmədiyim, eşitmədiyim şeylərdən] qoruyuram! Mən onun barəsində xeyirdən başqa bir şey bilmirəm».

Bu o Zeynəbdir ki, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - zövcələri arasında gözəlliyi və Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanında olan mövqeyi ilə mənimlə rəqabət aparırdı. Lakin bunun pis aqibətindən qorxduğuna və gözəl dindar olduğuna görə Allah onu qorudu. Bacısı Həmnə isə ona qarşı

---

[139] [ «ən-Nur» surəsi, 22. ]

müharibəyə başladı [iftiraçıların Aişə barəsində söylədikləri böhtanları yaymağa başladı] və bu səbəbdən də iftiraçılardan həlak olanlarla birgə həlak oldu».

Bu hədisi həmçinin Buxari (8-ci cild, səh. 436; 10-cu cild, səh. 68, 106; və müxtəsər olaraq 14-cü cild, səh. 373; 17-ci cild, səh. 32), Muslim «Səhih» əsərində (17-ci cild, səh. 102), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 155), Abdurrəzzaq «Müsənnəf» əsərində (5-ci cild, səh. 410), Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 59, 103), ibn İshaq (ibn Hişamın «Sira» əsərində (2-ci cild, səh. 297) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (18-ci cild, səh. 90) və «Tarix» əsərində (3-cü cild, səh. 67) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Əgər cariyələriniz ismətlərini qoruyub saxlamaq istəsələr, fani dünya malı əldə etmək xatirinə onları zinaya məcbur etməyin. Kim cariyələri zinakarlığa məcbur edərsə,** [bilsin ki] **onların bu məcburiyyətindən sonra, əlbəttə, Allah** [zinakarlığa vadar olanları] **bağışlayar və rəhm edər». (33-cü ayə)**

Muslim «Səhih» əsərində (18-ci cild, səh. 162) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Abdullah ibn Ubey ibn Səlul öz cariyəsinə deyərdi: «Get zina et, bizim üçün bir şey qazan!» Uca Allah da bu ayəni nazil etdi:

**«Əgər cariyələriniz ismətlərini qoruyub saxlamaq istəsələr, fani dünya malı əldə etmək xatirinə onları zinaya məcbur etməyin. Kim cariyələri zinakarlığa məcbur edərsə,** [bilsin ki]

**onların bu məcburiyyətindən sonra, əlbəttə, Allah** [zinakarlığa vadar olanları] **bağışlayar və rəhm edər».**

Muslim bu hədisi başqa isnadla Əbu Süfyandan (r.a) rəvayət edir ki, Abdullah ibn Ubey ibn Səlulun Museykə və Umeymə adlı iki cariyəsi var idi. O, cariyələri zinakarlığa məcbur etdiyinə görə onlar Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** şikayət etdilər. Uca Allah da bu ayəni [«ən-Nur», 33] nazil etdi.

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 264), ibn Cərir «Təfsir»ində (18-ci cild, səh. 132-133), Bəzzar «Müsnəd» əsərində (ibn Kəsirin «Təfsir»ində (3-cü cild, səh. 288) qeyd olunduğu kimi) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 211, 397) rəvayət etmişlər. Hakim hər iki yerdə hədisin Muslimin şərtlərinə uyğun olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 82) hədisi nəql edib demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, Abdullah ibn Ubey ibn Səlulun cariyəsi cahiliyyə dövründə zina edirdi. Zina haram buyurulduqda isə o: «Allaha and olsun ki, mən heç vaxt zina etməyəcəyəm!»- dedi və bu ayə [«ən-Nur», 33] nazil oldu.

Bu hədisi Təbarani və Bəzzar Rəvayət etmişlər. Təbəraninin rəvayət etdiyi hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

**Uca Allah buyurur:**

**«Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri**

**edəcəyini, möminlər üçün onların Allahın özü bəyəndiyi dinini** [islamı] **möhkəmləndirəcəyini** [hər tərəfə yayacağını] **və onların qorxusunu sonra əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki,** [Allahın itaətindən çıxmış] **əsil fasiqlərdir!» (55-ci ayə)**

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 401) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ubey ibn Kəb (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - səhabələrilə birgə Mədinəyə gəldikdə ənsarlar onlara sığınacaq verdilər. O zaman ərəblər müsəlmanlara qarşı əlbir idilər. Bu səbəbdən də müsəlmanlar silahla yatır və silahla oyanırdılar. Odur ki, onlar: «Görəsən biz yalnız Allahdan qorxaraq rahat yaşayacaq və xatircəm olub arxayınlıqla yata biləcəyikmi?!»- dedilər və bu ayə nazil oldu:

**«Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, möminlər üçün onların Allahın özü bəyəndiyi dinini** [islamı] **möhkəmləndirəcəyini** [hər tərəfə yayacağını] **və onların qorxusunu sonra əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki,** [Allahın itaətindən çıxmış] **əsil fasiqlərdir!»**

Hakim: «Hədisin isnadı «səhih»dir, lakin Buxari və Muslim onu rəvayət etməmişlər»- demiş, Zəhəbi də bunu təsdiq etmişdir.

Bu hədisin isnadında olan Əli ibn əl-Huseyn ibn Vaqid adlı ravini Əbu Hatim «daif» ravi, Buxari isə «mətruk» ravi hesab etmişlər. O demişdir: «İshaq barəsində pis fikirlər söylənilmişdir, lakin ibn Hibban onu «siqa» ravi hesab etmişdir. Nəsai isə belə demişdir: «Səduq» ravidir. (Bax «Təhzibut-Təhzib» əsərinə). Heysəmi isə «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 83) demişdir: «Bu hədisi Təbərani «Mucəmul-Əvsət» əsərində rəvayət etmişdir və isnadında olan ravilərin hamısı «siqa» ravilərdir». Hədisi həmçinin Təbəri «Təfsir»ində (18-ci cild, səh. 159) Əbu əl-Aliyəyə istinad edərək «mürsəl» isnadla rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Kora, çolağa, xəstəyə** [başqaları ilə bir yerdə oturub yemək yeməkdə] **günah yoxdur. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əllərinizdə olan** [səlahiyyətiniz çatan] **evlərdə, yaxud dostlarınızın evlərində yemək yeməkdən heç bir günah gəlməz». (61-ci ayə)**

Bəzzar «Kəşful-Əstar» əsərində (3-cü cild, səh. 61) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, müsəlmanlar Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** birgə səfərə çıxdıqda evlərinin açarlarını etibar etdikləri kimsələrə verər və deyərdilər: «[Evdə olan yeməklərdən] dilədiyinizi yeməyi sizə halal edirik!» Onlar isə deyərdilər: «Onların könül xoşluğu

olmadan izn verdiyi şeylərdən yemək bizə halal deyildir!» Uca Allah da bu ayəni nazil etdi:

**«Kora, çolağa, xəstəyə** [başqaları ilə bir yerdə oturub yemək yeməkdə] **günah yoxdur. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində…»** ayəsində **«..yaxud açarları əllərinizdə olan** [səlahiyyətiniz çatan] **evlərdə…»** ayəsinə qədər.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 84) demişdir: «Bu hədisi Bəzzar rəvayət etmişdir və isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

Suyuti «Lübabun-Nüqul fi Əsbabin-Nuzul» əsərində demişdir: «Hədisin isnadı «səhih»dir.

# Əl-Furqan surəsi

**Uca Allah buyurur:**

**«O gün zalim** [küfrə düşməklə özünə zülm edən, peşmançılıqdan] **əllərini çeynəyib deyəcəkdir: «Kaş ki mən Peyğəmbər vasitəsilə** [özümə] **doğru bir yol tutaydım. Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim. And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan** [Qurana iman gətirməkdən] **o sapdırdı». Şeytan insanı** [yoldan çıxartdıqdan,

bəlaya saldıqdan sonra] **yalnız buraxar** [zəlil, rüsvay edər]». **(27-29-cu ayələr)**

Cəlaləddin Suyutinin «Dürrul-Mənsur fi Təfsiril-Məsur» (5-ci cild, səh. 68) əsərində ibn Mərdəveyh və Əbu Nueymdən «səhih» isnadla nəql olunur ki, ibn Abbas (r.a) demişdir: «Əbu Muit çox mülayim adam olduğu üçün Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - birgə olarkən ona əziyyət verməzdi. Digər qüreyşlilər isə Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanında olduqda ona əziyyət verərdilər. Əbu Muitin sevimli bir dostu Şamda idi. Qüreyşlilər dedilər: «Əbu Muit dinindən dönmüşdür!» Əbu Muitin dostu gecə ikən Şamdan qayıtdı və həyat yoldaşına dedi: «Məhəmməd nə edir? Yenə öz fəaliyyətini davam etdirirmi?» O dedi: «Əvvəlkindən də artıq davam etdirməkdədir». O: «Bəs dostum Əbu Muit nə edir?»- deyə soruşdu. Zövcəsi dedi: «O dinindən dönmüşdür!». O, gecəni çox narahat yatdı və səhəri gün Əbu Muitin yanına gəldi. Əbu Muit ona salam verdikdə onun salamını almadı. Əbu Muit dedi:

– Sənə nə olub ki mənim salamımı almırsan?!

– Salamını necə alım ki, artıq sən dinindən dönmüsən.

– Bunu sənə Qüreyş deyib?

– Bəli!

– Mən nə edim ki, onların qəlbləri rahatlaşsın?

– Sən onun yanına gedib üzünə tüpürməli və pis söyüşlə onu təhqir etməlisən.

O belə də etdi. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - isə üzünü silib ona tərəf baxdı və dedi: «Əgər səni Məkkə dağlarından kənarda tutsam boynunu vuracağam!»

Bədr günü müşriklər döyüşə gedərkən o, döyüşdən imtina etdi. Dostları ona: «Gəl bizimlə gedək!»- deyə təklif etdikdə o

dedi: «O kişi [Məhəmməd - səllallahu aleyhi və səlləm -] vəd etmişdir ki, məni Məkkə dağlarından kənarda tutsa boynumu vuracaq». Onlar dedilər: «Sənin elə bir qırmızı dəvən var ki, o ona çata bilməz. Əgər məğlub olarıqsa dəvəni minib qaçarsan». O onlarla birgə döyüşə getdi. Allah müşrikləri məğlub etdikdə isə dəvəsi onu düz bir yerdə palçığa saldı. Peyğəmbər - səllallahu aleyhi və səlləm - yetmiş qüreyşli ilə birlikdə onu da əsir götürdü. Əbu Muit onun yanına gəldikdə dedi: «Bunların içərisindən yalnız məni öldürəcəksən?!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Bəli, çünki üzümə tüpürmüsən». Uca Allah da bu ayələri nazil etdi:

**«O gün zalim** [küfrə düşməklə özünə zülm edən, peşmançılıqdan] **əllərini çeynəyib….»** ayəsindən **«Şeytan insanı** [yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra] **yalnız buraxar** [zəlil, rüsvay edər]**»** ayəsinə qədər.

Bu hədisi həmçinin Abdurrəzzaq «Musənnəf» əsərində (5-ci cild, səh 355-356) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etməz, zina etməzlər. Hər kəs bunu etsə, cəzasını çəkər». (68-ci ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 109) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - soruşdum, yaxud

ondan soruşuldu ki, «Allah yolunda ən böyük günah nə hesab olunur?» O dedi:

– Səni yaradan Allaha şərik qoşmaq!

– Sonra hansı?

– Övladının səninlə birgə yemək yeyəcəyindən qorxub onu öldürmək!

– Sonra hansı?

– Qonşunun zövcəsi ilə zina etmək!

Uca Allah da onun dediklərini təsdiq edib bu ayəni nazil etdi:

**«Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etməz, zina etməzlər».**

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (15-ci cild, səh. 204; 17-ci cild, səh. 289), Muslim «Səhih» əsərində (2-ci cild, səh. 80), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 157), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 263), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 380, 431), ibn Cərir «Təfsir»ində (19-cu cild, səh. 41) və Əbu Nueym «Hilyə» əsərində (4-cü cild, səh. 145-146) rəvayət etmişlər.

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 170) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, müşriklərdən olan bir zümrə çox adam öldürmüş və çox zina etmişdilər. Onlar Məhəmmədin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedilər: «O Allah ki, bizi Ona tərəf çağırırsan, yaxşılıq edəndir? Bizim bu etdiklərimizin kəffarəsi varmı?» Uca Allah da bu ayəni:

**«Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etməz, zina etməzlər»-** və bu ayəni:

**«**[Ya Peyğəmbər! Mənim adımdan qullarıma] **de ki: «Ey mənim** [günah törətməklə] **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah** [tövbə etdikdə] **bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayan və rəhm edəndir!»[140]-** nazil etdi.

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (2-ci cild, səh. 139) və Nəsai «Sünən» əsərində (7-ci cild, səh. 80) rəvayət etmişlər.

Ayənin hər iki səbəbə görə nazil olmasında heç bir ziddiyyət yoxdur. Daha doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

**«Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayan və rəhm edəndir!» (70-ci ayə)**

Buxari «Səhih» əsərində (8-ci cild, səh. 167) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səid ibn Cubeyr dedi: «Abdurrəhman ibn Əbzi Uca Allahın:

**«Allahın** [qətlini] **haram buyurduğu şəxsi haqsız yerə öldürməyin…..»[141] «Hər kəs bir mömini qəsdən**

---

[140] [ «əz-Zumər» surəsi, 53. ]

[141] [ «əl-Ənam» surəsi, 151; «əl-İsra» surəsi, 33. ]

**öldürərsə…..»**[142] ayələri barəsində ibn Abbasdan (r.a) soruşmağı mənə əmr etdi. Mən də bu barədə ondan soruşduqda o dedi: «Furqan surəsindəki ayə nazil olduqda Məkkə müşrikləri dedilər: «Artıq biz Allahın haram buyurduğu cana nahaq yerə qəsd etdik, Allahla yanaşı başqa bir tanrıya tapındıq və yaramaz işlər gördük!» Uca Allah da bu ayəni nazil etdi:

**«Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa!»** Nisa surəsindəki ayəyə[143] gəlincə isə bu o şəxsə aiddir ki, o, islamı və şəriət qayda-qanunlarını bildikdən sonra bir kimsəni öldürsün. Odur ki, onun cəzası əbədi Cəhənnəmdir». Mən bunu Mücahidə xəbər verdim və o: «Yalnız peşiman olandan başqa»- deyə cavab verdi.

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (10-cu cild, səh. 12), Muslim «Səhih» əsərində (18-ci cild, səh. 159), Əbu Davud «Sünən» əsərində (4-cü cild, səh. 168) və ibn Cərir «Təfsir»ində (19-cu cild, səh. 42) rəvayət etmişlər.

# Əl-Qəsəs surəsi

**Uca Allah buyurur:**

---

142 [ «ən-Nisa» surəsi, 93. ]

143 [ «ən-Nisa» surəsi, 93. ]

**«Həqiqətən Biz sözü onlar üçün birər-birər, müfəssəl izah etdik ki, bəlkə, öyüd-nəsihət qəbul etsinlər». (51-ci ayə)**

İbn Cərir «Təfsir»ində (20-ci cild, səh.88) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Yəhya ibn Cə'də (r.a) demişdir:

**«Həqiqətən, Biz sözü onlar üçün birər-birər, müfəssəl izah etdik ki, bəlkə, öyüd-nəsihət qəbul etsinlər»** ayəsi mənimlə birlikdə on nəfər barəsində nazil olmuşdur.

Bu hədisi həmçinin Təbərani «Mucəm» əsərində (5-ci cild, səh. 46-47) rəvayət etmişdir.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 88) demişdir: «Təbərani bu hədisi iki isnadla rəvayət etmişdir. Onlardan biri burada qeyd olunan «müttəsil» isnadla rəvayət olunmuş hədisdir ki, isnadında olan ravilərin hamısı «siqa» ravilərdir. İkincisinin isnadı isə «münqəti»dir».

**Uca Allah buyurur:**

**«Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri daha yaxşı O bilir!» (56-cı ayə)**

Muslim «Səhih» əsərində (1-ci cild, səh. 216) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hureyrə (r.a) rəvayət edir ki, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** əmisi ölüm ayağında olarkən o, əmisinə belə demişdir: «Lə ilahə illəllah de, Allah yanında sənin dediklərinə şəhadət verim!» Əbu Talib onun dəvətini qəbul etmədi və bu ayə nazil oldu:

**«Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən…»**

Muslim bu hədisi başqa isnadla da rəvayət etmişdir. Orada Əbu Talibin: «Əgər Qüreyşin mənə: «Qorxusundan şəhadət gətirdi»- deyərək eyib qoşmayacaqlarını bilsəydim, sənin dediklərini təsdiq edərdim»- dediyi qeyd olunur.

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 159), Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 441), ibn Cərir «Təfsir»ində (2-ci cild, səh. 91), ibn Xuzeymə «Tövhid» əsərində (səh. 343-344) və Beyhəqi «Şuəbul-İman» əsərində (səh. 54) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən, ğərib» olduğunu demişdir.

# Əl-Ənkəbut surəsi

**Uca Allah buyurur:**

**«Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Ey insan əgər valideynlərin bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə. Hamınız Mənim hüzuruma qayıdacaqsınız. Mən də nə etdiklərinizi bir-bir sizə xəbər verəcəyəm!» (8-ci ayə)**

Muslim «Səhih» əsərində (15-ci cild, səh. 185) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səd ibn Əbi Vaqqas (r.a) onun barəsində Qurandan ayələr nazil olduğunu xəbər verib dedi: «Ummu Səd [anam] mənə Məhəmmədin dininə küfr etməyənə qədər yemək yeməyəcəyinə, su içməyəcəyinə və

mənimlə danışmayacağına and içib dedi: «Məgər sən, Allahın valideynlərə qayğı göstərməyə əmr etməsini iddia etmirsən? Mən də sənə əmr edirəm ki, onun dinini tərk edəsən». Üç gün keçdikdən sonra onun acından ürəyi getdi. Qardaşım Əmmara qalxıb ona su verdikdə o mənim əleyhimə dua etməyə başladı. Uca Allah da bu ayəni nazil etdi:

**«Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Ey insan əgər valideynlərin bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, .....».** Quranda həmçinin **«Dünya işlərində onlarla gözəl keçin»**[144] ayəsi də nazil olmuşdu.

Bir dəfə Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** böyük qənimət nəsib oldu. Mən bu qənimətdən olan bir qılıncı götürüb onun yanına gəldim və: «Bunu mənə ver. Sən məni daha yaxşı tanıyırsan»- dedim. O dedi: «Apar qılıncı götürdüyün yerə qoy!» Mən onu aparıb yerinə qoymaq istədikdə, özümü qınayıb yenidən onun yanına qayıtdım və dedim: «Bunu mənə ver!» O, səsini ucaldıb: «Apar götürdüyün yerə qoy!» - dedi və bu ayə nazil oldu.

**«Səndən qənimətlər haqqında soruşurlar.....»**[145]

Mən xəstələndim və Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına adam göndərdim. O mənim yanıma gəldikdə, mən: «İzin ver malımı istədiyim kimi bölüm»- deyə ona müraciət etdim. O bunu rədd etdi. Mən: «Heç olmasa yarısını [vəsiyyət edim]»- dedim. O buna da izn vermədi. Mən «Heç olmasa üçdə birini [sədəqə etməyə] imkan ver» - dedikdə o susdu və beləliklə mirasın üçdə birini vəsiyyət etmək caiz oldu.

Sonra mən mühacir və ənsarlardan olan bir dəstənin yanına

---

[144] [ «Loğman» surəsi, 15. ]

[145] [ «əl-Ənfal» surəsi, 1. ]

gəldikdə onlar: «Gəl otur, yeyib-içək» - dedilər. Onların mənə şərab təklif etməsi onun haram olması barəsində ayə nazil olmamışdan əvvəl idi. Mən onların yanına, bostana gəldim. Onlar oturub qızardılmış dəvə başı yeyir və şərab içirdilər. Onlarla birgə yeyib-içdikdən sonra mühacir və ənsarları xatırlayıb dedim: «Mühacirlər ənsarlardan daha xeyirlidirlər». Onlardan biri saqqalımdan tutub məni vurdu və burnumdan qan açıldı. Sonra mən gəlib bu barədə Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** xəbər verdim və şərabın haram olunduğu barəsində ayə nazil oldu.

**«Ey iman gətirənlər! Şərab da** [içki də]**, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir……»**[146]

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (5-ci cild, səh. 268), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 181, 186), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 18), Buxari «Ədəbul-Mufrəd» əsərində (səh. 23) və Təbəri «Təfsir»ində (21-ci cild, səh. 70) rəvayət etmişlər. Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

Əhməd bu hədisi iki ləfzlə rəvayət etmiş və onlardan birində «Loğman» surəsində olan ayəni qeyd etmişdir.

Təbərinin rəvayətlərində də «Loğman» surəsindəki ayə qeyd olunmuşdur.

**Uca Allah buyurur:**

**«Adamlar arasında elələri də vardır ki: «Biz Allaha iman gətirdik!»- deyər, Allah yolunda bir əziyyət gördükdə isə insanların** [kafirlərin] **fitnəsini Allahın əzabı kimi qəbul edərlər. Əgər Rəbbindən** [möminlərə] **bir zəfər gəlsə, mütləq:**

---

[146] [ «əl-Maidə» surəsi, 90-91. ]

**«Biz də sizinləyik!»- deyərlər. Məgər Allah aləmlər əhlinin** [mələklərin, insanların və cinlərin] **ürəklərində olanları** [imanı, küfrü və nifaqı] **bilmirmi?!» (10-cu ayə)**

Bu ayənin nazil olma səbəbi «ən-Nəhl» surəsinin 110-cu ayəsinin nazil olmasına dair olan hədisdə qeyd olunub.

# Loğman surəsi

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi: «Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür!». (13-cü ayə)**

Buxari «Səhih» əsərində (1-ci cild, səh. 95) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah (r.a) rəvayət edir ki:

**«İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!»**[147] ayəsi nazil olduqda Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** səhabələri: «Bizdən hansı birimiz nəfsinə zülm etmir?!»- dedi və Uca Allah da bu ayəni nazil etdi:

**«Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür!».**

---

[147] [ «əl-Ənam» surəsi, 82. ]

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (9-cu cild, səh. 363) və Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 18) rəvayət etmişlər.

**Qeyd:** İbn Həcər «Fəthul-Bari» əsərində (1-ci cild, səh. 95) demişdir: «Şubənin rəvayət etdiyi bu hədisdən görünür ki, «Loğman» surəsindəki ayə onların verdiyi suala görə nazil olmuşdur. Lakin Buxari və Muslim başqa isnadla Ə'məşə istinad edərək rəvayət etmişlər ki, səhabələr dedilər: «Bizdən hansı birimiz nəfsinə zülm etmir?!» Və Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Məgər siz Loğmanın - **aleyhissəlam** - dediyi sözü eşitmirsiniz?»

Vəkiyin rəvayətində Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - : «Bu sizin zənn etdiyiniz kimi deyildir!», İsa ibn Yunusun rəvayətində isə: «Bu yalnız şirkdir. Məgər siz Loğmanın - **aleyhissəlam** - nə dediyi eşitmirsiniz?»- demişdir.

Bütün bunlardan görünür ki, «Loğman» surəsindəki ayə artıq onlara məlum idi. Elə buna görə də Peyğəmbər - **səllallahu aleyhi və səlləm** – onların yadına saldı. Lakin ehtimal olunur ki, o vaxt ayə nazil olmuş və o bu ayəni onlara oxumuşdur. Deməli hadisələr eyni vaxtda baş vermişdir.

# əs-Səcdə surəsi

**Uca Allah buyurur:**

**«Onlar ibadət üçün yataqlarından qalxar, qorxu və ümid içində** [Allahın əzabından qorxaraq, mərhəmətinə ümid

bəsləyərək] **Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən** [ehtiyacı olanlara] **sərf edərlər». (16-cı ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 161) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) :

**«Onlar ibadət üçün yataqlarından qalxar…..»** ayəsi barəsində demişdir: «Bu, Atəmə [İşa] adlanan namazı gözləmək barədə nazil olmuşdur».

Bu hədis «həsən-səhih»dir.

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (12-ci cild, səh. 100) rəvayət etmişdir. İbn Kəsir isə öz «Təfsir»ində hədisin isnadının «ceyyid» olduğunu qeyd etmişdir.

# Əl-Əhzab surəsi

**Uca Allah buyurur:**

**«Onları** [əsl-nəsəbləri bilinsin deyə] **öz atalarının adları ilə çağırın. Bu, Allah yanında daha düzgündür** [daha ədalətlidir]**. Atalarının kim olduğunu bilməsəniz, onlar sizin din qardaşlarınız və yaxınlarınızdır. Etdiyiniz səhvlərə** [məsələn, birinin atasını bilmədən səhv saldığınıza] **görə sizə günah yoxdur. Lakin** [qadağan olunduqdan sonra] **qəsdən etdiyiniz işlərdən ötrü günah vardır. Allah** [bəndələrini] **bağışlayan və rəhm edəndir!» (5-ci ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 136; 11-ci cild, səh. 34) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Uca Allah:

**«Onları** [əsl-nəsəbləri bilinsin deyə] **öz atalarının adları ilə çağırın. Bu, Allah yanında daha düzgündür** [daha ədalətlidir]**.....»** ayəsini nazil edənə qədər biz Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** – oğulluğa götürdüyü Zeyd ibn Harisəni (r.a) Zeyd ibn Məhəmməd adı ilə çağırırdıq».

İbn Kəsir «Təfsir»ində (3-cü cild, səh. 466) demişdir: «Hədisi Muslim, Nəsai və Tirmizi[148] öz əsərlərində rəvayət etmişlər».

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 181), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 53), Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 271), Abdurrəzzaq «Müsənnəf» əsərində (7-ci cild, səh. 460-461) və Darimi «Sünən» əsərində (2-ci cild, səh. 158) rəvayət etmişlər.

İbn əl-Carud «Müntəqa» əsərində (səh. 231) bu hədisi nəql edib demişdir: «Aişə (r.a) rəvayət edir ki, (Əbu Huzeyfə ibn Ütbənin (r.a) zövcəsi) Səhlə bint Suheyl ibn Amr (r.a) Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedi: «Mən ev paltarında olduqda belə Salim sərbəst bizim yanımıza [otağa] daxil olur! Biz onu övladımız hesab edirik».

O zaman Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Zeydi (r.a) oğulluğa götürdüyü kimi Əbu Huzeyfə də (r.a) Salimi (r.a) oğulluğa götürmüşdü. Uca Allah da bu ayəni nazil etdi:

---

[148] Tirmizi bu hədisi «Sünən» əsərində, 4/165 rəvayət etmiş və onun «həsən-səhih» olduğunu demişdir.

**«Onları** [əsl-nəsəbləri bilinsin deyə] **öz atalarının adları ilə çağırın. Bu, Allah yanında daha düzgündür** [daha ədalətlidir]**......».**

Ola bilsin ki, bu ayə onların hər ikisi barəsində nazil olmuşdu. Daha doğrusunu isə Allah bilir!

**Uca Allah buyurur:**

**«Möminlər içərisində elələri də vardır ki, Allahla etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi** [bu yolda] **şəhid olmuş, kimisi də** [şəhid olmasını] **gözləyir. Onlar** [verdikləri sözü] **əsla dəyişməzlər!» (23-cü ayə)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 361) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) deyir ki, əmim Ənəs ibnən-Nədr (r.a) Bədr döyüşündə iştirak etməmişdi. Ona görə də o, Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** dedi: «Ey Allahın elçisi! Mən müşriklərlə olan ilk döyüşdə iştirak etməmişəm. Allah onlarla döyüşməyi mənə nəsib edərsə, mənim necə vuruşacağımı görər».

Uhud döyüşündə müsəlmanlar məğlub olarkən o dedi: «Allahım! Həqiqətən, mən bunların – səhabələrin – etdikləri [xətalara] görə Səndən üzr istəyirəm və bunların – müşriklərin – etdikləri [günahlardan] Sənə sığınıram».

Sonra o, döyüşə atılarkən Sə'd ibn Muazla (r.a) rastlaşdı və ona dedi: «Ey Sə'd ibn Muaz! Mən cənnəti və Nədrin

Rəbbini[149] istəyirəm. Mən Uhudda cənnət iyini duyuram». Sə'd dedi: «Ey Allahın elçisi! Mən onun döyüşdüyü kimi döyüşə bilmədim».

Döyüşdən sonra biz onu ölənlərin arasında tapdıq. Onun üzərində səksəndən çox qılınc, nizə və ox yarası var idi. Müşriklər onun cəsədini [bəzi əzalarını kəsməklə] elə tanınmaz hala salmışdılar ki, bacısından başqa heç kəs onu tanımadı. O, Ənəs ibn Nədri (r.a) barmaqlarının ucundan tanıdı. Biz də,

**«Möminlər içərisində elələri də vardır ki, Allahla etdikləri əhdə sadiq olarlar….»** ayəsinin onun və onun kimilərinin barəsində nazil olduğunu güman edirdik.

Hədisi Muslim, Tirmizi[150] və Nəsainin rəvayət etdiklərini ibn Həcər «Fəthul Bari» əsərində (6-cı cild, səh. 361) və ibn Kəsir «Təfsir»ində (3-cü cild, səh. 475) nəql etmişlər.

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (10-cu cild, səh. 136) Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 194), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 22), ibn Cərir «Təfsir»ində (21-ci cild, səh. 147), Əbu Nueym «Hilyə» əsərində (1-ci cild, səh. 121) və Abdullah ibn əl-Mübarək «Cihad» əsərində (səh. 68) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

---

149 [ Burada ehtimal olunur ki, o, ya atası Nədr ilə, ya da oğlu Nədr ilə birlikdə cənnətdə olmağı təmənna edir. «Fəthul Bari», 6/22. ]

150 Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 163) demişdir: «Bu hədis «həsən-səhihdir.

«**Allah kafirləri qəzəbli olduqları** [məqsədlərinə çatmadıqları] **halda geri oturtdu. Onlar heç bir xeyir** [qənimət] **əldə edə bilmədilər. Döyüşdə** [zəfər çalmağa] **Allah möminlərə kifayət etdi. Allah qüvvət və qüdrət sahibidir!» (25-ci ayə)**

Nəsai «Sünən» əsərində (2-ci cild, səh. 15) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Səid əl-Xudri (r.a) deyir ki, Xəndək günü müşriklər bizi günbatana qədər zöhr namazından yayındırdılar. Bu hadisə hələ Allahın döyüş barəsində:

«**Döyüşdə** [zəfər çalmağa] **Allah möminlərə kifayət etdi….»** ayəsi nazil olmamışdan əvvəl baş verdi. Sonra Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Bilala (r.a) əmr etdi və o, zöhr namazı üçün iqamə oxudu. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - bu namazı vaxtında qıldığı kimi qıldı. Sonra o, yenə iqamə verdi və Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - əsr namazını vaxtında qıldığı kimi qıldı. Daha sonra o, azan verdi və Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - məğrib namazını da vaxtında qıldığı kimi qıldı.

Hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (21-ci cild, səh. 149) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

«**Ya Peyğəmbər** [artıq xərclik və pal-paltar istəyən] **zövcələrinə belə de: «Əgər siz dünya həyatını və onun dəbdəbəsini istəyirsinizsə, gəlin sizə talaq haqqınızı verim və** [sonra da] **gözəl bir tərzdə** [Allahın buyurduğu qayda

üzrə] **boşayım. Yox, əgər Allahı, Onun Rəsulunu və axirət yurdunu istəyirsinizsə,** [bilin ki] **Allah içərinizdə yaxşı işlər görənlər üçün böyük bir mükafat** [Cənnət] **hazırlamışdır». (28 və 29-cu ayələr)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 39) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) deyir ki, mən çox istəyirdim ki, Ömərdən (r.a)

**«Əgər ikiniz də** [bu hərəkətinizə görə] **Allaha tövbə etsəniz** [çox yaxşı olar]**. Çünkü** [Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən hərəkət etməklə] **qəlbləriniz** [onun barəsində bir qədər qeyri səmimiliyə, günaha] **meyl etdi....»** ayəsində xatırlanan Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** iki zövcəsi barəsində soruşum. Elə buna görə də onunla birlikdə həcc ziyarətinə getdim. O, həcc ziyarətini bitirib geri qayıtdıqda subaşına çıxmaq üçün yoldan kənara [uzaq bir yerə] çəkildi. Mən də əlimdəki bir tuluq su ilə kənara çəkilib onu gözlədim. Nəhayət o gəlib çıxdı. Mən tuluqdakı sudan onun əlinə tökdüm və o dəstəmaz aldı. Sonra mən soruşdum: «Ey möminlərin əmiri!

**«Əgər ikiniz də** [bu hərəkətinizə görə] **Allaha tövbə etsəniz** [çox yaxşı olar]**. Çünkü** [Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən hərəkət etməklə] **qəlbləriniz** [onun barəsində bir qədər qeyri səmimiliyə, günaha] **meyl etdi....»** ayəsində xatırlanan Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** iki zövcəsi kimlərdir?» O dedi: «Ey ibn Abbas! Sənin sualın çox təəccüblüdür! Bu Aişə ilə Həfsədir!» Sonra o, hədisi danışmağa başlayıb dedi: «Mən və ənsarlardan olan bir qonşum Bənu Ümeyyə ibn

Zeyd tayfasında – Mədinənin yaxınlığında yerləşən bir kənddə – qalırdıq. Biz növbə ilə Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gedərdik. Bir gün mən gedib Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - eşitdiklərim əmrlər və s. [qadağalar, əvvəlki ümmətlərin başına gələnlər] barədə ona xəbər gətirərdim, bir gün də o bütün bunlar barədə mənə xəbər gətirərdi. Biz qüreyşlilər qadınlarımızı üstələyən bir tayfa idik. Mədinəyə gəldikdə isə ənsar qadınların ərlərini üstələyən [onlara cavab qaytaran] bir qövm olduğunu gördük. Bizim qadınlar onların ədəblərindən təsirləndilər. Bir gün mən həyat yoldaşımın üstünə qışqırdım və o mənə cavab qaytardı. Mən cavab qaytarmağı ona qadağan etdikdə o dedi: «Sən cavab qaytarmağı mənə niyə qadağan edirsən? Allaha and olsun ki, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - zövcələri ona cavab qaytarırlar. Bəziləri hətta bu gün gecəyə qədər ondan üz döndərib». Onun bu sözləri məni çox həyəcanlandırdı. Mən: «Doğrudan da onlardan bu günahı edən müvəffəqiyyətsizliyə uğramışdır!» - dedim. Sonra libasımı geyib Həfsənin yanına getdim. Mən onə dedim: «Ey Həfsə! Sizlərdən biri Allahın elçisini - səllallahu aleyhi və səlləm - bu gün gecəyə qədər qəzəbləndiribmi?» O: «Bəli» - deyə cavab verdi. Mən dedim: «O şəxs bədbəxt olmuş və xəsarətə uğramışdır! Sən əminsən ki, Rəsulullahı qəzəbləndirməklə Allahın qəzəbinə gəlib həlak olmayacaqsan? Allahın elçisindən çox şey [artıq xərclik və s.] istəmə, ona cavab qaytarma, ondan üz döndərmə və nə ehtiyacın varsa məndən istə! Və qonşunun (yəni, Aişənin) Peyğəmbərə - səllallahu aleyhi və səlləm - səndən daha gözəl və daha sevimli olması əsla səni aldatmasın!»

O zaman biz, «Ğəssanlılar bizim üstümüzə yürüş etmək üçün atlarının ayaqlarını nallayırlar!» - deyə öz aramızda

danışırdıq. [Bir gün Bənu Umeyyəli] yoldaşım öz növbəsində Rəsulallahın - səllallahu aleyhi və səlləm - yanına getdi və gecə geri döndükdə qapımı bərk-bərk döyüb dedi: «O [yəni, Ömər] oyaqdırmı?». Mən həyacanlandım və onun yanına çıxdım. O dedi:

– Dəhşətli bir hadisə baş verib!

– Nədir, Ğəssanlılar hücum edib?

– Xeyr! Əksinə, bundan da artıq dəhşətli hadisə baş verib. Allahın elçisi - səllallahu aleyhi və səlləm - zövcələrini boşayıb.

– Artıq Həfsə həlak oldu və ziyana uğradı. Mən bunun yaxın zamanlarda baş verəcəyini zənn edirdim.

Mən libasımı geyib Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına getdim və onunla birgə fəcr namazını qıldım. Sonra o, öz eyvanına qalxıb təkliyə çəkildi. Mən Həfsənin yanına gəldim və onu ağlayan görüb dedim: «Nə üçün ağlayırsan, məgər mən səni bu işdən çəkindirməmişdim? Allahın elçisi - səllallahu aleyhi və səlləm - sizi boşayıbmı? Həfsə dedi: «Mən bilmirəm, odur bax o, eyvandadır».

Sonra mən minbərin ətrafında oturan bir toplum səhabənin yanına gəldim. Onlardan bəziləri ağlayırdı. Mən bir müddət onlarla oturduqdan sonra dözməyib onun yanına, oturduğu eyvanın önünə gəldim və orada dayanan Peyğəmbərin - səllallahu aleyhi və səlləm - balaca, zənci xidmətçisinə dedim: «Ömər üçün izn istə [onun yanına daxil olum]». O, içəri daxil olub Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - danışdı. Sonra bayıra çıxıb dedi: «Sənin xahişini ona çatdırdım, lakin o susdu». Mən minbərin ətrafında oturan səhabələrin yanına gayıtdım. Bir az onlarla oturduqdan sonra dözməyib yenə onun yanına gəldim və bu dəfə də o, eyni cavabı verdi. Mən bir daha minbərin ətrafında oturan səhabələrin yanına gayıtdım. Bir az onlarla

oturduqdan sonra dözməyib yenə onun yanına gəldim. O bu dəfə də eyni cavabı verdi. Mən çıxıb getdikdə o, məni çağırıb dedi: «Peyğəmbər - səllallahu aleyhi və səlləm - sənə onun yanına daxil olmağa izn verdi». Mən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına daxil olduqda gördüm ki, o, yerə sərilmiş həsirin üstünə uzanıb, altına heç bir döşək qoymayıb və yerdəki qum da onun böyrünə iz salıb. Özü də içərisi xurma lifi ilə doldurulmuş, dəridən hazırlanan yastığa söykənmişdi. Mən ayaq üstə duraraq ona salam verdikdən sonra dedim: «Ey Allahın elçisi, sən zövcələrini boşamısanmı?» O mənə nəzər salıb: «Xeyr!» - deyə cavab verdi. Mən yenə ayaq üstə duraraq dedim: «Ey Allahın elçisi! Təsəvvür et, biz qüreyşlilər qadınlarımızı üstələyən bir qövm idik. Sonra qadınları ərlərini üstələyən bir qövmün yanına gəldik». Peyğəmbər - səllallahu aleyhi və səlləm - gülümsədi. Mən dedim: «Təsəvvür et, mən Həfsənin yanına gəlib: «Qonşunun (yəni, Aişənin) Peyğəmbər - səllallahu aleyhi və səlləm - üçün səndən daha gözəl və daha sevimli olması əsla səni aldatmasın!»- dedim. Peyğəmbər - səllallahu aleyhi və səlləm - yenə təbəssüm etdi. Mən onun təbəssüm etdiyini görüb oturdum və evinə nəzər saldım. Allaha and olsun ki, orada mən aşılanmış üç heyvan dərisindən başqa gözə çarpan bir şey görmədim. Mən dedim: «Allaha dua et ki, ümmətinin imkanlarını genişlətsin! Həqiqətən, farsların və rumluların imkanları çox genişləndirilib, onlara dünyanın naz-nemətlərindən verilib. Halbuki onlar Alaha ibadət etmirlər». O, dikəlib oturdu və dedi: «Ey ibn əl-Xəttab! Sən şəkk edirsən? Onlar o qövmdür ki, cah-cəlal onlara dünya həyatında verilmiş və onlar üçün tezləşdirilmişdir». Mən dedim: «Ey Allahın elçisi, mənim üçün [Allahdan] bağışlanma dilə!»

Həfsə (r.a) Aişəyə (r.a) Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - sirrini bildirdikdən sonra o, zövcələrini tərk etmiş və qəzəbindən: «Bir ay mən onlara yaxınlaşmayacağam!» - demişdi. O zaman Uca Allah da onu qınamışdı.[151] İyirmi doqquz gün keçdikdən sonra o, ilk əvvəl Aişənin yanına daxil oldu. Aişə (r.a) isə ona dedi: «Axı sən bir ay bizə yaxınlaşmayacağına and içmisən! Mən bir-bir bu günləri saymışam. Artıq bu iyirmi doqquzuncu gündür». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - : «Ay iyirmi doqquzdandır!»

Bu ay doğrudanda iyirmi doqquz oldu. Aişə dedi: «Təxyir [seçmək, üstünlük vermək][152] ayəsi nazil oldu və o, zövcələrindən ilk əvvəl mənim yanıma daxil olub dedi: «Doğrusu, mən sənə bir məsələni xatırlamaq istəyirəm. Sən gərək tələsməyəsən və ata-ananla məsləhətləşəsən». Aişə dedi: «Mən bilirəm ki, valideynlərim səndən ayrılmağı mənə heç vaxt nəsihət etməmişlər». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Allah demişdir:

**«Ya Peyğəmbər** [artıq xərclik və pal-paltar istəyən] **zövcələrinə belə de:....»** ayəsindən **«......böyük bir mükafat hazırlamışdır»** ayəsinə qədər.

Mən dedim: «Buna görə ata-anamla məsləhətləşim?! Axı mən həqiqətən də Allahı, Onun elçisini və axirət yurdunu istəyirəm!»

Sonra o - **səllallahu aleyhi və səlləm** - digər zövcələrinə də eyni təklifi etdi və onlarda Aişə (r.a) kimi cavab verdilər.

---

151 [ «ət-Təhrim» surəsi, 1-4. ]

152 [ «əl-Əhzab» surəsi, 28-29. ]

Bu hədisi həmçinin Buxari (11-ci cild, səh. 188), Muslim «Səhih» əsərində (10-cu cild, səh. 93), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 163, 203), Nəsai «Sünən əsərində (6-cı cild, səh. 46, 130), ibn Macə «Sünən» əsərində (2053-cü hədis), imam Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 33; 6-cı cild, səh. 87, 163, 185, 212, 248, 264), ibn Carud «Müntəqa» əsərində (səh. 274) və ibn Cərir «Təfsir»ində (21-ci cild, səh. 158) rəvayət etmişlər. Tirmizi hər iki yerdə hədisin «səhih» olduğunu qeyd etmişdir.

Muslim «Səhih» əsərində (10-cu cild, səh. 80) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) deyir ki, Əbu Bəkr (r.a) gəlib Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına daxil olmaq üçün izn istədikdə, onun - səllallahu aleyhi və səlləm - qapısının yanında bir dəstə adamın oturduğunu gördü. Onlardan heç bir kimsəyə içəri daxil olmağa izn verilməmişdi. Əbu Bəkrə (r.a) isə izn verildi və o içəri daxil oldu. Sonra Ömər (r.a) gəlib izn istədi və ona da izn verildi O, Peyğəmbəri - səllallahu aleyhi və səlləm - və ətrafında sükut içində oturmuş zövcələrini görüb dedi: «Mən bir söz deyəcəyəm və Peyğəmbəri - səllallahu aleyhi və səlləm - güldürəcəyəm».

Sonra o dedi: «Ey Allahın elçisi! Hərgah [ərinə qarşı] çıxan qız məndən xərclik istəsəydi onun boynuna [şillə və ya yumruq] ilişdirərdim!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - güldü və dedi: «Gördüyün kimi onlar mənim ətrafımda oturub məndən xərclik istəyirlər». Bu vaxt Əbu Bəkr (r.a) Aişəni (r.a), Ömər (r.a) də Həfsanı (r.a) cəzalandırmaq üçün ayağa qalxıb dedi: «Siz Allahın elçisində - səllallahu aleyhi və səlləm - olmayan bir şeyi ondan istəyirsiniz?!» Onlar dedilər: «Biz heç zaman Allahın elçisində - səllallahu aleyhi və səlləm - olmayan bir şeyi ondan

istəmərik?». Peyğəmbər - səllallahu aleyhi və səlləm - otuz və ya iyirmi doqquz gün onlardan ayrı qaldı. Sonra ona bu ayələr nazil oldu:

**«Ya Peyğəmbər** [artıq xərclik və pal-paltar istəyən] **zövcələrinə belə de:.....»** ayəsindən **«......yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır»** ayəsinə qədər.

O, ilk əvvəl Aişənin (r.a) yanına gəlib dedi: «Ey Aişə! Doğrusu, mən sənə bir təklif etmək istəyirəm. Və istəyirəm ki, sən bu təklifi qəbul etməyə tələsməyəsən və ata-ananla məsləhətləşəsən». Aişə dedi: «O nədir ey Allahın elçisi?» Peyğəmbər - səllallahu aleyhi və səlləm - Allahın ona nazil etdiyi ayələri oxudu. Aişə dedi: «Ya Rəsulullah! Məgər sənə görə [səninlə birgə olmaqdan ötrü] valideynlərimlə məsləhətləşməliyəm?! Əksinə, mən Allahı, onun elçisini və axirət yurdunu seçirəm! Səndən də xahiş edirəm ki, həyat yoldaşlarından heç birinə bu barədə xəbər verməyəsən!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «O qadınlardan hansı birisi məndən [bu məsələ barəsində] soruşsa mən ona xəbər verəcəyəm. Allah məni nə [insanlara nə isə etməyi] zorla məcbur edən, nə də hər şeyə irad tutan bir kimsə olaraq göndərməmişdi, lakin O məni [onlara bilmədiklərini] öyrədən, [bacarmadıqlarını] müyəssər edən bir kimsə olaraq göndərmişdi.

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 328) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Həqiqətən, Allah məhz müsəlman kişilər və qadınlar, mömin kişilər və qadınlar,** [Allaha] **müti kişilər və qadınlar,**

**doğrudanışan kişilər və qadınlar, səbirli kişilər və qadınlar, təvəzökar kişilər və qadınlar, sədəqə verən kişilər və qadınlar, oruc tutan kişilər və qadınlar, ayıb yerlərini qoruyub saxlayan kişilər və qadınlar və Allahı çox zikr edən kişilər və qadınlar üçün məğfirət** [bağışlanma] **və böyük bir mükafat hazırlamışdır!» (35-ci ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 116) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ummu Əmmara əl-Ənsariyyə (r.a) Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedi: «Mən, hər şeyin yalnız kişilər üçün olduğunu və qadınların heç bir şeylə xatırlanmadığını görürəm!». Odur ki, bu ayə nazil oldu:

**«Həqiqətən, Allah məhz müsəlman kişilər və qadınlar, mömin kişilər və qadınlar…….»**

Tirmizi bu hədisin «həsən, ğərib» olduğunu demişdir.

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 416) [istinad edərək] Ummu Sələmədən (r.a) rəvayət etmiş və demişdir: «Hədis Buxari və Muslimin şərtlərinə görə «səhih»dir, lakin onlar bunu rəvayət etməmişlər». Zəhəbi də bunu təsdiqləmişdir. Lakin [isnadında olan] Mücahid «mürsəl» isnadla bir çox hədislər rəvayət edib. Belə ki, mən bilmirəm o, Ummu Sələmədən (r.a) bu hədisi eşidib ya yox. Mən bu hədisi əvvəlki hədisi qüvvətləndirən bir amil kimi nəql etmişəm. Hədisi həmçinin Təbərani «Mucəm» əsərində istinad edərək ibn Abbasdan (r.a) rəvayət etmişdir. Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 91) demişdir: «Bu hədisin isnadında olan Qabus «daif» ravidir, lakin bəziləri onu «siqa» ravi hesab etmişlər». Sonra mən ibn Kəsirin

«Təfsir»ində (3-cü cild, səh. 47) bu hədisi Ummu Sələmədən (r.a) iki isnadla rəvayət etdiyini gördüm.

**Uca Allah buyurur:**

**«**[Ya Peyğəmbər!] **Xatırla ki, bir zaman Allahın** [islam dininə yönəltməklə] **nemət verdiyi və sənin özünün** [köləlikdən azad etməklə] **nemət verdiyin şəxsə** [Zeyd ibn Harisəyə] **: «Zövcəni** [Zeynəb bint Cəhşi] **saxla** [boşama] **, Allahdan qorx!» - deyir, Allahın aşkar etdiyi şeyi** [Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi] **ürəyində gizli saxlayır və adamlardan** [onların: «Peyğəmbər oğulluğunun boşadığı övrətlə evlənir» - deyəcəklərindən] **qorxurdun. Halbuki əslində sənin qorxmalı olduğuna ən çox layiq Allahdır». (37-ci ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 142) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malikdən (r.a) rəvayət olunur ki, bu ayə

**«…Allahın aşkar etdiyi şeyi** [Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi] **ürəyində gizli saxlayır….» -** Zeynəb bint Cəhş və Zeyd ibn Harisə barəsində nazil olmuşdur.

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (17-ci cild, səh. 184), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 168), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 150) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 417) rəvayət etmişlər. Zəhəbi Hakimin bu rəvayətinin Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə** [Zeynəbi boşadıqda] **səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik** [günah] **olmasın! Allahın hökmü mütləq yerinə yetər!» (37-ci ayə)**

İbn Səd «Təbəqat» əsərində (8-ci cild, səh. 73) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Zeynəb bint Cəhş (r.a) barəsində

**«Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə** [Zeynəbi boşadıqda] **səni onunla evləndirdik ki, ……»** ayəsi nazil oldu. O, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** digər zövcələrinin yanında fəxr edərək deyirdi: «Sizin hamınızı öz əhliniz ərə verib. Məni isə Allah yeddi səmanın üzərindən [Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** ilə] evləndirib». Hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

İbn Səd başqa isnadla [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] deyir ki, Ənəs ibn Malik (r.a) demişdir: «Zeynəb bint Cəhşin (r.a) iddəti[153] qurtardıqdan sonra Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Zeyd ibn Harisəyə (r.a) dedi: «Mən öz yanımda səndən daha etibarlı və daha inanınlmış bir kimsə görmürəm. Odur ki, Zeynəbin yanına get və onu mənə nişanla». Zeynəb (r.a) xəmir yoğurarkən Zeyd (r.a) onu götürüb [Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına] gətirdi. Mən Zeynəbi gördükdə

---

[153] [ Boşanan və ya dul qalan qadının yenidən ərə gedə bilməsinə qədər olan gözləmə müddətidir. ]

onun hörməti mənim qəlbimdə bir az da artdı. Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - onu xatırladığını bildikdə isə artıq mən onun üzünə baxa bilmədim. Mən üzümü ondan çevirdim və dedim: «Ey Zeynəb sevin! Həqiqətən, Allahın elçisi səni xatırlayır!» O dedi: «Mən heç bir şey etməmişəm. Bu Rəbbimin buyuruqlarıdır!». Sonra o qalxıb məscidə getdi və bu ayə nazil oldu:

**«Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə** [Zeynəbi boşadıqda] **səni onunla evləndirdik ki, ……»**

Hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

Hədisi həmçinin Muslim «Səhih» əsərində (9-cu cild, səh. 228) və Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 195) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

«[Ya Məhəmməd!] **Onlardan** [zövcələrindən] **istədiyini** [istədiyinin səninlə gecələmək növbəsini] **yubadar, istədiyini də** [gecəni onunla keçirmək üçün] **öz yanına ala bilərsən.** [Bir müddət özündən] **ayırdığın** [növbəsini təxirə saldığın, yaxud rici talaqla boşadığın] **övrətlərindən də istədiyini** [yenidən] **öz yanına qaytarmaqdan sənə heç bir günah gəlməz. Bu, onların sevinmələri, kədərlənməmələri və hamısının sənin verdiklərinə razı qalmaları üçün ən əlverişlidir. Allah qəlblərinizdə olanları** [kimin daha çox kimə meyl etdiyini] **bilir. Allah** [hər şeyi] **Biləndir və Həlimdir!» (51-ci ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 144) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə

qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, mən öz nəfslərini Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - bağışlayan [heç bir təmənnasız ona ərə getməyə razılıq verən] qadınları danlayıb deyərdim: «Heç qadın da öz nəfsini bağışlayarmı? Uca Allah

«[Ya Məhəmməd!] **Onlardan** [zövcələrindən] **istədiyini** [istədiyinin səninlə gecələmək növbəsini] **yubadar, istədiyini də** [gecəni onunla keçirmək üçün] **öz yanına ala bilərsən.** [Bir müddət özündən] **ayırdığın** [növbəsini təxirə saldığın, yaxud rici talaqla boşadığın] **övrətlərindən də istədiyini** [yenidən] **öz yanına qaytarmaqdan sənə heç bir günah gəlməz...»** ayəsini nazil etdikdə mən [Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - ] dedim: «Mən görürəm ki, Rəbbin yalnız sənin istəyini tezliklə yerinə yetirir».

Hədisi həmçinin Muslim «Səhih» əsərində (1-ci cild, səh. 49), Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 158), ibn Cərir «Təfsir»ində (22-ci cild, səh. 26) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 436) rəvayət etmişlər. Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Qeyd etmək istəyirəm ki, Buxari Muhadir ibn əl-Muvarridən yalnız «müəlləq» isnadla rəvayət etmişdir. Muslim isə ondan yalnız bir hədis rəvayət etmiş və bunu da başqa bir hədisi qüvvətləndirmək üçün belə etmişdir. Bütün bunlar ibn Həcərin «Təhzibut-Təhzib» əsərində izah olunub. Odur ki, bu hədis onların şərtlərinə müvafiq deyildir. Daha doğrusunu isə Allah bilir!

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən** [yeməyə dəvət olunmadan] **girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda gedin və** [yeməyinizi] **yedikdən sonra** [orada bir-birinizlə] **söhbətə qapılmayıb dağılın. Bu** [sizin sox oturmağınız] **, Peyğəmbərə əziyyət verir, amma o sizdən** [bunu sizə deməkdən] **utanırdı. Lakin Allah doğru sözdən çəkinməz. Onlardan** [Peyğəmbərin zövcələrindən] **bir şey soruşduqda, pərdə arxasından soruşun** [evlərinə daxil olmayın]**. Bu həm sizin, həm də onların ürəklərinə daha çox təmizlik bəxş edər. Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz. Həqiqətən, bu, Allah yanında böyük günahdır!» (53-cü ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 149) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Zeynəb bint Cəhş (r.a) ilə evlənəndə ziyafət verdi. O, camaata doyunca çörək və ət verdi. Sonra isə adəti üzrə evləndiyi günün səhərisi digər zövcələrinin otaqlarını bir-bir ziyarət etdi, onlara salam verdi və onlar üçün dua etdi. Onlar da qarşılıqlı olaraq salam verib onun üçün dua etdilər. Daha sonra o evinə qayıtdı və iki kişinin [onun evində oturub] bir-birilə söhbət etdiyini gördükdə evdən çıxıb getdi. Onlar Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** evdən çıxıb getdiyini gördükdə dərhal ayağa qalxıb tələsik oranı tərk etdilər. Bilmirəm, onların evdən çıxdıqlarını Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** mən xəbər verdim, ya başqa birisi [məni qabaqlayıb bu barədə ona xəbər verdi]. Odur ki, o,

geri qayıdıb evə daxil oldu və mənimlə öz arasına pərdə çəkdi. Bu vaxt hicab ayəsi[154] nazil oldu.

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (10-cu cild, səh. 148; 11-ci cild, səh. 134, 139, 519; 13-cü cild, səh. 259, 305) və «Ədəbul Mufrad» əsərində (səh. 632), Muslim «Səhih» əsərində (9-cu cild, səh. 229, 230, 232, 233), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 168-169), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 105, 168, 196, 242, 246), ibn Səd «Təbəqat» əsərində (1-ci cild, səh. 75), ibn Cərir «Təfsir»ində (22-ci cild, səh. 37-38) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 418) rəvayət etmişlər. Tirmizi rəvayət etdiyi birinci hədisi «həsən», ikincisini isə «həsən-səhih» adlandırmışdı. Hakim bu hədisin isnadının «səhih» olduğunu demiş, Zəhibə də bunu təsdiqləmişdir.

Qeyd etmək istəyirəm ki, hədis Buxari və Muslimin şərtlərinə uyğundur, lakin Muslim hədisi həmin isnadla (9-cu cild, səh. 233) rəvayət etmişdir. Odur ki, hədisin «Mustədrək» əsərinə əlavə olunmasının mənası yoxdur.

Buxari «Səhih» əsərində (1-ci cild, səh. 259) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - zövcələri gecə vaxtı ayaqyoluna - böyük bir sahəyə su başına - çıxardılar. O zaman Ömər (r.a) gəlib Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - dedi: «Zövcələrinə hicab örtməyi əmr et!» O zaman Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - zövcələrinə bunu əmr etmədi. Bir gecə Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - hündürboylu, Səudə bint Zəm'a (r.a) adlı zövcəsi bayıra çıxdıqda, Ömər çox istəyirdi ki,

---

[154] [ «əl-Əhzab» surəsi, 53.]

hicab ayəsi nazil olsun. Odur ki, o Səudəni (r.a) çağırıb dedi: «Ey Səudə! Biz səni tanıdıq!»

Bu hədisi həmçinin Buxari «Sünən» əsərində (13-cü cild, səh. 260), Muslim «Səhih» əsərində (14-cü cild, səh. 152) və ibn Cərir «Təfsir»ində (22-cü cild, səh. 39) rəvayət etmişlər.

Təbərani «Mucəmus-Səğir» əsərində (1-ci cild, səh. 83) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, mən Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** birgə camda xurma halvası[155] yeyirdik. Bu vaxt Ömər (r.a) gəlib bizim yanımızdan keçdikdə Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** onu da yeməyə dəvət etdi. Yemək yeyərkən onun barmağı mənim barmağıma dəydi və o [təəssüflənərək] dedi: «Ax, ax, əlim dəydi! Əgər barənizdə hökm nazil olsaydı heç bir göz sizi görməzdi!» Sonra isə hicab ayəsi nazil oldu».

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 93) demişdir: «Musa ibn Əbi Kəsirdən başqa hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Musa ibn Əbi Kəsirə gəlincə, o da «siqa» ravidır.

İbn Həcər «Fəthul-Bari» əsərində (1-ci cild, səh. 260) bu hədisləri cəm edib demişdir: «Bu hədisləri cəm edib demək olar ki, hicab ayəsinin nazil olmasına dair baş vermiş hadisələr müxtəlif cür olmuşdur. Lakin, Zeynəb (r.a) barəsindəki xəbər ayə ilə əlaqədar olan sonuncu xəbərdir. Yaxud demək olar ki, bəzi rəvayətlərdəki «hicab ayəsi» deyildikdə

---

155 [ Bu, xurmadan, kəsmikdən və yağdan hazırlanmış yeməyə deyilir. Kəsmiyi isə un və ya çörək qırıntıları ilə də əvəz etmək olar. Buna ərəbcə «heys» [ حَيْسٌ ] deyilir. «Nihayə fi Ğəribul-Hədis», səh. 245. ]

**«….. çarşablarını örtsünlər…..»** ayəsi qəsd olunur».

Qeyd etmək istəyirəm ki, ibn Həcərin: «Yaxud demək olar ki, bəzi rəvayətlərdəki «hicab ayəsi» deyildikdə

**«….. çarşablarını örtsünlər…..»** ayəsi qəsd olunur»- ifadəsi isə araşdırılmalıdır. Belə ki, rəvayətlər Zeynəb (r.a) barəsində, həmçinin Ömərin (r.a) diləyindən[156] sonra (Təbərinin «Təfsir»ində (12-ci cild, səh. 40) qeyd olunduğu kimi) məhz

**«Ey iman gətirənlər! Peyğəmbərin evlərinə daxil olmayın**……» ayəsinin nazil olduğunu bəyan edir. Odur ki, bu ayənin nazil olmasına dair baş vermiş hadisələr müxtəlif cür olduğunu demək daha doğrudur.

**Qeyd:** Ömərin (r.a): «Ey Səudə! Biz səni tanıdıq!»- deməsindən belə aydın olur ki, bu hadisə hicab ayəsinin nazil olmasından əvvəl, bəzi rəvayətlərdə isə sonra baş vermişdir. Bu rəvayətləri necə cəm etmək olar?

İbn Həcər «Fəthul-Bari» əsərində (10-cu cild, səh. 150) demişdir: «Kərmani deyir ki, əgər desən ki, bu, hicab ayəsi nazil olduqdan sonra baş vermişdir, onda demək olar ki, həmçinin dəstəmaz fəslində də bu hadisənin hicab ayəsi nazil olduqdan əvvəl baş verməsi qeyd olunmuşdur. Bunun isə cavabı belədir. Ola bilsin ki, o hadisə iki dəfə baş vermişdir».

İbn Həcər – sözünə davam edib – deyir ki, əvvəlki hadisədə nazil olmuş hicab ayəsi ilə sonrakı hadisədə nazil

---

[156] İbn Həcər «Fəthul-Bari» əsərində (1-ci cild, səh. 260) demişdir: «Əbu Əvanə «Səhih» əsərində Zubeydiyə isnad edərək ibn Şihabdan əlavə etmişdir ki, «Uca Allah hicab aysəni nazil etdi:

**«Ey iman gətirənlər! Peyğəmbərin evlərinə daxil olmayın**……»

olmuş hicab ayəsi arasında fərq var. Nəticə budur ki, yad kişilərin Peyğəmbərin - səllallahu aleyhi və səlləm - zövcələrinə baxması Ömərin (r.a) qəlbini narahat edirdi. Odur ki, o, açıq-aydın Peyğəmbərə - səllallahu aleyhi və səlləm - : «Zövcələrinə hicab örtməyi əmr et!»- dedi. Bu da onunla təsdiqləndi ki, hicab ayəsi nazil oldu. Sonra onların ümumiyyətlə örtünmüş halda belə gözə görünməmələrini məsləhət etdi. Lakin Peyğəmbər - səllallahu aleyhi və səlləm - buna mane oldu və qadınlara əziyyət olmasın deyə ehtiyaclarını ödəmək üçün bayıra çıxmaqlarına rüxsət verdi».

# Ya sin surəsi

**Uca Allah buyurur:**

**«Həqiqətən ölüləri diriltdən, onların** [dünyada] **nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi hesaba alıb açıq-aydın kitabda** [lövhi-məhfuzda] **təsbit etmişik». (12-ci ayə)**

İbn Kəsir «Təfsir»ində (3-cü cild, səh. 566) Bəzzardan nəql edir ki, o [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Səid (r.a) rəvayət edir ki, Bənu Sələmə qəbiləsi gəlib Allahın elçisinə - səllallahu aleyhi və səlləm - mənzillərinin məsciddən uzaq olması barədə şikayət etdilər. Odur ki, bu ayə nazil oldu:

«**....onların** [dünyada] **nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik....**» Onlar da öz yurdlarında qalmalı oldular».

İbn Kəsir bu hədisi başqa isnadla nəql etdikdən sonra demişdir: «Hədisdə ayənin məhz bu səbəbdən nazil olmasında qəribəlik vardır. Çünki bu surə bütövlükdə Məkkə surəsidir».

Abbad ibn Ziyaddan başqa hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Onun barəsində ibn Həcərin «Təhzibut-Təhzib» əsərində bəzi tənələr qeyd olunub. Lakin başqa rəvayətlərlə birgə onun rəvayəti qüvvəyə minə bilər. Bu hədisi Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 171) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 428) rəvayət etmişlər Tirmizi bu hədisi «həsən» hesab etmişdir. Hakim isə bu hədisin «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. Qeyd etmək lazımdır ki, hədisin isnadında olan Tərif ibn Şihab «daif» ravidir. Hədisi həmçinin ibn Cərir «Təfsir»ində: «Ənsarların evləri məsciddən uzaq olduğundan onlar məscidə köçmək istəyirdilər. Buna görə də bu ayə nazil oldu» ləfzi ilə rəvayət etmiş və isnadının «səhih» olduğunu qeyd etmişdir.

O ki qaldı ibn Kəsirin: «Hədisdə ayənin məhz bu səbəbdən nazil olmasında qəribəlik vardır. Çünki bu surə bütövlükdə Məkkə surəsidir»- deməsinə onun nəyi qəsd etdiyi mənə bəlli deyildir. Əgər ayənin Məkkədə nazil olduğu sübuta yetirilsə, onda demək olar ki, bu ayə iki dəfə [Məkkədə sonra da Mədinədə] nazil olub. Əks təqdirdə bu ayəni çıxmaq şərtilə surənin Məkkə surəsi olduğunu hesab etmək olar. Daha doğrusunu isə Allah bilir!

**Uca Allah buyurur:**

«**Məgər insan** [As ibn Vail yaxud Übeyy ibn Xələf] **onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə** [Rəbbinə] **açıq bir düşmən kəsilərək, öz yaradılışını unudub: «Çürümüş sümükləri kim diriltə bilər?!»- deyə, hələ bizə bir məsəl də çəkdi.** [Ya Peyğəmbər!] **De: «Onları ilk dəfə yoxdan yaradan diriltəcəkdir. O, hər bir məxluqu** [yaradılışından əvvəl də, sonra da] **çox gözəl tanıyandır! O yaradan ki, sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan** [o iki ağacı bir-birinə sürtməklə] **od yandırırsınız». Məgər göyləri və yeri yaradan** [bir daha] **onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə, qadirdir.** [Hər şeyi] **Yaradan və** [hər şeyi] **Bilən Odur! Bir şeyi** [yaratmaq] **istədiyi zaman Allahın buyuruğu ona ancaq: «Ol!»- deməkdir. O da dərhal olar. Hər şeyin hökmü** [ixtiyarı] **əlində Olan** [Allah] **pak və müqəddəsdir. Siz də** [qiyamət günü dirilib] **Onun hüzuruna qaytarılacaqsınız !» (77-83-cü ayələr)**

İbn Əbi Hatim «Təfsir»ində (İbn Kəsirin «Təfsir»ində (3-cü cild, səh. 581) qeyd olunduğu kimi) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, As ibn Vail düzənlikdən bir sümük götürüb onu ufalayıb xırda-xırda tikələr etdi və Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - dedi: «Məgər Allah bu çürümüş sümüyü əvvəlki halına qaytara bilər?»

Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Bəli, O səni öldürəcək, sonra diriltəcək və daha sonra Cəhənnəmə vasil edəcəkdir». Uca Allah da «Ya sin» surəsinin sonuncu aylərini nazil etdi.

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 429) rəvayət etmiş və Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demişdir.

# Əz-Zumər surəsi

**Uca Allah buyurur:**

«**Allah sözün ən gözəlini** [Quranı, ayələri] **bir-birinə bənzər,** [xəbərləri və hekayətləri, əmrləri və qadağanları, vədləri və təhdidləri] **təkrarlanan bir kitab şəklində nazil etdi. Ondan** [Quranın təhdidlərindən] **Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən** [öyüd-nəsihətindən, vədlərindən] **sonra ürəkləri yerinə gəlib qorxuları gedər. Bu** [Quran] **Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldər. Allahın yoldan çıxartdığı kimsəyə isə heç bir yol göstərən olmaz! Məgər qiyamət günü şiddətli əzabdan üzü ilə qorunan** [yaxud Cəhənnəm oduna üzü üstə atılan kəs əzabdan əmin olan və ya Cənnətə daxil olan kimsə kimi ola bilərmi]?! **Zalimlərə** [kafirlərə] **: «Etdiyiniz əməllərin cəzasını dadın!»- deyilər. Onlardan** [Məkkə müşriklərindən] **əvvəlkilər də** [peyğəmbərləri] **təkzib etmişdilər. Buna görə də özləri bilmədikləri yerdən onlara əzab gəlmişdi». (23-25-ci ayələr)**

Bu ayələrin nazil olma səbəbi artıq «Yusif» surəsinin 1-3-cü ayələrinin nazil olmasına aid hədisdə qeyd olunub.

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbər! Mənim adımdan qullarıma] **de: «Ey Mənim** [günah törətməklə] **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah** [tövbə etdikdə] **bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayan və rəhm edəndir». (53-cü ayə)**

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 435) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ömər (r.a) deyir ki, o zamanlar biz yolunu azmış [hər bir müsəlman] barəsində: «Allah onun tövbəsini qəbul etməz!» - deyərdik. Allahın elçisi - **səllallahu aleyhi və səlləm** - Mədinəyə gəldikdən sonra onlar barəsində bu ayə:

«[Ya Peyğəmbər! Mənim adımdan qullarıma] **de ki: «Ey Mənim** [günah törətməklə] **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah** [tövbə etdikdə] **bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayan və rəhm edəndir»** və bundan sonrakı ayələr nazil oldu.

Mən öz əlimlə bu ayələri[157] bir səhifəyə yazıb Hişam ibn əl-Asa (r.a) göndərdim.

Hişam ibn əl-As (r.a) deyir ki, məktub mənə çatdıqda onu götürüb zi-Tuvaya[158] qalxdım və orada onu diqqətlə oxudum,

---

[157] Hədisin bundan sonrakı ləfzi Hakimin «Mustədrək» əsərində aydın olmadığından onu eyni isnadla rəvayət olunmuş «Sira» əsərindəki hədisdən yazmışam. Bu eynilə «Məcməuz-Zəvaid əsərində də qeyd olunub.

lakin heç nə başa düşə bilmədim. Mən Allaha yalvarıb dedim: «Allahım, bunun mənasını mənə başa sal!» Uca Allah da qəlbimə yeritdi ki, bu ayələr bizim barəmizdə nazil olmuşdur. Mən öz dəvəmə minib Mədinəyə, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına getdim».

Hakim bu hədisin Muslimin şərtinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Hədisi həmçinin ibn İshaq (ibn Hişamın «Sira» əsərində (1-ci cild, səh. 475) qeyd olunduğu kimi) və Bəzzar (Heysəminin «Məcməuz-Zəvaid» əsərində (6-cı cild, səh. 61) qeyd olunduğu kimi) rəvayət etmişlər. Heysəmi hədisin isnadında olan ravilərin hamısının «siqa»[159] ravilər olduğunu qeyd etmişdir.

**Uca Allah buyurur:**

**«**[Müşriklər] **Allahı lazımınca qiymətləndirmədilər** [uca tutmadılar]**. Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir. Allah** [müşriklərin] **Ona aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!» (67-ci ayə)**

Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 151, 378) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah (r.a) deyir ki,

---

[158] [ Tuva ya Şamda yerləşən dağın adı, ya da Tur [Sinay] dağının ətəyindəki vadinin adıdır. «Mu'cəmul-Vəsit», səh. 572. Həmçinin bax: «Ta Ha» surəsi, 12 və «ən-Naziat» surəsi, 16. ]

[159] Hədisi Bəzzar «Kəşful-Əstar» əsərində (1-ci cild, səh. 302) rəvayət etmiş və isnadında olan Sədəqə ibn Sabiqin «məsturul-hal» ravi olduğunu qeyd etmişdir. Onu yalnız ibn Hibban «siqa» ravi hesab etmişdir. Qeyd etmək lazımdır ki, Hakimin başqa isnadla Abdullah ibn İdrisdən rəvayət etdiyi hədis bu hədisi qüvvətləndirir.

kitab əhlindən olan bir kişi Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəlib dedi: «Ey Əbul Qasim! Sənə bildirmək istəyirəm ki, Allah bir barmaq üzərində bütün məxluqatı, digər bir barmaq üzərində göyləri, başqa bir barmaq üzərində yerləri, daha bir barmaq üzərində ağacları və nəhayət bir barmaq üzərində də sərvətləri saxlayır». Peyğəmbər - səllallahu aleyhi və səlləm - azı dişləri görünənə qədər [ürəkdən] güldü və bu ayə nazil oldu:

«[Müşriklər] **Allahı lazımınca qiymətləndirmədilər……**»

Bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

Hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 177), ibn Xuzeymə «Tövhid» əsərində (səh. 76, 78), ibn Cərir «Təfsir»ində (14-cü cild, səh. 26; 24-cü cild, səh. 27) və Beyhəqi «Əsma vəs-Sifat» əsərində (səh. 333) rəvayət etmişlər.

Suyuti «İtqan» əsərində (1-ci cild, səh. 34) demişdi: Hədis Buxarinin «Səhih» əsərində (ibn Həcərin «Fəthul-Bari» əsərində (8-ci cild, səh. 700) qeyd olunduğu kimi) «və Peyğəmbər - səllallahu aleyhi və səlləm - bu ayəni oxudu» - ləfzi ilə varid olmuşdur. Bu daha doğrudur, çünki ayə Məkkə ayələrindəndir.

Qeyd etmək istəyirəm ki, «oxudu» ləfzi heç də ayənin nazil olduğunu inkar etmir. Demək olar ki, ayə nazil oldu və Peyğəmbər - səllallahu aleyhi və səlləm - onu oxudu. Məkkə ayəsi olduğuna gəlincə, əgər ayənin orada nazil olduğu sübuta yetirilərsə, onda demək olar ki, bu ayə iki dəfə [Məkkədə sonra da Mədinədə] nazil olub. Əks təqdirdə isə bu ayəni çıxmaq şərtilə surənin Məkkə surəsi olduğunu hesab etmək olar. Daha doğrusunu isə Allah bilir!

# Fussilət surəsi

**Uca Allah buyurur:**

**«Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şəhadət verəcəklərindən qorxub** [günah işləməkdən] **çəkinmir, etdiyiniz əməllərin çoxunu isə Allahın bilməyəcəyini zənn edirdiniz». (22-ci ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 182; 17-ci cild, səh. 276) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Məs'ud (r.a)

**«Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şəhadət verəcəklərindən qorxub** [günah işləməkdən] **çəkinmir….»** ayəsini belə izah etmişdir: «Qüreyş qəbiləsindən olan iki kişi və onların qadın tərəfindən olan, Səqifli bir qohumu[160], yaxud Səqif qəbiləsindən olan iki kişi və onların qadın tərəfindən olan qüreyşli bir qohumu[161] evdə [Kəbənin içində] söhbət edirdilər. Onlardan biri digərlərindən: «Allah bizim söhbətimizi eşidirmi?»- deyə soruşdu. Başqa birisi: «O bizim bəzi danışdıqlarımızı eşidir!»- dedi. Digəri isə:

---

[160] [ Burada ya qayınata, ya qayın, ya kürəkən, ya da yeznə qəsd olunur. «Mucəmul-Vəsit» səh. 218 ]

[161] [ Bu, ibn Məs'uddan (r.a) rəvayət edən Əbu Mə'mərin şübhəsidir. «Fəthul Bari» 8/424. ]

«Əgər O, danışdıqlarımızın bəzisini eşidirsə, deməli onların hamısını eşidir!»- dedi və bu ayə nazil oldu:

**«Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şəhadət verəcəklərindən qorxub** [günah iştəməkdən] **çəkinmir....»**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (17-ci cild, səh. 122), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 188), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 381, 408, 426, 442, 444), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 23), ibn Cərir «Təfsir»ində (24-cü cild, səh. 109), Beyhəqi «Əsma vəs-Sifat» əsərində (1-ci cild, səh. 177) və Təhavi «Muşkilul-Əsar» əsərində (1-ci cild, səh. 37) rəvayət etmişlər.

Bu rəvayətlərin bəzisində Abdullah ibn Məs'ud demişdir: «Onlardan biri digərlərindən: «Allah bizim söhbətimizi eşidirmi?»- deyə soruşdu. Başqa birisi: «Uca səslə danışdıqlarımızı eşidir, lakin alçaq səslə danışdıqlarımızı eşitmir»- dedi. Digəri isə: «Əgər O, danışdıqlarımızın bəzisini eşidirsə, deməli onların hamısını eşidir!»- dedi. Mən bu barədə Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** xəbər verdikdə Uca Allah bu ayəni nazil etdi».

# Əş-Şura surəsi

**Uca Allah buyurur:**

**«Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir.** [Ya Peyğəmbər!] **De: «Mən sizdən bunun** [risaləti təbliğ etməyimin] **müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görsə, onun yaxşılığının savabını** [mükafatını] **artırarıq!» Həqiqətən, Allah bağışlayandır və qədirbiləndir!** [Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!]» **(23-cü ayə)**

Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 229) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Tavus rəvayət edir ki, bir kişi gəlib Abdullah ibn Abbasdan (r.a) [aşağıdakı] ayənin mənasını soruşdu:

**«De ki: «Mən sizdən bunun** [risaləti təbliğ etməyimin] **müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm».**

Bu vaxt Səid ibn Cubeyr: «Burada Məhəmmədin **- səllallahu aleyhi və səlləm -** qohum-əqrəbası qəsd olunur!»[162] - deyə cavab verdi. İbn Abbas (r.a) ona dedi: «Sən tələsdin! Həqiqətən, Qüreyş tayfalarının hər birində onun qohum-əqrəbası var idi və bu ayə nazil oldu:

**«De: «Mən sizdən bunun** [risaləti təbliğ etməyimin] **müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm.» -** yalnız mənimlə sizin aranızda olan qohumluq əlaqələrini möhkəmləndirməkdən başqa.[163]

---

[162] [ Yəni, bu ayədə müsəlmanlara onun bütün qohum-əqrəbasını sevmək xitab olunub. «Fəthul Bari», 8/427. ]

[163] [ Yəni, heç olmasa onlarla Peyğəmbər arasında olan qohumluq əlaqələrinə görə onu sevsinlər deyə xüsusən Qüreyş tayfasına xitab olunmuşdur. «Fəthul Bari», 8/427. ]

Bu hədis Buxarinin «Səhih» əsərində rəvayət olunub, lakin burada ayənin nazil olduğu qeyd olunmamışdır. Hədisi həmçinin Təbəri «Təfsir»ində (25-ci cild, səh. 23) rəvayət etmişdir. İbn Həcər «Mətalibul-Aliyə» əsərində (3-cü cild, səh. 368) Əhməd ibn Məniy'in bu hədisi rəvayət etdiyini qeyd etmiş və onun «səhih» olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«Əgər Allah** [bütün] **bəndələrinə bol ruzi versəydi, onlar** [günah etməklə] **yer üzündə həddi aşardılar. Lakin O** [Öz bəndələrinə] **istədiyi qədər** [birinə az, birinə çox] **ruzi göndərir. Allah Öz bəndələrindən xəbərdardır** [onları] **görəndir!» (27-ci ayə)**

İbn Cərir «Təfsir»rində (25-ci cild, səh. 30) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hani[164] deyir ki, «Mən Amr ibn Hərisdən və qeyrilərindən [aşağıdakı] ayənin süffə əhli barəsində nazil olduğunu eşitdim:

**«Əgər Allah** [bütün] **bəndələrinə bol ruzi versəydi, onlar** [günah etməklə] **yer üzündə həddi aşardılar. Lakin O** [Öz bəndələrinə] **istədiyi qədər** [birinə az, birinə çox] **ruzi göndərir...»** Çünki onlar: «Kaş bizim də filan şeyimiz olardı»-deyə təmənna etmişdilər».

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 104) demişdir: «Bu hədisi Təbərani rəvayət etmişdir və isnadında olan ravilərin hamısı Bux ari və Muslimin istinad etdiyi ravilərdir. Onun rəvayətində «Çünki

[164] Bu, Humeyd ibn Hani əl-Xəvlanidir.

onlar dünyaya nail olmaq istəmişdilər!» kəlməsi qeyd olunmuşdur.

Hədisi həmçinin Əbu Nueym «Hilyə» əsərində (1-ci cild, səh. 338), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 445) və Vahidi «Əsbabun-Nüzul» əsərində rəvayət etmişlər.

Hakim bu hədisin «səhih» olduğunu qeyd etmiş və Zəhəbi də bu rəvayətin Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demişdir. İbn Həcər «İsabə» əsərində Amr ibn Hərisin səhabə olub-olmadığı barədə İslam alimlərinin ixtilaf etdiyini qeyd etmişdir.

# Əz-Zuxruf surəsi

**Uca Allah buyurur:**

**«**[Ya Məhəmməd!] **Məryəm oğlu** [İsa] **məsəl çəkilincə sənin qövmün sevincdən güldü». (57-ci ayə)**

Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 317) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin[165] silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) demişdir: «Mən Qurandan bir ayə bilirəm ki, onun barəsində indiyə qədər məndən heç kəs heç nə soruşmayıb. Bilmirəm, bu ayəni insanlara öyrədim onun barəsində məndən soruşmasınlar, yoxsa gözləyim ki, onlar qafil olduqlarını başa düşüb bu ayə barəsində özləri soruşsunlar».

---

[165] [ Bu ravilərdən Əbu Yəhya «daif» ravidir və hədis yalnız bu isnadla «daif» hesab olunur. ]

Sonra o, bizimlə söhbət etməyə başladı. Məclisdən qalxdıqda isə ondan bu ayə barəsində soruşmadığımıza görə bir-birimizi qınadıq. Mən[166] dedim: «Sabah gəlsə, bu ayə barəsində mən ondan soruşacağam!» Ertəsi gün mən ona dedim: «Ey ibn Abbas! Dünən sən qeyd etdin ki, Quranda bir ayə var ki, onun barəsində indiyə qədər səndən heç kəs heç nə soruşmayıb. Və sən bilmirsən, bu ayəni insanlara öyrədəsən ki, onun barəsində səndən soruşmasınlar, yaxud gözləyirsən ki, onlar qafil olduqlarını başa düşüb bu ayə barəsində özləri səndən soruşsunlar! Elə isə o ayə barəsində mənə xəbər ver!» O dedi: «Bəli! Həqiqətən, Peyğəmbər - səllallahu aleyhi və səlləm - Qüreyş tayfasına belə dedi: «Ey Qüreyş tayfası! Həqiqətən, Allahdan başqa ibadət olunan ilahilərdə heç bir xeyir yoxdur!»

Qüreyş tayfası xaçpərəstlərin İsaya - aleyhissəlam - tapındıqlarını və onların Məhəmməd - səllallahu aleyhi və səlləm - bərəsində nə dediklərini bilirdilər. Odur ki, onlar dedilər: «Ey Məhəmməd! Sən iddia edirsən ki, İsa - aleyhissəlam - Allahın peyğəmbəri və əməlisaleh quludur. Əgər sən doğru deyirsənsə, onda elə çıxır ki, onların ilahilərində xeyir yoxdur?»[167] Uca Allah bu ayəni nazil etdi:

**«**[Ya Məhəmməd!] **Məryəm oğlu** [İsa] **məsəl çəkilincə sənin qövmün sevincdən güldü».**

Uca Allahın:

**«Şübhəsiz ki, o qiyamət saatı üçün bir əlamətdir»**[168] ayəsi, Məryəm oğlu İsanın - aleyhissəlam - qiyamətdən əvvəl zühur edəcəyinə işarədir.

---

[166] [ Yəni, Əbu Yəhyə. ]

[167] [ Bax: «əz-Zuxruf» surəsi, 57-64. ]

[168] [ «Fussilət» surəsi, 61. ]

Bu hədisi həmçinin Təhavi «Muşkilul-Əsar» əsərində (1-ci cild, səh. 431) rəvayət etmişdir.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 104) demişdir: «Bu hədisi Əhməd və Təbərani rəvayət etmişlər. İsnadında olan Asim ibn Bəhdələdən başqa ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Onu da Əhməd və digərləri «siqa» ravi hesab etmişlər. Qeyd etmək lazımdır ki, onun havizəsi zəifdir.

Suyuti «Lübabun-Nüqul» əsərində bu hədisin isnadının «səhih» olduğunu, Zəhəbi isə «Mizan» əsərində onun «həsən» olduğunu demişdir.

# Əd-Duxan surəsi

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbər!] **Sən göyün aşkar bir dumana bürünəcəyi günü gözlə!** [O gün müşriklərə elə bir aclıq üz verəcəkdir ki, gözləri qaranlıq gətirib yerlə göyün arasını, sanki bir duman bürüdüyünü görəcəklər!] **O** [duman] **insanları bürüyəcəkdir. Bu, şiddətli bir əzabdır!** [Doğrudan da Qüreyş müşriklərinə küfrləri üzündən belə bir aclıq üz vermiş, onlar çarəsizlikdən napak şeyləri belə yeməyə məcbur olmuşdular] . [Belə bir bəlaya uğrayan müşriklər deyəcəklər] **: «Ey Rəbbimiz! Bizi bu əzabdan qurtar. Biz, həqiqətən, iman gətirəcəyik!» Onlar hara, öyüd-nəsihət eşitmək hara?! Halbuki onlara açıq-aşkar bir peyğəmbər gəldi, onlar isə ondan üz çevirib belə dedilər:**

«[Bu başqası tərəfindən] **öyrədilmiş bir divanədir!» Biz sizi bu əzabdan bir az qurtaracağıq, siz isə** [yenidən küfrə] **qayıdacaqsınız! Onları lap möhkəm yaxalayacağımız gün şübhəsiz ki, Biz** [onlardan] **intiqam alacağıq!» (10-16-cı ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 192) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Məs'ud (r.a) deyir ki, Qüreyşin başına bu müsibətin gəlməsi ona görə idi ki, onlar Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** qarşı üsyan etdikdə o: «Allahım, Yusifin zamanında olan qıtlıq [aclıq və susuzluq] illəri kimi onlara əzab ver!» - deyə onların əleyhinə dua etdi buna görə də onlara aclıq və quraqlıq üz verdi. Belə ki, onlar acından sümük yeyirdilər. O zamankı aclıq və susuzluğun şiddətindən hər hansı bir şəxs göyə baxsaydı gözünə qaranlıq gələr və sanki yerlə göyün arasını bir duman bürüdüyünü görərdi. Uca Allah da bu ayələri nazil etdi:

«[Ya Peyğəmbər!] **Sən göyün aşkar bir dumana bürünəcəyi günü gözlə!** [O gün müşriklərə elə bir aclıq üz verəcəkdir ki, gözləri qaranlıq gətirib yerlə göyün arasını sanki bir duman bürüdüyünü görəcəklər!] **O** [duman] **insanları bürüyəcəkdir. Bu, şiddətli bir əzabdır!»**

Sonra Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** deyildi: «Ey Allahın elçisi, Mudar qəbiləsi həlak oldu! Allahın onlara yağış endirməsi üçün Ona dua et!» O: «Mudar qəbiləsi üçün dua edim? Doğrudan da sən çox cürətlisən!»- deyib onlar üçün dua etdi. Uca Allah da bu ayəni nazil etdi:

**«Biz sizi bu əzabdan bir az qurtaracağıq, siz isə** [yenidən küfrə] **qayıdacaqsınız!»**

Onlara firavanlıq nəsib olduqdan sonra yenə öz çirkin əməllərinə qayıtdılar və Uca Allah bu ayəni nazil etdi:

**«Onları lap möhkəm yaxalayacağımız gün şübhəsiz ki, Biz** [onlardan] **intiqam alacağıq!» -** yəni, Bədr vuruşu günü».

Bu hədisi Muslim «Səhih» əsərində (17-ci cild, səh. 141) istinad edərək başqa ləfz ilə rəvayət etmişdir ki, Məsruq Abdullah ibn Məs'udun (r.a) yanına gəlib dedi: «Bir kişi məsciddə oturub

**«**[Ya Peyğəmbər!] **Sən göyün aşkar bir dumana bürünəcəyi günü gözlə!»** ayəsini özünün başa düşdüyü kimi izah edib dedi: «Qiyamət günü insanları tüstü-duman bürüyüb onların canını alacaq. Bu sanki bir iltihab olacaqdır». Abdullah ibn Məs'ud (r.a) [bu cəfəngiyyatı eşitdikdə] dedi: «Bildiyinizi danışın və birmədikləriniz barəsində: «Allah daha yaxşı bilir!»- deyin! Həqiqətən, kişinin bilmədiyi bir məsələyə: «Allah daha yaxşı bilir!»- deməsi onun elmli olmasına sübutdur!» Hədis bu ləfzlə Buxarinin «Səhih» əsərində də rəvayət olunmuşdur.

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 381) rəvayət etmişdir.

## Əl-Casiyə surəsi

**Uca Allah buyurur:**

**«**[Qiyaməti inkar edənlər] **belə deyirlər: «Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölürük və dirilirik**

[biri ölür, digəri anadan olur; biz ölürük övladlarımız, nəslimiz isə yaşayır] **; bizi öldürən ancaq dəhrdir** [zamanın gərdişi, ömür müddətidir; yaşa dolub qocalmağımızdır] **. Bu barədə onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar!** [Hər şeyi zamanın, vaxtın boynuna yıxmaq doğru deyildir, çünki bütün canlı və cansız məxluqat kimi zamanın özünü də yaradan Allahdır]»**. (24-cü ayə)**

İbn Cərir «Təfsir»ində (25-ci cild, səh. 152) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hureyrə (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Cahiliyyə dövründə insanlar: «Bizi gecə və gündüz həlak edir! Bizi həlak edən də, öldürən də, dirildən də odur!» – deyərdilər. Allah da Öz kitabında belə buyurdu:

**«**[Qiyaməti inkar edənlər] **belə deyirlər: «Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölürük və dirilirik; bizi öldürən ancaq dəhrdir. Bu barədə onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar!» -** onlar dəhri [zamanı] söyürlər. Uca Allah [qüdsi[169] hədisdə] demişdir: «Adəm övladı dəhri söyməklə Mənə əziyyət verir.[170] Dəhr[171]

---

[169] [ Qüdsi hədis o xəbərdir ki, Allah Öz peyğəmbərinə ilham vasitəsilə, yaxud da yuxuda agah edib, sonra da o, bu xəbərin mənasını öz ifadələri ilə ümmətə çatdırıb. Quran isə Allahın kəlamıdır və olduğu kimi nazil olduğu üçün qüdsi hədisdən üstün sayılır. «Təa'rif», 1/271; «Tə'rifat» 1/113. ]

[170] [ «Mənası - «Adəm övladı əziyyət verən bir sözlə Mənə xitab edir». Belə ki, hər hansı bir əziyyətin Allaha gedib çatması mümkün olan iş deyildir». Bu izahı ibn Həcər «Fəthul-Bari» əsərində (8/438) nəql etmişdir. ]

[171] [ İbn Teymiyyə bunu izah edib belə demişdir: «Şübhəsiz ki, yaradılmışlardan hər kimsə dəhri (zamanı) söyərkən Allahı qəsd etmir.

Mənəm! Hər şeyi idarə edən, gecəni gündüzə, gündüzü də gecəyə çevirən Mənəm!»

Suyuti «Lübabun-Nüqul» əsərində Munzirinin bu hədisi «məvquf» isnadla Əbu Hureyrədən (r.a) rəvayət etdiyini nəql etmişdir. Burada hədis: «Və Uca Allah bu ayəni nazil etdi» ləfzilə qeyd olunur. İbn Kəsirə gəlincə, o «Təfsir»ində (4-cü cild, səh. 151) ibn Cəririn rəvayət etdiyi hədisi nəql etdikdən sonra demişdi: «İbn Cərir bu hədisi çox «ğərib» isnadla rəvayət etmişdir. Hədisi ibn Əbi Hatim də bu isnadla rəvayət etmişdir».

Mən bu hədisin isnadında olan «ğərib»liyin səbəbini bilmirəm, çünki isnadda olan ravilərin hamısı Buxari və Mulimin istinad etdiyi ravilərdir. Lakin qeyd etmək istəyirəm ki, ibn Həcər «Fəthul Bari» əsərində (10-cu cild, səh. 195) bu hədisi nəql etmiş və hökmü barədə susmuşdur.

# Əl-Əhqaf surəsi

**Uca Allah buyurur:**

**«De: «Bir deyin görək, əgər** [bu Quran] **Allah dərgahından olsa, siz onu inkar etsəniz, İsrail oğullarından da bir şahid** [Quranın həqiqiliyinə] **onun özü kimisi** [Tövrat] **ilə şəhadət verib iman gətirsə və siz** [yenə ona qarşı] **təkəbbür**

---

Belə ki, o bununla yalnız müsibətləri onun başına gətirəni qəsd edir və beləliklə də bu söyüş Allaha aid edilir. Çünki həqiqətdə bütün bunları edən Allahdır. Deməli «Dəhr Mənəm»- dedikdə «dəhrə aid etdikləri hər bir işi görən Mənəm» qəsd edilir. «Sarimul-Məslul», 3/922. ]

**göstərsəniz** [zalim olmazsınızmı!?] **Allah zalim tayfanı doğru yola müvəffəq etməz!» (10-cu ayə)**

Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 25) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Auf ibn Malik (r.a) demişdir: «Mən yəhudilərin bayramı günü Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - birlikdə onların Mədinədəki məbədinə gəldim. Onlar bizim o məbədə daxil olmağımıza narazılıq etdikdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Ey yəhudi tayfası! Mənə içinizdən on iki kişi göstərin[172] ki, onlar Allah-dan başqa [ibadətə haqqı olan] ilahın olmadığına və Məhəmmədin Onun elçisi olduğuna şəhadət versin, Allah da qəzəbinə gəlmiş hər bir yəhudini bağışlasın!»

Onlar Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - cavab[173] verməyib susdular. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dediklərini ikinci və üçüncü dəfə də təkrar etdi, lakin onlar cavab vermədilər. Sonra o dedi: «Siz bu dəvəti qəbul etmədiniz! Allaha and olsun ki, istəyirsiniz iman gətirin, istəyirsinizsə də yalan sayın. Mən Haşirəm, Aqibəm[174] və seçilmiş peyğəmbərəm!»

Sonra biz dönüb getdik və məbəddən çıxmaq istədikdə bir nəfər arxadan: «Ey Məhəmməd!»- deyə çağırdı və biz geri

---

[172] «Müsnəd»də bu ləfz aydın olmadığı üçün, biz onu «Məcməuz-Zəva-id»dən yazmışıq.

[173] Bu ləfz də aydın olmadığı üçün «Məcməu-z-Zəvaid»dən yazmışıq.

[174] [ Haşir və Aqib - Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - adlarıdır. Haşir - toplayan, Aqib isə sonuncu - deməkdir. Qiyamət günü insanlar onun ardınca gedib məhşərə toplanacaqlar və o, sonuncu peyğəmbərdir ki, ondan sonra heç bir peyğəmbər yeni şəriətlə gəlməyəcək. «Səhihul-Buxari», 3339; «Səhih-Muslim», 2354. ]

qayıtdıq. Həmin kişi, [yəhudilərə üz tutub] dedi: «Ey yəhudi tayfası! Məni tanıyırsınızmı?»[175]

Onlar dedilər: «Allaha and olsun ki, içərimizdə Allahın kitabını səndən yaxşı bilən, səndən, sənin atandan və babandan daha elmli olan şəxs yoxdur!»

O dedi: «Mən şəhadət verirəm ki, həqiqətən, o sizin əlinizdə olan Tövratdan [adını, vəsfini və əlamətlərini] bildiyiniz Peyğəmbərdir».

Onlar: «Yalan danışırsan!» – deyib onun dediklərini rədd etdilər və onun barəsində xoşagəlməz sözlər söylədilər.

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** onlara dedi: «Siz yalan söylədiniz. Sizin bu inadkarlığınız qəbulolunmazdır! Siz bir az öncə gözəl sözlərlə onu tərifləyirdiniz. O iman gətirdikdən sonra isə dediklərini təkzib etdiniz və barəsində nalayiq sözlər dediniz. Onun barəsində dedikləriniz qəbulolunmazdır!»

Sonra biz üçümüz, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** , mən və Abdullah ibn Səlam (r.a) oradan çıxıb getdik. Uca Allah da bu ayəni nazil etdi:

**«De: «Bir deyin görək, əgər** [bu Quran] **Allah dərgahından olsa, siz onu inkar etsəniz, İsrail oğullarından da bir şahid** [Quranın həqiqiliyinə] **onun özü kimisi** [Tövrat] **ilə şəhadət verib iman gətirsə və siz** [yenə ona qarşı] **təkəbbür göstərsəniz** [zalim olmazsınızmı!?] **Allah zalim tayfanı doğru yola müvəffəq etməz!»**

Bu hədisi həmçinin ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zəman» əsərində (səh. 518) qeyd olunduğu kimi), Təbərani «Mucəm» əsərində (26-cı cild, səh. 12) və Hakim «Mustədrək» əsərində (3-cü cild, səh. 416)

[175] Bu ləfz də aydın olmadığı üçün «Məcməuz-Zəvaid»dən yazmışıq.

rəvayət etmişlər. Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 106) demişdir: «Bu hədisi Təbərani rəvayət etmişdir və isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Qeyd etmək lazımdır ki, bu hədis yalnız Muslimin şərtinə müvafiqdir. Çünki, Buxari nə Abdurrəhman ibn Cubeyrə, nə də onun atasına istinad etmişdir. O ki qaldı Səfvan ibn Amra, Buxari yalnız «müəlləq» isnadla ondan rəvayət etmişdir. Bunu da ibn Həcər «Təhzibut-Təhzib» əsərində qeyd etmişdir.

**QEYD:** Buxari və Muslimin «Səhih» əsərlərində qeyd olunur ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Mədinəyə gəldikdə Abdullah ibn Səlam (r.a) özü onun yanına gəlmişdi. O, bu hadisəni rəvayət etmiş və ayənin nazil olduğunu deməmişdi. Yuxarıdakı rəvayətdə isə Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - onların məbədinə getdiyi qeyd olunur. Bu hədisləri necə cəm etmək olar? Keçmiş alimlərin rəyi mənə məlum deyil, lakin demək olar ki, Abdullah ibn Səlam (r.a) Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib İslamı qəbul etdikdən sonra qövmünün yanına qayıtmış və bu barədə onlara heç nə deməmişdir. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - yəhudilərin yanına gəldikdə isə Abdullah (r.a) açıb həqiqəti onlara demişdir. Daha doğrusunu isə Allah bilir.

İstəyirsənsə mənim bu fikrimlə razılaş, ya da ola bilsin Allah sənə bundan da gözəl rəy tapmağı nəsib etsin. Abdullah ibn Səlamın (r.a) rəvayəti Buxari və Muslimin «Səhih» əsərlərində varid olduğu üçün daha mötəbər sayılır. İbn Həcər «İsabə» (3-cü cild, səh. 43) və «İstiy'ab» (3-cü cild, səh. 131) əsərlərində,

həmçinin Vaqidi Auf ibn Malikin (r.a) İslamı Xeybər günü qəbul etdiyini demişdi. Bəziləri də onun İslamı Məkkənin fəthi günü qəbul etdiyini demişlər. İbn Sə'd deyir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - onunla Əbu Dərda (r.a) arasında qardaşlıq münasibəti qurdu. O, «Təbəqat» əsərində (7-ci cild, səh. 2) onun İslamı Huneyn döyüşündən əvvəl qəbul etdiyini və bu döyüşdə iştirak etdiyini demişdir. Həmçinin Hakim də «Mustədrək» əsərində (3-cü cild, səh. 546) bunu Vaqididən nəql etmişdir. Bütün bu deyilənlərdən hədisin «səhih» olmaması görünür. Daha doğrusunu isə Allah bilir.

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbər! Onu da xatırla ki,] **bir zaman bir dəstə** [ona qədər] **cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə** [yaxud sənin yanında] **hazır olduqda** [bir-birinə] **: «Qulaq asın!»- dedilər və** [Quran oxunub] **qurtardıqdan sonra** [həmcinslərini Allahın əzabı ilə] **qorxudanlar sifətilə öz qövmlərinin yanına qayıtdılar.** [İşə bax ki, cinlər Quranı eşidib ona iman gətirdikləri halda, bu müşriklər hələ də ondan üz döndərirlər.] **Onlar dedilər: «Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri** [Tövratı, İncili, Zəburu və səhifələri] **təsdiq edən,** [Allahın bəndələrini] **haqqa və düz yola** [İslam dininə] **yönəldən bir kitab dinlədik! «Ey qövmümüz! Allahın carçısını** [Məhəmməd əleyhissəlamı] **qəbul edin və ona iman gətirin. Allah** [qiyamət günü] **günahlarınızdan keçər və sizi şiddətli əzabdan xilas edər! Allahın carçısını qəbul etməyən** [bilsin ki] **yer üzündə qaçıb canını Ondan** [Onun əzabından] **qurtara bilməz və ona Allahdan başqa kömək edən dostlar**

**da tapılmaz. Belələri açıq-aşkar** [haqq yoldan] **azmışlar!» (29-32-ci ayələr)**

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 456) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** xurma ağacının yanında Quran oxuyarkən bir dəstə cin onun yanına endi və oxuduğu Quranı eşitdikdə bir-birilərinə susmağı əmr edib: «Susun!»- dedilər. Onların sayı doqquz idi və aralarında biri onların başçıları idi. Uca Allah bu ayəni nazil etdi:

**«**[Ya Peyğəmbər! Onu da xatırla ki,] **bir zaman bir dəstə** [ona qədər] **cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə** [yaxud sənin yanında] **hazır olduqda** [bir-birinə] **: «Qulaq asın!»- dedilər....»** ayəsindən **«....açıq-aşkar haqq yoldan azmışlar!»** ayəsinə qədər.

Hakim hədisin isnadının «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Bu hədisi həmçinin Beyhəqi «Dəlailun-Nubuvvə» əsərində (2-ci cild, səh. 13) bu isnadla rəvayət etmişdir.

# Əl-Fəth surəsi

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 210) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə

qədər sadaladıqdan sonra] demişdir: «Əbu Vail (r.a) rəvayət edir ki, biz Səffeyn[176] döyüşündə olarkən bir nəfər gəlib Əliyə (r.a) dedi: «Uca Allahın kitabına dəvət edənləri görmürsən?»[177] O: «Bəli! [Mən Allahın kitabına dəvət edən ən layiqli insanlardanam]»[178] – deyə cavab verdi.

[Sonra qılıncını çiyninə atmış xavariclərdən biri Əlinin (r.a) yanına gəlib dedi: «Ey möminlərin əmiri! Onlara güzəşt etmək olmaz! Gəl qılınclarımızı götürüb onların üstünə gedək və Allahın hökmü ilə hökm edək!»][179] Səhl ibn Hənif (r.a) dedi: «Siz bu məsələdə özünüzü ittiham edin!» Hüdeybiyyə günü Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - müşriklər arasında sülh müqaviləsi bağlandıqda biz onlarla vuruşa bilərdik. Hətta o zaman Ömər (r.a) Peyğəmbərə - səllallahu aleyhi və səlləm - demişdi: «Məgər biz haqq üzərində, onlar isə azğınlıqda və bizim şəhidlər Cənnətlik onların ölüləri isə Cəhənnəmlik deyilmi?» O: «Bəli!» - deyə cavab verdikdə Ömər (r.a) dedi: «Bəs nə üçün biz dinimiz uğrunda bu dəyərsiz şərtlərlə razılaşmalı, onları qəbul etməli və Allah aramızda hökm verməmiş geri dönməliyik». Peyğəmbər - səllallahu aleyhi və səlləm - ona: «Ey ibn əl-Xəttab! Həqiqətən, mən Allahın elçisiyəm və O heç zaman məni nəzarətsiz qoymaz!»

---

[176] [ Furat çayının sahilində, Riqqə və Minbəc arasında yerləşən qədim şəhərin adıdır. Burada Əli (r.a) ilə Müaviyə (r.a) arasında müharibə baş vermişdir. «Fəthul Bari» 8/453. ]

[177] [ O zaman döyüşdə Amr ibn əl-As (r.a) Quranları qaldırıb Əli ibn Əbu Talibi (r.a) Allahın kitabına, sülhə dəvət etməyi Müaviyəyə (r.a) nəsihət etmişdi. Buna görə də Abdullah ibn Kivai gəlib Əliyə (r.a) belə demişdi. «Fəthul Bari» 8/453. ]

[178] [ «Fəthul Bari» 8/453. ]

[179] [ «Fəthul Bari» 8/453. ]

Ömər (r.a) qəzəbli halda Əbu Bəkrin (r.a) yanına gəlib ona belə dedi: «Məgər biz haqq üzərində onlar isə azğınlıqda deyilmi?» - O: «Ey ibn əl-Xəttab! Həqiqətən, o, Allahın elçisidir və Allah onu heç zaman nəzarətsiz qoymaz!»- dedi və «Fəth» surəsi nazil oldu».

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (2-ci cild, səh. 141) rəvayət etmişdir. Bu hədisdə qeyd olunur ki: «Bu hadisədə Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** ayələr nazil oldu və o, bu ayələri Ömərə (r.a) oxuduqda o dedi: «Ey Allahın elçisi! Bu fəthdirmi?» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** : «Bəli» - deyə cavab verdi və onun qəlbi rahatlaşdı».

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (10-cu cild, səh. 205), Tirmizi «Sünən» əsərində, Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 31; 3-cü cild, səh. 486) və ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 71) rəvayət etmişlər.

ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 70) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Qarilərdən[180] biri, Məcmə' ibn Cariyə əl-Ənsari rəvayət edir ki, Hüdeybiyyə günü biz Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** bir yerdə idik. [Müşriklərlə sülh müqaviləsi bağlandıqdan sonra] biz dönüb getdikdə dəvələri [səfərə] hazırlayanların bir qismi dedi: «Camaata nə olub?» Cavabında onlara: «Allah Öz elçisinə ayələr nazil edib» - deyildi.

«[Ey Peyğəmbər!] **Həqiqətən, Biz sənə** [müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə səbəb

---

180 [ Qari - Quranı əzbər bilən şəxsə deyilir. «Mucəmul Vasit» səh. 722. ]

olacaq Hüdeybiyyə sülhü ilə] **açıq-aşkar bir zəfər bəxş etdik! Allah** [bununla] **sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq…..»**

Səhabələrdən biri dedi: «Ey Allahın elçisi! Bu fəthdirmi?» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** : «Bəli! Nəfsim əlində Olana and olsun ki, bu fəthdir!» - deyə cavab verdi. Sonra Xeybər döyüşündə əldə edilən qənimətlər yalnız Hüdeybiyyə sülhündə iştirak edənlər arasında bölüşdürüldü. Onların [Hüdeybiyyə sülhündə iştirak edənlərin] sayı min beş yüz nəfər idi.[181] Onlardan üç yüzü atlı, yerdə qalanları isə piyada idi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bu qənimətləri on səkkiz yerə böldü və atlıya iki pay, piyadaya isə bir pay verdi».

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 459) rəvayət etmiş və Muslimin şərtinə görə səhih olduğunu qeyd etmişdir. Lakin Zəhəbi onu bu ifadəsinə görə qınamış və demişdir: «Muslim bu isnadda olan Məcmə' ibn Cariyə əl-Ənsariyə və onun atasına istinad edərək hədis rəvayət etməmişdir, lakin onların hər ikisi «siqa» ravidir».

**Uca Allah buyurur:**

**«**[Cihad əmri ona görədir ki] **Allah mömin kişiləri və qadınları əbədi qalacaqları,** [ağacları] **altından çaylar axan cənnətlərə daxil etsin və onların günahlarının üstünü örtsün. Bu, Allah dərgahında böyük qurtuluşdur** [uğurdur!]**» (5-ci ayə)**

---

[181] [ Başqa rəvayətdə: «min dörd yüz nəfər idi». «Səhih- Muslim», 12/174. ]

Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 134, 196, 215, 252) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, yurdlarından uzaqlaşmış və nəhayət qurbanlarını Hüdeybiyyədə kəsmiş Peyğəmbər - səllallahu aleyhi və səlləm - və onun səhabələri sülh müqaviləsi bağladıqdan sonra qəm, kədər içində [Mədinəyə] qayıdarkən bu ayələr nazil oldu:

«[Ey Peyğəmbər!] **Həqiqətən, Biz sənə** [müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə səbəb olacaq Hüdeybiyyə sülhü ilə] **açıq-aşkar bir zəfər bəxş etdik! Allah** [bununla] **sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcəkdir!»**

O, səhabələrinə dedi: «Artıq mənə elə ayələr nazil oldu ki, onlar mənim üçün dünya və onun içindəkilərdən də sevimlidir!» O bu ayələri səhabələrinə oxuduqdan sonra onlardan biri dedi: «Səni xoş xəbər olasan ey Allahın elçisi! Allah sənə əta edəcəyi nemətləri barəsində xəbər verdi. Bəs bizim aqibətimiz necə olacaq?» Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

«[Cihad əmri ona görədir ki] **Allah mömin kişiləri və qadınları əbədi qalacaqları,** [ağacları] **altından çaylar axan cənnətlərə daxil etsin….»**

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (8-ci cild, səh. 456), Muslim «Səhih» əsərində (12-ci cild, səh. 143) – ayənin nazil olduğunu qeyd etmədən -, Tirmizi «Sünən» əsərində (4-

cü cild, səh. 185), ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 69), ibn Hibban «Səhih» əsrində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 436) qeyd olunduğu kimi) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 459) rəvayət etmişlər. Buxari, hədisdəki «Səni xoş xəbər olasan» - ifadəsinin İkrimə tərəfindən deyildiyini qeyd etmişdir. Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmiş və Xeybərin fəthinə aid olduğunu demişdir.

**Uca Allah buyurur:**

**«Sizi onlara** [müşriklərə] **qalib gəldikdən sonra Məkkə vadisində** [Hüdeybiyyədə] **onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən** [onları sizinlə, sizi də onlarla vuruşmağa qoymayan] **Odur. Allah sizin nə etdiyinizi görəndir!» (24-cü ayə)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 257) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Misvər ibn Məxrəmə (r.a) və Mərvan ibn əl-Həkəm bir-birinin rəvayətini təsdiqləyərək demişlər: «Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Hüdeybiyyə sülhündə [Mədinədən səfərə] çıxdı və bir qədər yol getdikdən sonra səhabələrinə belə buyurdu: «Xalid ibn əl-Vəlidin (r.a) başçılıq etdiyi Qüreyşin süvari qoşunu Ğəmim vadisində pusquda dayanıblar. Buna görə də, siz sağ tərəfə gedin!»

Allaha and olsun ki, Xalid (r.a) Peyğəmbəri - **səllallahu aleyhi və səlləm** - və onun səhabələrini görmədi. Yalnız onların arxasınca qalxan qara toz-torpağı gördükdən sonra atını çaparaq [müsəlmanların gəldiyini] Qüreyşə xəbər verməyə getdi. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - isə [səhabələrilə birlikdə]

yoluna davam etdi. Nəhayət gəlib Məkkəyə aparan Hüdeybiyyə vadisindəki dağ yoluna çatdılar. Burada Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - dəvəsi yerə çökdü və insanlar: «Hül! Hül!»[182] - deyə dəvəni yerindən tərpətməyə çalışdılar. Lakin dəvə çökdüyü yerdən qalxmadı və onlar: «Qasva[183] inadkarlıq edib qalxmır!» - dedilər. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Qasva inadkarlıq etməz! Bu onun adəti deyil. Lakin [bir zamanlar Məkkəyə daxil olmaq istəyən] fili tutub saxlayan Allah indidə Qasvanı saxladı. Nəfsim [həyatım] əlində Olana [Allaha] and olsun ki, müşriklər Allahın haram buyurduqlarına[184] riayət etməklə məndən hər nə istəsələr onlara istədiklərini verəcəyəm!»

Sonra Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Qasvanı tərpətdi və heyvan dərhal ayağa qalxdı. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Hüdeybiyyənin qurtaracağında yerləşən və içində az miqdarda su olan çuxurun yanına gəldi. Səhabələr çuxurda olan sudan az-az o qədər daşıyıb apardılar ki, orada su qalmadı. Onlar susuzluqdan Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - şikayət etdikdə o, ox qabından bir ox çıxarıb onlara verdi və onu çuxura sancmağı əmr etdi. Allaha and olsun ki, ox çuxura sancılan kimi oradan su fəvvarə vurdu və bu fəvvarə onlar susuzluqlarını yatırıb oradan qayıdanadək davam etdi. Bu vaxt Budeyl ibn Vərqa əl-Xüza'i (r.a) öz qəbiləsindən, Xüza'ədən olan bir dəstə kişi ilə Peyğəmbərin - **səllallahu aleyhi və**

---

182 Dəvə dayandıqda onu yerindən tərpətmək üçün istifadə olunan kəlmə.

183 [ Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - dəvəsinin adıdır. «Fəthul Bari» 5/395. ]

184 [ Burada ya haram sayılan yerdə döyüşməmək, ya da qohumluq əlaqələrini möhkəmləndirmək qəsd edilir. «Fəthul Bari» 5/396. ]

səlləm - yanına gəldi. Tihaməlilər[185] içərisində Xüza'ə qəbiləsindən olanlar əvvəldən Peyğəmbərin - səllallahu aleyhi və səlləm – sirdaşı idilər. Budeyl (r.a) dedi: «Mən Kə'b ibn Lüeyyi və Amir ibn Lüeyyi[186] Məkkədə tərk edib gəlmişəm. Onlar Hüdeybiyyə vadisindəki ən zəngin su quyularını ələ keçiriblər. Səninlə müharibə etmək və Məkkəyə daxil olmağına mane olmaq istəyirlər. [Uzun müddət müqavimət göstərib qaçmamaq üçün] özləri ilə süd verən və balası yanında olan dişi dəvələr də [və ya arvad-uşaqlarını da][187] gətiriblər».

Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Biz müharibə etmək üçün gəlməmişik! Biz yalnız Ümrə ziyarəti etməyə gəlmişik. Həqiqətən, müharibə Qüreyşi maddi və mənəvi cəhətdən zəiflətmiş, onları ziyana uğratmışdır. Əgər istəyirlərsə müharibəni dayandırıb onlarla sülh müqaviləsi bağlayım. Qoy onda mənimlə digər insanlar [ərəblərdən və qeyri ərəblərdən olan kafirlər] arasında olan münasibətə qarışmasınlar. Əgər mən o kafirlərə məğlub olsam bu onlar üçün bir dəstək olacaq, yox əgər qalib gəlsəm onda onlar da digəriləri kimi İslam dininə daxil ola bilərlər. Əks halda isə [Allaha və Onun rəsuluna itaət etməsələr] mən onlarla bağladığım müqaviləni pozmayacağam. Beləliklə də onlar istirahət edəcəklər [bir müddət müharibədən yaxa qurtaracaqlar]. Onlar mənim bu təklifimi qəbul etməyib bizim işimizə müdaxilə etsələr, nəfsim

185 [ Məkkə və onun ətrafına Tihamə deyilir. Həmçinin burada yaşayanlara isə Tihaməlilər deyilir. «Fəthul-Bari» 5/397. ]

186 [ Onların hər ikisi Qüreyş tayfasının ulu babalarındandır. Bunu deməklə o, «onların nəslindən olanları Məkkədə tərk edib gəlmişəm» demək istəyir. «Fəthul-Bari» 5/398. ]

187 [ «Fəthul-Bari» 5/398. ]

əlində Olan Allaha and olsun ki, başım bədənimdən ayrılana qədər onlarla vuruşacağam. O zaman Allah Öz vədini [İslam dinini ucaldacağını] mütləq doğruldacaq».

Budeyl (r.a) dedi: «Sənin dediklərini onlara çatdıraram!»

Sonra o, qüreyşlilərin yanına gəlib dedi: «Biz Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına getdik və ondan bəzi şeylər eşitdik. İstəyirsinizsə onun dediklərini sizə ərz edək».

Onların arasındakı səfehlər: «Ondan bizə hər hansı bir xəbər verməyinə ehtiyacımız yoxdur» – deyə etirazlarını bildirdilər.

Ağıl sahibləri isə: «De görək ondan nə eşitmisən!» - deyə israr etdilər. O: «Mən ondan filan, filan təklifləri eşitdim» - deyib Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - eşitdiklərini bir-bir onlara nəql etdi. Sonra Urva ibn Məs'ud ayağa qalxıb dedi: «Mən sizin valideyniniz, siz də mənim övladlarım[188] hesab olunmursunuzmu?» Onlar: «Bəli!» - deyə cavab verdilər. O yenə soruşdu: «Siz məni günah etməkdə ittiham edirsinizmi?» Onlar: «Xeyr!» - deyə cavab verdilər. O bir daha soruşdu: «Ukaz əhlini sizin köməyinizə çağırdığımı və onlar sizə yardım göstərməkdən imtina etdikdən sonra əhli-əyalımla, övladımla və mənə tabe olanlarla birlikdə sizə yardım etməyə gəldiyimi bilirsinizmi?» Onlar: «Əlbəttə, bilirik!» - deyə cavab verdilər. Urva dedi: «Həqiqətən, bu kişi sizə xeyir, əmin-amanlıq və islah olunmağınızı təklif edir. Onun dəvətini qəbul

---

188 Bu hədisi Əbu Zərr (r.a) bu ləfz ilə rəvayət etmişdir. Lakin başqa ravilər - Əhməd və ibn İshaqın əsərlərində qeyd olunduğu kimi - «Mən sizin övladınız, sizdə mənim valideynim hesab olunmursunuzmu?» - ləfzi ilə rəvayət etmişlər. Bu ləfz daha səhihdir. «Fəthul Bari», 5/399.

edin və mənə də gedib onunla danışıq aparmağa izn verin!» Onlar: «Gedə bilərsən!» - deyə cavab verdilər.

O, danışıq aparmaq üçün Peyğəmbərin - səllallahu aleyhi və səlləm – yanına gəldi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - Budeylə (r.a) dediklərini Urvaya da dedi.

Urva dedi: «Ey Məhəmməd! Sən öz qövmünü bu şəkildəmi islah etmək istəyirsən? [Sən onları məhv emək istəyirsən?] Heç ərəblərdən öz qövmünü məhv edən bir kəs barəsində eşitmisənmi? Bəs onlar sənə qalib gəlsələr necə? Allaha and olsun ki, mən sənin tərəfdarların arasında cəsarətli üzlər görmürəm. Mən burada bir çox insanlar görürəm ki, onlar səni müharibə başlayan kimi qoyub qaçacaqlar!»

Əbu Bəkr (r.a) [Urvanın bu ittihamlarına dözməyib] dedi: «Get Latın[189] fərcini sor! Sən elə zənn edirsən ki, biz onu qoyub qaçacağıq?!»

O: «Bu kimdir?» - deyə soruşdu. Səhabələr: «Bu, Əbu Bəkrdir (r.a) » - deyə cavab verdilər və o: «Nəfsim əlində Olana and olsun ki, bir zamanlar mənə göstərdiyin və əvəzini vermədiyim qayğı olmasaydı sənin cavabını verərdim!» - deyib Peyğəmbərlə - səllallahu aleyhi və səlləm - söhbətinə davam etdi. O, danışdıqca [hər dəfə söz söylədikdən sonra ərəblərin adətinə görə] Peyğəmbərin - səllallahu aleyhi və səlləm - saqqalından tuturdu. Bu vaxt Muğira ibn Şu'bə (r.a)[190] əlində qılınc və başında dəmir dəbilqə Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanında dayanıb onu qoruyurdu. Urva Peyğəmbərin - səllallahu aleyhi və səlləm - saqqalına əl atdıqca Müğirə (r.a) qılıncının qınının

---

189 [ Qüreyş və Səqif tayfalarının tapındıqları bütün adıdır. «Fəthul Bari», 5/401. ]

190 [ Müğirə (r.a) Urvanın qardaşı oğludur. «Fəthul Bari», 5/402. ]

ucu ilə onun əlinə vurur və ona: «Peyğəmbərin - səllallahu aleyhi və səlləm - saqqalından əlini çək!» - deyirdi. Urva başını qaldırıb: «Bu kimdir?» - deyə soruşdu. Onlar: «Bu Muğira ibn Şu'bədir!» - deyə cavab verdilər. O [üzünü Muğiraya (r.a) tutub] dedi: «Ey xain! Mən hələ də sənin xainliyin nəticəsində [Səqif qəbiləsi ilə aramızda] baş vermiş anlaşılmazlıqları həll etməklə məşğulam».

Cahiliyyə dövründə Muğira (r.a) bir dəstə kişi [Səqif qəbiləsindən olan Malikin oğlanları] ilə yol yoldaşı oldu. O zaman o onları öldürmüş, mallarını götürüb Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəlmiş və İslamı qəbul etmişdi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - isə ona belə demişdi: «İslam dininə daxil olduğunu səndən qəbul edirəm, lakin qəsb etdiyin malı götürmürəm!»

Sonra Urva Peyğəmbərin - səllallahu aleyhi və səlləm - səhabələrinə nəzər saldı və [öz yoldaşlarına] dedi: «Allaha and olsun ki, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - ağzından çıxan tüpürcək onlardan birinin ovucuna düşsə, bu tüpürcəyi üzünə və bədəninə sürtür. Onlara bir şey əmr etdikdə dərhal onu yerinə yetirirlər. Dəstəmaz aldığı sudan [alıb qurtardıqdan sonra] əldə etmək üçün öz aralarında mübarizə aparırlar. Onun yanında danışarkən səslərini qaldırmırlar və hörmət əlaməti olaraq onun üzünə baxmırlar!»

Sonra Urva tərəfdarlarının yanına qayıtdı və dedi: «Ey qövmüm! Allaha and olsun ki, mən bir nümayəndə kimi çox padşahların, Qeysərin, Xosrovun, Nəcaşinin və s. hüzurunda olmuşam. Və padşahların tərəfdarlarının onlara necə təzim etdiklərini də görmüşəm. Lakin Məhəmmədin - səllallahu aleyhi və səlləm - səhabələrinin ona təzim etdikləri kimi heç bir padşaha təzim olunduğunu görməmişəm. Allaha and olsun ki,

Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - ağzından çıxan hər bir tüpürcək onlardan birinin ovucuna düşsə, bu tüpürcəyi üzünə və bədəninə sürtürlər. Onlara bir şey əmr etdikdə dərhal onu yerinə yetirirlər. Dəstəmaz aldığı sudan [alıb qurtardıqdan sonra] əldə etmək üçün öz aralarında mübarizə aparırlar. Onun yanında danışarkən səslərini qaldırmırlar və hörmət əlaməti olaraq onun üzünə baxmırlar! Həqiqətən, o sizə xeyir, əmin-amanlıq və islah olunmağınızı təklif edir. Onun təklifini qəbul edin!»

Bənu Kinanədən olan bir kişi dedi: «İzn verin mən gedib onunla danışım!» Onlar: «Gedə bilərsən!» - deyə cavab verdilər.

O, səhabələrin yanına yaxınlaşdıqda Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Bu gələn filankəsdir. O elə bir tayfadandır ki, onlar qurbanlıq dəvələrinə çox hörmət edir və onları qiymətləndirirlər. Elə isə qurbanlıq dəvələrini ona tərəf sürün. Səhabələr dərhal qurbanlıq dəvələri sürüb təlbiyə[191] edərək onu qarşıladılar. O təlbiyə edərək gələn səhabələri və qurbanlıq dəvələri gördükdə dedi: «Sübhanəllah! [Allah hər bir nöqsan və qüsurdan uzaqdır!] Onlar Allahın evini ziyarət etməkdən məhrum olunmağa layiq deyillər».

Sonra o, tərəfdarlarının yanına gəlib dedi: «Mən onların Ümrə ziyarətində kəsəcəkləri, üzərlərində qurbanlıq nişanəsi olan dəvələrini gördüm. Düşünürəm ki, Allahın evini ziyarət etməyə onlara mane olmamalıyıq».

---

[191] [ Təlbiyə etmək - yəni, «ləbbeykə Allahummə ləbbeykə»- demək. «Mucəmul-Vəsit», 814. ]

Bu vaxt Mikrəz ibn Həfs adlı bir kişi ayağa qalxıb dedi: «İzn verin mən gedib onunla danışım!» Onlar: «Gedə bilərsən!» - deyə cavab verdilər.

O, səhabələrin yanına yaxınlaşdıqda Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Bu gələn Mikrəzdır, o xain insandır!»

O Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - söhbət etdiyi vaxt Suheyl ibn Amr onların yanına gəldi.

Mə'mər deyir ki, Əyyub İkrimədən[192] xəbər verir ki, Suheyl ibn Amr gəldikdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - səhabələrə demişdi: «Artıq sizin bütün işləriniz yüngülləşdi!»

Mə'mər xəbər verir ki, Zuhri rəvayətinə davam edib demişdi: «Suheyl ibn Amr Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib dedi: «Gəl bizimlə sizin aranızda [on illik][193] sülh müqaviləsi bağlayaq!» Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - katibini [Əli ibn Əbu Talibi (r.a)] [194] çağırıb müqaviləni yazmağı ona əmr edib dedi: «Yaz! Rəhmli, Mərhəmətli Allahın adı ilə [Bismillahir-Rəhmanir-Rəhim] !»

Suheyl ibn Amr dedi: «O ki qaldı Rəhmana, Allaha and olsun mən onu tanımıram! Biz bir vaxtlar yazdığımız kimi «Allahım Sənin adınla başlayıram [Bismikə Allahummə] yaz!»

Bu vaxt müsəlmanlar: «Allaha and olsun ki, biz yalnız «Bismillahir-Rəhmanir-Rəhim!» yazacağıq!» - deyə etiraz etdilər. Peyğəmbər - **səllallahu aleyhi və səlləm -- səllallahu aleyhi və səlləm** - isə katibinə əmr edib dedi: «Yaz! Allahım Sənin adınla başlayıram! Bu, Allahın elçisi Məhəmmədin bağladığı sülh müqaviləsidir!»

---

[192] [ Mə'mər, Əyyub və İkrimə hədisin başqa isnadında olan ravilərdir. ]

[193] [ Bu müqavilə yalnız iki il davam etmişdir. «Fəthul Bari», 5/404. ]

[194] [ «Fəthul Bari», 5/404. ]

Suheyl yenə etiraz edib dedi: «Əgər biz sənin Allahın elçisi olduğunu etiraf etsəydik Onun evini ziyarət etməyə sənə mane olmazdıq və səninlə vuruşmazdıq. Elə isə yaz - Məhəmməd ibn Abdullah!»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Baxmayaraq ki, siz məni təkzib edirsiniz, amma Allaha and olsun ki, həqiqətən, mən Allahın elçisiyəm!» - dedi və katibinə «Məhəmməd ibn Abdullah» yazmağı əmr etdi.

Zuhri deyir ki, «Peyğəmbər - səllallahu aleyhi və səlləm - Suheylin dedikləri̇lə razılaşdı, çünki o: «Nəfsim əlində olana [Allaha] and olsun ki, müşriklər Allahın haram buyurduqlarına riayət etməklə məndən hər nə istəsələr onlara istədiklərini verəcəyəm!» - deyə söz vermişdi».

Sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - ona ilk şərtini təklif edib dedi: «Allahın evini təvaf etməyə bizə əngəl törətməyəcəksiniz!»

Suheyl dedi: «Xeyr! Allaha and olsun ki, bu dəfə təvaf etməyə sizə izn verməyəcəyik. Çünki, ərəblər «müsəlmanlar bizim müqavimətimizi qırdılar və bizi məcbur etdilər» deyə şayiələr buraxacaqlar. Elə isə gələn ildən etibarən gəlib istədiyiniz qədər Allahın evini ziyarət edə bilərsiniz».

Əli (r.a) onun dediklərini yazdı. Sonra Suheyl ikinci şərti təklif edib dedi: «Bizim tərəfdən sənin yanına gələn hər bir kişini – hətta sənin dinini qəbul etsə belə - geri qaytarmalısan!»

Müsəlmanlar heyrətlə dedilər: «Sübhanəllah! Müsəlman olub yanımıza gəlmiş bir kimsə müşriklərə qaytarıla bilərmi?!»

Onlar bu məsələni müzakirə edərkən Əbu Cəndəl ibn Suheyl ibn Amr (r.a) ayaqları qandallanmış vəziyyətdə onların yanına gəldi. [Əbu Cəndəl (r.a) İslam dinini qəbul etdiyi üçün Məkkəlilər onu həbs etmişdilər.] O, Məkkənin aşağısında həbs

olunduğu yerdən qaçmış və nəhayət özünü müsəlmanlara çatdırmışdı. Bu vaxt Suheyl dedi: «Ey Məhəmməd! Bu müqavilənin ilk maddəsinə əsasən onu mənə qaytarmalısan!»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Biz hələ müqaviləni tamamlamamışıq». O dedi: «Allaha and olsun ki, belə olduğu təqdirdə mən də sənin heç bir təklifinlə razılaşmayacağam!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Sən Əbu Cəndəli (r.a) bu müqavilədən istisna et və onu mənə bağışla!» O dedi: «Mən onu qoyduğumuz şərtdən istisna edib sənə bağışlaya bilmərəm!» Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Sən gəl razı ol, onu mənə bağışla!»- dedi. Suheyl qətiyyətlə rədd edib dedi: «Mən heç cür sənin dediyinə əməl edə bilmərəm».

Bu zaman Mikrəz dedi: «Onu özünüzdə saxlamağa sənə icazə verdik!» [Müqavilə bağlayan Suheyl ibn Amr isə buna razılıq vermədi.] Əbu Cəndəl dedi: «Ey Müsəlman camaatı! Artıq müsəlman olub sığınacaq tapmaq üçün sizin yanınıza gəldim. İndi də məni müşriklərə təhvil verirlər? Mənim əzab-əziyyətlərə məruz qaldığımı görmürsünüzmü?»

O, Allah yolunda muşriklərin çox şiddətli işgəncələrinə məruz qalmışdı.

Ömər ibn əl-Xəttab (r.a) deyir ki, o zaman mən gəlib Peyğəmbərə - səllallahu aleyhi və səlləm - dedim: «Məgər sən Allahın haqq Peyğəmbəri deyilsənmi?» O: «Bəli!» - deyə cavab verdi. Mən dedim: «Məgər biz haqq yolunda, düşmənlərimiz isə batil yolda deyillərmi?» O yenə: «Bəli!» - dedi. Mən: «Elə isə nə üçün nöqsan və qüsurların dinimizə daxil olmasına imkan verməliyik?» deyə soruşdum və o dedi: «Həqiqətən, mən Allahın elçisiyəm və heç vaxt Ona asi olmuram! Məhz Allah mənə yardım edir!» Mən dedim: «Məgər sən bizə «Bu yaxınlarda Allahın evinə gedib onu təvaf edəcəyik!»- deyə

xəbər verməmişdin?» O dedi: «Elədir! Məgər mən sənə məhz bu il təvaf edəcəyimizi xəbər vermişdim?» Mən: «Xeyr!» deyə cavab verdikdə o dedi: «[Yaxın zamanda] Sən mütləq gedib Kəbəni təvaf edəcəksən!»

Sonra mən Əbu Bəkrin (r.a) yanına gəlib dedim: «Məgər bu adam Allahın haqq Peyğəmbəri deyilmi?» O : «Elədir!» - deyə cavab verdi. Mən dedim: «Məgər biz haqq yolunda, düşmənlərimiz isə batil yolda deyillərmi?» O : «Elədir!» - deyə cavab verdi. Mən: «Elə isə nə üçün nöqsan və qüsurların dinimizə daxil olmasına imkan verməliyik?» - dedim. Əbu Bəkr (r.a) dedi: «Ey insan! Həqiqətən, o, Allahın elçisidir və heç vaxt Rəbbinə asi olmur! Allah onun yardımçısıdır. Elə isə onun sünnəsindən yapış [əmr və qadağalarına riayət et] ! Allaha and olsun ki, o haqq üzərindədir!» Mən dedim: «Məgər o bizə «Bu yaxınlarda Allahın evinə gedib onu təvaf edəcəyik!» deyə xəbər verməmişdimi?» Əbu Bəkr (r.a) dedi: «Elədir! Məgər o sənə məhz bu il təvaf edəcəyini xəbər vermişdi?» Mən: «Xeyr!» deyə cavab verdikdə o dedi: «[Yaxın zamanda] Sən mütləq gedib Kəbəni təvaf edəcəksən!»

Zuhri xəbər verir ki, «Ömər (r.a) demişdi: «Ona görə də[195] mən çoxlu xeyirxah işlər gördüm!»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - sülh müqaviləsini bağladıqdan sonra səhabələrinə: «Qalxın, qurbanlarınızı kəsin, başınızı qırxdırın! – deyə əmr etdi».

Allaha and olsun ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - bunu üç dəfə təkrar etdi, lakin səhabələrdən heç biri ayağa qalxmadı.[196]

---

[195] [ Ömər ilk (r.a) dəfədən peyğəmbərin - səllallahu aleyhi və səlləm - əmri ilə razılaşmadığı üçün, xətasının kəffarəsi olaraq bir çox saleh əməllər etdi. «Fəthul Bari», 5/408. ]

Səhabələrin yerlərindən tərpənmədiyini görən Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Ummu Sələmənin (r.a) yanına daxil oldu və onların bu etinasızlığını ona xəbər verdi. Ummu Sələmə (r.a) dedi: «Ey Allahın elçisi! İstəyirsənsə onlar sənin əmrinə tabe olsunlar, bayıra çıx, sonra qurbanlıq dəvələrini kəsməyincə və dəlləyini çağırıb başını qırxdırmayınca onlara bir kəlmə belə demə!»

O bayıra çıxıb qurbanlıq dəvələrini kəsdi, dəlləyini [Xuzəa qəbiləsindən olan Xərraş ibn Ümeyyəni (r.a)] çağırıb başını qırxdırdı və onlara heç bir söz demədi! Bunu görən səhabələr dərhal qalxıb qurbanlıq dəvələrini kəsdilər və bir-birilərinin başlarını qırxmağa başladılar. Hətta iş o yerə çatdı ki, [onun əmrini daha tez yerinə yetirmək üçün baş vermiş dartışma nəticəsində] səhabələr bilmədən az qala bir-birilərini öldürmüşdülər.

Sonra mömin qadınlar Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına hicrət etdilər və Uca Allah bu ayəni nazil etdi:

**«Ey iman gətirənlər! Mömin qadınlar sizin yanınıza mühacir kimi gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını çox gözəl bilir** [onları yoxlayıb bilmək sizə lazımdır]**. Əgər bu qadınların** [həqiqi] **mömin olduqlarını bilsəniz, artıq onları kafirlərin yanına qaytarmayın. Nə bu qadınlar onlara** [kafirlərə]**, nə də onlar bu qadınlara halaldır. Onların** [kafirlərin] **həmin qadınlara xərclədiklərini** [mehri] **özlərinə qaytarıb verin. Bu qadınların mehrlərini özlərinə**

---

[196] [ Səhabələr ya bu əmrin müstəhəb olduğunu başa düşmüş, ya müqavilənin pozulacağına dair Allah tərəfindən vəhy nazil olacağına güman etmiş, yaxud da xüsusən onlara həmin il Məkkəyə daxil olub ziyarət edəcəklərinə izn veriləcəyinə ümid etmişlər və buna görə də dərhal onun əmrini yerinə yetirməmişlər. «Fəthul Bari», 5/409. ]

**verdiyiniz təqdirdə onlarla evlənməyinizdən sizə heç bir günah olmaz. Kafir qadınları öz kəbininiz altında saxlamayın. Həmin qadınlara verdiyiniz mehri** [onların ərə getdiyi kafirlərdən] **istəyin. Kafirlər də** [islamı qəbul edib möminlərlə evlənən qadınlara] **sərf etdikləri mehri** [sizdən] **istəsinlər. Allahın hökmü budur. O sizin aranızda** [belə] **hökm edər. Allah** [hər şeyi] **biləndir, hikmət sahibidir!»**[197]

Bu ayə nazil olduqdan sonra Ömər (r.a) iki müşrik zövcəsini boşadı və onlardan birini Müaviyə ibn Əbi Süfyan (r.a), digərini isə Səfvan ibn Ümeyyə aldı. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Mədinəyə gəldikdən sonra müsəlman olmuş qüreyşli Əbu Bəsir [Ütbə ibn Useyd əs-Səqəfi] (r.a) onun yanına gəldi. Qüreyş də onu geri qaytarmaq üçün iki kişi göndərdi və onlar Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəlib: «Bizimlə bağladığın sülh müqaviləsinə görə Əbu Bəsiri (r.a) geri qaytar!»- deyə ona müraciət etdilər. O, Əbu Bəsiri (r.a) həmin iki kişiyə təhvil verdi. Onlar Əbu Bəsirlə (r.a) Məkkəyə yola düşdülər və nəhayət gəlib zul-Hüleyfəyə çatdılar. Burada onlar [xurcunlarındakı] xurmadan yemək üçün dayandılar. Əbu Bəsir (r.a) onlardan birinə [Xuney ibn Cabirə]: «Ey filankəs, Allaha and olsun ki, sənin bu qılıncın çox gözəldir!»- dedi. Qılıncın sahibi onu qınından çıxarıb dedi: «Doğrudan da bu çox gözəl qılıncdır. Mən onu bir neçə dəfə təcrübədən keçirmişəm». Əbu Bəsir (r.a): «Göstər görüm necə qılıncdır»- dedi, sonra fürsət tapıb qılıncı onun əlindən aldı və nəfəsi kəsilənə qədər qılıncla onu vurdu. O birisi isə [başqa rəvayətdə Xuneysin mövlası] qaçıb Mədinəyə gəldi və tələsik məscidə daxil oldu. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onun

---

[197] [ «əl-Mumtəhinə» surəsi, 10. ]

vahimə içində yüyürə-yüyürə gəldiyini görüb: «Bu adam nədənsə qorxub!»- dedi. O, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəlib dedi: «Allaha and olsun ki, yoldaşım öldürüldü! [Qorumasanız] mən də öldürüləcəyəm».

Bu vaxt Əbu Bəsir (r.a) gəlib dedi: «Ey Allahın peyğəmbəri! Allaha and olsun ki, artıq O, sənə vədini yerinə yetirməyə yardım etdi və sən də məni müşriklərə təhvil verdin. Sonra isə Allah məni onların əlindən xilas etdi.

Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Vay bunun anasının halına![198] Bu, müharibə alovunu qızışdıran bir kimsədir. Əgər bir neçə nəfər də onunla həmrəy olsa [o zaman müharibə alovu qızışacaq və sülh müqaviləsi pozulacaq] ».

Əbu Bəsir (r.a) bunu eşitdikdə onun yenidən müşriklərə qaytarılacağını başa düşdü və Mədinədən çıxıb dənizin sahilinə tərəf getdi. Sonra müşriklərdən canını qurtarmış Əbu Cəndəl ibn Suheyl (r.a) də ona qoşuldu. Daha sonra isə Məkkə müşriklərindən yaxa qurtaran hər bir müsəlman ona qoşuldu və beləliklə də onlar qüvvətli bir dəstəyə çevrildilər. Vallahi onlar hər dəfə Qüreyşin ticarət karvanının Şama yola düşdüyündən xəbər tutduqda, karvanın qabağını kəsər və onları öldürüb mallarını götürərdilər. Bu təhlükəni görən Qüreyş öz tərəfindən bir nümayəndəni [Əbu Süfyanı (r.a)] Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına göndərdi. Bu dəfə Qüreyş Peyğəmbəri - səllallahu aleyhi və səlləm - Allaha and verib aralarında olan qohumluq əlaqələrinin hörmətinə görə [onların ticarət karvanlarını Əbu Bəsir (r.a) və onun camaatından qorumaq üçün] ona yalvarırdı. Onlar

---

[198] [ Bu ifadə zahiri mənasından təhqirə bənzəyir, lakin ərəblər onu tərif üçün də deyirlər «Fəthul Bari», 5/412. ]

Peyğəmbərə - səllallahu aleyhi və səlləm - : «Bundan sonra müsəlman olaraq Məkkədən Mədinəyə hicrət etmiş hər bir şəxs əmin ola bilər [geri gətirilməyəcəkdir.] »- deyə xəbər göndərmişdilər».

Peyğəmbər - səllallahu aleyhi və səlləm - səhabələrdən birini [bu xoş xəbəri çatdırmaq üçün] Əbu Bəsir və onun camaatının yanına göndərdi və Uca Allah bu ayələri nazil etdi:

**«Sizi onlara** [müşriklərə] **qalib etdikdən sonra Məkkə vadisində** [Hüdeybiyyədə] **onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən** [onları sizinlə, sizi də onlarla vuruşmağa qoymayan] **Odur.....»** ayəsindən **«Kafirlər öz ürəklərində Cahiliyyət təkəbbürünə və təəssübünə qapıldıqları zaman...»**[199] ayəsinə qədər.

Onların təkəbbür və təəssübü, Hüdeybiyyə müqaviləsinə «Bismillahir-Rəhmanir-Rəhim», «Muhəmmədun-rəsulullah» sözlərini yazmaqdan imtina etmələri və həmin il [hicrətin altıncı ilində] müsəlmanların Məkkəyə daxil olub Allahın evini ziyarət etməyə razılıq verməmələri idi.

Bu hədisi həmçinin Abdurrəzaq «Müsənnəf» əsərində (5-ci cild, səh. 342), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 331) və ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 101) təvayət etmişlər.

Muslim «Səhih» əsərində (12-ci cild, səh. 187) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, səksən nəfər silahlı Məkkə müşriki Tən'im dağı tərəfdən müsəlmanlara hücum etmiş, lakin əsir tutulub Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gətirilmişdilər. O da

---

[199] [ «əl-Fəth» surəsi, 24-26. ]

onlara heç bir cəza verməyib hamısını azad etmiş və bu ayə nazil olmuşdu:

**«Sizi onlara** [müşriklərə] **qalib etdikdən sonra Məkkə vadisində** [Hüdeybiyyədə] **onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən** [onları sizinlə, sizi də onlarla vuruşmağa qoymayan] **Odur».**

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 185), Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 13), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 122, 125) və ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 94) rəvayət etmişlər.

Muslim «Səhih» əsərində (12-ci cild, səh. 174) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Sələmə ibn əl-Əkva (r.a) demişdir: «Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - birlikdə Hüdeybiyyəyə gəldiyimiz zaman bizim sayımız min dörd yüz nəfər idi və biz özümüzlə əlli qoç da gətirmişdik. [Ora çatdıqda hamı susamışdı. Elə buna görə də] Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - su quyusunun yanında oturdu, sonra ya dua etdi, ya da onun içinə tüpürdü və oradan su fəvvarə vurdu. Biz o sudan doyunca içdik, heyvanlarımızı suvardıq və ehtiyat üçün qablarımıza da doldurduq. Sonra Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - beyət etmək üçün bizim hamımızı ağacın altına dəvət etdi. Mən ilk beyət edənlərdən idim. Beyət edənlərin sayı yarıya çatdıqda Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi:

– Ey Sələmə, gəl beyət et!

– Ey Allahın elçisi, artıq mən ilk zümrə ilə birlikdə sənə beyət etdim!

– Yenə beyət et!

Sonra o məni əliboş – yəni silahsız – görüb bir qalxan verdi və beyət etməyinə davam etdi. Beyətin sonunda o dedi:

– Ey Sələmə, mənə beyət etmirsən?

– Ey Allahın elçisi, artıq mən əvvəlki və sonrakı camaatla birlikdə sənə beyət etdim!

– Yenə beyət et!

Mən üçüncü dəfə ona beyət etdim. Sonra o mənə dedi: «Ey Sələmə, sənə verdiyim qalxan haradadır?»

Mən dedim: «Ey Allahın elçisi! Mən əmim Amiri (r.a) silahsız görüb qalxanı ona verdim».

Peyğəmbər - səllallahu aleyhi və səlləm - gülüb dedi: «Həqiqətən, sən, sanki ilk əvvəl: «Allahım! Özümdən də artıq sevdiyimi [bir neməti] mənə əta et!»- deyən şəxsə bənzəyirsən!»

Sonra müşriklər bizim yanımıza öz nümayəndələrini göndərib onlarla sülh müqaviləsi bağlamağı təklif etdilər. Biz bununla razılaşdıq və aradakı gediş-gəliş bərpa olundu. O zamanlar mən Təlhə ibn Ubeydullahın (r.a) xidmətçisi idim. Mən onun atını suvarır, qaşovla belini toz-torpaqdan təmizləyir, habelə digər xidmətlər göstərir və Təlhənin (r.a) çörəyini yeyirdim. Mən Allahın [rizasını qazanmaq] və Peyğəmbərinin - səllallahu aleyhi və səlləm - [əmrinə tabe olmaq] xatirinə var-dövlətimi və qohum-əqrəbamı tərk edib Mədinəyə hicrət etmişdim.

Məkkə əhli ilə bizim aramızda sülh müqaviləsi bağlanılıb gediş-gəliş bərpa olunduqdan sonra mən tikanlı bir ağacın yanına gəlib altına tökülmüş tikanları təmizlədim və dincəlmək üçün orada uzandım. Bu zaman dörd Məkkə müşriki yanıma gəlib Peyğəmbər - səllallahu aleyhi və səlləm - barəsində nalayiq sözlər danışmağa başladılar. Mən onların dediklərinə nifrət etdim və gedib başqa ağacın altında

uzandım. Onlar silahlarını ağacdan asıb orada uzandılar. Elə bu vaxt carçı vadinin aşağı tərəfindən car çəkib dedi: «Ey mühacirlər, ibn Zuneymi (r.a) öldürüblər!» Mən dərhal qılıncımı çıxarıb o dörd nəfərin üstünə hücum etdim və onların qılınclarını əlimə toplayıb dedim: «Məhəmmədin hörmətini ucaldan Allaha and olsun ki, sizlərdən biri başını tərpətsə onun boynunu vuraram!» Sonra mən onları əsir tutub Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gətirdim. Bu arada əmim Amir (r.a) zirehli atın üzərində, əsir tutulmuş Ablat oğullarından olan Mikrəzi və başqa yetmiş müşriki Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gətirdi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - onlara nəzər salıb dedi: «Onları azad edin! Bu onların birinci və axırıncı günahı olsun!»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - onları bağışlayıb hamısını azad etdi və Uca Allah da bu ayəni nazil etdi:

**«Sizi onlara** [müşriklərə] **qalib etdikdən sonra Məkkə vadisində** [Hüdeybiyyədə] **onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən** [onları sizinlə, sizi də onlarla vuruşmağa qoymayan] **Odur. Allah sizin nə etdiyinizi görəndir!»**

Sonra biz oradan çıxıb geriyə, Mədinəyə döndük və yolüstü müşrik olan bənu Lihyan qəbiləsinə yaxın bir yerdə dayanmalı olduq. Onlarla bizim aramızda bir dağ var idi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - o gecə dağa qalxıb müşriklər barəsində ona və səhabələrinə xəbər gətirən şəxs üçün Allahdan bağışlanma dilədi. Mən o gecə iki və ya üç dəfə dağa qalxdım.

Biz Mədinəyə gəlib çatdıqdan sonra Peyğəmbər - səllallahu aleyhi və səlləm - xidmətçisi Rəbahı (r.a) mənimlə birlikdə geridə qalmış sürüyə baş çəkməyə göndərdi və biz Təlhənin (r.a)

atına minib ora getdik. Biz ora çatdıqda artıq Abdurrəhman ibn Bədr əl-Fəzari sürüyə basqın etmiş, çobanı öldürüb mal-qaranı sürüb aparmışdı. Mən: «Ey Rəbah! Götür bu atı Təlhə ibn Ubeydullaha (r.a) çatdır, Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** də xəbər ver ki, artıq müşriklər onun sürüsünə basqın ediblər».

Sonra mən bir təpənin üstünə qalxıb Mədinəyə tərəf üz tutdum və üç dəfə: «Köməyə gəlin!» – deyə çağırdım.

Daha sonra mən müşrikləri təqib edib onları ox atəşinə tutdum və rəcəz[200] ilə bu sözləri oxudum:

Əkvanın oğluyam mən  Ölüm günüdür bu gün.

Sonra yaxınlaşıb onlardan birini oxla vurdum. Mənim atdığım oxun ucu onun atının yəhərindən keçib çiyininə dəydi. Mən yenə:

Əkvanın oğluyam mən  Ölüm günüdür bu gün.

deyib onları ox atəşinə tutdum. Allaha and olsun ki, atlılardan hər biri mənə hücum etdikcə onları [atlarını] oxla vurub yaralayırdım. Mən o vaxta qədər ox atdım ki, nəhayət onlar [çıxılmaz vəziyyətə düşdülər və] özlərini dağ dərəsinə saldılar. Mən dağın üstünə qalxıb onların başlarına o qədər daş yağdırdım ki, nəhayət ələ keçirdikləri mal-qaranı geri qaytardılar. Onlar həyəcanla otuzdan çox zireh və nizələri yerə atdılar. Mən bu silahların üzərinə o qədər daşlar saldım ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** və səhabələri dağın döşündəki dərəyə gəldikdə onların orada olduğunu bilsin. Bu

---

200 [ Rəcəz – şer (nəzm) ölçüsüdür. ]

vaxt Abdurrəhman ibn Bədr əl-Fəzari gəlib çıxdı və onlar oturub nahar etməyə başladılar. Mən isə dağın üstündən onlara tamaşa edirdim. O dedi: «Bu gördüklərim nədir? [Burada nə baş verib?]» Onlar dedilər: «Biz bunun təzyiqinə məruz qalmışıq. Allaha and olsun ki, alaqaranlıqdan indiyə kimi bizdən əl çəkməyib, bizi ox atəşinə tutub və hər şeyi [mal-qaranı, zirehlərimizi və nizələrimizi] əlimizdən alıb. Abdurrəhman ibn Bədr əl-Fəzari dedi: «Dörd nəfər [danışıqlar aparmaq üçün] onun yanına getsin!»

Onlardan dördü mənim yanıma qalxdı. Mən danışmağa fürsət tapan kimi dedim: «Məni tanıyırsınızmı?» Onlar dedilər: «Xeyr, sən kimsən?» Mən dedim: «Mən Sələmə ibn əl-Əkvayam. Məhəmmədin hörmətini ucaldan Allaha and olsun ki, mən istəsəm sizin hər birinizi öldürə bilərəm, ancaq siz istəsəniz də məni öldürə bilməyəcəksiniz!» Onlardan biri: «Bəli! Zənn edirəm ki, o doğru deyir»- dedi və onlar geri qayıtdılar. Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** süvari qoşunu ağaclar arasından görünənədək mən tutduğum mövqeyi tərk etmədim. Qoşunun önündə Əxrəm əl-Əsədi (r.a), onun ardınca Əbu Qətadə əl-Ənsari (r.a), onun da ardınca Miqdad ibn əl-Əsvəd əl-Kindi (r.a) gəlirdi. Mən Əxrəmin (r.a) atının yüyənindən tutduqda o dedi: «Axı onlar qaçırlar!» Mən dedim: «Ey Əxrəm, onlardan özünü qoru! Mən istəmirəm ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** və səhabələri gəlincəyə qədər onlar səni öldürsünlər!» O dedi: «Ey Sələmə! Əgər sən Allaha və axirət gününə, cənnətin və cəhənnəmin haqq olduğuna inanırsansa Onun yolunda şəhid olmağıma mane olma!»

Mən ona mane olmadım və o Abdurrəhman ibn Bədr əl-Fəzari ilə təkbətək göyüşdə şəhid oldu. O, yalnız Abdurrəhmanın atını yaralaya bildi, Abdurrəhman isə onu

öldürüb atına sahib oldu. Sonra Əbu Qətadə (r.a) Abdurrəhmanla təkbətək döyüşdü və qılıncla onu öldürdü. Məhəmmədin hörmətini ucaldan Allaha and olsun ki, mən onların ardınca qaçdım və arxada nə bir səhabə, nə də onlardan bir toz-torpaq [əsər-əlamət] gördüm. Müşriklər gün batmamışdan əvvəl gəlib zu-Qərəd adlanan, su olan bir dərəyə çatdılar və susuzluqlarını yatırtmaq üçün suyun kənarına gəldilər. Sonra nəzər salıb mənim onların dalınca gəldiyimi, onları qabaqladığımı görüb dərhal oranı tərk etdilər və bir qurtum belə o sudan içə bilmədilər. Onlar yenə dağın döşünə çəkildilər. Mən qaça-qaça onlara yaxınlaşıb:

Əkvanın oğluyam mən  Ölüm günüdür bu gün.

deyib qarşımdakı müşrikin çiynindən bir ox vurdum.

O dedi: «Anası onu itirsin! Bu, səhərki Əkvadı?» Mən: «Bəli, ey nəfsinin düşməni! Mənəm, səhərki Əkva!»- deyə cavab verdim».

Onlar dağın döşündə iki at tərk edib qaçdılar. Mən bu atları da sürüb Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına apardım və yolda Amirlə (r.a) rastlaşdım. Onun əlində birində bir az süd, digərində isə su olan iki tuluq var idi. Mən [süddən] içib [sudan] dəstəmaz aldıqdan sonra Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gəldim. O, müşriklərin tərk etdiyi suyun kənarında oturmuş və onlardan aldığım dəvələri, zirehləri və nizələri götürmüşdü. Bilal (r.a) isə bu dəvələrdən birini kəsib ciyərindən və hörgücündən Peyğəmbər - səllallahu aleyhi və səlləm - üçün qızardırdı. Mən dedim: «Ey Allahın elçisi, izn ver səhabələrdən yüz nəfər seçib götürüm və onların ardınca gedib hamısını öldürüm!»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - azı dişləri tonqal işığında görünənə qədər [ürəkdən] güldü və dedi: «Ey Sələmə! Sən bunu bacara biləcəyinə arxayinsan?» Mən dedim: «Əlbəttə! Səni ən hörmətli edən Allaha and olsun ki, bacararam!» O dedi: «Hal hazırda onlar Ğətəfan diyarında gonaqdırlar!»

Bu vaxt Ğətəfandan bir kişi gəlib dedi: «Filankəs onlar uçun bir dəvə kəsdi. Onlar dəvənin dərisini soyarkən üzərində olan toz-torpağı görüb: «Müsəlmanlar gəlirlər»- deyə qaçıb getdilər.

Ertəsi gün Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Bu günkü gündə ən yaxşı süvarimiz Əbu Qətadə və ən yaxşı piyadamız Sələmədir!» – deyib süvari və piyadalar üçün ayrılmış qənimət paylarından ikisini [hərəsindən bir pay] mənə verdi. Sonra o məni öz arxasına, Adbaya[201] mindirdi və biz Mədinəyə qayıtdıq. Yolda ən bərk qaçan ənsarlardan biri: «Mədinəyə qədər yarışmaq istəyən varmı?»- deyə bir neçə dəfə təkrar etdi.

Mən onun bu qəti tələbini eşitdikdə dedim: «Məgər sən alicənab, möhtərəm insanlara hörmət etmirsən?» O: «Xeyr, mən yalnız Allahın elçisinə hörmət edirəm!»[202]- dedi. Mən Peyğəmbərə - səllallahu aleyhi və səlləm - : «Atam-anamsan ey Allahın elçisi! İzn ver onunla yarışım» - dedim. O : «İstəyirsənsə yarış!» - dedi. Sonra mən [üzümü yarışmaq istəyən ənsara tutub]: «Hazırlaş!»- dedim. Mən ayaqlarımı büküb qaçış vəziyyətini aldım, sonra dərhal yerimdən sıçrayıb qaçdım. Yolda nəfəsimi dərmək üçün bir müddət dayandıqdan sonra yenə onun ardınca qaçdım. Bir az sonra mən yenə yorğunluğumu almaq üçün dayandım. Sonra qalxıb onun

---

[201] [ Adba – dəvənin adıdır. ]

[202] [ Yəni, onu bu yarışa çağırmıram! ]

dalınca qaçdım və nəhayət gəlib onu keçdikdə çiyninə vurub dedim: «Vallahi mən səni ötdüm!». O dedi: «Hesab edirəm ki, sən məni ötdün».

Beləliklə biz Mədinəyə qədər yarışdıq və mən onu arxada qoydum. Allaha and olsun ki, biz cəmi üç gün Mədinədə qaldıqdan sonra Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - birlikdə Xeybərə getdik. Bu vaxt əmim Amir (r.a) rəcəz ilə bu sözləri oxudu:

Təllahi![203] İstəməsəydı Allah, düz yola gəlməzdik biz,
Nə sədəqə verərdik, nə namaz qılardıq biz,
Olmasaydı lütfün Sənin, keçinə bilməzdik biz.
Sabit et qədəmləri, düşmən gəldikdə bizə,
Sonra da bir təskinlik Özün nazil et bizə!

Allahın elçisi - **səllallahu aleyhi və səlləm** - dedi: «Bu kimdir?»

O dedi: «Mənəm, Amir». Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - ona: «Rəbbin səni bağışlasın!»- dedi. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - kiməsə Allahdan xüsusən məğfirət diləyərdisə o şəxs mütləq şəhid olardı. Bu vaxt dəvəsinin üstündə əyləşmiş Ömər ibn əl-Xəttab (r.a) onu çağırıb dedi: «Ey Allahın Peyğəmbəri! İzn ver Amir oxusun biz də həzz alaq!»

Biz Xeybərə gəlib çatdıqda düşmənin başçısı Mərhəb qabağa çıxıb qılıncını havada oynatdı və dedi:

Artıq Xeybər tanıdı, bildi ki Mərhəbəm mən!
Müharibə başlayıb döyüş alovlanarkən,
Mahir silah ustası, təcrübəli ərəm mən.

---

203 [ Bu, Allaha and içmək üçün ifadə edilən – vəllahi; billahi; təllahi – söz birləşmələrindən biridir. ]

Bu vaxt əmim Amir (r.a) onunla təkbətək döyüşə çıxıb dedi:

Artıq Xeybər tanıdı, bildi ki Amirəm mən,
Mahir silah ustası, çevik qəhrəmanam mən.

Təkbətək döyüş başladı və hər ikisi bir-birinə qılınc zərbəsi endirdi. Mərhəbin vurduğu qılınc Amirin (r.a) qalxanına dəydi. Amir (r.a) onu alt nahiyədən vurduqda qılıncı özünə qayıdıb venasını kəsdi və o şəhid oldu. Mən bir neçə səhabənin: «Amir intihar etdi və əməlləri puç oldu!»- dediyini eşitdim. Mən ağlaya-ağlaya Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib dedim: «Ey Allahın elçisi, Amirin əməlləri puç oldu!» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** : «Bunu kim deyir?»- deyə soruşduqda mən: «Səhabələrindən bir neçəsi!» - deyə cavab verdim. O dedi: «Yalan deyirlər! Əksinə, o ikiqat savab qazandı!»

O zaman Əli (r.a) gözlərinin ağrısından əziyyət çəkirdi və Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** məni onun yanına göndərib dedi: «Mən bayrağı Allah və Onun rəsulunu sevən və [ya][204] Allah və rəsulunun sevdiyi bir şəxsə verəcəyəm!»

Əli (r.a) göz ağrısından iztirab çəkdiyi üçün onun əlindən tutub Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gətirdim. O, Əlinin (r.a) gözlərinə tüpürdü və onun gözləri sağaldı. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bayrağı ona verdikdən sonra Mərhəb yenə qabağa çıxıb dedi:

Artıq Xeybər tanıdı, bildi ki Mərhəbəm mən!
Müharibə başlayıb döyüş alovlanarkən,

---

[204] [ «Şərh Səhih Muslim», 12/391. ]

Mahir silah ustası, təcrübəli ərəm mən.

Əli (r.a) dedi:

Anamın Heydər[205] adlandırdığı mənəm,
Meşələr şiri tək zəhimli görkəmliyəm,
Düşmənləri pərən-pərən edib tez öldürürəm.

O, Mərhəbin baş nahiyəsinə qılınc zərbəsi endirib onu öldürdü. Xeybər də məhz Əlinin (r.a) əli ilə fəth olundu».

Muslim bu hədisin başqa isnadla da rəvayət olunduğunu qeyd etmişdir.

Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 86) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Məğəffəl əl-Muzəni (r.a) demişdir: «Biz Hüdeybiyyədə Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - birlikdə, Uca Allahın Quranda qeyd etdiyi ağacın[206] altında toplaşmışdıq. O ağacın budaqlarından bəziləri onun belinə toxunurdu. Bu vaxt Əli ibn Əbi Talib (r.a) və Suheyl ibn Amr Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - qarşısında oturmuşdular. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Əliyə (r.a) əmr edib dedi: «Yaz! Rəhmli, Mərhəmətli Allahın adı ilə [Bismillahir-Rəhmanir-Rəhim]!» Suheyl ibn Amr onun əlindən tutub dedi: «Müqaviləmizdə «Bismillahir-Rəhmanir-Rəhim!»– ifadəsinin yazılmasını qəbul etmirik. Bizim bildiyi-

---

205 [ Heydər – şir deməkdir. Əlinin (r.a) anası, ana babasının – Əsəd ibn Hişam ibn Əbdümənafın – şərəfinə onu Əsəd (yəni, şir) adlandırmışdı. Sonra Əbu Talib gəlib ona Əli adı vermişdi. Mərhəb döyüşdən əvvəl yatıb yuxusunda bir şirin onu öldürdüyünü görmüşdü. Elə buna görə də Əli (r.a) onu bu cür hədələmişdi. «Şərh Səhih Muslim», 12/391. ]

206 [ «əl-Fəth» surəsi, 18. ]

miz «Allahım, Sənin adınla başlayıram [Bismikə Allahummə]»- başlığını yaz!

Peyğəmbər - səllallahu aleyhi və səlləm - Əliyə (r.a) : «Yaz! Allahım, Sənin adınla başlayıram! Bu, Allahın elçisi Məhəmmədin Məkkə əhli ilə bağladığı sülh müqaviləsidir!»- dedi. Suheyl yenə onun əlindən tutub dedi: «Doğrudan da Onun elçisisənsə onda belə çıxır ki, biz sənə zülm etmişik. Sən bizim qəbul etdiyimiz başlığı yaz!»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - : «Mən Allahın elçisiyəm!» - dedi və katibinə: «Bu Məhəmməd ibn Abdullah ibn Abdulmuttalibin bağladığı sülh müqaviləsidir!» yazmağı əmr etdi. Elə bu vaxt silahlanmış otuz gənc bizə tərəf hücum etdi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - Allaha dua etdi və onların gözləri kor oldu. Biz onları əsir tutub Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gətirdik. O : «Siz kiminləsə müqavilə bağlamağa gəlmisiniz, ya kimsə sizin təhlükəsizliyinizə zəmanət verib?»

Onlar: «Xeyr!» - deyə cavab verdilər. Peyğəmbər - səllallahu aleyhi və səlləm - onlara heç bir cəza verməyib hamısını azad etdi və Uca Allah bu ayəni nazil etdi:

**«Sizi onlara** [müşriklərə] **qalib etdikdən sonra Məkkə vadisində** [Hüdeybiyyədə] **onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən** [onları sizinlə, sizi də onlarla vuruşmağa qoymayan] **Odur. Allah sizin nə etdiyinizi görəndir!»**

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 94), Beyhəqi «Sünən» əsərində (6-cı cild, səh. 319) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 461) rəvayət etmişlər.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu qeyd etmişdir. Lakin qeyd etmək lazımdır

ki, Hakimin rəvayət etdiyi isnad heç də Buxari və Muslimin şərtlərinə müvafiq deyildir.

Əbu Abdurrəhman demişdir: «Hüseyn ibn Vaqid Buxarinin istinad etdiyi ravilərdən deyildir». Həmçinin Buxari və Muslim, Sabitin Abdullah ibn Müğəffəldən rəvayət etdiyini deməmişlər. Mizzi bu isnadı «Tuhfətul-Əşraf» əsərində qeyd etmişdir. Həmçinin bu Əlainin «Camiut-Təhsil» əsərində də, öz təsdiqini tapıb.

**QEYD:** İbn Həcər «Fəthul-Bari» əsərində (5-ci cild, səh. 351) demişdir: «Bu ayənin məhz Əbu Bəsir (r.a) barəsində nazil olması müəmmalıdır. Çünki Muslimin «Səhih» əsərində ayənin Sələmə ibn əl-Əkva (r.a) barəsində nazil olduğu, Əhmədin «Müsnəd» və Nəsainin «Sünən» əsərlərində isə bu ayənin müsəlmanlara hücum edən silahlanmış bir dəstə gənc barəsində nazil olduğu rəvayət olunmuşdur. Ayənin digər başqa səbəblərə görə nazil olduğu da mövcuddur».

İbn Həcərin fikrini bu ayədəki

**«Məkkə vadisində» -** ifadəsi təsdiqləyir. Çünki Əbu Bəsir (r.a) və onun camaatı Məkkə vadisində olmamışdılar. Daha doğrusunu isə Allah bilir!

# Əl-Hücurat surəsi

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər!** [Sözləriniz və hərəkətlərinizlə] **Allahın və Peyğəmbərinin qabağına keçməyin. Allahdan qorxun.**

**Həqiqətən, Allah** [hər şeyi] **eşidən və** [hər şeyi] **biləndir!» (1-ci ayə)**

Buxari «Səhih» əsərində (9-cu cild, səh. 147; 10-cu cild, səh. 214) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn əz-Zubeyr (r.a) rəvayət edir ki, Bənu Təmim qəbiləsindən olan bir dəstə Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəldiyi zaman Əbu Bəkr (r.a) ona, Qa'qa ibn Mə'bəd ibn Zuraranı (r.a), Ömər isə Əqra' ibn Habisi (r.a) onlara əmir təyin etməyini təklif etdi. Bu an Əbu Bəkr (r.a) Ömərə (r.a): «Sən mənə müxalif olmaq istəyirsən!»- dedi. Ömər (r.a) də ona: «Mən sənə müxalif olmaq istəmədim!»- deyə cavab verdi. Beləliklə onlar mübahisə edib səslərini qaldırdılar və bu ayə nazil oldu»:

**«Ey iman gətirənlər!** [Sözləriniz və hərəkətlərinizlə] **Allahın və Peyğəmbərinin qabağına keçməyin….»**

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar». (2-ci ayə)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 212; 17-ci cild, səh. 39) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Əbi Muleykə belə demişdir: «Əbu Bəkr (r.a) və Ömər (r.a) kimi xeyirxah səhabələr az qala həlak olacaqdılar! Bənu Təmim qəbiləsindən olan bir dəstə Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəldiyi zaman Əbu Bəkrlə (r.a) Ömər (r.a )[mübahisə

edib] səslərini qaldırdılar. Onlardan biri Əqra' ibn Habisi (r.a), digəri isə başqa birisini onlara əmir təyin olunmasını Peyğəmbərə - səllallahu aleyhi və səlləm - təklif etdi».

Nafi [əl-Cuməhi][207] deyir ki, ikincinin [yəni əmir təyin olunacaq digər səhabənin] adını yadımda saxlamamışam.

«Bu an Əbu Bəkr (r.a) Ömərə (r.a): «Sən mənə müxalif olmaq istəyirsən!»- dedi. Ömər (r.a) də ona: «Mən sənə müxalif olmaq istəmədim!»- deyə cavab verdi. Beləliklə onlar mübahisə edib səslərini qaldırdılar və bu ayə nazil oldu»:

**«Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın...»-** ibn əz-Zubeyr (r.a) deyir ki, bu ayə nazil olduqdan sonra Ömər (r.a) Peyğəmbərdən - səllallahu aleyhi və səlləm - soruşacağı məsələləri ona eşitdirə biləcək səslə soruşardı.

İbn əz-Zubeyr (r.a) babasının – yəni Əbu Bəkrin (r.a) – belə etdiyini qeyd etməmişdir.

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 185), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 6) və Təbərani «Mucəm» əsərində (26-cı cild, səh. 119) rəvayət etmişlər.

İbn Həcər «Fəthul-Bari» əsərində [10-cu cild, səh. 212] demişdir: «Beləliklə hədisin isnadında olan bağlılıq [ibn Əbi Muleykənin bu hədisi bilavasitə ibn əz-Zubeyrdən rəvayət etməsi] məlum oldu».

**Uca Allah buyurur:**

**«Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə,**

---

207 [ Bu, ibn Ömərin (r.a) mövlası Nafi deyildir. «Fəthul Bari» 8/455. ]

**təcavüzkarlıq edənlə Allahın əmrinə** [itaətinə] **qayıdana qədər vuruşun. Təcavüzkarlıq edən** [Allahın əmrinə] **qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər!» (9-cu ayə)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 226) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) demişdir: «Səhabələr Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - Abdullah ibn Ubeyyin yanına gedib ona nəsihət etməyi xahiş etdilər. O, uzunqulağına minib səhabələrlə birlikdə onun yanına getdi. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - [münafiqlərə] yaxınlaşdıqda o dedi: «Məndən aralı dur! Uzunqulağının pis qoxusu mənə əziyyət verir!» Bu zaman ənsarlardan biri dedi: «Allaha and olsun ki, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - uzunqulağının qoxusu sənin iyindən yaxşıdır!» Abdullah ibn Ubeyyin tərəfdarlarından biri qəzəbləndi və onu təhqir etdi. Ənsar da onu təhqir etdikdən sonra tərəflər arasına çaxnaşma düşdü və onlar bir-birilərini vurmağa başladı. Bu vaxt ayə nazil oldu»:

**«Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın…»**

İbn Kəsir «Təfsir»ində (4-cü cild, səh. 211) bu hədisi Əhmədin «Müsnəd» əsərində olduğu kimi istinad edərək Mo'təmirdən rəvayət etmiş və demişdir: «Hədisi həmçinin Buxari «Sülh» fəslində və Muslim «Məğazi» fəslində istinad edərək Mo'təmirdən rəvayət etmişlər».

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 128) Mu'təmirdən rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Bir qövm digər qövmü lağa qoymasın. Ola bilsin ki, onlar** [lağa qoyulanlar lağa qoyanlardan] **daha yaxşı olsunlar. Qadınlar da qadınları** [lağa qoymasın]**. Ola bilsin ki, onlar** [lağa qoyulanlar lağa qoyanlardan] **daha yaxşı olsunlar. Bir-birinizə tənə etməyin, eyb tutmayın və bir-birinizi pis ləqəblərlə** [ey kafir, ey fasiq, ey münafiq və i. a.] **çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalimlərdir!** [Özlərinə zülm edənlərdir!]**» (11-ci ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 186) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Cubeyrə ibn əd-Dahhak (r.a) deyir ki, o zamanlar bizlərdən bəzilərinin iki, yaxud üç adı olardı. Onlar bu adlardan bəzisi ilə çağırıldıqda qəzəblənərdilər. Onların barəsində bu ayə nazil oldu»:

**«…Bir-birinizə tənə etməyin, eyb tutmayın və bir-birinizi pis ləqəblərlə** [ey kafir, ey fasiq, ey münafiq və i. a.] **çağırmayın….»**

Hədis «həsən-səhih»dir.

Bu hədisi həmçinin Əbu Davud «Sünən» əsərində (4-cü cild, səh. 445), ibn Macə «Sünən» əsərində (3741-ci hədis), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 69; 5-ci cild, səh. 380), Buxari «Ədəbul-Mufrad» əsərində (səh. 121), ibn Hibban «Səhih» əsərində («Məvariduz-Zəman» əsərində (səh. 436) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (26-cı cild, səh. 132) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 463; 4-cü cild, səh. 282) rəvayət etmişlər. Heysəmi «Məcməuz-Zəvaid»

əsərində (7-ci cild, səh. 111) Əhmədin istinad etdiyi ravilərin Buxari və Muslimin istinad etdiyi ravilər olduğunu qeyd etmişdir. Hakim isə bu hədisin Muslimin şərtinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

**QEYD :** Əbu Cubeyrənin səhabə olub-olmaması barədə hədis alimləri ixtilaf etmişlər. İbn Əbi Hatim demişdir: «Mən bilən o səhabə deyil!» ibn Həcər «İsabə» əsərində demişdir: «Buxari «Ədəbul-Mufrad» əsərində, həmçinin «Sünən» əsərlərinin müəllifləri [Əbu Davud, Nəsai, Tirmizi və ibn Macə] öz əsərlərində və Hakim «Mustədrək» əsərində hədis rəvayət etdikdə ona istinad etmişlər. Hakim bu rəvayətin «səhih», Tirmizi isə «həsən» olduğunu demişlər». Sonra o, bu hədisi isnadı ilə qeyd etmiş və demişdir: «Bu rəvayətlərdən görünür ki, o, səhabədir. Əgər tabiin olsaydı rəvayət edənlər bunu bəyan edər və hədisin isnadının «mürsəl» olduğunu deyərdilər. Bilənlərin bilməyənlərə qarşı olan hüccəti [dəlilləri] onların məlumatlı olmasıdır».

# Əl-Qəmər surəsi

**Uca Allah buyurur:**

**«Qiyamət yaxınlaşdı, ay** [Peyğəmbərin möcüzəsi ilə] **parçalandı. Əgər müşriklər** [Məhəmmədin - səllallahu aleyhi və səlləm – Peyğəmbərliyinin həqiqiliyini təsdiq edən] **bir möcüzə görsələr** [imandan] **üz döndərib: «Bu uzun müddət davam edən bir sehrdir!» - deyərlər». (1-2-ci ayələr)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 191) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Məkkə əhli [müşriklər] Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm -** möcüzə göstərməsini tələb etdilər. Bu zaman ay [Allahın əmrilə] iki dəfə parçalandı və bu ayələr nazil oldu:

**«Qiyamət yaxınlaşdı, ay** [Peyğəmbərin möcüzəsi ilə] **parçalandı. Əgər müşriklər** [Məhəmmədin **- səllallahu aleyhi və səlləm –** Peyğəmbərliyinin həqiqiliyini təsdiq edən] **bir möcüzə görsələr** [imandan] **üz döndərib: «Bu uzun müddət davam edən bir sehrdir!»- deyərlər».** Bu hədis «həsən-səhih»dir.

Bu hədisi həmçinin Təbəri «Təfsir»ində (27-ci cild, səh. 85), Beyhəqi «Dəlailun-Nübuvvə» əsərində (2-ci cild, səh. 42) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 471) rəvayət etmişlər. Hakim bu hədisin Buxari və Muslimin şərtinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Bu hədisi həmçinin Buxari və Muslim «Səhih» əsərlərində[208] rəvayət etmişlər. Lakin bu hədislərdə ayələrin nazil olduğu qeyd olunmamışdı.

Təbərani «Mucəmul-Kəbir» əsərində (11-ci cild, səh. 250) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** zamanında ayın üzü tutuldu və [Məkkə müşrikləri]: «Bu, ayın sehridir!»- dedilər və bu ayələr nazil oldu»:

**«Qiyamət yaxınlaşdı, ay** [Peyğəmbərin möcüzəsi ilə] **parçalandı. Əgər müşriklər** [Məhəmmədin **- səllallahu aleyhi və**

---

[208] [ «Səhihul-Buxari», 3/1331; «Səhih-Muslim», 4/2159. ]

səlləm – Peyğəmbərliyinin həqiqiliyini təsdiq edən] **bir möcüzə görsələr** [imandan] **üz döndərib: «Bu uzun müddət davam edən bir sehrdir!» - deyərlər».**

İbn Kəsir «Bidayə vən-Nihayə» əsərində (3-cü cild, səh. 120) demişdir: «Bu hədisin isnadı «ceyyid»dir. Ola bilsin ki, ayın parçalanması və üzünün tutulması eyni gecədə baş verib. Buna görə də yer əhlinin bir çoxu bunun şahidi olmayıb. Başqa cür izah edib demək olar ki, bu hadisə bəzi Hind ölkələrində tarixə qeyd olunmuş və ayın parçalanması ilə üst-üstə düşmüşdür. İbn Kəsir həmin əsərdə (6-cı cild, səh. 75-76) demişdir: «Bu, «ğərib» hədisdir».

**Uca Allah buyurur:**

**«O gün onlar üzü üstə Cəhənnəmə sürüklənəcək** [və onlara]**: «Duyun Cəhənnəmin təmasını!»- deyiləcəkdir. Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə** [lazım olduğu qədər] **yaratdıq». (48-49-cu ayələr)**

Muslim «Səhih» əsərində (16-cı cild, səh. 421) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Məkkə müşrikləri gəlib Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** qədər barəsində mübahisə etməyə başladıqda bu ayələr nazil oldu:

**«O gün onlar üzü üstə Cəhənnəmə sürüklənəcək** [və onlara]**: «Duyun Cəhənnəmin təmasını!»- deyiləcəkdir. Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə** [lazım olduğu qədər] **yaratdıq».**

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (3-cü cild, səh. 204; 4-cü cild, səh. 191), ibn Macə «Sünən» əsərində (83-cü hədis), Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 444, 476), ibn Cərir «Təfsir»ində (27-ci cild, səh. 110), Beyhəqi «Şüəbul-İman» əsərində (1-ci cild, səh. 136), Buxari «Xalqu Əf'alul İbad»[209] əsərində (səh. 19) və Təbərani «Mucəmul Kəbir» əsərində (5-ci cild, səh. 319) rəvayət etmişlər. Təbəraninin rəvayət etdiyi isnaddakı ibn Zürara «mübhəm» ravidir.

# Əl-Vaqiə surəsi

**Uca Allah buyurur:**

**«Ruzinizə şükr etməli olduğunuz halda, onu yalanmı hesab edirsiniz?» (82-ci ayə)**

Muslim «Səhih» əsərində (2-ci cild, səh. 61) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - zamanında yağış yağdı və o dedi: «Bu gün insanlardan bir qismi [yağışın

---

[209] Onların hamısı isnad edərək İsmayıl ibn Ziyad əl-Məxzumidən rəvayət etmişlər. Onun barəsində söylənilən rəylər aşağıdakılardır:

İbn Məin: «O, «daif» ravidir!»; Əli ibn əl-Mədini: «O, Məkkə əhlindən olan tanınmış ravilərdəndir!»; Əbu Hatim: «Onun rəvayət etdiyi hədisi yazmaq olar!»; Nəsai: «O, «səduq» ravidir!». Bu rəylərin hamısı ibn Həcərin «Təhzibut-Təhzib» əsərində qeyd olunmuşdur. Bu rəyləri cəm edib demək olar ki, hədis «həsən» dərəcəsinə çatmır. Lakin qeyd etdiyim hədislər bir-birini qüvvətləndirir. Daha doğrusunu isə Allah bilir.

məhz Allahın iznilə yağmasına iman gətirməklə] şükr edənlərdən, digər qismi isə [yağışın məhz ulduzların izni və ya vasitəsi ilə yağmasına inanmaqla] kafirlərdən oldular!» Onlaran bəziləri [möminlər]: «Bu [yağış] Allahın rəhmətidir!»- deyə şükr etdilər. Digərləri [kafirlər] isə: «Bu filan və filan ulduzların iradəsilə nazil olmuşdur!»- deyib nankorluq etdilər və bu ayə nazil oldu:

**«Ulduzların** [bürclərdəki] **mənzillərinə** [yaxud doğub-batdığı yerlərə] **and olsun! Kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz.** [Sizə oxunan bu kitab] **çox qiymətli Qurandır. O** [Allah dərgahında] **qorunub-saxlanılan bir kitabdadır. Ona yalnız pak olanlar toxunar. O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir. İndi siz bu kəlamı yalan sayırsınız? Ruzinizə şükr etməli olduğunuz halda, onu yalanmı hesab edirsiniz?».**[210]

Nəvəvi Əbu Amr ibnus-Salahın belə dediyini nəql etmişdi: «Bu ayələrin hamısı bu hadisəyə görə nazil olmamışdı və bu da təfsirindən açıq-aydın bəllidir. Bu hadisədə yalnız 82-ci ayə nazil olmuşdu. Yerdə qalan ayələr isə başqa vaxt nazil olmuşdu. Bu ayələr onlara şamil edildiyinə görə ibn Abbas (r.a) onların hamısını bu rəvayətində qeyd etmişdi. İbn Abbasdan (r.a) ixtisarla [yalnız 82-ci ayənin nazil olduğunu xəbər verməklə] rəvayət olunan başqa hədislər dediklərimə bir dəlildir».

---

[210] [ «əl-Vaqiə» surəsi, 75-82. ]

# Əl-Mucadələ surəsi

**Uca Allah buyurur:**

**«**[Ya Peyğəmbər] **əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Həqiqətən, Allah** [hər şeyi] **eşidən,** [hər şeyi] **görəndir!» (1-ci ayə)**

Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 46) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) demişdir: «Həmd olsun hər bir səsi eşidən Allaha! Əri barəsində Allaha şikayət edən qadın gəlib [həqiqəti araşdırmaq üçün] Peyğəmbərlə **- səllallahu aleyhi və səlləm -** mübahisə etdiyi zaman mən evin digər nahiyəsində olduğum halda onların söhbətini eşitmirdim. Uca Allah isə [onun şikayətini eşitdi və] bu ayəni nazil etdi:

**«**[Ya Peyğəmbər] **əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Həqiqətən, Allah** [hər şeyi] **eşidən,** [hər şeyi] **görəndir!»**

Bu hədisi həmçinin Buxari «müəlləq» isnadla «Səhih» əsərində (17-ci cild, səh. 143), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 137), ibn Macə «Sünən» əsərində (188-ci və 2063-cü hədislər), ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 5-6) və Hakim «Müsətdrək» əsərində (2-ci cild, səh. 481) rəvayət etmişlər.

Hakim bu hədisin isnadının «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbər] **Məgər məxfi danışmaq qadağan edildikdən sonra yenə də qadağan olunduqları əmələ qayıdıb günah, ədavət və Peyğəmbərin əleyhinə çıxmaq barədə öz aralarında pıçıldaşanları** [münafiqlərlə yəhudiləri] **görmədinmi? Onlar yanına gəldikləri zaman səni Allahın salamladığı kimi salamlamır və ürəklərində:** «[Əgər Məhəmməd həqiqi peyğəmbərdirsə] **bəs niyə Allah bizi dediklərimizə görə əzaba düçar etmir?»- deyirlər. Onlara girib yanacaqları Cəhənnəm kifayət edər. Ora necə də pis qayıdış yeridir». (8-ci ayə)**

Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 170) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Amr (r.a) rəvayət edir ki, o zaman yəhudilər Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** «Sənə ölüm olsun!»[211]- deyir sonra da ürəklərində: «Bəs niyə Allah bizi dediklərimizə görə əzaba düçar etmir?»- deyə fikirləşirdilər. Uca Allah da bu ayəni nazil etdi:

**«Onlar yanına gəldikləri zaman səni Allahın salamladığı kimi salamlamır və ürəklərində:** «[Əgər Məhəmməd həqiqi peyğəmbərdirsə] **bəs niyə Allah bizi dediklərimizə görə əzaba düçar etmir?»- deyirlər. Onlara girib yanacaqları Cəhənnəm kifayət edər. Ora necə də pis qayıdış yeridir».**

---

[211] [ Onlar «əs-Səlamu aleykə» əvəzinə ona «əs-Samu aleykə» - «sənə ölüm olsun» - deyərək guya salam verirdilər. ]

Heysəmi «Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 122) demişdir: «Bu hədisi Əhməd, Bəzzar və Təbərani rəvayət etmişlər və isnadı «ceyyid»dir.

Muslim «Səhih» əsərində (14-cü cild, səh. 147) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) demişdir: «Bir dəstə yəhudi gəlib Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - «Sənə ölüm olsun ey Əbul Qasim!»- dedi. O: «Sizin özünüzə olsun!»- deyə cavab verdi. Mən dözməyib onlara: «Ölüm və eyb olsun sizin özünüzə!» deyə məzəmmət etdikdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Ey Aişə [onlar kimi] ədəbsizlik etmə!» Mən: «Eşitmirsən onlar sənə nə deyir?» - deyə etiraz etdim. O dedi: «Məgər mən: «Sizin özünüzə olsun!»- deyərək onların dediklərini özlərinə qaytarmadımmı?».

Muslim başqa isnadla rəvayət etdiyi hədisdə: «İzzət və hörmət sahibi olan Allah bu ayəni nazil etdi»- əlavəsini qeyd etmişdir.

**«Onlar yanına gəldikləri zaman səni Allahın salamladığı kimi salamlamır...»**

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (6-cı cild, səh. 229) istinad edərək ibn ən-Numeyrdən və ibn «Cərir» «Təfsirində» (28-ci cild, səh. 14) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbər] **Məgər onaların** [münafiqlərin] **Allahın qəzbləndiyi bir tayfanı** [yəhudiləri] **özlərinə dost tutduqlarını** [mömin müsəlmanların sirlərini onlara

verdiklərini] **görmədinmi? Onlar** [münafiqlər] **nə sizdəndir, nə də onlardan. Onlar** [özlərinin riyakar olduqlarını] **bilə-bilə** [Allaha və Məhəmmədə - **səllallahu aleyhi və səlləm** - iman gətirdikləri barədə] **yalandan and içirlər». (14-cü ayə)**

Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 240) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «İndi bir nəfər içəri daxil olacaq və şeytan gözü, yaxud gözləri ilə sizə nəzər salacaq!» Bu an göygöz [hiyləgər baxışlı] bir kişi içəri daxil oldu. O: «Ey Məhəmməd! Nə üçün məni təhqir etmisən!»- deyib [müsəlmanların sirlərini münafiqlərə vermədiyini sübuta yetirmək üçün] and içməyə başladı və bu ayə:

**«Onlar** [özlərinin riyakar olduqlarını] **bilə-bilə** [Allaha və Məhəmmədə - **səllallahu aleyhi və səlləm** - iman gətirdikləri barədə] **yalandan and içirlər».** Və başqa ayə[212] nazil oldu».

Əhməd bu hədisi həmçinin «Müsnəd» əsərində (1-ci cild, səh. 267, 350) Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 482) və ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 25) rəvayət etmişlər.

Heysəmi «Məcməuz-Zəvaid» əsərində demişdir: «Bu hədisi Əhməd və Bəzzar rəvayət etmiş və isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Həmçinin Hakim bu hədisin Muslimin şərtinə görə «səhih» olduğunu demişdir.

İbn Cərir «Təfsir»ində (10-cu cild, səh. 185), Təbərani, Əbu əş-Şeyx və ibn Mərdəveyh (Şəvkaninin «Təfsir»ində (2-ci cild,

[212] [ «ət-Tövbə» surəsi, 74. ]

səh. 384) qeyd olunduğu kimi) istinad edərək bu hədisi ibn Abbasdan (r.a) rəvayət etmişlər. Lakin bu hədisdə yalnız «ət-Tövbə» surəsinin 74-cü ayəsi nazil olduğu göstərilmişdir. Bu, ya hər iki ayənin eyni səbəbə görə nazil olduğuna işarədir, yaxud da isnadında «ittirab» var. Xüsusən bu, Simak ibn Hərb tərəfindəndir. Çünki o, qocaldıqdan sonra «ittirab»lı isnadla bir çox hədislər rəvayət etmişdir. Daha doğrusunu isə Allah bilir! Lakin qeyd etmək istəyirəm ki, bu hadisədə «əl-Mücadələ» surəsindəki ayənin nazil olması daha sabit hesab olunur. Çünki məhz bu hədisi ondan Şu'bə rəvayət etmişdir. İbn Həcər «Təhzibut-Təhzib» əsərində Şu'bənin ondan əvvəllər [hələ hafizəzəsi dəyişilməmişdən əvvəl] rəvayət etdiyi öz təsdiqini tapmışdır.

# Əl-Həşr surəsi

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 253) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səid ibn Cubeyr deyir ki, mən ibn Abbasdan (r.a) «ət-Tövbə» surəsi barəsində soruşduqda o [təəccüblə] dedi: « "ət-Tövbə" surəsi? O ki, "əl-Fadihə"dir.[213] Bu surədə o qədər «Və minhum….. Və minhum…..»[214] ifadəsi nazil oldu ki, münafiqlər bu ayələrdə onların hər birinə aid [pis əməllərinin ifşa olunacağına dair] işarə olacağını zənn etdilər.

---

[213] [ yəni, ifşa edən. ]

[214] [ Və onlardan… Və onlardan… (yəni, münafiqlərdən) . 58-ci, 61-ci və 75-ci ayələrə bax. ]

Mən ondan «əl-Ənfal» surəsi barəsində soruşduqda o bu surənin Bədr döyüşündə nazil olduğunu mənə xəbər verdi.

Mən ondan «əl-Həşr» surəsi barəsində soruşduqda o bu surənin Bənu Nədir qəbiləsinə aid nazil olduğunu mənə xəbər verdi».

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (18-ci cild, səh. 165) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Göylərdə və yerdə olanların hamısı Allahı təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət və hikmət sahibidir! Kitab əhlindən kafir olanları** [Mədinə ətrafında yaşayıb Məhəmmədin **- səllallahu aleyhi və səlləm -** peyğəmbərliyini inkar edən Bənu Nədir qəbiləsini] **ilk dəfə** [bir yerə] **toplayıb öz yurdundan çıxardan** [Şama sürgün edən] **Odur.** [Ey möminlər!] **Siz onların** [öz yurdundan] **çıxacaqlarını güman etmirdiniz. Onlar isə öz qalalarının onları Allahdan qoruyacağını zənn edirdilər. Amma Allah onları gözləmədikləri yerdən yaxaladı və ürəklərinə qorxu saldı. Belə ki, onlar evlərini həm öz əlləri, həm də möminlərin əlləri ilə uçurdub dağıdırdılar. Ey bəsirət sahibləri!** [Bənu Nədir qəbiləsinin başına gələnlərdən] **ibrət alın!» (1 və 2-ci ayələr)**

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 483) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, Bədr döyüşündən altı ay sonra Mədinə şəhərinin ətrafında yaşayan və xurma bağları olan yəhudi Bənu Nədir qəbiləsi ilə döyuş başladı. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** və onun

tərəfdarları onları mühasirəyə aldıqda artıq onlar silahı yerə qoyub, var-dövlətlərini dəvələrə yükləyib Mədinəni tərk edəcəklərini bildirdilər. Uca Allah da bu ayələri nazil etdi:

«**Göylərdə və yerdə olanların hamısı Allahı təqdis edib şəninə təriflər deyər…..**» ayəsindən «[Ey möminlər!] **Siz onların** [öz yurdundan] **çıxacaqlarını güman etmirdiniz…..**» ayəsinə qədər. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - onları yurdlarından çıxardıb Şama göndərdi. Onlar bundan əvvəl öz yurdlarını tərk etməyən bir ümmət idi. Artıq Allah onların başına gələcək bu müsibəti əzəldən kitaba [lövhül-məhfuza] yazmışdı. Onlar bu dünyada belə bir bəlaya düçar olmasaydılar Allah onları öldürməklə və ya əsir alınmaqla əzab verərdi. Bu ayəyə gəlincə:

«**…ilk dəfə** [bir yerə] **toplayıb...**» bu onların dünyada ikən həşr olunub [toplanıb] Şama sürgün olunmalarıdır.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu qeyd etmişdir. Lakin qeyd etmək istəyirəm ki, Buxari və Muslim bu isnadda olan Zeyd ibn əl-Mübarəkdən və Məhəmməd ibn Səvrdən hədis rəvayət etməmişlər.

Bu hədisi həmçinin Beyhəqi «Dəlailun-Nübuvvə» əsərində (2-ci cild, səh. 444) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

«[Ey möminlər sizin kafirlərə məxsus olan] **hər hansı bir xurma ağacını kəsməyiniz, yaxud** [toxunmayıb] **onu kökü üstündə salamat qoymağınız Allahın iznilədir. Və bu,** [Allahın] **fasiqləri rüsvay etməsi üçündür». (5-ci ayə)**

Buxari «Səhih» əsərində (8-ci cild, səh. 335) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Buveyrə adlı yerdə, Bənu Nədir qəbiləsinə məxsus olan xurma ağaclarını kəsdi və yandırdı. Uca Allah da bu ayəni nazil etdi»:

«[Ey möminlər sizin kafirlərə məxsus olan] **hər hansı bir xurma ağacını kəsməyiniz, yaxud** [toxunmayıb] **onu kökü üstündə salamat qoymağınız Allahın izniləđir…..»**

Bu hədisi həmçinin Buxari «Təfsir» fəslində, Muslim «Səhih» əsərində (12-ci cild, səh. 50-51), Tirmizi «Sünən» əsərində (2-ci cild, səh. 377; 4-cü cild, səh. 195), Əbu Davud «Sünən» əsərində (2-ci cild, səh. 342-343), Əhməd «Müsnəd» əsərində (2-ci cild, səh. 123, 140), ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 34) və Beyhəqi «Dəlailun-Nübuvvə» əsərində (2-ci cild, səh. 452) rəvayət etmişlər. Tirmizi hər iki rəvayətindən sonra hədisin «həsən-səhih» olduğunu qeyd etmişdir.

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 195) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Abbas (r.a) bu ayəni izah edərkən demişdir: «Müsəlmanlar Bənu Nədir qəbiləsini qalalarından çıxartdıqdan sonra xurma ağaclarını kəsməyi onlara əmr etdi və bu onlara çox pis təsir etdi. Bu vaxt müsəlmanlar öz aralarında belə dedilər: «Biz xurma ağaclarının bəzilərini kəsmişik, bəzilərini isə kökü üstündə salamat qoymuşuq! Elə isə kəsdiyimiz ağaclara görə savab və kəsmədiklərimizə görə günah qazanıb

qazanmamağımız barəsində Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - soruşaq!» Uca Allah da bu ayəni nazil etdi:

«[Ey möminlər sizin kafirlərə məxsus olan] **hər hansı bir xurma ağacını kəsməyiniz, yaxud** [toxunmayıb] **onu kökü üstündə salamat qoymağınız Allahın izniləndir…..»**

Tirmizi bu hədisin «həsən, ğərib» olduğunu demişdir.

Bəziləri də bu hədisi Səid ibn Cubeyrdən «mürsəl» isnadla [ibn Abbası qeyd etmədən] rəvayət etmişlər.

Bu hədisi həmçinin Nəsai «Sünən» əsərində (2-ci cild, səh. 227) rəvayət etmişdir.

**Uca Allah buyurur:**

**«Mühacirlərdən əvvəl** [Mədinədə] **yurd salmış və** [Məhəmmədə - **səllallahu aleyhi və səlləm** - qəlbən] **iman gətirmiş kimsələr** [ənsar] **öz yanlarına** [şəhərlərinə] **mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd, qəzəb duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar.** [Allah tərəfindən] **nəfsinin xəsisliyindən, tamahından qorunub saxlanılan kimsələr - məhz onlar nicat tapıb səadətə** [Cənnətə] **qovuşanlardır!» (9-cu ayə)**

Buxari «Səhih» əsərində (8-ci cild, səh. 120) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyrə (r.a) deyir ki, bir kişi Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına gəldi. O, səhabələrdən birini [yemək-içmək gətirmək üçün] zövcələrinin yanına göndərdi. Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - zövcələri

evdə sudan başqa heç nə olmadığını ona xəbər verdilər. O, səhabələrinə müraciət edib dedi: «Kim bu kişiyə qayğı göstərər və ya onu evində qonaq saxlayar?» Ənsarlardan biri: «Mən [onu evimdə qonaq saxlayaram]» deyib onu evinə apardı və zövcəsinə Rəsulullahın qonağına yaxşı baxmağı, layiqincə hörmət etməyi buyurdu. Zövcəsi ona: «Uşaqların yeməyindən başqa yemək yoxdur!»- deyə cavab verdikdə o dedi: «Yeməyi hazırla, çırağı yandır, uşaqlar yemək istəsələr onları yatızdır!» Zövzəsi ona itaət edib dediklərini yerinə yetirdi. Sonra ayağa qalxıb özünü guya çırağı düzəldirmiş kimi göstərdi və bilərəkdən onu söndürdü. Sonra hər ikisi [əllərini qaba uzadaraq] özlərini guya yemək yeyirlərmiş kimi qonağa göstərdilər və o gecə onlar ac yatdılar. Ertəsi gün onlar Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına getdilər. O: «Allah sizin dünənki əməlinizə güldü və ya ondan təəccübləndi!»[215]- dedi və bu ayə nazil oldu:

**«Mühacirlərdən əvvəl** [Mədinədə] **yurd salmış və** [Məhəmmədə **- səllallahu aleyhi və səlləm -** qəlbən] **iman gətirmiş kimsələr** [ənsar] **öz yanlarına** [şəhərlərinə] **mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd, qəzəb duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar.** [Allah tərəfindən] **nəfsinin xəsisliyindən, tamahından qorunub saxlanılan kimsələr - məhz onlar nicat tapıb səadətə** [Cənnətə] **qovuşanlardır!»**

Bu hədisi Buxari həmçinin «Təfsir» fəslində (10-cu cild, səh. 256) və «Ədəbul-Mufrad» əsərində (səh. 258), Muslim «Səhih»

---

[215] [ Burada qeyd olunmuş gülmək və təəccüblənmək yaradılmışların təsəvvür edə bilməyəcəyi, keyfiyyəti heç kəsə bəlli olmayan, müqayisə olunmayan və ən nəhayət yalnız Allaha layiq olan feli sifətlərdir. ]

əsərində (4-cü cild, səh. 12-13), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 149), ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 43) və Hakim «Mustədrək» əsərində (4-cü cild, səh. 130) rəvayət etmişlər. Hakim bu hədisin Muslimin şərtinə görə «səhih» olduğunu qeyd etmişdir.

# Əl-Mumtəhinə surəsi

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost tutun! Onlar** [kafirlər] **sizə gələn haqqı** [Quranı, Məhəmmədi] **inkar etdikləri halda, siz onlarla dostluq edir, mehribanlıq göstərirsiniz. Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi** [Məkkədən] **çıxardırdılar. Əgər siz Mənim yolumda və Mənim rizamı qazanmaq uğrunda cihada çıxmısınızsa** [Mənim düşmənlərimi dost tutmayın]**. Siz onlarla gizlində dostluq edir,** [onlara sirr verirsiniz]**. Mən sizin gizli saxladığınız və aşkar etdiyiniz hər şeyi bilirəm. Sizdən kim** [bir daha] **bunu etsə** [düşmənlərlə dostluq edib onlara sirr versə] **o, şübhəsiz ki, haqq yoldan azmışdır. Əgər onlar** [müşriklər] **sizə qələbə çalsalar** [sizi ələ keçirsələr] **sizə düşmən olar, sizə pisliklə əl və dil uzadar, sizin kafir olmanızı istəyərlər. Nə** [xatirinə Allaha və Peyğəmbərinə xəyanət etdiyiniz Məkkədəki] **qohum-əqrəbanız, nə də oğul-uşağınız sizə bir fayda verəcəkdir. Allah qiyamət günü sizi bir-birinizdən ayıracaqdır. Allah nə etdiklərinizi görəndir! İbrahim və**

**onunla birlikdə olanlar** [möminlər] **sizin üçün gözəl örnəkdir. O zaman onlar öz qövmünə belə demişdilər: «Şübhəsiz ki, bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə** [bütlərlə] **heç bir əlaqəmiz yoxdur. Biz sizin dininizi inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!» Ancaq İbrahimin öz atasına: «Mən** [öz Rəbbimdən] **mütləq sənin bağışlanmağını diləyəcəyəm. Mən heç vəchlə səni Allahdan** [Allahın əzabından] **qurtara bilmərəm!»- deməsi istisnadır** [bunda sizin üçün örnək yoxdur]**.** [Onlar həmçinin belə demişdilər] **: «Ey Rəbbimiz! Biz ancaq sənə təvəkkül etdik, tövbə edib ancaq sənə tərəf qayıtdıq. Axır dönüşdə ancaq sənin hüzurunadır. Ey Rəbbimiz Bizi kafirlərin əlinə salma!** [Onları bizim üstümüzdə hakim etmə] **Ey Rəbbimiz bizi bağışla! Həqiqətən, Sən yenilməz qüvvət və hikmət sahibisən!» (1-5-ci ayələr)**

Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 485) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, bu ayələr:

**«Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost tutun! Onlar** [kafirlər] **sizə gələn haqqı** [Quranı, Məhəmmədi] **inkar etdikləri halda, siz onlarla dostluq edir, mehribanlıq göstərirsiniz…»** ayəsindən **«…Allah nə etdiklərinizi görəndir!»** ayəsinə qədər Qüreyş qəbiləsinin kafirləri ilə məktublaşıb [bəzi mühim məsələlər barəsində] onları xəbərdar edən Hatib ibn Bəltə'a (r.a) və onunla həmfikir olanlar barəsində nazil olmuşdur». Amma

**«Ancaq İbrahimin öz atasına dediyi istisnadır»** ayəsinə əsaslanaraq İbrahimin - aleyhissəlam - atası Azərə bağışlanma diləyəcəyinə söz verdiyini örnək tutub müşriklərin bağışlanılmasını Allahdan diləmək müsəlmanlara qadağan oldu.

**«Ey Rəbbimiz Bizi kafirlərin əlinə salma!»** ayəsi isə, həm bilavasitə, həm də müşriklərin əli ilə bizə əzab vermə deməkdir! Onlar deyirlər: «Əgər onlar [möminlər] haqq üzərində olsaydılar müsibətə düçar olmazdılar».

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.

Qeyd etmək istəyirəm ki, bu hədis Buxari və Muslimin «Səhih» əsərlərində varid olub,[216] lakin ayənin nazil olduğu qətiyyətlə qeyd olunmayıb. İbn Həcər «Fəthul-Bari» əsərində (10-cu cild, səh. 260) bu hədisi izah edərkən demişdir:

«Bu əlavə [Amr ibn Dinar deyir ki, bu ayə ona (Hatibə) görə nazil oldu] «müdrəc»dir. Bu hədisi həmçinin Muslim istinad edərək Süfyan rəvayət etmiş və ayənin oxunmasının [yəni, nazil olduğunun] onun tərəfindən [əlavə] olduğunu qeyd etmişdir».

Beləliklə aydın oldu ki, bu hadisə Buxari və Muslimin «Səhih» əsərlərində rəvayət olunmuş, lakin ayənin nazil olması qeyd olunmamışdır.

Süfyana gəlincə, o «tabiut-tabiin»dir[217] və buna görə də hədisin isnadı «mu'dəl»dır.

**Uca Allah buyurur:**

---

[216] [ «Səhihul-Buxari», 4890; «Səhih-Muslim», 6351. ]

[217] [ Səhabələrin ardıcıllarının davamçısı. ]

**«Ey iman gətirənlər! Mömin qadınlar sizin yanınıza mühacir kimi gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını çox gözəl bilir** [onları yoxlayıb bilmək sizə lazımdır]**. Əgər bu qadınların** [həqiqi] **mömin olduqlarını bilsəniz, artıq onları kafirlərin yanına qaytarmayın. Nə bu qadınlar onlara** [kafirlərə]**, nə də onlar bu qadınlara halaldır. Onların** [kafirlərin] **həmin qadınlara xərclədiklərini** [mehri] **özlərinə qaytarıb verin. Bu qadınların mehrlərini özlərinə verdiyiniz təqdirdə onlarla evlənməyinizdən sizə heç bir günah olmaz. Kafir qadınları öz kəbininiz altında saxlamayın. Həmin qadınlara verdiyiniz mehri** [onların ərə getdiyi kafirlərdən] **istəyin. Kafirlər də** [islamı qəbul edib möminlərlə evlənən qadınlara] **sərf etdikləri mehri** [sizdən] **istəsinlər. Allahın hökmü budur. O sizin aranızda** [belə] **hökm edər. Allah** [hər şeyi] **biləndir, hikmət sahibidir!» (10-cu ayə)**

Buxari «Səhih» əsərində (6-cı cild, səh. 240) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Mərvan ibn əl-Həkəm (r.a) və əl-Misvar ibn Məxrəmə (r.a) xəbər verirlər ki, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - səhabələri [Hüdeybiyyə günü bağlanılan müqavilə barəsində belə] rəvayət etmişlər: «Suheyl ibn Amrın (r.a) Hüdeybiyyə günü yazdığı sülh müqaviləsində [Qüreyş tərəfindən Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - qarşısına qoyulmuş] bir çox şərtlər var idi. Bunlardan biri də «Sənin dinini qəbul edib yanına gələni [hicrət edəni] geri qaytarmalı və onun məsələsini həll etməyi bizə həvalə etməlisən!» şərti idi. Bu şərt möminləri hiddətləndirdi və onlarda nifrət oyatdı. Suheyl isə bu şərti pozmayacağını qətiyyətlə bildirdi. Pey-

ğəmbər - səllallahu aleyhi və səlləm - razılığa gəlib onlarla sülh müqaviləsi bağladı və həmin gün [onun yanına hicrət etmiş] Əbu Cəndəli (r.a) atası Suheyl ibn Amra (r.a) təhvil verdi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - bu müqavilədən sonra müsəlman olaraq onun yanına hicrət etmiş hər bir şəxsi geri qaytardı.

Sonra mömin qadınlar onun yanına hicrət etdilər. Uqbə ibn Əbi Muiytin həddi-büluğa çatmış qızı Ummu Gülsüm də onlarla hicrət etmişdi. Ailəsi gəlib onu geri aparmaq istədikdə Peyğəmbər - səllallahu aleyhi və səlləm - buna [Ummu Gülsümün kafirlərə qaytarılmasına] razılıq vermədi. Uca Allah da bu ayəni nazil etdi»:

**«Ey iman gətirənlər! Mömin qadınlar sizin yanınıza mühacir kimi gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını çox gözəl bilir** [onları yoxlayıb bilmək sizə lazımdır]» ayəsindən **«Allah bağışlayan və rəhm edəndir!»** ayəsinə qədər.[218]

Urva ibn əz-Zubeyr Aişənin (r.a) belə dediyini xəbər vermiş-dir: «Peyğəmbər - səllallahu aleyhi və səlləm - onları bu ayə ilə imtahana çəkdi və ayədə olan şərti [imtahan olunmalarını] qəbul edən qadınlara, onların əlini sıxmadan: «Artıq səninlə bey'ət etdim!» demişdi. And olsun Allaha! Bey'ət etdikdə Peyğəmbərin - səllallahu aleyhi və səlləm - əli qadın əlinə toxunmamış və o yalnız «bey'ət etdim!»- deməklə kifayətlənmişdi.

Bu hədisi Buxari həmçinin (6-cı cild, səh. 276), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 331), Abdurrəzaq «Müsənnəf» əsərində (5-ci cild, səh. 430), ibn Cərir «Tarix»

---

[218] [ «əl-Mumtəhinə» surəsi, 10-12. ]

əsərində (3-cü cild, səh. 80, 82) və «Təfsir»ində (26-cı cild, səh. 100; 28-ci cild, səh. 71) rəvayət etmişlər.

# Əs-Səff surəsi

**Uca Allah buyurur:**

**«Göylərdə və yerdə olanların hamısı** [bütün məxluqat] **Allahı təqdis edib şəninə tariflər deyər. O, yenilməz qüvvət və hikmət sahibidir! Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar…….» (Surənin sonuna qədər)**

Darimi «Sünən» əsərində (2-ci cild, səh. 200) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Abdullah ibn Səlam (r.a) deyir ki, biz səhabələrdən olan bir camaat: «Hansı əməllərin Allaha daha xoş getdiyini bilsəydik, onları edərdik!» deyib [bəzi əməlləri] yad edirdik. Odur ki, bu surə nazil oldu:

**«Göylərdə və yerdə olanların hamısı** [bütün məxluqat] **Allahı təqdis edib şəninə tariflər deyər. O, yenilməz qüvvət və hikmət sahibidir! Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar…….»**

Abdullah ibn Səlam (r.a) deyir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bu surəni xətm edənə [sonuna] qədər bizə oxudu.

Həmçinin, isnadda olan ravilərin hər biri hədisi ona rəvayət edən ravinin [bu hadisəni danışdıqdan sonra] surəni xətm edənə qədər oxuduğunu söyləmişdir».

Bu hədisi həmçinin Əhməd «Müsnəd» əsərində (5-ci cild, səh. 452), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 199), ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman əsərində (səh. 383) qeyd olunduğu kimi) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 69, 229, 487) rəvayət etmişlər. Hakim hər üç rəvayətdən sonra bu rəvayətlərin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir.

İbn Həcər «Fəthul-Bari» əsərində (10-cu cild, səh. 265) bu hədisi izah edərək belə demişdir: «Artıq bu surənin nazil olma səbəbi hədisin əvvəlində xatırlanaraq «səhih», «müsəlsəl» isnadla varid olduğu bizə məlum olmuşdur. Bu cür isnadla varid olan hədislər çox azdır». «Nuxbətul-Fikər» əsərində isə bunun, «müsəlsəl» isnadla varid olan ən «səhih» isnad olduğunu demişdir.

# Əl-Cumuə surəsi

**Uca Allah buyurur:**

**«Onlar** [möminlər] **bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə** [minbərdə xütbə oxuduğun

halda] **qoyub ona tərəf cumdular.** [Ya Peyğəmbər!] **De ki: «Allah dərgahında olan** [savab] **əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ruzi verənlərin ən yaxşısıdır!»**

**(11-ci ayə)**

Buxari «Səhih» əsərində (3-cü cild, səh. 75) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah rəvayət edir ki, bir dəfə cümə günü Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** minbərdə xütbə oxuduğu zaman [Şamdan gələn] karvan Mədinəyə yaxınlaşdı. Bunu görən səhabələr tələsik karvana tərəf getdilər. Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanında isə [Məsciddə] cəmi on iki nəfər qaldı və bu ayə nazil oldu:

**«Onlar** [möminlər] **bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə** [minbərdə xütbə oxuduğun halda] **qoyub ona tərəf cumdular….»**

Bu hədisi Buxari həmçinin (5-ci cild, səh. 200, 204; 10-cu cild, səh. 268), Muslim «Səhih» əsərində (6-cı cild, səh. 150-151), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 200), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 370) və ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 104-105) rəvayət etmişlər. Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

Təbəri «Təfsir»ində Buxari və Muslimin istinad etdiyi ravilərə istinad edərək və Əbu Avanə «Səhih» əsərində istinad edərək (ibn Həcərin Fəthul Bari əsərində (3-cü cild, səh. 76) qeyd olunduğu kimi) Cabir ibn Abdullahdan (r.a) rəvayət

etmişlər. O demişdir: «Bir zamanlar[219] nikah mərasimlərində [toylarda] az yaşlı qız uşaqları təbil vurub, ney [tütək] çalardılar. Bunu görən [bəzi] səhabələr Peyğəmbəri - **səllallahu aleyhi və səlləm** - ayaq üstə minbərdə xütbə oxuduğu halda qoyub onlara tərəf gedərdilər. Uca Allah da bu ayəni nazil etdi:

**«Onlar** [möminlər] **bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə** [minbərdə xütbə oxuduğun halda] **qoyub ona tərəf cumdular….»**

# Əl-Munafiqun surəsi

---

[219] «Dürrul Mənsur» əsərində (6-cı cild, səh. 221) qeyd olunmuşdur ki; «Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - cümə günləri xütbə oxuyurdu. [Cahil] ərəblər isə o zamanlar nikah mərasimlərində [toylarda] çalıb-oxumaqla, əylənməklə məscidin yanından ötüb keçərdilər. Digər tərəfdən də tacirlər öz əmtəələrini satmaq üçün Məscidin yaxınlığına, Bəqiy'ul-Ğarqad [səhabələrin bastırıldığı qəbirstanlıq] tərəfdəki Bətha deyilən yerə gətirərdilər. Onlar atları, dəvələri, qoyunları və s. ticarət mallarını ora gətirdikdə [bəzi] səhabələr Peyğəmbəri - **səllallahu aleyhi və səlləm** - ayaq üstə minbərdə xütbə oxuduğu halda qoyub əylənmək və ticarət etmək üçün onların [çalıb-oxuyanların və alver edənlərin] yanına gedərdilər. Uca Allah da onları qınayaraq bu ayəni nazil etdi:

**«Onlar** [möminlər] **bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə** [minbərdə xütbə oxuduğun halda] **qoyub ona tərəf cumdular….»**

Təbərinin rəvayətləri daha aydın olsun deyə «Dürrul Mənsur» da olan, hər iki səbəbi özündə cəm edən bu rəvayəti nəql etdim.

**Uca Allah buyurur:**

**«Ya Peyğəmbər! Münafiqlər** [riyakarlar] **sənin yanına gəldikləri zaman: «Biz sənin, doğrudan da, Allahın peyğəmbəri olduğuna şəhadət veririk!»- deyirlər. Allah sənin Onun həqiqi peyğəmbəri olduğunu bilir. Allah həmdə münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir….» (1-ci və sonrakı ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 269) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Zeyd ibn Ərqam (r.a) rəvayət edir ki, döyüşlərin birində mən Abdullah ibn Ubeyyin belə dediyini eşitdim: «Allahın elçisinin ətrafındakılara köməklik göstərməyin ki, onlar onun ətrafından dağılıb getsin. Əgər biz onu tərk edib qayıtsaq izzət və hörmət sahibi olanlar [münafiqlər], alçaq və zəlil olanları [Peyğəmbəri və ətrafında olan möminləri] Mədinə şəhərindən çıxaracaqlar!» Mən bunu əmimə – və ya Ömərə (r.a) – o da Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** xəbər verdi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** məni yanına çağırdı və mən bu hadisəni ona danışdım. Sonra o, Abdullah ibn Ubey və onun tərəfdarlarının yanına bir nəfər göndərdi. Onlar isə belə bir söz demədiklərini sübut etmək üçün and içdilər. O, bu andı qəbul edib mənim dediklərimi təkzib etdi. Doğrusu, onun belə qərara gəlməsi mənə çox təsir etdi, misilsiz dərəcədə məni kədərləndirdi və mən evə qayıtdım. Bu halıma yanan əmim mənə dedi: «Mən istəmirdim ki, o, sənin dediklərini təkzib etsin və sənə acığı tutsun!» Bu zaman Uca Allah bu ayələri nazil etdi:

**«Ya Peyğəmbər! Münafiqlər** [riyakarlar] **sənin yanına gəldikləri zaman: «Biz sənin, doğrudan da, Allahın peyğəmbəri olduğuna şəhadət veririk!»- deyirlər. Allah sənin Onun həqiqi peyğəmbəri olduğunu bilir. Allah həmdə münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir….»**

Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - mənim yanıma bir nəfər göndərdi. O, bu ayələri mənə oxuduqdan sonra dedi: «Ey Zeyd! Həqiqətən, Allah sənin dediklərini təsdiq etdi!»

Bu hədisi Buxari həmçinin (10-cu cild, səh. 271-273), Muslim «Səhih» əsərində (17-ci cild, səh. 120), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 200), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 273), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 489), ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 109) və «Tarix» əsərində (3-cü cild, səh. 65) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Onlar: «Allahın Peyğəmbəri yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!» - deyən kimsələrdir. Halbuki göylərin və yerin xəzinələri Allaha məxsusdur, lakin münafiqlər** [bunu] **anlamazlar. Onlar: «Əgər biz** [Bəni Mustəliq vuruşundan] **Mədinəyə qayıtsaq, ən güclülər, ən şərəflilər** [münafiqlər] **ən zəifləri, ən həqirləri** [Peyğəmbər və ona iman gətirənləri]**, əlbəttə oradan çıxardacaqlar!»- deyirlər. Halbuki şərəf-şan da, qüvvət və qələbə də yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur, lakin münafiqlər** [bunu] **bilməzlər!» (7 və 8-ci ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 272) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə

qədər sadaladıqdan sonra] demişdir: «Zeyd ibn Ərqam (r.a) rəvayət edir ki, mən Abdullah ibn Ubeyyin belə dediyini: «Allahın elçisinin ətrafındakılara köməklik göstərməyin ki, onlar onun ətrafından dağılıb getsin. Əgər biz onu tərk edib qayıtsaq izzət və hörmət sahibi olanlar [münafiqlər], alçaq və zəlil olanları [Peyğəmbəri və ətrafında olan möminləri] Mədinədən çıxaracaqlar!» Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - xəbər verdim. Ənsarlar məni qınadılar. Abdullah ibn Ubey də belə demədiyinə görə and içdi. Mən mənzilimə qayıdıb yatdım. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - məni yanına çağırıb dedi: «Həqiqətən, Allah sənin dediklərini təsdiq etdi!», bu ayə nazil oldu:

**«Onlar: «Allahın Peyğəmbəri yanında olanlara bir şey verməyin…»**

Bu hədisi həmçinin Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 201) və ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 109, 113) rəvayət etmişlər. Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

# Ət-Təğabun surəsi

**Uca Allah buyurur:**

**«Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. Onlardan özünüzü gözləyin! Amma** [tövbə edəcəkləri təqdirdə] **onları əfv**

**etsəniz,** [təqsirlərindən] **keçsəniz və bağışlasanız,** [bilin ki] **Allah günahları çox bağışlayan və rəhm edəndir!» (14-cü ayə)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 202) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Bir nəfər ibn Abbasdan (r.a)

**«Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. Onlardan özünüzü gözləyin!...»** ayəsi barəsində soruşdu və o dedi: «Onlar Məkkə əhlindən olan bir dəstə camaat idi. İslam dinini qəbul etdikdən sonra Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına [Mədinə şəhərinə] hicrət etmək istədikdə zövcələri və övladları onları fikirlərindən döndərmişdilər. Sonra onlar Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - yanına hicrət etdilər və din qardaşlarının savadının çox artdığını gördülər. Onlar savadlarını artırıb qardaşlarına çatmaq üçün səy göstərdikdə bu ayə nazil oldu:

**«Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. Onlardan özünüzü gözləyin!....»**

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir.

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (28-ci cild, səh. 124), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 490) və ibn Kəsir «Təfsir»ində (4-cü cild, səh. 376) rəvayət etmişlər. Hakim bu hədisin «səhih» olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir. Lakin qeyd etmək lazımdır ki, hədisi Simak İkrimədən «müttərib» isnadla rəvayət etmişdir. Buna görə də hədis «daif» hesab olunur.

# Ət-Təhrim surəsi

**Uca Allah buyurur:**

«**Ya Peyğəmbər! Zövcələrinin** [səndən] **razı qalmasını diləyərək Allahın sənə halal etdiyi şeyi** [dünya ləzzətini] **niyə özünə haram** [qadağan] **edirsən? Allah bağışlayan və rəhm edəndir! Həqiqətən, Allah** [halal bir şeyi özünüzə haram etmək barəsində içdiyiniz] **andlarınızı** [kəffarə verməklə] **geri götürməyi vacib** [qanuni] **etmişdir. Allah sizin ixtiyar sahibinizdir. O,** [hər şeyi] **biləndir, hikmət sahibidir! Bir zaman Peyğəmbər öz zövcələrindən birinə** [Həfsəyə] **gizli bir söz** [bir daha Zeynəb bint Cəhşin, yaxud Mariya-Qibtiyyənin yanına getməyəcəyini] **demişdi.** [Həfsə] **bu sözü** [digər zövcələrdən biri olan Aişəyə] **xəbər verdikdə və Allah bunu Peyğəmbərə əyan etdikdə Peyğəmbər bunun bir qismini** [Həfsəyə] **bildirmiş,** [alicənablığı üzündən] **bir qismini bildirməkdən isə vaz keçmişdi. Peyğəmbər əhvalatı** [Həfsəyə] **bildirdikdə o: «Bunu sənə kim xəbər verdi?»- deyə soruşmuş, o da: «Bunu mənə** [hər şeyi] **bilən və** [hər şeydən] **agah olan** [Allah] **xəbər verdi!»- deyə cavab vermişdi.** [Ey Həfsə, Ey Aişə] **Əgər ikiniz də** [bu hərəkətinizə görə] **Allaha tövbə etsəniz** [çox yaxşı olar]**. Çünkü** [Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən bir hərəkət etməklə] **qəlbləriniz** [onun barəsində bir qədər qeyri səmimiliyə, günaha] **meyl etdi. Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz** [bilin ki] **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər**

**və bunlardan sonra** [bütün] **mələklər də onun köməkçiləridir». (1 - 4-cü ayələr)**

Buxari «Səhih» əsərində (11-ci cild, səh. 293) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Zeynəb bint Cəhşin (r.a) evində oturub[220] bal içirdi. Mən Həfsə (r.a) ilə məsləhətləşdikdə belə qərara gəldik ki, o hər birimizin yanına gəldikdə ona: «Səndən məğafir[221] iyisi gəlir! Ondan yemisən?»- deyək.

Biz ona belə dedikdə o: «Mən bir daha Zeynəb bint Cəhşin evində bal içməyəcəyəm!»- deyə cavab verdi. Uca Allah da bu ayələri nazil etdi:

**«Ya Peyğəmbər! Zövcələrinin** [səndən] **razı qalmasını diləyərək Allahın sənə halal etdiyi şeyi** [dünya ləzzətini] **niyə özünə haram** [qadağan] **edirsən?»** ayəsindən **«**[Ey Həfsə, Ey Aişə] **Əgər ikiniz də** [bu hərəkətinizə görə] **Allaha tövbə etsəniz** [çox yaxşı olar]**…..»** ayəsinə qədər.

Bu hədisi Buxari həmçinin «Səhih» əsərində (14-cü cild, səh. 385), Muslim «Səhih» əsərində (10-cu cild, səh. 75) Əbu Davud «Sünən» əsərində (3-cü cild, səh. 386), Nəsai «Sünən» əsərində (6-cı cild, səh. 123; 17-ci cild, səh. 13), Əbu Nueym «Hilyə»

---

220 [ Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - gündəlik zövcələrinin hamısını ziyarət etdikdə Zeynəb bint Cəhşin evində digər zövcələrinə nisbətən daha çox oturardı. Buna da səbəb onun bal içməsi idi ki, bu da onların qısqanclığına gətirib çıxartdı. ]

221 [ Məğafir – Akasiya fəslindən olan Urfut ağacının özündən ifraz etdiyi kitrəyə (ağac şirəsinə) deyilir. – «Lisanul Arab» 1/574. ]

əsərində (3-cü cild, səh. 276) və ibn Sə'd «Təbəqat» əsərində (8-ci cild, səh. 76) rəvayət etmişlər.

Nəsai «Sünən» əsərində (2-ci cild, səh. 242) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - [Mariya adlı (r.a) ] bir kənizi var idi. Aişə (r.a) və Həfsə (r.a) onun, bu kənizlə yaşamasına narazı idilər. Odur ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - o kənizilə bir yerdə yaşamağı özünə haram etdi. Uca Allah da bu ayəni nazil etdi:

**«Ya Peyğəmbər! Zövcələrinin** [səndən] **razı qalmasını diləyərək Allahın sənə halal etdiyi şeyi** [dünya ləzzətini] **niyə özünə haram** [qadağan] **edirsən? Allah bağışlayan və rəhm edəndir!»**

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 493) rəvayət etmişdir. O, bu hədisin Muslimin şərtlərinə görə «səhih» olduğunu demiş, Zəhəbi isə bu haqda susmuşdur.

Əbu Abdurrəhman demişdir: «Bu hədisin isnadında olan Məhəmməd ibn Bukeyr əl-Hədrəmi Muslimin istinad etdiyi ravilərdən deyildir. İbn Həcər «Təhzibut-Təhzib» əsərində isə onun Buxarinin istinad etdiyi ravilərdən olduğunu qeyd etmişdir. Lakin Mizzi bu iddianı inkar etmiş və onun [Məhəmməd ibn Bukeyrin] nə Buxarinin «Səhih» əsərində, nə də başqa əsərlərində qeyd olunduğunu təsdiqləməmişdir. Beləliklə də, demək olar ki, bu hədis «səhih»dir, lakin Muslimin şərtinə uyğun deyildir. İbn Həcər «Fəthul-Bari» əsərində (11-ci cild, səh. 292) Nəsainin bu hədisi rəvayət etdiyini qeyd etdikdən sonra onun «səhih» olduğunu demişdir. Heysəmi də

«Məcməuz-Zəvaid» əsərində (7-ci cild, səh. 126) bu ayənin Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - kənizi Mariya (r.a) barəsində nazil olduğunu ibn Abbasdan (r.a) rəvayət olunduğunu qeyd etmiş və demişdir: «Bu hədisi Bəzzar və Təbərani rəvayət etmişlər. Bəzzar bunu iki isnadla rəvayət etmişdir. Bəzzarın rəvayət etdiyi hədisin isnadında olan ravilərin hamısı - Bişr ibn Adəmdən başqa - Buxari və Muslimin istinad etdiyi ravilərdir. Bişr ibn Adəmə gəlincə, o da «siqa» ravidir».

Heysəm ibn Kuleyb «Müsnəd» əsərində (ibn Kəsirin «Təfsir»ində (4-cü cild, səh. 386) qeyd olunduğu kimi) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - Həfsəyə (r.a) belə dedi: «İbrahimin anasını [Mariyanı (r.a) ] özümə haram etdiyimi heç kəsə demə!» Həfsə (r.a) : «Allahın sənə halal buyurduğunu özünə haram edirsən?»- deyə soruşdu. O belə cavab verdi: «Allaha and olsun ki, mən ona yaxınlaşmayacağam!» Həfsə (r.a) Aişəyə (r.a) bu barədə xəbər verdikdən sonra bu ayələr nazil oldu:

**«Həqiqətən, Allah** [halal bir şeyi özünüzə haram etmək barəsində içdiyiniz] **andlarınızı** [kəffarə verməklə] **geri götürməyi vacib** [qanuni] **etmişdir......»**

İbn Kəsir bu hədisi nəql etdikdən sonra belə demişdir: «Bu hədisin isnadı «səhih»dir, lakin altı məşhur kitabın müəlliflərindən [Buxari, Muslim, Əbu Davud, Nəsai, Tirmizi, ibn Macə] heç biri bu hədisi rəvayət etməmişlər. Bu hədisi Ziya əl-Məqdisi «Müstəxrəc» əsərində xüsusən qeyd etmişdir».

İbn Həcər «Fəthul-Bari» əsərində (10-cu cild, səh. 283) bu ayənin hər iki səbəbə, yəni balı və kənizi özünə haram etdiyinə görə nazil olduğunu qeyd etmişdir. Şəvkani də «Təfsir»ində (5-ci cild, səh. 252) demişdir: «Ayənin nazil olmasına dair varid olmuş hər iki hadisə «səhih»dir. Bu iki hadisəni cəm edib demək olar ki, bu ayə həm bal, həm də Mariyaya (r.a) görə nazil olmuş və hər ikisinin özünə haram etdiyini heç kəsə xəbər verməməyi Peyğəmbər - səllallahu aleyhi və səlləm - öz zövcələrindən birinə demişdir».

**Uca Allah buyurur:**

**«**[Ey Həfsə, Ey Aişə] **Əgər ikiniz də** [bu hərəkətinizə görə] **Allaha tövbə etsəniz** [çox yaxşı olar]**. Çünkü** [Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən bir hərəkət etməklə] **qəlbləriniz** [onun barəsində bir qədər qeyri səmimiliyə, günaha] **meyl etdi. Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz** [bilin ki] **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra** [bütün] **mələklər də onun köməkçiləridir. Əğər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr - müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin!» (4 və 5-ci ayələr)**

Muslim «Səhih» əsərində (10-cu cild, səh. 82) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Ömər ibn əl-Xəttab (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - zövcələrini müvəqqəti olaraq tərk etmişdi. Mən məscidə daxil olduqda orada olanların kədərlə: «Allahın elçisi zövcələrini boşayıb!»-

dediklərini eşitdim. Bu zaman hələ qadınlara hicab geyinmək əmr olunmamışdı. Mən öz-özümə dedim: «Bu gün mən bu məsələni mütləq öyrənəcəyəm!» Sonra Aişənin (r.a) yanına gəlib dedim: «Ey Əbu Bəkrin qızı! Sən o həddə çatmısan ki, Allahın elçisinə - səllallahu aleyhi və səlləm - əziyyət verirsən?» O dedi: «Mənim etdiklərimin sənə heç bir aidiyyəti yoxdur. Yaxşı olar ki, sən öz qızına nəsihət verəsən». Mən Həfsənin (r.a) yanına gəlib dedim: «Ey Həfsə, sən o həddə çatmisan ki, Allahın elçisinə - səllallahu aleyhi və səlləm - əziyyət verirsən? Allaha and olsun ki, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - səni sevmədiyini bilirsən. Mən olmasaydım o səni boşayardı!» Həfsə (r.a) bunu eşitdikdə ağladı. Peyğəmbərin - səllallahu aleyhi və səlləm - harada olduğunu soruşduqda o dedi: «O, öz eyvanındadır».

Mən içəri daxil olduqda Peyğəmbərin - səllallahu aleyhi və səlləm – balaca xidmətçisi Rəbah (r.a) eyvanın astanasında oturub, ayaqlarını da Peyğəmbərin - səllallahu aleyhi və səlləm - söykənmək üçün istifadə etdiyi kötüyün üzərinə uzatmışdı. Mən onu çağırıb dedim: «Ey Rəbah, Allahın elçisindən - səllallahu aleyhi və səlləm - izn istə onun yanına daxil olum! O əvvəl eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən yenə onu çağırıb dedim: «Ey Rəbah, Allahın elçisindən - səllallahu aleyhi və səlləm - izn istə onun yanına daxil olum». O əvvəl eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən onu uca səslə çağırıb dedim: «Ey Rəbah, Allahın elçisindən - səllallahu aleyhi və səlləm - izn istə onun yanına daxil olum! Mən zənn edriəm ki, Allahın elçisi mənim Həfsəni (r.a) müdafiə etmək üçün gəldiyimi güman edir. Allaha and olsun ki, o mənə əmr etsəydi, Həfsənin (r.a) boynunu vurardım». Bu dəfə Rəbah (r.a) başı ilə işarə edib Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına daxil olmağa izn verdi. Mən Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına daxil

olduqda, o, həsirin üzərində uzanmışdı. Sonra o qalxıb oturdu və onun əynində izardan başqa heç nə yox idi. Həsirin izi onun çiynində və böyründə qalmışdı. Mən onun eyvanına nəzər salıb gördüm ki, orada təqribən bir «saa» arpa, bir o qədər akasiya ağacının qabığı və bir də aşılanmış dəridən başqa heç bir şey yoxdur. Bu halı gördükdə mənim gözlərim yaşla doldu. Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Ey ibn əl-Xəttab, səni ağladan nədir?» Mən dedim: «Ey Allah elçisi! Nə üçün də ağlamayım. Mən görürəm ki, həsir sənin bədənini bu hala salıb, eyvanında da gördüklərimdən başqa bir şey yoxdur. Qeysər [Rum İmperatoru] və Xosrov [Fars İmperatoru] isə cah-cəlal içərisində yaşayırlar. Sən isə Allahın elçisi və sevimlisi, bu da sənin eyvanın!» O dedi: «Ey ibn əl-Xəttab, istəmirsən ki, dünya onlara, axirət isə bizə nəsib olsun?» Mən: «Əksinə! [İstəyirəm]» deyə cavab verdim. Sonra mən onun qəzəblənməsinin səbəbini soruşub dedim: «Zövcələrin nəyə görə narazılıq edir? Əğər sən onları boşasan, həqiqətən Uca Allah, onun mələkləri, Cəbrail - **aleyhissəlam** - , Mi-kail - **aleyhissəlam** - , mən, Əbu Bəkr (r.a) və bütün mömünlər səninləyik!» Mən çox nadir hallarda dediklərimin Allah tərəfindən təsdiq olunmasını Ondan istəyirdim. Uca Allah da bu barədə ayə nazil etdi:

«[Ey Həfsə, Ey Aişə] **Əgər ikiniz də** [bu hərəkətinizə görə] **Allaha tövbə etsəniz** [çox yaxşı olar]**. Çünkü** [Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən bir hərəkət etməklə] **qəlbləriniz** [onun barəsində bir qədər qeyri səmimiliyə, günaha] **meyl etdi. Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz** [bilin ki] **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra** [bütün] **mələklər**

**də onun köməkçiləridir! Əğər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr - müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin!»**[222]

Aişə (r.a.) və Həfsə (r.a.) Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** digər zövcələrini də ona qarşı çıxmağa sövq etməkdə bir-birinə kömək edirdilər. Mən dedim: «Ey Allahın elçisi, sən onları boşamısan?» O: «Xeyr»- deyə cavab verdi. Mən dedim: «Ey Allahın elçisi! Mən məscidə daxil olduqda orada olanların kədərlə: «Allahın elçisi zövcələrini boşayıb!»- dediklərini eşitdim. Bunun doğru olmadığını onlara xəbər verimmi?» O dedi: «İstəyirsən xəbər ver!» Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** qəzəbi soyuyub, üzündə təbəssüm hiss olunana qədər mən onunla söhbət etdim. O, oturduğu kötüyün üstündən qalxıb getdikdə mən dedim: «Ey Allahın elçisi, iyirmi doqquz gündür ki, otağındasan». O dedi: «Ay da iyirmi doqquz gündən ibarət olur». Mən məscidin qapısının önündə dayanıb uca səslə car çəkib dedim: «Allahın elçisi zövcələrini boşamayıb!» Uca Allahda bu ayəni nazil etdi:

**«Münafiqlərə** [bəzi müsəlmanların sadəlövhlüyü üzündən döyüş meydanından] **əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki əgər** [müsəlmanlar] **bunu** [münafiqlərə deyil] **Peyğəmbərə və ya özlərindən** [möminlərdən] **olan ixtiyar sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan** [belə bir xəbərin yayılmasının məqsədəuyğun olub olmadığını təyin etməyə qadir olan] **şəxslər bilərdilər…..»**

---

[222] [ «ət-Təhrim» surəsi, 4-5. ]

Mən də o xəbərin mahiyyətinə varan şəxslərdən idim».

# Əl-Cinn surəsi

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbər!] **De: «Mənə vəhy olundu ki, bir dəstə cin** [Məkkə və Taif arasında sübh namazı vaxtı Quranı] **dinləyib** [öz həmcinslərinin yanına qayıtdıqları zaman] **dedilər: «Biz çox qəribə,** [təsəvvür edilməz dərəcədə gözəl] **olan bir Quran eşitdik…» (1-ci və sonrakı ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 296) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** bir dəstə səhabə ilə Ukaz bazarına[223] getdilər. Artıq şeytanlar səmavi xəbəri [Allahın mələklərə verdiyi xəbəri] oğrun-oğrun öyrənməkdən məhrum olmuş və onları yandırıb yaxan ulduzlar təqib etmişdir. Onlar [İblisin yanına] qayıtdıqda şikayət edib dedilər: «Biz səmavi xəbəri öyrənməkdən məhrum olduq və üstümüzə yanar ulduzlar endirildi!» O dedi: «Sizə mane olan baş vermiş yeni hadisədir! Gedin, yer üzünü məşriqdən məğribə kimi gəzin və bu hadisənin nə olduğunu öyrənin!»

---

[223] [ Bu bazar Məkkənin yaxınlığında yerləşirdi. Ərəblər hər il orada toplanıb bir ay ibadət məqsədilə şerlər deyir və bununla da fəxr edirdilər. - «Muxtarus-Sihah» 1/187. ]

Onlar, səmavi xəbəri öyrənməyə mane olan əsas səbəbi öyrənmək üçün yer üzünü məşriqdən məğribə kimi gəzib dolaşdılar. Onlardan bir dəstə Tihaməyə[224] tərəf getdi. Bu zaman onlar Ukaz bazarına getmək istəyən Peyğəmbərin - səllallahu aleyhi və səlləm – səhabələri ilə birlikdə xurma ağacının yanında fəcr namazını qıldığını gördülər və onun oxuduğu Qurana qulaq asıb dedilər: «Budur bizi səmavi xəbərdən məhrum edən». Sonra onlar öz qövmünün yanına qayıdıb dedilər: «Ey qövm! Biz çox qəribə, təsəvvür edilməz dərəcədə gözəl olan bir Quran eşitdik. O, haqq yolu göstərir Biz ona iman gətirdik və bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq». Uca Allah da Peyğəmbərinə - səllallahu aleyhi və səlləm - bu ayələri nazil etdi:

**«**[Ya Peyğəmbər!] **De: «Mənə vəhy olundu ki, bir dəstə cin** [Məkkə və Taif arasında sübh namazı vaxtı Quranı] **dinləyib** [öz həmcinslərinin yanına qayıtdıqları zaman] **dedilər: «Biz çox qəribə,** [təsəvvür edilməz dərəcədə gözəl] **olan bir Quran eşitdik…»**

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (4-cü cild, səh. 167), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 207), Əhməd «Müsnəd» əsərində (1-cü cild, səh. 252), ibn Cərir «Təfsir»ində (29-ci cild, səh. 102), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 503), Beyhəqi «Dəlailun-Nübuvvə» əsərində (2-ci cild, səh. 12), və Əbu Nueym «Hilyə» əsərində (4-cü cild, səh. 301) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu demişdir. Hakim isə bu hədisin isnadının Buxari və Muslimin şərtlərinə

---

[224] [ Yer adıdır. ]

uyğun «səhih» olduğunu qeyd etmişdir.

# Əl-Muzzəmmil surəsi

**Uca Allah buyurur:**

« [Ya Peyğəmbər!] **Həqiqətən Rəbbin bilir ki, sən** [yatağından] **qalxıb bəzən gecənin təqribən üçdə ikisini, bəzən yarısını, bəzən də üçdə birini namaz qılırsan. Səninlə birlikdə olan bir zümrə** [yaxın səhabələrin] **də belədir. Gecəni də, gündüzü də ancaq Allah ölçüb müəyyən edər. Allah sizin bunu** [gecə vaxtlarını və saatlarını] **ölçüb-saya bilməyəcəyinizi** [yaxud bütün gecəni oyaq qalıb ibadət edə bilməyəcəyinizi] **bildiyi üçün bu barədə sizə rüxsət verdi** [gecə durub namaz qılmağı siz möminlərə vacib etmədi]**. Qurandan sizə müyəssər olanı oxuyun** [təhəccüd namazı sizə vacib olmadığı üçün gecələr onu imkanınız çatdığı qədər qılıb Quran oxuyun]**. Allah bilir ki, içərinizdə xəstələr də olacaq, bəziləri Allahın kərəmindən ruzi axtarmaq üçün** [ticarət məqsədilə] **yer üzünü gəzib dolaşacaq, digərləri isə Allah yolunda vuruşacaqdır** [cihada gedəcəkdir]**. Elə isə ondan** [Qurandan] **sizə müyəssər olanı oxuyun, namaz qılın, zəkatı ödəyin və Allah yolunda gözəl** [könül xoşluğu ilə] **bir borc verin. Özünüz üçün öncə** [dünyada] **nə yaxşı iş görsəniz, Allah dərgahında onun daha xeyirli və daha böyük mükafatı**

**olduğunu görəcəksiniz. Allahdan bağışlanmağınızı diləyin. Həqiqətən, Allah bağışlayan və rəhm edəndir». (20-ci ayə)**

Əbu Davud «Sünən» əsərində (1-ci cild, səh. 503) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, «əl-Muzzəmmil» surəsinin əvvəlki ayələri nazil oduqdan sonra səhabələr Ramazan ayında olduğu kimi digər gecələri də ibadətdə keçirərdilər. Bir il keçdikdən sonra isə bu surənin son ayəsi nazil oldu.

Əhməd ibn Məhəmməd əl-Mərvəzidən başqa bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Əhməd ibn Məhəmmədə gəlincə, o da «siqa» ravidir.

Bu hədisi həmçinin ibn Cərir «Təfsir»ində (29-cu cild, səh. 124-125) və ibn Əbi Hatim «Təfsir»ində (ibn Kəsirin «Təfsir»ində (4-cü cild, səh. 436) qeyd olunduğu kimi) isnadla rəvayət etmişlər. İsnadında olan ravilər Buxari və Muslimin istinad etdiyi ravilərdir.

# Əl-Muddəssir surəsi

**Uca Allah buyurur:**

**«Ey** [libasına] **örtünüb bürünmüş** [Peyğəmbər!] **Qalx** [qövmünü Allahın əzabı ilə] **qorxut!** [İman gətirməyənlərə

qiyamət günü şiddətli əzaba düçar ediləcəklərini xəbər ver!] **Öz Rəbbini Uca tut! Libasını təmizlə!** [Əzaba səbəb olacaq] **pis şeylərdən uzaqlaş!** [Bütləri tərk et!]» **(1-5-ci ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 303) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Yəyhə ibn Əbi Kəsir rəvayət edir ki, mən Əbu Sələmə ibn Abdurrəhmandan Quranda ilk nazil olmuş ayə barəsində soruşduqda o:

**«Ey** [libasına] **örtünüb bürünmüş** [Peyğəmbər!]**»** ayəsinin ilk nazil olmuş ayə olduğunu mənə xəbər verdi. Mən dedim: «Bəs deyirlər ilk nazil olmuş ayə

**«**[Ya Peyğəmbər! Bütün məxluqatı yoxdan] **yaradan Rəbbinin adı ilə oxu!»**[225] ayəsidir». Əbu Sələmə dedi: «Vaxtı ilə mən də Cabir ibn Abdullahdan (r.a) bu barədə soruşmuşdum. O mənə belə demişdi: «Mən sənə yalnız Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** bizə danışdığı hədisi danışacağam. O **- səllallahu aleyhi və səlləm -** başına gələn hadisəni bizə danışıb dedi: «Hira dağının yanında olarkən kimsə məni çağırdı. Mən, sağıma və soluma, önümə və arxama baxdım, lakin heç kəsi görmədim. Sonra yuxarı baxdım və [dəhşətli[226]] bir şey gördüm. Mən dərhal evə getdim və Xədicəyə «Üstümü

---

[225] [ «əl-Ələq» surəsi, 1. ]

[226] [ Burada Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Cəbraili **- aleyhissəlam -** öz qiyafəsində, qanadları ilə üfüqün qarşısını tutduğunu görmüş və dəhşətə gəlmişdir. Əlavə məlumat üçün bax: «ən-Nəcm» surəsi, 7 və «ət-Təkvir» surəsi, 23 - cü ayələrin təfsiri. ]

örtün! Üzərimə soyuq su səpin!» dedim. Onlar mənim dediklərimi yerinə yetirdikdən sonra bu ayələr nazil oldu:

**«Ey** [libasına] **örtünüb bürünmüş** [Peyğəmbər!] **Qalx** [qövmünü Allahın əzabı ilə] **qorxut!** [İman gətirməyənlərə qiyamət günü şiddətli əzaba düçar ediləcəklərini xəbər ver!]**…»**

Bu hədisi Buxari həmçinin (1-ci cild, səh. 31; 10-cu cild, səh. 305, 306, 351), Muslim «Səhih» əsərində (2-ci cild, səh. 206-208), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 208), Əhməd «Müsnəd» əsərində (3-cü cild, səh. 377, 392), Abdurrəzaq «Müsənnəf» əsərində (5-ci cild, səh. 324), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 7), ibn Cərir «Tarix» əsərində (2-ci cild, səh. 208-209) və «Təfsir»ində (29-cu cild, səh. 143), Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 251) və Beyhəqi «Dəlailun-Nübuvvə» əsərində (1-ci cild, səh. 410-411) rəvayət etmişlər.

Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə uyğun olduğunu demiş və onların bu hədisi: «Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** vəhy nazil olduğu müddətdə baş verən hadisə barədə danışırdı» ləfzilə rəvayət etmədiklərini qeyd etmişdir. Lakin mən, xatırlatmaq istəyirəm ki, artıq Buxari «Səhih» əsərində (1-ci cild, səh. 31; 10-ci cild, səh. 305, 306, 350) və Muslim «Səhih» əsərində (2-ci cild, səh. 205-206) bu hədisi rəvayət etmişlər.

**QEYD :** İbn Kəsir «Təfsirində» (4-ci cild, səh. 440) bu məsələni belə izah etmişdir: «İslam alimlərinin böyük əksəriyyəti Cabir ibn Abdullahdan (r.a) rəvayət olunan «əl-Muddəssir» surəsində olan ayənin ilk nazil olmuş ayə olduğu

rəyə müxalifdirlər. Onlar «əl-Ələq» surəsinin əvvəlki ayəsini ilk nazil olmuş ayə hesab edirlər».

Sonra o, Buxari və Muslimin «Səhih» əsərlərindəki rəvayəti nəql etmiş və demişdir: «Muslim [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** ona vəhy nazil olduğu müddətdə baş verən hadisə barədə bizə xəbər verib dedi: «Mən, yolda getdiyim vaxt göydən səs eşitdim. Başımı qaldırıb səmaya baxdıqda Hira dağında yanıma gələn mələyin göylə-yer arasında yerləşdirilmiş kürsü üzərində əyləşdiyini gördüm və qorxudan üzüqoylu yerə yıxıldım. Sonra dərhal əhli-əyalımın yanına getdim və: «Üstümü örtün! Üstümü örtün!» dedim. Uca Allah da bu ayələri nazil etdi:

**«Ey** [libasına] **örtünüb bürünmüş** [Peyğəmbər!]» ayəsindən «[Əzaba səbəb olacaq] **pis şeylərdən uzaqlaş!»** ayəsinə qədər.[227]

Əbu Sələmə «pis şeylərin» bütlər olduğunu izah etmişdir. Sonra vəhyin nazil olması davam etdi. Bu, Buxarinin rəvayət etdiyi ləfz kimidir və buradakı: «Hira dağında yanıma gələn mələyin…» ləfzi sübutdur ki, o mələk, yəni Cəbrail **- aleyhissəlam -** bu hadisədən əvvəl də artıq ona ayələr nazil etmişdir:

**«**[Ya Peyğəmbər! Bütün məxluqatı yoxdan] **yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı.** [Ya Peyğəmbər!] **Oxu! Sənin Rəbbin ən böyük kərəm**

---

[227] [ «əl-Muddəsir» surəsi, 1-5. ]

**sahibidir! Hansı ki qələmlə** [yazmağı] **öyrətdi. İnsana bilmədiklərini öyrətdi».**[228]

Bu ayələr nazil olduqdan sonra bir müddət vəhyin nazil olması dayandı, sonra yenə nazil olmağa başladı. Bütün bunları da cəm edib demək olar ki, vəhyin nazil olmasının dayanmasından bir müddət sonra ilk nazil olan ayə «əl-Muddəssir» surəsinin ayələridir».

İbn Həcər də «Fəthul-Bari» əsərində (1-ci cild, səh. 31; 10-cu cild, səh. 304-305) buna bənzər bir izah qeyd etmişdir.

**Uca Allah buyurur:**

«[Ya Peyğəmbər!] **Məni Öz yaratdığım kimsə ilə tək burax.** [kafirin cəzasını yalnız Mənə tapşır!] **Mən ona bollu mal-dövlət əta etdim, yanında hazır duran oğullar** [verdim].....» **(11,12,13 və sonrakı ayələr)**

İbn Kəsir «Bidayə vən-Nihayə» əsərində (3-cü cild, səh. 60) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Vəlid ibn əl-Müğirə Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəlib onun oxuduğu Quranı dinlədi və sanki ona olan sərt münasibəti yumşaldı. Bu xəbər gedib Əbu Cəhlə çatdıqda o, Vəlidin yanına gəlib dedi: «Ey əmi! Qövmün pul toplayıb sənə vermək istəyir». Vəlid: «Nə üçün?» deyə soruşduqda o dedi: «Çünki sən Məhəmmədin dəvətini qəbul edib dədə-babalarının dinindən dönmüsən». O dedi: «Qüreyş qəbiləsi mənim var-dövlətimin hamısından çox olduğunu

[228] [ «əl-Ələq» surəsi, 1-5. ]

yaxşı bilir». Əbu Cəhl dedi: «Elə isə bir söz de, qövmün də bilsin ki, sən onun dəvətini inkar edirsən!» O dedi: «Mən nə deyim! Allaha and olsun ki, şe'r və onun vəznlərini, qəsidələri və cinlərə məxsus şerləri məndən yaxşı biləniniz yoxdur! Allaha and olsun ki, onun dedikləri bunlardan heç birinə bənzəmir! Allaha and olsun ki, onun dediyi sözlər çox şirin, məlahətli, cazibədar və əvvəlindən axırına qədər səmərəli və bərəkətli olan sözlərdir. Bu sözlər [yaradılmışlar tərəfindən] deyilənlərin hamısını üstələyir və onları puç edir. Onu isə heç nə üstələmir». Əbu Cəhl dedi: «Onun dəvətini inkar etməyincə qövmün səndən razı qalmayacaq!» O dedi: «Dayan, bir az fikirləşim!». O, bir az fikirləşib dedi: «Həqiqətən, bu, bir sehrdir! O bununla hamını ovsunlayır!» Uca Allah da bu ayələri nazil etdi:

**«**[Ya Peyğəmbər!] **Məni Öz yaratdığım kimsə ilə tək burax.** [kafirin cəzasını yalnız Mənə tapşır!] **Mən ona bollu mal-dövlət əta etdim, yanında hazır duran oğullar** [verdim]…..**»**[229] Beyhəqi bu hədisi Hakimdən[230] «mürsəl» isnadla nəql etmişdir».

# Əl-Qiyamə surəsi

**Uca Allah buyurur:**

---

229 [ «əl-Muddəssir» surəsini 11-ci ayədən 56-cı ayəyə qədər oxu! ]

230 Hakim bu hədisi, Buxarinin şərtinə görə səhih olduğunu «Mustədrək» əsərində (2-ci cild, səh. 507) qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir. Beyhəqi bu hədisi həmçinin «Dəlailun-Nübuvvə» əsərində (1-ci cild, səh. 556) rəvayət etmişdir.

«[Ya Peyğəmbər! Cəbrail sənə Quranı oxuduğu zaman] **onu tələmtələsik əzbərləmək üçün dilini tərpətmə!** [Sən də onunla birlikdə Quranı təkrar etmə, yalnız dinlə!] **Çünki onu** [sənin qəlbində] **cəm etmək,** [dilində] **oxutmaq Bizə aiddir».(16-17-ci ayələr)**

Buxari «Səhih» əsərində (1-ci cild, səh. 32) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səid ibn Cubeyr rəvayət edir ki, ibn Abbas (r.a) bu ayə barəsində belə demişdir: «Allahın elçisi **- səllallahu aleyhi və səlləm -** ona nazil olan ayələri əzbərləmək üçün [və ya ayə nazil olduğu zaman üzərinə düşən məşəqqətdən tez qurtarmaq üçün bu ayələri] dodaqlarını tərpədərək tələmtələsik oxuyardı. Mən də onun dodaqlarının necə tərpətməsini sizə göstərirəm. Eynilə Səid ibn Cubeyr də öz tələbələrinə:

«Mən də ibn Abbasın (r.a) dodaqlarının necə tərpəndiyini gördüyüm kimi dodaqlarımı tərpədəcəyəm!»- deyib dodaqlarını tərpətdi.

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Quranı tələmtələsik oxuduğu üçün Uca Allah bu ayələri nazil etdi:

«[Ya Peyğəmbər! Cəbrail sənə Quranı oxuduğu zaman] **onu tələmtələsik əzbərləmək üçün dilini tərpətmə!** [Sən də onunla birlikdə Quranı təkrar etmə, yalnız dinlə!] **Çünki onu** [sənin qəlbində] **cəm etmək,** [dilində] **oxutmaq Bizə aiddir».** Yəni, Quranı sənin qəlbində cəm edəcəyik və sən də onu oxuyacaqsan. Biz onu oxuduğumuz zaman diqqətli ol, onu dinlə və sus! Həqiqətən, onu sənin dilində oxutmaq Bizə aiddir. Bu hadisədən sonra Cəbrail **- aleyhissəlam -** hər dəfə Allahın

elçisinə - səllallahu aleyhi və səlləm - ayələr nazil etdikdə o, bu ayələri yalnız dinləyərdi. Cəbrail - aleyhissəlam - çıxıb getdikdən sonra isə Allahın elçisi - səllallahu aleyhi və səlləm - bu ayələri eşitdiyi kimi oxuyardı».

Bu hədisi həmçinin Muslim «Səhih» əsərində (4-cü cild, səh. 165-166), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 209), Nəsai «Sünən» əsərində (2-ci cild, səh. 115), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 343), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 25), ibn Sə'd «Təbəqat» əsərində (1-ci cild, səh. 132), ibn Cərir «Təfsir»ində (29-cu cild, səh. 187), Humeydi «Müsnəd» əsərində (1-ci cild, səh. 242) və ibn Əbu Hatim (ibn Kəsirin «Təfsir»ində (4-cü cild səh. 449) qeyd olunduğu kimi) rəvayət etmişlər.

**Uca Allah buyurur:**

**«Vay sənin halına, vay! Yenə də vay sənin halına, vay!» (34-35-ci ayələr)**

Nəsai «Sünən» əsərində (ibn Kəsirin «Təfsir»ində (4-cü cild, səh. 452) qeyd olunduğu kimi) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Səid ibn Cubeyr rəvayət edir ki, mən ibn Abbasdan (r.a) bu iki ayə

**«Vay sənin halına, vay! Yenə də vay sənin halına, vay!»** barəsində soruşdum. O dedi: «Bu ifadələri Allahın elçisi - səllallahu aleyhi və səlləm - Əbu Cəhlə dedi və bu ayələr nazil oldu».

Bu hədisin ravilərinin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir.

Hədisi həmçinin ibn Cərir «Təfsir»ində (29-cu cild, səh. 200) rəvayət etmişdir.

# Ən-Naziat surəsi

**Uca Allah buyurur:**

**«Səndən Saat** [Qiyamət] **barəsində soruşurlar ki, «nə zaman vaqe olacaq?» Onun xatırlanmasından sənə nə** [fayda olacaq]**?! Onu tam bilmək sənin Rəbbinə aiddir. Sən yalnız ondan** [Qiyamətin dəhşətindən] **çəkinəni qorxudansan». (42-45-ci aylər)**

İbn Cərir «Təfsir»ində (30-cu cild, səh. 49) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki, Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - qiyamət barəsində o qədər sual verdilər ki, Uca Allah bu ayələri nazil etdi:

**«Onun xatırlanmasından sənə nə** [fayda olacaq]**?! Onu tam bilmək sənin Rəbbinə aiddir…..»**

Bu hədisi həmçinin Hakim «Mustədrək» əsərində (1-ci cild, səh. 5; 2-ci cild, səh. 513), Əbu Nueym «Hilyə» əsərində (7-ci cild, səh. 314) və Xətib əl-Bəğdadi «Tarix» əsərində (11-ci cild, səh. 321) rəvayət etmişlər. Hakim bu hədisin isnadının Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir. Bu hədisi həmçinin ibn Əbi Hatim «İləl» əsərində nəql etdikdən sonra demişdir: «Bu

hədisi mənə Əbu Zur'a rəvayət etmiş və demişdir: «Bu, «səhih, mürsəl» hədisdir».

Lakin qeyd etmək istəyirəm ki, bu «illə» [yəni «mürsəl» olması] hədisin mötəbər olmasına heç bir xələl gətirmir. Çünki Abdullah ibn əz-Zubeyr və Yaqub ibn İbrahim bu hədisi «məvsul» isnadla rəvayət etmişlər. Həmçinin bu hədisin isnadının mötəbər olduğuna dair başqa bir hədis də mövcuddur.

İbn Cərir «Təfsir»ində [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Tariq ibn Şihab belə deyir: «Peyğəmbərə - **səllallahu aleyhi və səlləm -** qiyamət barəsində o qədər sual verdilər ki, bu ayələr nazil oldu:

**«Səndən Saat** [Qiyamət] **barəsində soruşurlar ki, «nə zaman vaqe olacaq?» Onun xatırlanmasından sənə nə** [fayda olacaq]**?! Onu tam bilmək sənin Rəbbinə aiddir. Sən yalnız ondan** [Qiyamətin dəhşətindən] **çəkinəni qorxudansan».**

Heysəmi «Məvariduz-Zəman» əsərində (7-ci cild, səh. 13) bu hədisi qeyd etdikdən sonra demişdir: «Bu hədisi Bəzzar rəvayət edib və isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdəndir».

İbn Kəsir «Təfsir»ində (2-ci cild, səh. 273) bu hədisin isnadının «ceyyid» olduğunu qeyd etmişdir.

# Əbəsə surəsi

**Uca Allah buyurur:**

«[Peyğəmbər] **qaşqabağını töküb üzünü çevirdi». (1-ci və sonrakı ayələr)**

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 209) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Aişə (r.a) rəvayət edir ki,

«[Peyğəmbər] **qaşqabağını töküb üzünü çevirdi»** [ayəsi və bundan sonrakı ayələr] kor olmuş ibn Ümmi Məktum (r.a) barəsində nazil olmuşdur. O, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına gəldi və dedi: «Ey Allahın elçisi! Məni haqq yoluna istiqamətləndir». Müşriklərin başçılarından biri Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanında olduğundan o, ibn Ümmi Məktumdan (r.a) üz çevirdi və müşriklərin başçısına tərəf döndü. O: «Məgər mənim dediyimdə bir anlaşılmazlıq var?»- dedi və bu ayələr nazil oldu».

Bu hədis «həsən, ğərib»dir.

Bu hədisi həmçinin ibn Hibban «Səhih» əsərində («Məvariduz-Zaman» əsərində (səh. 438) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (30-cu cild, səh. 50) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 514) rəvayət etmişlər. Hakim bu hədisin Buxari və Muslimin şərtlərinə görə «səhih» olduğunu demişdir. Lakin Zəhəbi bunun «mürsəl» olduğunu qeyd etmişdir. İraqi tədqiq etdiyi «İhya» əsərinin (4-cü cild, səh. 244) demişdir: «Bu hədisin isnadında olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir».

Bu hədisin mötəbər sayılması üçün başqa bir hədisi də qeyd etmək olar. Şəvkani «Fəthul-Qadir» əsərində (5-ci cild, səh. 386) demişdir: «Ənəs ibn Malik (r.a) rəvayət edir ki, ibn Ümmi Məktum (r.a) Peyğəmbərin - səllallahu aleyhi və səlləm - yanına gələndə o, Ubey ibn Xələf ilə söhbət edirdi. Peyğəmbər - səllallahu aleyhi və səlləm - ibn Ümmi Məktumu (r.a) görəndə ondan üz çevirdi. Uca Allah da bu ayələri nazil etdi:

«[Peyğəmbər] **qaşqabağını töküb üzünü çevirdi. Yanına korun** [Abdullah ibn Ümmi Məktumun] **gəlməsindən dolayı…..».** Bu ayələr nazil olduqdan Peyğəmbər - səllallahu aleyhi və səlləm - ona ehtiram göstərirdi.

Bu hədisin isnadı ibn Kəsirin «Təfsir»ində (4-cü cild, səh. 470) qeyd olunmuşdur. Məhəmməd ibn Məhdidən başqa bu isnadda olan ravilərin hamısı Buxari və Muslimin istinad etdiyi ravilərdir. Lakin bunun isnada heç bir təsiri yoxdur. Çünki o bu hədisi Abdurrəzaqdan rəvayət etmişdir. O da bu hədisi «Müsənnəf» əsərində «səhih» isnadla rəvayət etmişdir..

# Əl-Mutaffifin surəsi

**Uca Allah buyurur:**

**«Vay çəkidə və ölçüdə aldadanların halına! O kəslər ki** [özləri] **camaatdan** [bir şey] **aldıqda** [onu] **düz çəkməyi tələb edər. Onlar üçün** [bir şey] **çəkdikdə və ya ölçdükdə isə** [onları] **ziyana salarlar** [əskik verərlər]**. Məgər onlar düşünmürlər ki, diriləcəklər.** [Özü də] **əzəmətli bir gündə. O**

**gün ki, insanlar aləmlərin Rəbbinin hüzurunda duracaqlar?!» (1-6-cı ayələr)**

İbn Macə «Sünən» əsərində (2223-cü hədis) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Mədinə şəhərinə gəldiyi zaman oranın əhalisi [bir çoxları] çəkidə və ölçüdə aldadan ən nanəcib insanlar idi. Uca Allah da bu ayələri nazil etdi:

**«Vay çəkidə və ölçüdə aldadanların halına!.......»** bundan sonra onlar çəkidə aldatmadılar.

Bu hədisi həmçinin Nəsai «Sünən» əsərində (İbn Kəsirin «Təfsir»ində (4-cü cild, səh. 483) qeyd olunduğu kimi), ibn Hibban «Səhih» əsərində (Heysəminin «Məvariduz-Zaman» əsərində (səh. 438) qeyd olunduğu kimi), ibn Cərir «Təfsir»ində (29-cu cild, səh. 91) və Hakim «Mustədrək» əsərində (2-ci cild, səh. 33) rəvayət etmişlər. Hakim bu hədisin isnadının «səhih» olduğunu qeyd etmiş, Zəhəbi də bunu təsdiqləmişdir. Bütün bu rəvayətlər bir-birini qüvvətləndirir və hədisin sabit olduğunu sübut edir. Daha doğrusunu isə Allah bilir!

# Əd-Duha surəsi

**Uca Allah buyurur:**

**«And olsun səhərə! And olsun sakitləşən** [və zülməti artmaqda olan] **gecəyə! Sənin Rəbbin** [bir müddət vəhy nazil etməməklə] **nə səni tərk etdi, nə də** [sənə] **nifrət etdi». (1- 3-cü ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 339) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Cündəb ibn Süfyan əl-Bəcəli (r.a) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** iki-üç gün xəstə yatdı. Bu vaxt bir qadın gəlib Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** belə dedi: «Deyəsən şeytanın səni tərk edib! İki-üç gecədir ki, mən onun sənə yaxınlaşdığını [vəhy nazil etdiyini] görmürəm?» Bu vaxt Uca Allah bu ayələri nazil etdi:

**«And olsun səhərə! And olsun sakitləşən** [və zülməti artmaqda olan] **gecəyə! Sənin Rəbbin** [bir müddət vəhy nazil etməməklə] **nə səni tərk etdi, nə də** [sənə] **nifrət etdi».**

Bu hədisi Buxari həmçinin «Fədailul-Quran» fəslində (10-ci cild, səh. 382), «Namaz» fəslində (3-cü cild, səh. 250), Muslim «Səhih» əsərində (12-ci cild, səh. 156), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 214), Əhməd «Müsnəd» əsərində (4-cü cild, səh. 311-312), Təyalisi «Müsnəd» əsərində (2-ci cild, səh. 25), İbn Cərir «Təfsir»ində (30-cu cild, səh. 231), Humeydi «Müsnəd» əsərində (2-ci cild, səh. 342) və Xətib əl-Bağdadi «Muvəddih Əvhamil-Cəmi vət-Təfriq» əsərində (2-ci cild, səh. 22) rəvayət etmişlər.

Tirmizi bu hədisin «həsən-səhih» olduğunu qeyd etmişdir.

**Uca Allah buyurur:**

**«Şübhəsiz ki, sənin Rəbbin sənə** [nemətlər] **bəxş edəcək, sən də razı qalacaqsan!».**

**(5-ci ayə)**

İbn Kəsir «Təfsir»ində (4-cü cild, səh. 522) Abdullah ibn Abbasın (r.a) rəvayət etdiyi hədisin isnadını qeyd etdikdən sonra demişdir: «Müsəlman ümmətinə nəsib olacaq xəzinələr [bol-bol nemətlər] Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** göstərildi və o, çox sevindi. Uca Allah da bu ayəni nazil etdi:

**«Şübhəsiz ki, sənin Rəbbin sənə** [nemətlər] **bəxş edəcək, sən də razı qalacaqsan!».**

Rəbbi ona Cənnətdə bir milyon qəsr[231] bəxş etmişdir ki, onların hər birində ona layiq zövcələr və xidmətçilər mövcuddur».

İbn Cərir və ibn Əbi Hatimin rəvayət etdikləri bu hədisin isnadı «məvquf»dur, lakin buna baxmayaraq o «səhih»dir.

İbn Kəsir deyir ki, ibn Cəririn rəvayət etdiyi hədisin isnadlarından birində Amr ibn Hişam əl-Beyruti «daif» ravidir. Digər isnadda olan Rəvvad ibn əl-Cərrah isə «müxtəlit» ravidir.

Hakim bu hədisi «Mustədrək» əsərində (2-ci cild, səh. 526) qeyd etmiş və səhih olduğunu bildirmişdir. Lakin Zəhəbi onu qınamış və demişdir: «Asim ibn Rəvvadın atasından rəvayət

---

231 [ Hədisin «milyon qəsr» ləfzilə ibn Kəsirin «Təfsir»ində qeyd olunduğu bizə məlumdur. Lakin qeyd etmək lazımdır ki, bir çox hədis kitablarında əksinə, bu hədis «min qəsr» ləfzilə varid olub. Bunu da Təbəri «Təfsir»idə, 30/232; Hakim «Mustədrək» əsərində, 2/573; Heysəmi «Məvariduz-Zəman» əsərində, 7/138; ibn Əbi Şeybə «Müsənnəf» əsərində, 7/31; Təbərani «Mucəmul-Kəbir» əsərində 1/180 və «Mucəmul-Əvsət» əsərində 10/277 rəvayət etmişlər. ]

etdiyi hədis, Rəvvadın «daif» olduğuna görə hədis mötəbər hesab olunmur. Bu hədisi həmçinin Təbərani «Mucəmul-Kəbir» və «Mucəmul-Əvsət» əsərlərində rəvayət etmişdir. Lakin bu isnadlardan birindəki Müaviyə ibn Əbil-Abbasın kim olduğu mənə bəlli deyildir. Digər isnad isə [yəni «Mucəmul-Kəbir»dəki isnad] «həsən»dir. Lakin bu hədisdə aşağıdakı ayə nazil olmuşdur:

**«Həqiqətən, axirət sənin üçün ilk həyatdan** [dünyadan] **daha xeyirlidir!»**[232]

Bu hədisi həmçinin Əbu Nueym «Hilyə» əsərində (3-cü cild, səh. 212) rəvayət etmişdir.

# Əl-Ələq surəsi

**Uca Allah buyurur:**

**«Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyaclı olmadığını gördüyü üçün. Axı axır dönüş sənin Rəbbinədir! Gördünmü o kimsəni ki, mane olur, bir bəndəyə namaz qılanda? Söylə görək, hərgah** [o bəndə] **doğru yoldadırsa, yaxud Allahdan qorxmağı əmr edirsə** [onda necə]**?! Söylə görək, hərgah** [sənin namaz qılmağına mane olan kəs] (haqqı) **təkzib edib üz döndərirsə** [onda necə]**?! Məgər o bilmirdi ki, Allah** [hər şeyi] **görür? Xeyr! Əgər son qoymasa,** [Biz onu] **mütləq kəkilindən tutacağıq - yalançı, günahkar kəkilindən. Qoy o öz yığnağını** [havadarlarını] **çağırsın! Biz də**

---

232 [ «əd-Duha» surəsi, 4. ]

**Cəhənnəm gözətçilərini çağırarıq. Xeyr, ona itaət etmə!** [Allaha] **səcdə et və** [Ona] **yaxınlaş!»**

**(6-cı ayədən 19-cu ayəyə qədər)**

Muslim «Səhih» əsərində (17-ci cild, səh. 139) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Əbu Cəhl ərəblərə belə dedi: «Məhəmməd sizin yanınızda üzünü torpağa sürtürmü?» Onlar: «Bəli»- deyə cavab verdikdə o dedi: «And olsun Lat və Uzzaya, əgər mən onun belə etdiyini görsəm, boynundan basıb üz-gözünü torpağa bulaşdıracağam!» Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** gəlib namaz qılmağa başladı və Əbu Cəhl dediklərini doğrultmaq üçün ona tərəf yaxınlaşdı. Lakin hər dəfə onun üzərinə hücum etdikdə əlləri ilə özünü müdafiə edərək arxaya çəkilirdi. Ondan: «Sənə nə olub?»- deyə soruşduqda o dedi: «Onunla mənim aramda çox vahiməli, atəşli bir xəndək və [Mələklərin qanadlarına oxşar] qanadlar var idi».

Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Əgər mənə yaxınlaşsaydı, mələklər onu didib parça-parça edərdilər!» Uca Allah da bu ayələri nazil etdi:

**«Xeyr! İnsan, doğrudan da, həddini aşır,...»** ayəsindən surənin sonuna qədər.

İbn Kəsir «Təfsir»ində (4-cü cild, səh. 529) deyir ki, bu hədisi Əhməd ibn Hənbəl, Muslim, Nəsai və ibn Əbi Hatim rəvayət etmişlər.

Bu hədisi həmçinin İbn Cərir «Təfsir»ində (30-cu cild, səh. 256) və Beyhəqi «Dəlailu-n-Nubuvvə» əsərində (1-ci cild, səh. 438) rəvayət etmişlər.

İbn Cərir «Təfsir»ində (30-cu cild, səh. 256) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Əbu Cəhl ərəblərə belə dedi: «Əgər görsəm ki, Məhəmməd Kəbənin yanında namaz qılır, mən onun başını tapdalayacağam!»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - dedi: «Əgər o, mənə pislik etməyə cəhd göstərsəydi mələklər onu əyani surətdə [göz görə-görə] məhv edərdilər!»

Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 216) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər - səllallahu aleyhi və səlləm - namaz qılarkən Əbu Cəhl gəlib ona belə dedi: «Məgər mən bunu sənə qadağan etməmişdim?»

Peyğəmbər - səllallahu aleyhi və səlləm - onun dediyinə məhəl qoymayıb getdi. O, Peyğəmbərin - səllallahu aleyhi və səlləm - arxasınca donquldanaraq dedi: «Sən yaxşı bilirsən ki, mənim nə qədər tərəfdarım var». Uca Allah bu ayələri nazil etdi:

**«Qoy o öz yığnağını** [havadarlarını] **çağırsın! Biz də Cəhənnəm gözətçilərini çağırarıq».**

İbn Abbas (r.a) belə deyir: «Allaha and olsun ki, o tərəfdarlarını çağırsaydı Cəhənnəm gözətçiləri onu məhv edərdilər».

Bu hədis «həsən, ğərib, səhih»dir.

# Əl-Kəusər surəsi

**Uca Allah buyurur:**

**«Şübhəsiz ki, sənə ədavətkar olanın özü sonsuzdur».**
**(3-cü ayə)**

İbn Kəsir «Təfsir»ində (4-cü cild, səh. 560) demişdir: «Bəzzar [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Kə'b ibn əl-Əşrəf Məkkəyə gəldikdə Qüreyşlilər ona belə dedi: «Sən, camaat arasında çox tanınmış şəxsiyyətsən! Qövmündən ayrılıb özünü bizdən də artıq sayan bu sənbur[233] [Peyğəmbər **- səllallahu aleyhi və səlləm** ] barəsində nə deyə bilərsən? Halbuki biz ziyarətgahda qulluq edir, oranı ziyarət etməyə gələnləri su ilə təmin edir və onlara digər xidmətlər göstəririk». O dedi: «Siz ondan da artıq xeyirxahsınız!» Uca Allah bu ayəni nazil etdi:

**«Şübhəsiz ki, sənə ədavətkar olanın özü sonsuzdur».[234]**

---

[233] Sənbur - sonsuz, zəif, zəlil və yardımçısı olmayana deyilir. («Qamus», 2/73.)

[234] [ «əl-Kovsər» surəsi, 3. ]

Bu hədisin isnadı «səhih»dir. Hədisi həmçinin İbn Cərir «Təfsir»ində (3-cü cild, səh. 330) rəvayət etmişdir. Lakin o rəvayətdə deyilir ki, bu ayə nazil olduqdan sonra başqa ayələr də nazil oldu. Bu ayələrdə Uca Allah buyurur:

**«**[Ya Məhəmməd!] **Kitabdan** [Tövratdan və ya yazıb oxumaqdan] **özlərinə az bir şey verilənləri** [yəhudiləri] **görmürsənmi? Onlar Cibt və Tağuta** [bu adda iki bütə yaxud Cibt adlı bütə və Tağut deyilən şeytana] **inanır»** ayəsindən **«Onlar Allahın lənət etdiyi şəxslərdir. Allah lənət etdiyi şəxsə isə heç bir kömək edən tapa bilməzsən!»**[235] ayəsinə qədər**».** Bu rəvayətin isnadına gəlincə, o «mürsəl»dir.

# Əl-Məsəd surəsi

**Uca Allah buyurur:**

**«Əbu Ləhəbin əlləri qurusun, qurudu da! Onu** [Allahın əzabından] **nə mal-dövləti, nə də qazandığı** [övlad və s.] **qurtardı».**

**(1 və 2-ci ayələr)**

Buxari «Səhih» əsərində (10-cu cild, səh. 118) [hədisin mətnini bir-birinə xəbər verən ravilərin silsiləsini birinci raviyə

---

[235] [ «ən-Nisa» surəsi, 51-52. ]

qədər sadaladıqdan sonra] demişdir: «İbn Abbas (r.a) rəvayət edir ki, Uca Allah:

**«Və ən yaxın qohumlarını qorxut!»**[236] ayəsini nazil etdikdən sonra, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** Səfa dağına qalxdı və: «Ey Fəhr oğulları! Ey Adiyy oğulları!»- deyərək qohum əqrəbasını çağırdı. Qüreyşlilər onun yanına toplandı. İmkan tapıb gələ bilməyənlərin hər biri öz tərəfindən bir nümayəndə göndərdi ki, hadisə barəsində ona xəbər versinlər. Beləliklə də, Əbu Ləhəb başda olmaqla qüreyşlilər Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yanına toplandılar. O dedi: «Əgər mən sizə xəbər versəm ki, bu vadidə bir dəstə atlı var, onlar sizə hücum etmək istəyir mənə inanarsınızmı?» Onlar dedilər: «Bəli, bu vaxta qədər səndən yalan eşitməmişik». O dedi: «Həqiqətən, mən sizi Allahın şiddətli əzabı ilə qorxudan bir peyğəmbərəm!» Əbu Ləhəb də ona belə dedi: «Ölüm olsun sənə! Bizi buna görə bura yığmısan?» Uca Allah da bu ayələri nazil etdi:

**«Əbu Ləhəbin əlləri qurusun, qurudu da! Onu** [Allahın əzabından] **nə mal-dövləti, nə də qazandığı** [övlad və s.] **qurtardı».**

Bu hədisi həmçinin Buxari «Səhih» əsərində (3-cü cild, səh. 54; 10-cu cild, səh. 368-369), Muslim «Səhih» əsərində (3-cü cild, səh. 83), Tirmizi «Sünən» əsərində (4-cü cild, səh. 220), Əhməd «Müsnəd» əsərində (1-ci cild, səh. 281), Beyhəqi «Dəlailun-Nubuvvə» əsərində (1-ci cild, səh. 431), İbn Cərir

---

[236] [ «əş-Şuəra» surəsi, 214. ]

«Tarix» əsərində (2-ci cild, səh. 216) və «Təfsir»ində (19-cu cild, səh. 121; 30-cu cild, səh. 337) rəvayət etmişlər.

Şeyximiz demişdir: «Bu hədisi Nəsai «Sünən» əsərində (İsmailinin «Ümdətul-Qari» əsərində (16-cı cild, səh. 93) qeyd olunduğu kimi) rəvayət etmişdir».

İsmaili «Ümdətul-Qari» əsərində (19-cu cild, səh. 102) bu hədisin isnadının «mürsəl» olduğunu qeyd etmiş və bunu belə izah etmişdir: «Bu hadisə baş verdikdə İbn Abbas (r.a) ya körpə idi, ya da anadan olmamışdı. Lakin səhabədən «mürsəl» isnadla rəvayət olunan hədis «məqbul»dur və zəif hesab olunmur».

Daha doğrusunu bilən isə Uca Allahdır!

## Bəzi hədis terminlərinin izahlı lüğəti

**Əsbatus-Siqat:** Əsbat – səbt [ ثَبْتٌ ] sözünün cəm formasıdır. Bu da lüğətdə səbatlı, sarsılmaz, möhkəm, mətin, etibarlı, mötəbər və s. mənaları ifadə edir.[237] Bu sözün həmçinin istilahi mənası da mövcuddur. Belə ki, hədis alimləri «qəlbi, dili, yazısı və dəlil-sübutu səbatlı olan»- şəxsi «səbt»- adlandırırlar.[238]

---

237 [ «Mücəmul-Vəsit», səh. 93; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/108; «Rusca-Azərbaycanca lüğət», 1/329 - 2/206. ]

238 [ Səxavinin «Fəthul Muğis» əsəri, 1/364; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh.140. ]

Siqat isə - siqa [ ثِقَةٌ ] sözünün cəm formasıdır. Bu da lüğətdə sədaqətli, sadiq, vəfalı, etibar qazanmış və s. mənaları ifadə edir.[239]

İstilahi mənada isə, hədis alimləri - öz işində ədalətli və dəqiq olan şəxsi «siqa»- adlandırırlar.[240]

**Ceyyid:** Bu kəlmə [ جَيِّدٌ ] lüğətdə yaxşı, çox gözəl, üstün və s. mənaları ifadə edir.[241]

İstilahi mənada isə bu «səhih» və ya ona yaxın dərəcədə olan hədisə deyilir.[242]

**Daif:** Bu kəlmə [ ضَعِيفٌ ] lüğətdə zəif, gücsüz, qeyri-qənaət-bəxş və s. mənaları ifadə edir.[243]

İstilahi mənada isə - nəql etdiyi hədisə etimad olunmayan, etibarsız raviyə «daif»- deyilir.[244]

Hədislə bağlı terminə gəlincə, onun da özünə məxsus istilahi mənası vardır. Belə ki, hədis alimləri hədisə «daif» dedikdə, həsən hədisdən aşağı dərəcədə yerləşən, yaxud

---

239 [ «Mücəmul-Vəsit», səh. 1012; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/872; «Rusca-Azərbaycanca lüğət», 1/125, 310. ]

240 [ İbnus-Səlahın «Ulumul Hədis» əsəri, səh. 77; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh.136. ]

241 [ «Mücəmul-Vəsit», səh. 145; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/147; «Rusca-Azərbaycanca lüğət», 2/592, 3/465. ]

242 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/150. ]

243 [ «Mücəmul-Vəsit», səh. 540; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/460; «Rusca-Azərbaycanca lüğət», 2/191, 3/188. ]

244 [ İbnus-Səlahın «Ulumul Hədis» əsəri, səh. 238. ]

özündə həsən hədisin vəsfini cəm etməyən, hər hansı şərtlərindən biri olmayan hədisi qəsd edirlər.[245]

**Hafiz:** Bu kəlmə [ حَافِظٌ ] lüğətdə mühafizə edən, qoruyan, Quranı əzbər bilən və s. mənaları ifadə edir.[246]

İstilahi mənada isə «hafiz» və «dabit» [təqribən eyni mənanı ifadə edir - əzbərlədiyini və ya yazdıqlarını qoruyan, dəqiq olan]. Bu iki kəlmə ayrı-ayrılıqda «ədl» [ عَدْلٌ ] «insaf» ləfzilə birgə ifadə olunmasa ravinin mötəbər sayılması üçün kifayət etmir.[247]

**Hədis:** Bu kəlmə [ حَدِيثٌ ] lüğətdə hekayə, rəvayət, söhbət, danışıq, yeni və s. mənaları ifadə edir.[248]

İstilahi mənada isə - Peyğəmbərə - **səllallahu aleyhi və səlləm** - istinad edilən kəlmə, ya hərəkət, ya təsdiq etmə[249], ya da sifət[250] hədis adlanır.[251]

---

245 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/151. Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 63; «Mücəmul-Vəsit», səh. 540. ]

246 [«Mücəmul-Vəsit», səh. 226; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/182-183; «Rusca-Azərbaycanca lüğət», 3/467. ]

247 [ Səxavinin «Fəthul-Muğis» əsəri, 1/364; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 138. ]

248 [ «Mücəmul-Vəsit», səh. 160; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/160; «Rusca-Azərbaycanca lüğət», 2/593; 3/18; 57. ]

249 [ Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - səhabənin dediyi sözü, yaxud etdiyi hərəkəti bəyənib etiraz etməməsidir ki, buna da ərəbcə «təqrir» - [ تَقْرِيرٌ ] deyilir. ]

250 [ Burada sifət deyildikdə fitri və ya əxlaqi dəyərlər nəzərdə tutulur. ]

251 [ Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 15. ]

**Həsən:** Bu kəlmə [ حَسَنٌ ] lüğətdə yaxşı, çox gözəl, və s. mənaları ifadə edir.[252]

İstilahi mənada - Xəttabi[253], Tirmizi[254], İbn Həcər[255] kimi hədis alimləri bu kəlməyə tərif vermişlər. İbn Həcərin tərifinə əsaslanıb belə demək olar: «Həsən hədis, isnadının əvvəlindən axırına qədər [mühafizə, yaxud yazdıqlarını qorumaq baxımından] dəqiqliyi az olan insaflı ravinin aramsız, sapdırmadan [şazz olmadan] və qüsursuz [«illə»siz] olaraq özü kimisindən xəbər verdiyi hədisdir».[256]

**Həsən li-ğeyrihi: «**Həsən» kəlməsinin lüğəti və istilahi mənası artıq yuxarıda izah olunub. «Li-ğeyrihi» [ لِغَيْرِهِ ] kəlməsinə gəlincə, bu ərəbcə «li»- ön qoşmasından, «ğeyrun»- ismindən və «hu»- bitişən əvəzliyindən əmələ gəlmiş kəlmədir. Ayrı-ayrılıqda «li»- aidiyyət, mənsubiyyət bildirir. «Ğeyrun»- kəlməsi özgə, başqa və qeyri mənalarını, «hu»- əvəzliyi isə onun, ona və onu mənalarını ifadə edir.[257]

İstilahi mənada isə - bu, bir çox yollarla [isnadlarla] rəvayət olunmuş «daif» hədisdir ki, onun zəifliyinin səbəbi ravinin yalançı və ya fasiq olmasıyla əlaqəli deyildir.

---

[252] [ «Mücəmul-Vəsit», səh. 174; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/174; «Rusca-Azərbaycanca lüğət», 2/601; 3/467. ]

[253] [ «Məalimu-s-Sünən», 1/11. ]

[254] [ Mübarəkfurinin «Töhvətul Əhvəzi» əsəri, 10/519. ]

[255] [ İbn Həcərin öz şərhilə olan «Nuxbətul Fikər» əsəri, səh. 29. ]

[256] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/134; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 46. ]

[257] [ «Mücəmul-Vəsit», səh. 668; 809; 968; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/576, 708, 842; «Rusca-Azərbaycanca lüğət», 1/343, 346, 478; 2/626. ]

Bu növ hədis dərəcə etibarilə «həsən»dən aşağı hesab olunur.[258]

**Həsən-Səhih:** Bu ifadənin zahiri mənası anlaşılmazdır. Belə ki, «həsən» dərəcə etibarı ilə «səhih»dən aşağı hesab olunur. Elə isə fərqli mənaları olan bu iki istilahi terminləri necə cəm etmək olar? Artıq alimlər Tirmizinin bu ifadəsində olan məqsədini müxtəlif cür izah etmişlər. Bu izahların ən gözəli isə ibn Həcərin izahıdır. Bunu da Suyuti təqdirə layiq hesab etmişdir. Xülasə budur:

– Əgər hədisin iki və daha çox isnadı varsa bu ifadə: «Bu hədis bir isnadla «həsən», digər isnadla isə «səhih»dir – mənasını ifadə edir.

– Əgər hədisin yalnız bir isnadı varsa bu ifadə: «Bu hədis bir qrup alimin rəyinə görə «həsən», digərlərinə görə isə «səhih»dir!- mənasını ifadə edir.[259]

**İllə:** Bu kəlmə [ عِلَّة ] lüğətdə xəstəlik, nöqsan, qüsur, zəiflik, eyib və s. mənaları ifadə edir.[260]

İstilahi mənada isə - bu, hədisin mötəbər olmasında naqislik əmələ gətirən gizlin, anlaşılmaz səbəbdir. «İllə»nin bu tərifindən belə nəticə çıxır ki, hədis alimlərinin rəyinə görə o, yalnız iki şərtlə «illə» hesab olunur:

– Anlaşılmaz və gizlin olması;

– Hədisin mötəbər olmasında naqislik əmələ gətirməsi.

---

[258] [ İbn Həcərin «Nükət» əsəri, səh. 402; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 52. ]

[259] [ Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 48. ]

[260] [ «Mücəmul-Vəsit», səh. 623; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/531; «Rusca-Azərbaycanca lüğət», 1/92; 2/191; 3/188. ]

Bu şərtlərdən hər hansı biri olmasa həmin səbəb istilahi mənada olan «illə» adlanmır. Həmçinin qeyd etmək lazımdır ki, «illə» hədisin həm isnadında, həm də mətnində ola bilər.[261]

**İsnad:** Bu kəlmə [ إِسْنَادٌ ] lüğətdə istinad, mənbə, dəlil-sübut, dayaq və s. mənaları ifadə edir.[262]

İstilahi mənada isə bu kəlmənin iki mənası var:

– Hədisi istinad edərək rəvayət edənə aid etmək;

– Hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsi. Bu mənada o, «sənəd»in sinonimi hesab olunur.[263]

**İttirab:** Bu kəlmə [ اِضْطِرَابٌ ] lüğətdə qarışıqlıq, anlaşılmazlıq, qeyri-müəyyənlik, hərc-mərclik və s. mənaları ifadə edir.[264]

Qeyd etmək lazımdır ki, «ittirab» sənəddə də ola bilər, mətndə də.[265]

**Ğərib:** Bu kəlmə [ غَرِيبٌ ] lüğətdə qəribə, naməlum, yad, qərib, tək və s. mənaları ifadə edir.[266]

İstilahi mənada isə - tək bir ravinin fərdi olaraq öz rəvayətini xəbər verməsi «ğərib» hədis adlanır.[267]

---

261 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/245-225. Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 99-101. ]

262 [ «Mücəmul-Vəsit», səh. 454; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/377; «Rusca-Azərbaycanca lüğət», 1/315, 497; 2/307. ]

263 [ Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 16. ]

264 [ «Mücəmul-Vəsit», səh. 536; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/457; «Rusca-Azərbaycanca lüğət», 1/395; 2/224; 3/206. ]

265 [ Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 113. ]

266 [ «Mücəmul-Vəsit», səh. 648; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/559; «Rusca-Azərbaycanca lüğət», 2/195; 3/274; 500. ]

**Leyyin:** Bu kəlmə [ لَيِّنٌ ] lüğətdə həlim, yumşaq, mülayim, incəqəlbli, riqqətli, tez razılaşan, üzüyola və s. mənaları ifadə edir.[268]

İstilahi mənada isə - bu o ravidir ki, az sayda hədis rəvayət etmiş, rəvayət etdiyi hədisin qəbul olunmamasına dair heç bir amil sübuta yetirilməmiş və həmin hədis də başqa hədislə gücləndirilməmişdir».[269]

**Leysə bil-qəviyyi:** Bu ifadə [ لَيْسَ بالقَوِيِّ ] ərəbcə «leysə»- felindən, «bi»- ön qoşmasından və «əl-qəviyyu»- ismindən əmələ gəlmiş söz birləşməsidir. Ayrı-ayrılıqda «leysə»- deyil mənasını, «bi»- isə -lı (-li), -lu (-lü) şəkilçisini ifadə edir. «Qəviyyun» kəlməsinə gəlincə, o bir neçə mənada istifadə olunur. Məsələn: Cüclü, qüvvətli, inandırıcı və s.[270]

İstilahi mənada isə bu söz birləşməsi iki cür ifadə olunur, müəyyənlikdə «leysə bil-qəviyyi» və qeyri müəyyənlikdə «leysə bi qəviyyin». Belə olduqda onların hər biri özünə məxsus mənanı ifadə edir. Belə ki, «leysə bil-qəviyyi» ifadəsi yalnız kamil dərəcəni qüvvətdən inkar edir [yəni ravinin kamil dərəcədə qüvvətli, inanılmış ravi olduğunu inkar edir]. «Leysə bi qəviyyin»- ifadəsi isə etibarsızlığı tamamilə sübuta

---

[267] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/171-172; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 28. ]

[268] [ «Mücəmul-Vəsit», səh. 850; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/738; «Rusca-Azərbaycanca lüğət», 2/111; 193; 486. ]

[269] [ İbn Həcərin «Təqribut-Təhzib» əsəri, səh. 81. ]

[270] [ «Mücəmul-Vəsit», səh. 849, 768; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/52-53; 2/669, 736; «Rusca-Azərbaycanca lüğət», 2/178; 3/110, 164. ]

yetirməsə də qüvvəti büsbütün inkar edir [yəni ravinin etibarsız olduğunu qətiyyətlə bildirmir].[271]

**Məqbul:** Bu kəlmə [ مَقبُولٌ ] ərəbcə «qabilə» [ قَبِلَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu kəlmə lüğətdə bəyənilən, təqdirə layiq, qəbul edilən, qəbul oluna bilən və s. mənaları ifadə edir.[272]

İstilahi mənada isə - bu o ravidir ki, az sayda hədis rəvayət etmiş, rəvayət etdiyi hədisin qəbul olunmamasına dair heç bir amil sübuta yetirilməmiş və həmin hədis də başqa hədislə gücləndirilmişdir».[273]

**Mərfu:** Bu kəlmə [ مَرْفُوعٌ ] ərəbcə «rəfəa» [ رَفَعَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir və «yüksəldilmiş» mənasını ifadə edir.[274]

İstilahi mənada isə - Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** istinad edilən kəlmə, ya hərəkət, ya təsdiq etmə, ya da sifət[275]- «mərfu» hədis adlanır.[276]

**Məsturul-hal:** Bu ifadə [ مَسْتُورُ الحَالِ ] iki ismin birləşməsindən əmələ gəlmiş izafədir. Ayrı-ayrılıqda

---

271 [ Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 143. ]

272 [ «Mücəmul-Vəsit», səh. 712; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/621; «Rusca-Azərbaycanca lüğət», 2/289, 628, 616. ]

273 [ İbn Həcərin «Təqribut-Təhzib» əsəri, səh. 81. ]

274 [ «Mücəmul-Vəsit», səh. 360; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/306; «Rusca-Azərbaycanca lüğət», 2/593; 3/18; 57. ]

275 [ «Hədis» termininin izahına bax. ]

276 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/156; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 128-129. ]

«məstur»- ərəbcə «sətərə» [ سَتَرَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu da gizlin, gizlədilmiş, bağlanmış, örtülmüş və s. mənaları ifadə edir. «Hal» isə vəziyyət, şərait, hal və s. mənaları ifadə edir.[277]

İstilahi mənaya gəlincə, ibn Həcərin bu haqda dediyini qeyd etmək kifayətdir:

a) «Məchulul-ayn» o ravidir ki, ondan yalnız bir nəfər hədis rəvayət edib və etibarlı hesab olunmayıb;

b) «Məchulul-hal» (yaxud, məsturul hal) o ravidir ki, ondan iki və daha artıq şəxs rəvayət edib, inanılmış olub-olmadığı isə məlum edilməyib.[278]

**Mətn:** Bu kəlmə [ مَتْنٌ ] lüğətdə möhkəm, bərk, arxa, bel və s. mənaları ifadə edir.[279]

İstilahi mənada isə - bu o kəlmədir ki, sənəd[280] ona gətirib çıxarır».[281]

**Mətruk:** Bu kəlmə [ مَتْرُوكٌ ] ərəbcə «tərəkə» [ تَرَكَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu da lüğətdə

---

277 [ «Mücəmul-Vəsit», səh. 209; 416; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/203, 347; «Rusca-Azərbaycanca lüğət», 1/388; 2/271; 3/248. ]

278 [ İbn Həcərin «Təqribut-Təhzib» əsəri, səh. 81 və «Nüzhətun-Nəzər» əsəri, səh. 50; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 79. ]

279 [ «Mücəmul-Vəsit», səh. 853; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/741; «Rusca-Azərbaycanca lüğət», 2/697; 3/242. ]

280 [ Sənədin tərifinə bax. ]

281 [ Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 16. ]

tərk edilmiş, unudulmuş, atılmış, buraxılmış, mənaları ifadə edir.[282]

İstilahi mənada bu termini izah etmək üçün Əhməd ibnus-Səlahın dediyini qeyd etmək olar. O demişdir: «Bir kimsənin rəvayət etdiyi hədisin tərk olunmasında bütün alimlər həmfikir olmayınca onun rəvayət etdiyi hədis tərk olunmur. Belə ki, kiməsə «filankəs daif ravidir» deyilir, lakin «filankəs mətrukdur» yalnız o raviyə deyilir ki, onun rəvayət etdiyi hədisin tərk olunmasında bütün alimlər həmfikir olsunlar.[283]

**Məvquf:** Bu kəlmə [ مَوْقُوفٌ ] ərəbcə «vəqəfə» [ وَقَفَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir və «dayandırılmış» mənasını ifadə edir.[284]

İstilahi mənada isə - səhabəyə (r.a) istinad edilən kəlmə, ya hərəkət, ya da təsdiq etmə[285] «məvquf» hədis adlanır.[286]

**Məvsul:** Bu kəlmə [ مَوْصُولٌ ] ərəbcə «vəsələ» [ وَصَلَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Belə isnada **«müttəsil»** də deyilir. Bu kəlmə isə ərəbcə «İttəsələ» [ اِتَّصَلَ ] felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu iki

---

282 [ «Mücəmul-Vəsit», səh. 84; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/101; «Rusca-Azərbaycanca lüğət», 2/324, 533. ]

283 [ İbnus-Səlahın «Ulumul Hədis» əsəri, səh. 240; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh.145. ]

284 [ «Mücəmul-Vəsit», səh. 1051; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/907; «Rusca-Azərbaycanca lüğət», 2/325. ]

285 [ «Hədis» termininin izahına bax. ]

286 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/156-158; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 130. ]

kəlmə – birləşdirilmiş, bitişdirilmiş, bağlanmış, əlaqədar və s. mənaları ifadə edir.[287]

İstilahi mənada isə – «mərfu» və ya «məvquf»[288] qrupuna aid, sənədində bağlılıq olan isnad- «məvsul» adlanır. Belə isnad həm də «müttəsil» adlanır.[289]

**Mu'dəl:** Bu kəlmə [ مُعْضَلٌ ] ərəbcə «ə'dələ» [ أعْضَلَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu da zəiflədilmiş, gücdən salınmış, üzgün, əldən düşmüş, yorğun və s. mənaları ifadə edir.[290]

İstilahi mənada isə – isnadından iki və daha çox ravinin adlarının ardıcıl olaraq buraxıldığı hədis «mu'dəl» adlanır.[291]

**Mübhəm:** Bu kəlmə [ مُبْهَمٌ ] ərəbcə «əbhəmə» [ أبْهَمَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu kəlmə, aydın olmayan, aşkar olmayan, qeyri-müəyyən, örtülü, şübhəli və s. mənaları ifadə edir.[292]

İstilahi mənada «mübhəm»- raviyə gəlincə, ondan rəvayət qəbul olunmur. Belə ki, ravinin insaflı olduğunu bilmək

---

[287] [ «Mücəmul-Vəsit», səh. ; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/892-893; «Rusca-Azərbaycanca lüğət», 3/140, 219. ]

[288] [ Bu terminlərin izahına bax. ]

[289] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/155; Təhhanın «Təysirul Mustələhəl Hədis» əsəri, səh. 136. ]

[290] [ «Mücəmul-Vəsit», səh. 607; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/520; «Rusca-Azərbaycanca lüğət», 3/414. ]

[291] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/183; Təhhanın «Təysirul Mustələhəl Hədis» əsəri, səh. 75. ]

[292] [ «Mücəmul-Vəsit», səh. 74; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/90; «Rusca-Azərbaycanca lüğət», 2/203, 224; 3/225. ]

rəvayətin qəbul olunması üçün qoyulmuş şərtdir. Bəs adı qeyri-müəyyən olanın kim olduğu bəlli deyildirsə, onun insaflı və dəqiq olduğu necə aydın ola bilər?».[293]

**Müəlləq:** Bu kəlmə [ مُعَلَّقٌ ] ərəbcə «alləqa» [ عَلَّقَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu kəlmə - asılmış, bağlanmış, bənd edilmiş və s. mənaları ifadə edir.[294]

İstilahi mənada isə - bu o hədisdir ki, isnadının əvvəlindən bir və daha çox ravinin adları ardıcıl olaraq buraxılmışdır.[295]

**Müdəllis:** Bu kəlmə [ مُدَلِّسٌ ] ərəbcə «dəlləsə» [ دَلَّسَ ] felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da adamaldadan, yalançı, fırıldaqçı, kələkbaz və s. mənaları ifadə edir.[296]

İstilahi mənada isə - bu, ravinin «tədlis» etməsi deməkdir. «Tədlis» kəlməsi lüğətdə yalan, fırıldaq, kələk və s. mənaları ifadə edir. İstilahi mənada isə «tədlis» üç növdür:

a) «tədlisul-isnad»- bu, ravinin rastlaşdığı kimsədən [başqa bir ravidən] eşitmədiyi rəvayəti elə bir formada rəvayət etməsidir ki, həm eşitməsi həm də eşitməməsi ehtimal edilir».

b) «tədlisut-təsviyə»- bu, «müdəllis» ravinin öz şeyxindən «eşitdim» deməklə hədis rəvayət etməsidir ki, o, isnadın

---

[293] [ İbn Həcərin «Nüzhətun-Nəzər» əsəri, səh. 49; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 76. ]

[294] [ «Mücəmul-Vəsit», səh. 622; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/533; «Rusca-Azərbaycanca lüğət», 2/488. ]

[295] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/191; Təhhanın «Təysirul Mustələhəl Hədis» əsəri, səh. 69. ]

[296] [ «Mücəmul-Vəsit», səh. 293; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/260; «Rusca-Azərbaycanca lüğət», 2/255. ]

tərkibində olan, bir-birilə rastlaşmış iki «siqa» ravinin arasında [hədisi birindən eşidib digərinə çatdırmaqda vasitə] olan «daif» ravinin adını vurğulamır və onlardan birincisi[297] «müdəllis» də deyildir. Odur ki, «Müdəllis» ravi [şeyxindən eşitdiyi hədisin isnadını sadaladıqda] elə bir ləfz gətirir ki, o iki «siqa» ravinin birinin digərindən həmin hədisi eşitməsi ehtimal edilir və beləliklə də isnadın tərkibi yalnız «siqa» ravilərdən ibarət olur.

v) «tədlisuş-şuyux»- bu, bir ravinin digərindən eşitdiyi hədisi rəvayət etməsidir ki, həmin ravi şeyxinin [hədisi rəvayət edən şəxsin] tanınmaması üçün onu məşhur olmadığı adı ilə, yaxud kunyası ilə, yaxud nəsəbi ilə, yaxud da xassəsi ilə qeyd edir.[298]

**Müdrəc:** Bu kəlmə [ مُدْرَجٌ ] ərəbcə «ədrəcə» [ أدْرَجَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bir şeyi başqa bir şeyə idrac etmək, onlardan birini digərinə idxal etmək və tərkibinə aid etmək deməkdir.[299]

İstilahi mənada isə - bu o hədisdir ki, isnadının üslubu dəyişdirilmiş, ya da mətninə aid olmayan bir şeyi ondan ayrı olduğu göstərilmədən ona əlavə edilmişdir.[300]

---

[297] [ Yəni həmin «siqa» ravi ki, «daif» ravi hədisi ondan eşitmişdir. ]

[298] [ İbnus-Səlahın «Ülumul-Hədis» əsəri, səh. 167; İbn Həcərin «Nükət» əsəri, 2/261; Səxavinin «Fəthul Muğis» əsəri, 1/190; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 120-121. ]

[299] [ «Mücəmul-Vəsit», səh. 277; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/249; «Rusca-Azərbaycanca lüğət», 1/151. ]

[300] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/239-245; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 103. ]

**Mühəddis:** Bu, hədislər rəvayət edib onları araşdırıb-anlamaqla hədis elmilə məşğul olan bir kimsədir ki, əksər rəvayətlərdən və onları rəvayət edənlərdən xəbərdardır.

**Müxtəlit:** Bu kəlmə [ مُخْتَلِطٌ ] ərəbcə «inqətəa» [ إِخْتَلَطَ ] felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da qarışdıran, dolaşıq salan və s. mənaları ifadə edir.[301]

İstilahi mənada isə - ağlın korlanmasına, deyilən sözlərin və görülən əməllərin nizam intizamsız olmasına «ixtilət» deyilir.[302]

**Münqəti:** Bu kəlmə [ مُنْقَطِعٌ ] ərəbcə «inqətəa» [ إِنْقَطَعَ ] felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da kəsilmiş, ayrılmış və s. mənaları ifadə edir.[303]

İstilahi mənada isə - isnadının hər hansı bir yerində [ya əvvəlində, ya ortasında, ya da sonunda] bağlılıq olmayan sənəd «münqəti» adlanır. Odur ki, **«mürsəl», «müəlləq» və «mu'dəl»** kimi isnadlar **«münqəti»** də adlana bilər.[304]

**Münkər:** Bu kəlmə [ مُنْكَرٌ ] ərəbcə «ənkərə» [ أَنْكَرَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu da inkar

---

301 [ «Mücəmul-Vəsit», səh. 250; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/233; «Rusca-Azərbaycanca lüğət», 3/203. ]

302 [ Səxavinin «Fəthul-Muğis» əsəri, 3/331; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 113. ]

303 [ «Mücəmul-Vəsit», səh. 745; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/649; «Rusca-Azərbaycanca lüğət», 2/354. ]

304 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/179; Təhhanın «Təysirul Mustələhəl Hədis» əsəri, səh. 77. ]

olunmuş, hamı tərəfindən qəbul edilməmiş və s. mənaları ifadə edir.[305]

İstilahi mənada isə - etibarsız ravinin etibarlı raviyə müxalif olaraq rəvayət etdiyi hədis «münkər» adlanır.[306]

**Mürsəl:** Bu kəlmə [ مُرْسَلٌ ] ərəbcə «ərsələ» [ أَرْسَلَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu söz göndərilmiş, yollanmış və s. mənaları ifadə edir.[307]

İstilahi mənada isə - bu o hədisdir ki, isnadının sonundan, tabiindən sonra gələn [Peyğəmbərlə - **səllallahu aleyhi və səlləm** - tabiin arasında olan] ravi buraxılmışdır.[308]

**Müsəlsəl:** Bu kəlmə [ مُسَلْسَلٌ ] ərəbcə «səlsələ» [ سَلْسَلَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu da ardıcıl, bir-birinin dalınca gələn, sıra ilə, zəncirlənmiş və s. mənaları ifadə edir.[309]

İstilahi mənada isə - bu o isnaddır ki, tərkibində olan ravilər [isnadın əvvəlindən axırınadək hədisi rəvayət etdikdə] eyni

---

305 [ «Mücəmul-Vəsit», səh. 952; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/829; «Rusca-Azərbaycanca lüğət», 2/206. ]

306 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/211; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 96. ]

307 [ «Mücəmul-Vəsit», səh. 344; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/297; «Rusca-Azərbaycanca lüğət», 2/571. ]

308 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/167-168; «Nuzhətu-n-Nəzar Şərh Nuxbətul Fikər» əsəri, səh. 43; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 71. ]

309 [ «Mücəmul-Vəsit», səh. 443; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/367; «Rusca-Azərbaycanca lüğət», 1/384; 2/568; 571. ]

xassədə və ya eyni vəziyyətdə olmalı, yaxud da rəvayətin özü eyni formada olmalıdır.

Tərifin şərhi:

a) Ravilərin eyni xassədə olması, onların dedikləri sözün eyni olması və ya onların eyni xüsusiyyətə[310] malik olması deməkdir.

b) Ravilərin eyni vəziyyətdə olması isə, onların dedikləri sözün və ya etdikləri hərəkətin eyni olması deməkdir.

v) Rəvayətin eyni formada olmasına gəlincə, bu, rəvayətin [«eşitdim», «mənə xəbər verdi» və s. bu kimi] eyni üsul ilə ravilər arasında bir-birinə ötürülməsi, yaxud onun eyni zaman və ya məkanla[311] əlaqəli olması deməkdir.[312]

**Müsnəd:** Bu kəlmə [ مُسْنَدٌ ] ərəbcə «əsnədə» [ أَسْنَدَ ] felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu da lüğətdə dayaq, dirək, söykənəcək, istinad və s. mənaları ifadə edir.[313]

Bu kəlmənin istilahi mənasına gəlincə, o aşağıdakı mənaları ifadə edir:

– Hər bir səhabənin rəvayətlərini ayrı-ayrılıqda özündə cəm edən kitab «müsnəd» adlanır;

– Sənəd baxımından bağlanmış, yüksəldilmiş hədis «müsnəd» adlanır. [Yəni, hədisi bir-birinə xəbər verən ravilər arasında

---

310 [ Məsələn, hamısının adlarının Məhəmməd olması, yaxud hamısının fəqih olması, yaxud da hamısının mədinəli olması və s.]

311 [ Məsələn, hamısının «bayram gününü» qeyd etməklə və ya duanın qəbul olunduğu yeri qeyd etməklə rəvayət etməsidir. ]

312 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/173-174; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 185. ]

313 [ «Mücəmul-Vəsit», səh. 454; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/378; «Rusca-Azərbaycanca lüğət», 2/307. ]

bağlılıq vardır və onlardan hər biri onu eşitdiyi kimsəyə istinad etmişdir];

– Müsnəd - sənəd [hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsi] mənasını da ifadə edir. Bu mənada o, «mim» qoşulmuş məsdər olur.[314]

**Mütəsahil:** Bu kəlmə [ مُتَسَاهِلٌ ] ərəbcə «təsahələ» [ تَسَاهَلَ ] felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da güzəştə gedən, yumşaqlıq göstərən, yüngülləşdirən, sadələşdirən, asanlaşdıran, səhlənkar və s. mənaları ifadə edir.[315]

**Müttərib:** Bu kəlmə [ مُضْطَرِبٌ ] ərəbcə «ittərəbə» اِضْطَرَبَ ] [ felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da lüğətdə aydın olmayan, nizamsızlıq, anlaşılmaz, qeyri-müəyyən mənalarını ifadə edir.[316]

İstilahi mənada isə - eyni dərəcəli, müxtəlif yollarla [bir-birinə zidd olan mətnlər və ya isnadlarla] rəvayət olunan hədis «müttərib» hədis adlanır.[317]

**Səduq:** Bu kəlmə [ صَدُوقٌ ] lüğətdə səmimi, ürəyiaçıq dost, doğruçu, düzdanışan və s. mənaları ifadə edir.[318]

---

[314] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/154; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 16-17. ]

[315] [ «Mücəmul-Vəsit», səh. 458; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/379; «Rusca-Azərbaycanca lüğət», 3/210, 410. ]

[316] [ «Mücəmul-Vəsit», səh. 536; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/458; «Rusca-Azərbaycanca lüğət», 2/224. ]

[317] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/234; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 112. ]

İstilahi mənada isə - mübaliğə olunmaqla doğruluqla səciyyələndirilən bir kimsə «səduq» ravi sayılır. Bu ravi dərəcə etibarı ilə «siqa» ravidən aşağı hesab olunur.[319]

**Səhih:** Bu kəlmə [ صَحِيحٌ ] lüğətdə müxtəlif mənalarda istifadə olunur. Məsələn: Sağlam, möhkəm, qıvraq, gümrah və s.[320]

İstilahi mənada isə - səhih hədis, isnadının əvvəlindən axırına qədər dəqiq olan insaflı ravinin aramsız, sapdırmadan [şazz olmadan] və qüsursuz [müəlləlsiz] olaraq özü kimisindən xəbər verdiyi hədisdir».[321]

Bu tərifi beş hissəyə bölüb şərh etmək olar:

a) isnadın aramsız olması: yəni isnadın əvvəlindən axırına qədər hədisin ravilərindən hər biri onu özündən əvvəlki ravidən bilavasitə götürmüş [eşitmiş] olsun;

b) ravinin insaflı olması: yəni hədisin ravilərindən hər biri müəyyən dəyərlərə malik olmalıdır. Belə ki, o müsəlman, həddi-büluğa çatmış, şüurlu olmalı, fasiq və əxlaqsız olmamalıdır;

v) ravinin dəqiq olması: yəni hədisin ravilərindən hər biri tam dəqiq olmalıdır. Belə ki, onun ya yaddaşı möhkəm olmalı, ya da yazdıqlarını qorumaqda dəqiq olmalıdır;

---

318 [ «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/433; «Rusca-Azərbaycanca lüğət», 1/487; 2/588. ]

319 [ Səxavinin «Fəthul-Muğis» əsəri, 1/365; Abduləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 139. ]

320 [ «Mücəmul-Vəsit», səh. 507; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/429; «Rusca-Azərbaycanca lüğət», 2/435. ]

321 [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/47; Təhhanın «Təysirul Mustələhəl Hədis» əsəri, səh. 34. ]

q) şazz olmaması: Hədis şazz olmamalıdır. Belə ki, rəvayəti «məqbul» [«səhih», yaxud «həsən»] sayılan ravinin özündən də nüfuzlu raviyə müxalif olması şazz adlanır.
d) müəlləl olmaması: Hədisdə [sənəddə və ya mətndə] «illə» olmamalıdır. «İllə» hədisin mötəbər olmasında naqislik əmələ gətirən gizlin, anlaşılmaz səbəbdir.

**«Səhih» hədisin dərəcələri:**

1. O hədis ki, Buxari və Muslim «Səhih» əsərlərində onun üzərində ittifaq etmişlər [onu yekdilliklə səhih saymışlar] ;
2. O hədis ki, onu yalnız Buxari «Səhih» əsərində rəvayət etmişdir ;
3. O hədis ki, onu yalnız Muslim «Səhih» əsərində rəvayət etmişdir ;
4. O hədis ki, hər ikisinin şərtlərinə [hədisin səhih olmasına dair qəbul etdiyi şərtlərə] müvafiqdir, lakin onlardan heç biri bunu «Səhih» əsərlərində rəvayət etməmişdir ;
5. O hədis ki, yalnız Buxarinin şərtlərinə müvafiqdir, lakin o bunu «Səhih» əsərində rəvayət etməmişdir ;
6. O hədis ki, yalnız Muslimin şərtlərinə müvafiqdir, lakin o bunu «Səhih» əsərində rəvayət etməmişdir ;
7. O hədis ki, Buxari və Muslimin şərtlərinə uyğun deyildir, lakin onlardan başqa ibn Xuzeymə və ibn Hibban kimi hədis alimlərinə görə «səhih» hesab edilmişdir.[322]

**Səhih li-ğeyrihi: «**Səhih» və «Li-ğeyrihi» kəlmələrinin ayrı-ayrılıqda lüğəti və istilahi mənası artıq yuxarıda izah olunub.

---

[322] [ Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 43-44. ]

İstilahi mənada isə - bu, özünün mislində və ya özündəndə qüvvətli bir başqa yolla [isnadla] rəvayət olunmuş «həsən» hədisdir.

Bu növ hədis dərəcə etibarilə «səhih»dən aşağı hesab olunur.[323]

**Sənəd:** Bu kəlmə [ سَنَدٌ ] lüğətdə dirək, dayaq və s. mənaları ifadə edir.[324]

İstilahi mənada isə - hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsinə «sənəd» deyilir.[325]

**Siqa:** Yuxarıdakı - **«əsbatus-siqat»-** terminin izahına bax.

**Sünnə:** Bu kəlmə [ سُنَّة ] lüğətdə yol, adət və s. mənaları ifadə edir .[326]

İstilahi mənada isə bu kəlmənin bir çox izahı var ki, bunlardan da ən məşhuru aşağıdakılardır:[327]

– Hədis alimlərinin tərifi: «Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm** - varid olan hər bir kəlmə, ya hərəkət, ya təsdiq etmə, ya da sifət»[328] sünnə adlanır; [329]

---

[323] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/147-148; Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 51. ]

[324] [ «Mücəmul-Vəsit», səh. 454; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/377; «Rusca-Azərbaycanca lüğət», 2/307. ]

[325] [ Təhhanın «Təysirul Mustaləhəl Hədis» əsəri, səh. 16. ]

[326] [ «Mücəmul-Vəsit», səh. 456; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/376; «Rusca-Azərbaycanca lüğət», 2/279. ]

[327] [ Zəhraninin «Tədvinu-s-Sünnə» əsəri, səh. 13. ]

[328] [ «Hədis» termininin izahına bax. ]

[329] [ Səxavinin «Fəthul Muğis» əsəri,1/6. ]

– Üsuli fiqh alimlərinin tərifi: «Şəriət hökmü üçün dəlil olmağa yararlı sayılan Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - varid olan hər bir kəlmə, ya hərəkət, ya da təsdiq etmə» sünnə adlanır; [330]

– Fiqh alimlərinin tərifi: «Sünnə odur ki, onun yerinə yetirilməsində savab, tərk olunmasında isə heç bir cəza yox, yalnız danlaq və məzəmmət vardır». [331]

**Şazz:** Bu kəlmə [ شَاذٌّ ] ərəbcə «şəzzə» [ شَذَّ ] felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da tək-tənha, yana çəkilmiş mənaları ifadə edir.[332]

İstilahi mənada isə - rəvayəti məqbul [«səhih», yaxud «həsən»] sayılan ravinin özündən də nüfuzlu raviyə müxalif olaraq rəvayət etdiyi hədis şazz adlanır.[333]

**Vahin:** Bu kəlmə [ وَاهٍ ] zəif, gücsüz, qüvvətsiz, əhəmiyyətsiz, ikinci dərəcəli və s. mənaları ifadə edir.[334]

İstilahi mənada isə bu - o kimsədir ki, alimlər onun inanılmış ravi olduğunu əsla qeyd etməyib və bununla belə [onda olan] nöqsanla onu etibarsız hesab ediblər.[335]

---

[330] [ İbnu-n-Nəcarın «Şərhul Kəukəbul Munir» əsəri, 2/159-161. ]

[331] [ Qasimin «Ənisul Fuqəha» əsəri, səh. 106. ]

[332] [ «Mücəmul-Vəsit», səh. 476; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 1/397; «Rusca-Azərbaycanca lüğət», 2/340; 286. ]

[333] [ Suyutinin «Tədribu-r-Ravi» əsəri, 1/207; Təhhanın «Təysirul Mustələhəl Hədis» əsəri, səh. 117. ]

[334] [ «Mucəmul-Vəsit» 1061; «Bolğşoy Arabsko-Russkiy slovarğ», 2/915; «Rusca-Azərbaycanca lüğət», 2/218; 3/188. ]

**Daha geniş məlumat üçün aşağıda adları qeyd olunan kitablara nəzər sala bilərsiniz!**

– «Cami li Əxlaqir-Ravi və Ədabus-Sami»- Əbu Bəkr Əhməd ibn Əli ibn Sabit Xətibul Bəğdadi;
– «Dəvabitul Cərh vət-Tədil»- Abdüləziz ibn Məhəmməd ibn İbrahim Abdullətif;
– «Fəthul-Muğis fi Şərh Əlfiyyətul-Hədis»- Məhəmməd ibn Abdurrəhman əs-Səxavi;
– «İlma ilə Mərifətu Usulur-Rivayə və Təqyidu-s-Sima»- İyad ibn Musa əl-Yəhsubi;
– «Kifayə fi Elmir-Rivayə»- Əbu Bəkr Əhməd ibn Əli ibn Sabit Xətibul Bəğdadi;
– «Qəvaidut-Təhdis»- Cəmaluddin əl-Qasim;
– «Mə lə yəsəul-Mühəddisə Cəhluhu»- Əbu Həfs Ömər ibn Abdul-Məcid əl-Məyənəci;
– «Mərifətu Ulumul-Hədis»- Əbu Abdullah Məhəmməd ibn Abdullah əl-Hakim ən-Nisaburi;
– «Mənzumətul-Beyquniyyə»- Ömər ibn Məhəmməd əl-Beyquni;
– «Muhəddisul-Fasil beynər-Ravi vəl-Vai»- Əbu Məhəmməd Həsən ibn Abdurrəhman ibn Xəllad ər-Raməhurmuzi;
– «Muqaddimətul-Cərh vət-Tədil»- İbn Əbi Hatim;
– «Mustəxrəc alə Mərifətu Ulumul-Hədis»- Əbu Nueym Əhməd ibn Abdullah əl-Əsbəhani;

---

[335] [ İbn Həcərin «Təqribut-Təhzib» əsəri, səh.81; Səxavinin «Fəthul-Muğis» əsəri, 1/373; Abdüləzizin «Dəvabitul Cərh vət-Tədil» əsəri, səh. 145. ]

– «Nəzmud-Dürər fə Elmil-Əsər»- Zeynuddin Abdurrəhman ibn Huseyn əl-İraqi;
– «Nuxbətul-Fikər fi Mustaləhil-Əhlil-Əsər»- İbn Həcər əl-Əsqəlani;
– «Tədribur-Ravi fi Şərh Təqribun-Nəvəvi»- Cəlaləddin Abdurrəhman ibn Əbu Bəkr əs-Suyuti;
– «Təqrib vət-Təysir li Mərifətu Sunənul-Bəşir ən-Nəzir»- Muhyiddin Yəhya ibn Şərəf ən-Nəvəvi;
– «Ulumul-Hədis»- İbnus-Səlah Əbu Amr Osman ibn Abdurrəhman əş-Şəhrəzuri;
– «Tərif Əhlil-Təqdis bi Məratibil-Məusufinə bit-Tədlis»- ibn Həcər əl-Əsqəlani;

## İstifadə olunan ədəbiyyat


**1.** Quran;
**2.** Abduləzizin «Dəvabitul-Cərh vət-Tədil» əsəri;
**3.** Abdurrəzaqın «Müsənnəf» əsəri;
4. Beyhəqinin «Əsma vəs-Sifat» əsəri;
5. Beyhəqinin «Dəlailun-Nubuvvə» əsəri;
6. Beyhəqinin «Sünən» əsəri;
7. Beyhəqinin «Şüəbul-İman» əsəri;
8. Bəzzarın «Kəşful-Əstar» əsəri;
9. Bəzzarın «Müsnəd» əsəri;
10. Buxarinin «Ədəbul-Mufrad» əsəri;
11. Buxarinin «Xalqu Əf'alil-ibad» əsəri;

12. Buxarinin «Səhih» əsəri;
13. Buseyrinin «Misbahuz-Zucacə» əsəri;
14. Cəlaləddin Suyutinin «Dürrul-Mənsur fi Təfsiril-Məsur» əsəri;
15. Cəlaləddin Suyutinin «İtqan» əsəri;
16. Cəlaləddin Suyutinin «Lübabin-Nüqul fi Əsbabin-Nuzul» əsəri;
17. Cəlaləddin Suyutinin «Tədribur-Ravi fi Şərh Təqribun-Nəvəvi» əsəri;
18. Daraqutninin «İləl» əsəri;
19. Daraqutninin «Sünən» əsəri;
20. Dariminin «Rəddu aləl-Cəhmiyyə» əsəri;
21. Dariminin «Sünən» əsəri;
22. Əbu Davudun «Sünən» əsəri;
23. Əbu Nueymin «Hilyə» əsəri;
24. Əbuş-Şeyxin «Əxlaq» əsəri;
25. Əbu Yə'lənın «Müsnəd» əsəri;
26. Əhmədin «Müsnəd» əsəri;
27. Əlainin «Camiut-Təhsil» əsəri;
28. Əli ibn Məhəmməd Curcaninin «Tə'rifat» əsəri;
29. Hakimin «Mustədrək» əsəri;
30. Heysəminin «Məcməuz-Zəvaid» əsəri;
31. Humeydinin «Müsnəd» əsəri;
32. Xəttabinin «Ğəribul-Hədis» əsəri;
33. Xəttabinin «Məalimus-Sünən» əsəri;
34. Xətib Bağdadinin «Fiqh vəl-Mütəfəqqih» əsəri;
35. Xətib Bağdadinin «Tarix Bağdad» əsəri;
36. Xətib Bəğdadinin «Muvəddih Əvhamil-Cəmi vət-Təfriq» əsəri;
37. İbn Cərir ət-Təbərinin «Tarix» əsəri;

38. İbn Cərir ət-Təbərinin «Təfsiri»;
39. İbn Carudun «Müntəqa» əsəri;
40. İbn Əbi Asimin «Sünnə» əsəri;
41. İbn Əbi Hatimin «Təfsiri»;
42. İbn Əbi Hatimin «İləl» əsəri;
43. İbn Əsirin «Nihayətu fi Ğəribil-Hədis» əsəri;
44. İbn Həcərin «İsabə» əsəri;
45. İbn Həcərin «İstiy'ab» əsəri;
46. İbn Həcərin «Kəşşaf» əsəri;
47. İbn Həcərin «Mətalibul-Aliyə» əsəri;
48. İbn Həcərin «Nükət» əsəri;
49. İbn Həcərin öz şərhilə olan «Nuxbətul-Fikər» əsəri;
50. İbn Həcərin «Tə'cilul-Mənfəə» əsəri;
51. İbn Həcərin «Təhzibut-Təhzib» əsəri;
52. İbn Həcərin «Təqribut-Təhzib» əsəri;
53. İbn Həcərin «Fəthul-Bari» əsəri;
54. İbn Həzmin «Muhəllə» əsəri;
55. İbn Hibbanın «Məvaridiz-Zaman» əsəri;
56. İbn Hişamın «Sira» əsəri;
57. İbn Kəsirin «Bidayə vən-Nihayə» əsəri;
58. İbn Kəsirin «Təfsir»i;
59. İbn Kuleybin «Müsnəd» əsəri;
60. İbn Macənın «Sünən» əsəri
61. İbn Mübarəkın «Cihad» əsəri;
62. İbn Teymiyyənin «Sarimul-Məslul» əsəri;
63. İbn Sə'dın «Təbəqat» əsəri;
64. İbnus-Səlahın «Ulumul-Hədis» əsəri;
65. İbn Xuzeymənin «Tövhid» əsəri;
66. İbn Xuzeymənin «Səhih» əsəri;
67. İbnun-Nəcarın «Şərhul-Kəukəbul-Munir» əsəri,

68. İbn Useyminin «Şərhul-Mumti alə Zadul-Mustəqnəi» əsəri;
69. İraqinin təhqiq etdiyi «İhya» əsəri;
70. İshaq ibn Rahavyanın «Müsnəd» əsəri;
71. İsmailinin «Ümdətul-Qari» əsəri;
72. Qattanının «Məbahis fi Ulumul-Quran» əsəri;
73. Qasimin «Ənisul-Fuqəha» əsəri,
74. Quranin təqribi mənasını bildirən tərcüməsi (Z. Bünyadov və V. Məmmədəliyevin);
75. Qurtubinin «Təfsir»i;
76. Mahmud Təhhanın «Təysirul-Mustaləhəl-Hədis» əsəri;
77. Malikin «Muvatta» əsəri;
78. Məhəmməd Əmin Şinqitinin «Üsulil-Fiqh» adlı qeydlər dəftəri;
79. Məhəmməd ibn Mətər Zəhraninin «Tədvinus-Sünnə» əsəri,
80. Məhəmməd Mənavinin «Təa'rif» əsəri;
81. Məhəmməd Mənavinin «Feydul-qadir» əsəri;
82 Mizzinin «Tuhfətul-Əşraf» əsəri;
83. Mübarəkfurinin «Tuhvətul-Əhvəzi» əsəri;
84. Muslimin «Səhih» əsəri;
85. Nəsainin «Sünən» əsəri;
86. Səxavinin «Fəthul-Muğis» əsəri;
87. Şəukaninin «Fəthul-Qadir» əsəri;
88. Təyalisinin «Müsnəd» əsəri;
89. Təbərani «Məcməul-Bəhreyn min Zəvaidil-Mucəmeyn» əsəri (əlyazmadır);
90. Təbəraninin «Mucəmul-Əvsət» əsəri;
91. Təbəraninin «Mucəmul-Kəbir» əsəri;
92. Təbəraninin «Mucəmul-Səğir» əsəri;
93. Təbərinin «Təfsir»i;
94. Təhavinin «Muşkilul-Əsar» əsəri;

95. Tirmizinin «Sünən» əsəri;
96. Vahidinin «Əsbabun-Nuzul » əsəri;
97. Zəhəbinin «Təcridu Əsmais-Səhabə» əsəri;
98. Zəhəbinin «Təzkirətul-Huffaz» əsəri;
99. Zəhəbinin «Mizan» əsəri;
100. Ziya əl-Məqdisinin «Müstəxrəc» əsəri.

# Mündəricat

Ön söz……………………………………………………...…5
Müqəddimə…………………………………………….…..13
Bu mövzunu seçməyə müəllifi təhrik edən səbəblər.…..18
Əsas qaydalar.........................................................................29
Fayda…………………………………………………..33
« Əl-Bəqərə » surəsi………………………………35
(79 - cu ayə)………………………………………………..35
(89 - cu ayə)………………………………………………..36
(97 - ci ayə)………………………………………………...38
(109 - cu ayə)……………………………………………….42
(115 - ci ayə)……………………………………………….43
(125 - ci ayə)……………………………………………….44
(142 - ci ayə)……………………………………………….46
(143 - cü ayə)……………………………………………….48
(144 - cü ayə)……………………………………………….50
(158 - ci ayə)……………………………………………….52
(187 - ci ayə)……………………………………………….55
(187 - ci ayə)……………………………………………….57
(189 - cu ayə)……………………………………………….57
(195 - ci ayə)……………………………………………….59

(196 - cı ayə)…………………………………………………….62
(196 - cı ayə)…………………………………………………….64
(197 - ci ayə)…………………………………………………….66
(198 - ci ayə)…………………………………………………….67
(199 - cu ayə)…………………………………………………….68
(207 - ci ayə)…………………………………………………….70
(219 - cu ayə)…………………………………………………….71
(222 - ci ayə)…………………………………………………….72
(223 - cü ayə)…………………………………………………….73
(232 - ci ayə)…………………………………………………….77
(238 - ci ayə)…………………………………………………….78
(238 - ci ayə)…………………………………………………….79
(256 - cı ayə)…………………………………………………….81
(267 - ci ayə)…………………………………………………….82
(272 - ci ayə)…………………………………………………….85
(285 və 286 – cı ayələr)………………………………… …..….86
« Ali-İmran » surəsi………………………………91
(77 - ci ayə)……………………………………………………..91
(86 - 89 - cu ayələr)……………………………………………..94
(90 - cı ayə)……………………………………………………...95
(113 - 115 - ci ayələr)…………………………………………..96
(122 - ci ayə)…………………………………………………….98
(128 - ci ayə)…………………………………………………….99
(154 - cü ayə)…………………………………………………..103
(161 - ci ayə)…………………………………………………...104
(165 - ci ayə)…………………………………………………...107
(169 - 171 - ci ayələr) ……………………………………..….110
(172 - 174 - cü ayələr)………………………………………...114
(186 - cı ayə)…………………………………………………...116
(188 - ci ayə)…………………………………………………...118

(199 - cu ayə)……………………………………………………..121
« Ən-Nisa » surəsi……………………………...123
(3 - cü ayə)……………………………………………………..123
(6 - cı ayə)……………………………………………………...124
(11 və 12 - ci ayələr)……………...……………………...126
(19 - cu ayə)……………………………………………………128
(22 - ci ayə)……………………………………………………130
(24 - cü ayə)……………………………………………………131
(51 və 52 - ci
ayələr)…………………………………………...132
(59 - cu ayə)……………………………………………………134
(60 - 62 - ci ayələr)……………………………………………136
(65 - ci ayə)……………………………………………………137
(69-cu ayə)……………………………………………………..138
(77 - ci ayə)……………………………………………………140
(83 - cü ayə)……………………………………………………141
(88 - ci ayə)……………………………………………………145
(94 - cü ayə)……………………………………………………146
(95 - ci ayə)……………………………………………………149
(97 və 98 - ci ayələr)……………...…………………………...153
(100 - cü ayə)…………………………………………………..154
(102 - ci ayə)…………………………………………………...156
(102 - ci ayə)…………………………………………………...157
(119 - cu ayə)…………………………………………………..158
(127 - ci ayə)…………………………………………………...158
(128 - ci ayə)…………………………………………………...160
(176 - cı ayə) …………………………………………………..162
« Əl-Maidə » surəsi……………………………164
(6 - cı ayə)……………………………………………………...164
(33 - cü ayə)……………………………………………………166

(41 - 45 - ci ayələr) ……………………………...…………169
(67 - ci ayə)……………………………………………………173
(83 - cü ayə)……………………………………………………175
(89 - cu ayə)……………………………………………………176
(90 və 91 - ci ayələr)……………………...…………………...177
(93 - cü ayə)……………………………………………………179
(101- ci ayə)……………………………………………………181
(106 - 108 - ci ayələr) …………………………………………184
« Əl-Ən'am » surəsi……………………………186
(52 - ci ayə)……………………………………………………186
(121 - ci ayə)…………………………………………………...188
« Əl-Ə'raf » surəsi………………………………189
(31 - ci ayə)……………………………………………………189
(32 - ci ayə)……………………………………………………190
« Əl-Ənfal » surəsi……………………………..191
(1 - ci ayə)……………………………………………………...191
(9 - cu ayə)………...…………………………………………...194
(16 - cı ayə)……………………………………………………196
(17 - ci ayə)……………………………………………………197
(19 - cu ayə)……………………………………………………198
(33 və 34 - cü ayələr)……….………………...………………200
(66 - cı ayə)……………………………………………………202
(67 - ci ayə)……………………………………………………203
(68 - 69 - cu ayələr)…………………………………………...205
(75 - ci ayə)……………………………………………………206
« Ət Tövbə » surəsi……………………………208
(19 - cu ayə)……………………………………………………208
(34 - cü ayə)……………………………………………………209
(58 - ci ayə)……………………………………………………210
(65 - ci ayə)……………………………………………………212

(79 - cu ayə)……………………………………………………………213
(84 - cü ayə)……………………………………………………………214
(95 və 96 - cı ayələr)……………………………..……………...216
(113 - cü ayə)…………………………………………………………..217
(117 - 119 - cu ayələr) ………………………………………...219
« Hud » surəsi………………………………………229
(5 - ci ayə)……………………………………………………………...229
(114 - cü ayə)…………………………………………………………..230
« Yusif » surəsi……………………………………..234
(1 - 3 - cü ayələr)……………………………………………………234
« Ər-Rə'd » surəsi………………………………237
(13 - cü ayə)……………………………………………………………237
« İbrahim » surəsi……………………………..239
(27 - ci ayə).……………………………………………………………239
« Ən-Nəhl » surəsi.………………………………241
(75 və 76 - cı ayələr) .………………………………...….241
(103 - cü ayə) ………………………………………………………242
(110 - cu ayə) ………………………………………………………244
(126 - cı ayə) ………………………………………………………..247
« Əl-İsra » surəsi.………………………………248
(56 və 57 - ci ayələr) .………………………………..……….248
(59 - cu ayə) …………………………………………………………..249
(85 - ci ayə) ……………………………………………………………...251
(110 - cu ayə) ………………………………………………………253
« Məryəm » surəsi.……………………………..256
(64 - cü ayə) …………………………………………………………..256
(77 - 80 - cı ayələr) ………………………………...………257
« Əl-Ənbiya » surəsi.……………………………259
(101 və 102-ci ayələr) ………………………………..…...259
« Əl-Həcc » surəsi……………………………….262

(19 - cu ayə) ……………………………………………………….262
(39 - cu ayə) ……………………………………………………….263
« Əl-Muminun » surəsi………………………..265
(76 - cı ayə) ………………………………………………………..265
« Ən-Nur » surəsi……………………………...266
(3 - cü ayə) …………………………………………………………266
(6 - 9 - cu ayələr) ………………………………………………..268
(11 və 22 - ci ayələr) …………………………………..……277
(33 - cü ayə) ……………………………………………………….284
(55 - ci ayə) ………………………………………………………..285
(61 - ci ayə) ………………………………………………………..287
« Əl-Furqan » surəsi……………………………289
(27 - 29 - cu ayələr) ……………………………………………..289
(68 - ci ayə) ………………………………………………………..291
(70 - ci ayə) ………………………………………………………..293
« Əl-Qəsəs » surəsi……………………………….295
(51 - ci ayə) ………………………………………………………..295
(56 - cı ayə) ………………………………………………………..296
« Əl-Ənkəbut » surəsi……………………………297
(8 - ci ayə) …………………………………………………….....297
(10 - cu ayə) ……………………………………………………….299
« Loğman » surəsi………………………………..300
(13 - cü ayə) ……………………………………………………….300
« əs-Səcdə » surəsi ………………………….…302
(16 - cı ayə) ………………………………………………………..302
« Əl-Əhzab » surəsi ……………………………..303
(5 - ci ayə) …………………………………………………………303
(23 - cü ayə) ……………………………………………………….305
(25 - ci ayə) ………………………………………………………..306
(28 və 29 - cu ayələr) …………………………………...…307

(35 - ci ayə) ……………………………………………………...314
(37 - ci ayə) ……………………………………………………...315
(37 - ci ayə) ……………………………………………………...316
(51 - ci ayə) ……………………………………………………...318
(53 - cü ayə) ……………………………………………………..319
« Ya sin » surəsi ………………………………….324
(12 - ci ayə) ……………………………………………………...324
(77 - 83 - ci ayələr) ………………………………………...……326
«Əz-Zumər » surəsi..…………………………….327
(23 - 25 - ci ayələr) ………………………………………..…327
(53 - cü ayə) ……………………………………………………..328
(67 - ci ayə) ……………………………………………………...329
« Fussilət » surəsi.………………………………...331
(22-ci ayə) ……………………………………………………….331
« Əş-Şura » surəsi.………………………………..333
(23-cü ayə) ………………………………………………………333
(27-ci ayə) ……………………………………………………….334
« Əz-Zuxruf » surəsi.……………………………..336
(57-ci ayə) ……………………………………………………….336
« Əd-Duxan » surəsi.……………………………338
(10 - 16 - cı ayələr) ……………………………………...……338
« Əl-Casiyə » surəsi.……………………………..341
(24 - cü ayə) ……………………………………………………..341
« Əl-Əhqaf » surəsi.………………………………343
(10 - cu ayə) ……………………………………………………..343
(29 - 32 - ci ayələr) ……………………………………………..…347
« Əl-Fəth » surəsi ………………………………..348
(5 - ci ayə)..……………………………………………………….350
(24 - cü ayə) ……………………………………………………..352
« Əl-Hücurat » surəsi …………………………375

(1 - ci ayə) ……………………………………………………….375
(2 - ci ayə) ……………………………………………………….376
(9 - cu ayə) ……………………………………………………….377
(11 - ci ayə) ……………………………………………………...378
« Əl-Qəmər » surəsi ……………………………….381
(1 və 2 - ci ayələr) ……………………………………….....….381
(48 və 49 - cu ayələr) …………………………………....….383
« Əl-Vaqiə » surəsi ……………………………....384
(82 - ci ayə) ……………………………………………………...384
« Əl-Mucadələ » surəsi ………………………….386
(1 - ci ayə) ……………………………………………………….386
(8 - ci ayə) ……………………………………………………….387
(14 - cü ayə) ……………………………………………………..389
« Əl-Həşr » surəsi ………………………………..391
(1 və 2-ci ayələr) ………………………………………….......392
(5 - ci ayə) ……………………………………………………….393
(9 - cu ayə) ……………………………………………………….395
« Əl-Mumtəhinə » surəsi ………………………..397
(1 - 5 - ci aylər) ………………………………………………….398
(10 - cu ayə) ……………………………………………………..401
« Əs-Səff » surəsi ………………………………...403
« Əl-Cumuə » surəsi ……………………………..405
(11 - ci ayə) ……………………………………………………...405
« Əl-Munafiqun » surəsi ……………………407
(1 - ci və sonrakı ayələr) ……………………………….....407
(7 və 8 - ci ayələr) …………………………………...…….409
« Ət-Təğabun » surəsi ……………………......410
(14 - cü ayə) ……………………………………………………….410
« Ət-Təhrim » surəsi …………………………......412
(1 - 4 - cü ayələr) ………………………………………………..413

(4 və 5 - ci ayələr) …………………………………………...….416
« Əl-Cinn » surəsi ……………………………….420
(1 - ci və sonrakı ayələr) ……………………………….....420
« Əl-Muzzəmmil » surəsi …………………… 422
(20 - ci ayə) ……………………………………………...423
« Əl-Muddəssir » surəsi ……………………....424
(1 - 5 - ci ayələr) ……………………………...…………424
(11,12,13 və sonrakı aylər) ……………………………………427
« Əl-Qiyamə » surəsi …………………………..429
(16 və 17 - ci aylər) ……………………………………………..429
(34 və 35 - ci aylər) ……………………………………………..430
« Ən-Naziat » surəsi …………………………...431
(42 - 45 - ci aylər) ………………………………………………431
« Əbəsə » surəsi …………………………………433
(1 və sonrakı ayələr) …………………………………………433
« Əl-Mutaffifin » surəsi ……………………......435
(1 - 6 - cı ayəyə qədər) …………………………………………435
« Əd-Duha » surəsi ……………………………437
(1 - 3 - cü ayələr) ……………………………………………..437
(4 və 5 - ci ayələr) ………………………………………………438
« Əl-Ələq » surəsi ………………………………440
(6 - 19 - cu ayəyə qədər) ……………………………….....440
« Əl-Kovsər » surəsi ……………………………443
(3 - cü ayə) ……………………………………………………443
« Əl-Məsəd » surəsi …………………………….445
(1 və 2 - ci ayələr) ………………………………………………445
Bəzi hədis terminlərinin izahlı lüğəti ……………..447
İstifadə olunan ədəbiyyat ………………………….465

www.azerislam.com
PDFləşdirən: www.kitablar.com
http://www.kitablar.org/